

*Prezident Tramp Qafqaza sülh gətirir və*
*biz buna görə ona minnətdarıq.*
*Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün*
*özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar.*
*Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik,*
*uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik.*
*Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq.*

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

09 avqust 2025-ci il

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2025**
**3 (91)**

**BAKI – 2025**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Elvin Əzizbəyov, Namiq Əliyev, İsaxan Vəliyev, Azər Əmiraslanov, Hikmət Məmmədov, Gülnarə Qurbanova, Elçin Əhmədov, Nigar Ələkbərova, Xatirə Hüseynova, Firdovsiyyə Əhmədova, Sevil Məmmədova, Leyla Sultanova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən, ildə dörd dəfə olmaqla nəşr edilir.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2025, №3(91).*
*Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının nəşri, 2025, 304s.*

*© Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, 2025*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2025
3 (91)

BAKU – 2025

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Elvin Azizbayov, Namig Aliyev, Isakhan Valiyev, Azer Amiraslanov, Hikmat Mammadov, Gulnara Gurbanova, Elchin Ahmadov, Nigar Alakbarova, Khatira Huseynova, Firdovsiyya Ahmadova, Sevil Mammadova, Leyla Sultanova***

*The scientific-theoretical journal has been published quarterly since 2003.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2025, №3(91)*
*Baku, Publication of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2025, 304p.*

*© The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2025*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

***İyul - avqust - sentyabr 2025-ci il***

## *İyul*

**1 iyul**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampı təbrik etmişdir.
- Ukrayna Prezidenti Volodimir Zelenski ona zəng edərək, Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı hücumlarda həmvətənlilərimizin qətlə yetirilməsi ilə bağlı Ukrayna ictimaiyyətinin başsağlığını çatdırmışdır.

**2 iyul**

- Rəsmi qarşılanma mərasimindən sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə təkbətək görüşü olmuşdur.
- Bakıda “Özbəkistan” parkının təməlini qoymuşdur.
- Sonra Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə “Bakı Ağ Şəhər”də olmuşdur.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclasında iştirak və çıxış etmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzalamışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Özbəkistanın Azərbaycandakı səfirliyinin Bakıda yeni binasının açılışında iştirak etmişdir. Bina ilə tanışlıqdan sonra Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə birlikdə səfirliyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Xəzər dənizinin sahilində yerləşən “Sea Breeze” istirahət mərkəzində olmuşdur.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Morosu təbrik etmişdir.

**3 iyul**

- Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak etmişdir.
- Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoymuşdur.
- Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul etmişdir.
- “Xankəndi” Mehmanxana Kompleksinə aid olan “Xankəndi” Biznes Mərkəzinin açılışında iştirak etmişdir.
- Xankəndi Konqres Mərkəzinin açılışında iştirak etmişdir.
- Xankəndi-Şuşa kanat yolunun inşası üçün seçilmiş əraziyə baxmışdır.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan “Businesstex JV” tikiş fabrikinin fəaliyyəti ilə tanış olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Xıdırlı kəndi körpələr evi-uşaq bağçasının binasında yaradılan şəraitlə tanış olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Xıdırlı kəndindəki klub-icma mərkəzində olmuş, burada yaradılan şəraitə baxmışdır.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə əvvəlcə məktəbin həyətində quraşdırılan yurtaya baxmışdır.
- Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.
- Daha sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə yeni mənzillərə köçən sakinlərlə görüşmüşdür.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçiriləcək 17-ci Zirvə

görüşünün iştirakçıları ilə birlikdə Ağdamdakı "İmarət" Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izləmişdir.
- Sonra qonaqlar ilə birlikdə avtobusla Ağdam şəhərini gəzmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Ağdamda Şahbulaq qalasında olmuşdur.

**4 iyul**
- Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Xankəndidə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşmüşdür.
- Xankəndidə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə görüşü olmuşdur.
- Xankəndidə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.
- Şuşa şəhərində onun adından İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşılamış, onlar ilə birgə foto çəkdirmişdir.
- Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak və çıxış etmişdir.

**7 iyul**
- Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**8 iyul**
- Ölkəsinin milli bayramı münasibətilə Monqolustanın Prezidenti Uxnaaqiyn Xurelsuxu təbrik etmişdir.
- Texas ştatında baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa başsağlığı vetmişdir.

**9 iyul**
- Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlmişdir.
- Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olmuşdur.

**10 iyul**
- Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə əvvəlcə nümayəndə heyətlərinin iştirakı ilə görüş keçirmiş, sonra təkbətək formatda onunla görüşü davam etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri başa çatmışdır.
- Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Monteneqronun Prezidenti Yakov Milatoviçi təbrik etmişdir.

**11 iyul**
- Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul etmişdir.

**12 iyul**
- Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə geniş tərkibdə görüşü olmuşdur.
- Sonra Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə məhdud tərkibdə görüşü keçirilmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, PKK terror qruplaşmasının özünü ləğv etməsi və silahı yerə qoyması ilə bağlı qardaş Türkiyə xalqını ürəkdən təbrik etmiş, bu mühüm hadisənin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkədə həyata keçirilən qətiyyətli siyasətin, güclü liderliyin, sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin parlaq təntənəsi olduğunu vurğulamışdır.

**16 iyul**
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olmuşdur.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə "Sea Breeze" istirahət mərkəzində olmuşdur.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə birgə nahar etmişdir.
- Ali Audit Orqanlarının Asiya Təşkilatına (ASOSAI) və Ali Audit Orqanlarının Ərəb Təşkilatına (ARABOSAI) üzv olan ali audit orqanlarının Azərbaycan Respublikası Hesablama Palatasının ev sahibliyi ilə Bakıda keçirilən Birgə Toplantısının bütün iştirakçılarını təbrik etmişdir.

**17 iyul**
- Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovu Füzuli Beynəlxalq Hava Limanında qarşılamışdır.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmışdır.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdirmişdir.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olmuşdur.

- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olmuşdur.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələnmiş heykəllərinə baxmışdır.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşada Bülbülün ev-muzeyində olmuşdur.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət etmişdir.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşada Mehmandarovların malikanə kompleksində olmuşdur.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Cıdır düzündə olmuş, burada keçirilən Qarabağ atlarının təqdimatında iştirak etmişdir.
- Sonra Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova "Dostluq" adlı Qarabağ atını hədiyyə etmişdir.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə Şuşada birgə nahar etmişdir.

**18 iyul**

- "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak etmişdir.
- Ağdam şəhərində 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.
- Ağdam rayonunun Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında iştirak etmişdir.
- Xocalının Təzəbinə kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olmuşdur.
- Xocalı kərpic zavodunun açılışında iştirak etmişdir.
- Xocalının Xanyurdu kəndində olmuşdur.
- Xanyurdu kəndinə köçən sakinlər Rasim Cavadovun və Kərəm Abbasovun evlərində olmuşdur.
- Sonra Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşmüş, onlarla söhbət etmişdir.
- Əl-Küt şəhərində yerləşən ticarət mərkəzində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidə başsağlığı vermişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Belçikalıların Kralı Əlahəzrət Filipi təbrik etmişdir.

**19 iyul**

- Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə keçirilən görüşdə iştirak etmiş, Forum iştirakçılarının suallarını cavablandırmışdır.

**21 iyul**

- Ölkəsinin milli bayramı – İnqilab Günü münasibətilə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisini təbrik etmişdir.

**22 iyul**

- Rəsmi sosial şəbəkə səhifələrində 22 İyul – Milli Mətbuat Günü münasibətilə paylaşım etmişdir.
- Şuşa Qlobal Media Forumundakı çıxışını öz sosial şəbəkəsində paylaşdığına görə ABŞ Prezidenti Donald Trampa təşəkkür etmişdir.
- Əlamətdar yubiley – Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü münasibətilə Azərbaycanın media nümayəndələrini təbrik etmişdir.

**23 iyul**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzunu təbrik etmişdir.

**24 iyul**

- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulamışdır.

**25 iyul**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Peru Respublikasının Prezidenti xanım Dina Ersilia Boluarte Zeqarranı təbrik etmişdir.

**28 iyul**

- 30 İyul – Mərakeş Krallığının milli bayramı münasibətilə Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədi təbrik etmişdir.

**31 iyul**

- Ölkəsinin milli bayramı münasibətilə İsveçrə Konfederasiyasının Prezidenti xanım Karin Keller-Sutteri təbrik etmişdir.

## *Avqust*

**4 avqust**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Yamaykanın Baş naziri Endryu Holnessi təbrik etmişdir.

**6 avqust**
- Sinqapur Respublikasının müstəqilliyinin 60-cı ildönümü münasibətilə Prezident Tarman Şanmuqaratnamı təbrik etmişdir.

**7 avqust**
- Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlmişdir.
- Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşmüşdür.

**8 avqust**
- Ağ Evə gəlmişdir.
- Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olmuşdur.
- Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzalamışdır.
- Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə Ağ Evdə mətbuata bəyanatla çıxış etmişdir.
- Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistan Respublikasının Baş naziri ilə “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu” Sammitinin nəticələrinə dair birgə bəyannaməni imzalamışdır.
- Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzalamışdır.
- Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə vermişdir.
- Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyanın “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsini paraflaması və Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətini (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzalaması mərasimində iştirak etmişdir.
- Rumıniyanın keçmiş Prezidenti, görkəmli dövlət xadimi İon İliyeskunun vəfatı ilə əlaqədar Rumıniyanın Prezidenti Nikuşor Dana başsağlığı vermişdir.

**9 avqust**
- Rəsmi sosial şəbəkə səhifələrində Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri ilə bağlı paylaşım etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana edərək, Azərbaycan ilə Türkiyə arasında qardaşlığa və strateji müttəfiqliyə əsaslanan əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluğunu ifadə etmiş, həmçinin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunmuşdur.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edərək, iyulun əvvəlində Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfəri və səfər çərçivəsində aparılmış səmərəli müzakirələr, əldə olunmuş razılaşmaları məmnunluqla xatırlamış, eyni zamanda ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunmuşdur.

**10 avqust**
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edərək, Qurbanqulu Berdiməhəmmədovun bir müddət əvvəl Azərbaycana, o cümlədən Qarabağa səfəri və bu çərçivədə aparılmış müzakirələri məmnunluqla xatırlamış, həmçinin özünün ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və ATƏT-in Minsk

qrupunun ləğvinə dair birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunmuşdur.

- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ona zəng edərək, Azərbaycanla Ermənistan arasında normallaşma gündəliyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarında əldə olunmuş razılaşmalar münasibətilə onu və Azərbaycan xalqını təbrik etmiş, bu nəticələrin tarixi əhəmiyyət daşıdığını qeyd edərək, onların regionda hərtərəfli əməkdaşlıq üçün imkan yaradacağına ümidvarlığını bildirmişdir.
- Ukrayna Prezidenti Volodimir Zelenski ona zəng edərək, onu Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbrik etmiş və bu görüşün tarixi xarakter daşıdığını vurğulamışdır.
- Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə zəng edərək, Pakistanın Baş nazirinin ölkəmizə səfərini və keçirilmiş görüşləri məmnunluqla xatırlamış, həmçinin özünün ABŞ-a səfəri çərçivəsində imzalanmış sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanan bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyətinə toxunmuş, bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edərək, Azərbaycan ilə BƏƏ arasında əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığını qeyd etmiş, həmçinin özünün ABŞ-a səfəri çərçivəsində Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin önəmi vurğulamış, bütün bunların regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyətinə toxunmuşdur.

**11 avqust**

- İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn ona zəng edərək, Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr ilə əlaqədar ona və Azərbaycan xalqına təbriklərini çatdırmış, bu razılaşmaların regionda davamlı sülhün, təhlükəsizliyin və hərtərəfli əməkdaşlığın təmin olunmasına xidmət edəcəyinə ümidvarlığını bildirmişdir.
- Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl Taniyə zəng edərək, bir müddət əvvəl Azərbaycan, Türkiyə, Qətər və Suriyanın birgə əməkdaşlığı nəticəsində Azərbaycan qazının Suriyaya çatdırılması layihəsinin önəmini vurğulamış, həmçinin özünün ABŞ-a səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunmuşdur.

**12 avqust**

- Albaniya Respublikasının Prezidenti Bayram Beqay ona zəng edərək, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, həmçinin ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin və digər sənədlərin imzalanması ilə bağlı onu təbrik etmiş, eyni zamanda bu prosesdə nümayiş etdirdiyi əzmə və liderliyə görə Azərbaycan Prezidentinin rolunu xüsusi vurğulamışdır.
- Konqo Respublikasının müstəqilliyinin 65-ci ildönümü münasibətilə Prezident Deni Sassu-Nqessonu təbrik etmişdir.

**14 avqust**

- Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ona zəng edərək, Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması və regional nəqliyyat dəhlizi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə onu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İndoneziya Respublikasının Prezidenti Prabovo Subiantonu təbrik etmişdir.

**18 avqust**

- İsrail Dövlətinin Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ronen Krauszun etimadnaməsini qəbul etmişdir.
- Slovakiya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Elçin Qasımovun etimadnaməsini qəbul etmişdir.

**19 avqust**

- "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Koheni qəbul etmişdir.

**20 avqust**

- Birinci xanım Mehriban Əliyeva ilə Gəncə şəhərində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Gəncə şəhərində "Azerbazalt" MMC-nin bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Gəncə şəhər stadionunda aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva ilə Gəncə Memorial Kompleksində görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə "Hacıkənd" İstirahət Kompleksinin tikintisi ilə tanış olmuşdur.

**21 avqust**

- Birinci xanım Mehriban Əliyeva ilə Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Kəlbəcər şəhər parkının təməlini qoymuşdur.
- "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak etmişdir.
- Açılışdan sonra Sabir Mustafayevlə söhbət etmişdir.
- Kəlbəcər şəhərində 3-cü yaşayış kompleksinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olmuş, buraya köçən sakinlərlə görüşmüş və görüşdə çıxış etmişdir.
- Sonra Kəlbəcər şəhərinin sakinlərinə mənzillərin açarlarını təqdim etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər rayonunun Vəng kəndində "AzərEnerji" ASC-nin "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdərə rayonunun Kolatağ kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə kənd sakini Baxşalı Hətəmovun evində olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə kənd sakini Rəfayət Musayevin evinə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdərə rayonunun Vəngli kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olmuş, kənd sakini Vəkil Mamedovun evinə baş çəkmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüb söhbət etmişdir.
- 24 Avqust – Müstəqillik Günü münasibətilə Ukraynanın Prezidenti Volodimir Zelenskini təbrik etmişdir.

**22 avqust**

- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun dəvəti ilə Türkmənistana işgüzar səfərə gəlmişdir.
- Türkmənbaşı şəhərində Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə təkbətək görüşü olmuşdur.
- Türkmənbaşı şəhərində Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə geniş tərkibdə görüşü olmuşdur.
- Türkmənbaşı şəhərində keçirilən Türkmənistan, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüşdə iştirak və çıxış etmişdir.
- Türkmənbaşı şəhərində Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Türkmənistan, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında yüksəksəviyyəli görüşün yekunlarına dair mətbuata birgə bəyanatla çıxış etmişdir.
- Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə Türkmənbaşı şəhərində "Axaltəkə" atlarına və milli "Galkynysh" atlı qrupunun çıxışına baxmışdır.
- Sonra Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və türkmən xalqının adından ona "Taus" ləqəbli "Axaltəkə" atını hədiyyə etmişdir.

**25 avqust**

- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa, Şimali Amerika və xaricdəki ərazilər üzrə dövlət naziri Stiven Doutini qəbul etmişdir.
- Sosial media hesablarında paylaşım edərək, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın hədiyyəsinə görə ona təşəkkür etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Moldova Respublikasının Prezidenti xanım Maya Sandunu təbrik etmişdir.
- Vyetnam Sosialist Respublikasının müstəqilliyinin 80-ci ildönümü münasibətilə Prezident Lıonq Kıonqu təbrik etmişdir.

**26 avqust**

- Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibə vermişdir.

**27 avqust**

- Sosial şəbəkə hesablarında paylaşım edərək, "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması münasibətilə təbrik etmişdir.

**28 avqust**

- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qırğız Respublikasının Prezidenti Sadır Japarovu təbrik etmişdir.

**29 avqust**

- Qardaş Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik etmişdir
- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinini təbrik etmişdir.

**30 avqust**
- Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə bu ölkəyə işgüzar səfərə gəlmişdir.

**31 avqust**
- Çinin Tiencin şəhərində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olmuşdur.
- Çinin Tiencin şəhərində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin prezidenti və sədri vəzifəsini icra edən Ni Cen ilə görüşmüşdür.
- Çinin Tiencin şəhərində "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin təsisçisi və sədri Sie İ ilə görüşmüşdür.
- Çinin Tiencin şəhərində "CETC" ("China Electronics Technology Group Corporation") korporasiyasının baş direktoru Cu Pen ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Tianjin Meijiang" Beynəlxalq konqres və sərgi mərkəzində Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuanın adından dövlət və hökumət başçıları və xanımlarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir.

## *Sentyabr*

**1 sentyabr**
- Çinin Tiencin şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olmuşdur.
- Çinin Tiencin şəhərində Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu ilə görüşü olmuşdur.
- Çinin Tiencin şəhərində Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqun ilə görüşmüşdür.
- Çinin Tiencin şəhərində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə görüşü olmuşdur.
- Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammiti çərçivəsində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşmüşdür.
- Çinin Tiencin şəhərində keçirilən "ŞƏT plyus" formatında görüşdə iştirak və çıxış etmişdir.
- San-Marino Respublikasının milli bayramı münasibətilə San-Marino Respublikasının Regent Kapitanları xanım Denize Bronzettini və İtalo Riqini təbrik etmişdir.

**2 sentyabr**
- Çinin Tiencin şəhərində "Powerchina group" şirkətlər qrupunun icraçı vitse-prezidenti Xı Yınfen ilə görüşmüşdür.
- Çinin Tiencin şəhərində "China National Chemical Engineering" (CNCEC) şirkətinin sədri Mo Dinqqı ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə Çinin Tiencin şəhərindən qatarla paytaxt Pekinə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.
- Rəsmi sosial şəbəkə səhifələrində Çinə işgüzar səfəri ilə bağlı video paylaşmışdır.

**3 sentyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə Çinin paytaxtı Pekində keçirilən yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradı izləmək üçün Tiananmen Meydanına gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirak edən nümayəndə heyətlərinin başçılarının və xanımlarının şərəfinə verilən ziyafət və konsert proqramında iştirak etmişdir.
- Çin Xalq Respublikasına işgüzar səfəri başa çatmışdır.

**5 sentyabr**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkovanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu təbrik etmişdir.

**8 sentyabr**
- "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarını təbrik etmişdir.

**10 sentyabr**
- Bakıda Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışında iştirak etmişdir.

**12 sentyabr**
- 15 Sentyabr – Müstəqillik Günü münasibətilə Nikaraqua Respublikasının Həmprezidentləri Daniel Orteqa Saavedranı və xanım Rosario Murilyonu təbrik etmişdir.

**14 sentyabr**
- Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoymuşdur.
- Xocavənd rayonunun Hadrut qəsəbəsində olmuşdur.
- Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş məscidin açılışında iştirak etmişdir.
- Xocavənd rayonunun Sos kəndində olmuşdur.
- Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində olmuşdur.
- Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşmüşdür.
- Xocalı rayonunun Şuşakənd kəndində olmuşdur.
- Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etmişdir.

**15 sentyabr**
- Xocalı rayonunun Seyidbəyli kəndində olmuşdur.
- Xocalı rayonunun Daşbulaq kəndində 13 hektar sahədə salınmış tut bağında olmuşdur.
- Xocalı rayonunun Daşbulaq kəndində olmuşdur.
- Xocalı rayonunun Badara kəndində olmuşdur.
- Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşmüşdür.
- Şuşada ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul etmişdir.
- Şuşada Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlunu qəbul etmişdir.

**16 sentyabr**
- Azərbaycana rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Füzuli Beynəlxalq Hava Limanında qarşılamışdır.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə avtomobillə Füzuli şəhərini gəzmişdir.
- Sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Şuşaya gedərkən Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdirmişdir.
- Şuşada rəsmi qarşılanma mərasimindən sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə təkbətək görüşü olmuşdur.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinə baxmışdır.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Milli Xalça Muzeyinin Şuşa filialında olmuşdur.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Cıdır düzündə Qarabağ atlarının şousunu izləmişdir.
- Sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə "Ərgünəş" adlı Qarabağ atını hədiyyə etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Şuşa qalasının önündə foto çəkdirmişdir.
- Onun adından Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü olmuşdur.
- Sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
- Azərbaycana rəsmi səfəri başa çatan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Füzuli Beynəlxalq Hava Limanında yola salmışdır.

**17 sentyabr**
- Sosial şəbəkə hesablarında paylaşım edərək, "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə təbrik etmişdir.
- X sosial şəbəkə hesabında paylaşım edərək, ABŞ Prezidenti Donald Trampa "Truth" sosial şəbəkə hesabında paylaşımına görə təşəkkür etmişdir.

**18 sentyabr**
- Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosu qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Malta Respublikasının Prezidenti xanım Miriam Spiteri Debononu təbrik etmişdir.

**19 sentyabr**
- Yəhudi xalqının yeni il bayramı – Roş ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik etmişdir.

- "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Krallıq Elan Edilməsi Günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudu təbrik etmişdir.

**20 sentyabr**
- Sosial media hesablarında Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım etmişdir.
- Rəsmi qarşılanma mərasimindən sonra Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə təkbətək görüşü olmuşdur.
- Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.
- Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə Azərbaycan Respublikası ilə Ruanda Respublikası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
- Sonra Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə mətbuata bəyanatla çıxış etmişdir.

**21 sentyabr**
- "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**22 sentyabr**
- BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfərə gəlmişdir.
- Nyu-Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşmüşdür.
- Nyu-Yorkda "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşmüşdür.
- Nyu-Yorkda "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşmüşdür.
- Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarını təbrik etmişdir.
- "Orta Dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes Forumunun iştirakçılarını təbrik etmişdir.

**23 sentyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak etmişdir.
- BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşmüşdür.
- BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olmuşdur.
- BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşmüşdür.
- BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Keniya Respublikasının Prezidenti Uilyam Samoei Ruto ilə görüşü olmuşdur.
- BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar təşkil olunan rəsmi qəbulda iştirak etmişdir.

**24 sentyabr**
- Nyu-Yorkda "Ares Management" qlobal investisiya şirkətinin həmtəsisçisi və baş icraçı direktoru Maykl Aruqeti ilə görüşmüşdür.
- Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi ilə görüşü olmuşdur.
- Nyu-Yorkda Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza ilə görüşmüşdür.
- Nyu-Yorkda Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov ilə görüşü olmuşdur.
- Nyu-Yorkda dünyanın ən iri və nüfuzlu qlobal investisiya menecerlərindən biri olan "Franklin Templeton" şirkətinin baş icraçı direktoru və prezidenti Cenni Conson ilə görüşmüşdür.
- Nyu-Yorkda qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşü olmuşdur.
- Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda Beynəlxalq Statistika Forumunun iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovu təbrik etmişdir.

**25 sentyabr**
- BMT-nin mənzil-qərargahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ilə görüşmüşdür.
- Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulamışdır.
- Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış etmişdir.

**26 sentyabr**
- BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirakı ilə bağlı sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**27 sentyabr**
- ABŞ-a işgüzar səfəri başa çatmışdır.
- 27 Sentyabr – Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.

- Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.
- Anım Günündə Gəncə Memorial Kompleksinin açılışında iştirak etmişdir.
- Əvvəlcə memorial lövhənin qarşısına əklil qoymuşdur.
- Anım Günü ilə əlaqədar Gəncə Memorial Kompleksində saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.
- "BakuBus" MMC-nin Gəncə Avtoparkının açılışında iştirak etmişdir.
- Gəncə Stadionunun açılışında iştirak etmişdir.
- Sonra Gəncə Memorial Kompleksində Ermənistanın raket hücumu zamanı hər iki valideynini itirən Nilay Əliyeva və onun babası Zahid Babazadə ilə görüşmüşdür.

**28 sentyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimində iştirak etmişdir.
- Tədbirdən əvvəl Birinci xanım Mehriban Əliyeva ilə Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşmüşdür.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə açılış mərasimini izləmişdir.
- Daha sonra III MDB Oyunlarını açıq elan etmişdir.

**29 sentyabr**

- Ölkəsinin milli bayramı münasibətilə Çin Xalq Respublikasının Sədri Si Cinpini təbrik etmişdir.
- Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əlamətdar ildönümü – diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevi təbrik etmişdir.

**30 sentyabr**

- Rəsmi qarşılanma mərasimindən sonra İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü keçirilmişdir.
- İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə geniş tərkibdə görüşü olmuşdur.
- Onun adından İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.
- İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- 3 Oktyabr – Alman Birliyi Günü münasibətilə Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayeri təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Koreya Respublikasının Prezidenti Li Cemyönü təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.

Rəşid Meredov Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmən xalqının Milli Liderinə, Türkmənistan Prezidentinə və qardaş türkmən xalqına çatdırmağı xahiş etdi.

Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Qarabağda aparılan bərpa və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını deyərək, bu bölgənin təbiətinin gözəlliyinə valeh olduğunu bildirdi.

Görüşdə azərbaycanlılarla türkmənlərin ortaq etnik kökləri, tarix və mədəniyyət bağlantılarına malik iki qardaş xalq olduğu bir daha vurğulandı. Ölkələrimiz arasında energetika, nəqliyyat, mədəniyyət, humanitar, elm, təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparıldı. Xüsusilə Azərbaycanda Türkmənistan Mədəniyyət Günlərinin, Türkmənistanda isə Azərbaycan Mədəniyyət Günlərinin keçirilməsi qeyd olundu.

### *Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaq Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana çatdırmağı xahiş etdi.

Sultan Əhməd Əl-Cabir İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən 17-ci Zirvə görüşünün işinə uğurlar arzuladı. Qonaq Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin, həmçinin bu ərazilərin təbiətinin onda böyük təəssürat hissi oyatdığını dedi.

Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin hər iki ölkənin liderlərinin baxışlarına uyğun olaraq məhz strateji müstəvidə inkişafından məmnunluq ifadə edildi.

Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiyi vurğulandı.

Söhbət zamanı "Masdar" şirkətinin Azərbaycanda fəaliyyəti, bərpaolunan enerji sahəsində əməkdaşlıq və strateji fəaliyyət proqramları, bu istiqamətdə gələcək layihələrə dair fikir mübadiləsi aparıldı.

Görüşdə, həmçinin enerji, turizm, humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

### *Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu vurğuladı, ikitərəfli münasibətlərimizin qardaşlığa, qarşılıqlı dəstək və həmrəyliyə əsaslandığını dedi.

Prezident İlham Əliyev bir neçə gün əvvəl Xankəndidə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirakını və onunla görüşünü məmnunluqla

xatırladı, həmin görüşdə ikitərəfli gündəliyimizlə bağlı bir daha geniş müzakirələrin aparıldığını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu, Pakistanın Baş nazirinin işğaldan azad edilmiş torpaqlarımıza ilk səfəri deyildi. Bu xüsusda, Prezident İlham Əliyev Məhəmməd Şahbaz Şərifin bu ilin mayında Laçına səfərini və Azərbaycanın Müstəqillik Günü ilə bağlı keçirilən tədbirdə iştirakını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın və Pakistanın siyasət, iqtisadiyyat, sərmayələr sahələrində uğurlu qarşılıqlı fəaliyyətinə toxunaraq əlaqələrimizin genişləndirilməsində parlamentlərarası əməkdaşlığın rolunu qeyd etdi, beynəlxalq parlamentlərarası təsisatlarda ölkələrimizin parlament nümayəndə heyətlərinin bir-birini dəstəkləməsini məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti qardaş Pakistandan nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə təşəkkürünü bildirən Pakistan Milli Assambleyasının sədri ölkəmizə səfərdən və dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini vurğuladı. Sərdar Ayaz Sadiq rəhbərlik etdiyi nümayəndə heyətinə həm iqtidar, həm də müxalifətdən olan parlament üzvlərinin daxil olduğunu bildirərək vurğuladı ki, bu, Pakistan Milli Assambleyasında Azərbaycana münasibətdə vahid və həmrəy mövqenin göstəricisidir.

Öz növbəsində dövlətlərimiz arasında parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunan Pakistan Milli Assambleyasının sədri ölkələrimizin həm çətin, həm də xoş günlərdə həmişə həmrəylik nümayiş etdirdiklərini vurğuladı.

Sərdar Ayaz Sadiq İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün uğurla keçirilməsi ilə bağlı Prezident İlham Əliyevi təbrik edərək, bu tədbirin məhz Xankəndi şəhərində təşkil olunmasının böyük siyasi əhəmiyyətinə toxundu. Qonaq Qarabağda və Şərqi Zəngəzurda yüksək səviyyədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini xüsusi qeyd etdi.

Görüşdə Sərdar Ayaz Sadiqin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün müzakirələr aparmağa yaxşı imkan yaratdığı bildirildi, Azərbaycanın və Pakistanın qanunverici orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib, abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi təmin olunub. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumtəhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

Prezident İlham Əliyev Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşdü, onlarla söhbət etdi.

Sakinlər: Hörmətli Prezidentimiz, eşq olsun Sizə! Allah Sizi qorusun! Allah Sizin üstünüzdə yar olsun! Bizim burada olmağımızın səbəbkarı sizsiniz. Bu, Sizin gərgin əməyinizin nəticəsidir.

Sakin: Ürəyim Sizə qurban. Xoş gəlmisiniz!

Prezident İlham Əliyev: Siz də xoş gəlmisiniz.

Sakin: Bu günümüzə şükür, Allah xanımınızı qorusun! Allah Sizi qorusun! Bu günü bizə yaşatdığınız üçün Allah üstünüzdə yar olsun! 200 neçə illik qara buludu üstümüzdən götürdünüz. Ağlasam, məni qınamayın. Sevinc göz yaşlarıdır.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Sağ olun, var olun, öpürəm. Allah Sizi qorusun! Amin!

Prezident İlham Əliyev: Sağ olun. Siz də xoş gəlmisiniz. Artıq bir neçə gündür ki, doğma torpağınızda yerləşmisiniz, şərait də yaxşıdır. Mən bu gün həm Təzəbinə kəndində, həm də Xanyurduda şəraitlə tanış oldum. Biz iki gözəl kəndi demək olar ki, yenidən bərpa etdik və sizin sərəncamınıza verdik.

Sakinlər: Çox sağ olun, minnətdarıq.

Prezident İlham Əliyev: Burada rahat yaşayın, xoşbəxt yaşayın, siz buna layiqsiniz. Siz uzun illər çətin şəraitdə yaşamısınız - çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə, orada-burada, çox çətin şəraitdə. Amma inamınızı itirməmisiniz. İnanırdınız ki, doğma Vətənə qayıdacaqsınız. O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun.

Sakin: Cənab Prezident, Allah Sizə qüvvət versin! Sizin gərgin əməyiniz öz yerində. Sinəsini düşmən

gülləsinə sipər edən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizin canını sağ eləsin.

Prezident İlham Əliyev: Amin.

Sakin: Allah Sizi, xanımınızı qorusun. Var olun. Bu gün Sizinlə burada üz-üzə durmaqdan qiymətli heç nə yoxdur.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Cənab Prezident, bir dəqiqə olar?

Prezident İlham Əliyev: Bəli, buyur.

Sakin: Səhər-səhər mən evdən çıxanda, bağışlayın, bizim xanım dedi: Kişi, ən xoşbəxt insansan ki, bu gün Prezidentlə görüşəcəksən. Allah haqqı, elə belə də dedi.

Prezident İlham Əliyev: Sağ olun. Bütün qohumlara, ailə üzvlərinə salam yetirin. İndi siz buraya birinci köçənlərdənsiniz, amma bunun ardı gəlir. Bir, bəlkə də bir neçə aydan sonra burada, hər iki kənddə yəqin ki, minlərlə insan yaşayacaq. Dövlət bütün şəraiti yaradıb - evlər, həyətyanı sahələr, içməli su, təbii qaz, elektrik. Yəni, yenə də deyirəm, siz buna layiqsiniz.

Sakin: Maşallah, hər şey yüksək səviyyədədir.

Prezident İlham Əliyev: Çünki ən ağır vəziyyətdə yaşayanlar siz olmusunuz. Bütün bu otuz il ərzində yenə də, necə deyərlər, öz iradənizi göstərərək inanırdınız ki, bu tarixi gün gələcək və biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Həm 2020-ci ilin Vətən müharibəsi, həm də 2023-cü ilin antiterror əməliyyatı bizim şanlı qələbələrimizdir. Allah şəhidlərimizə rəhmət eləsin. Bundan sonra biz burada əbədi yaşayacağıq. Daha heç kim bizi bu yerlərdən çıxara bilməz.

Sakin: O günlər dalda qaldı.

Prezident İlham Əliyev: O, qaldı.

Sakin: Ulu Öndərə də Allah qəni-qəni rəhmət eləsin ki, bizi Sizə tapşırıb.

Digər sakin: Ali Baş Komandanımızı Allah var eləsin, həmişə ucalarda olsun!

Prezident İlham Əliyev: Sağ olun. Təbrik edirəm, təbriklər. Harada yaşamısınız işğal dövründə?

Sakin: Pirşağı qəsəbəsində.

Prezident İlham Əliyev: Pirşağıda, sanatoriyada.

Sakin: Siz gəlmişdiniz oraya.

Prezident İlham Əliyev: Bəli. Orada şərait də çox ağır idi, çətin idi.

Sakin: Şükür bugünkü günümüzə.

Digər sakin: O vaxt mənim oğlum dağda şəhid oldu.

Prezident İlham Əliyev: Allah rəhmət eləsin.

Sakin: Sağ olun.

Prezident İlham Əliyev: Sizi təbrik edirəm. İndi burada xoşbəxt yaşayın. Allah sizi də qorusun, uşaqlarınızı da.

Qadın sakin: Mehriban xanıma salamlarımızı çatdırın, "Dəmir yumruğ"a güvənirik. Təşəkkür edirik.

Prezident İlham Əliyev: Mütləq söyləyəcəyəm. Onun da sizə salamı var.

Digər qadın sakin: Şəhid bacısıyam. Sizə çox minnətdarıq.

Prezident İlham Əliyev: Sağ olun.

Digər qadın sakin: Çox sağ olun, var olun. Allah Sizi var eləsin, Allah dövlətimizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun, bir daha təbrik edirəm.

Sakin: Çox sağ olun, cənab Prezident, bu yumruğunuz həmişə düşmənlərin üstündə olsun. Allah Sizdən razı olsun, Allah Sizi qorusun. Sizi dövlətimizin üstündən əskik etməsin.

Prezident İlham Əliyev: Sağ olun.

Sakinlər: Sağ olun, tez-tez gəlin.

İyulun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib.

Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb.

Moderator – "Euronews"un Yaxın Şərq bürosunun rəhbəri xanım Ceyn Viterspun: Zati-aliləri cənab Prezident.

Xanımlar və cənablar, hörmətli qonaqlar.

III Şuşa Qlobal Media Forumuna xoş gəlmisiniz. Biz Azərbaycanın mədəni mərkəzinin bir hissəsi olan Xankəndi şəhərində sizi görməkdən şadıq. Bizim üçün xüsusi olaraq bu gün burada hörmətli media peşəkarlarını, fikri formalaşdıran rəhbərləri və dünyanın müxtəlif yerlərindən gəlmiş insanları görmək şərəfdir. Bu Forum, əslində, dialoq, şəffaflıq və daimi inkişaf edən media mühitində əməkdaşlığa yönəlib.

Bu il keçirilən Forum 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrini bir araya gətirib. Builki Forum rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunub. Aparılacaq müzakirələr məhz medianın çağırışlar və imkanlar qarşısında müqavimətinin gücləndirilməsinə, o cümlədən rəqəmsal transformasiyanın təsirinə və müstəqil jurnalistikanın, sülhün, inkişafın, qarşılıqlı anlaşmanın daha da artırılmasına yönələcək.

İndi isə mən böyük şərəf hissi ilə sözü Zati-aliləri cənab İlham Əliyevə - Azərbaycan Respublikasının Prezidentinə vermək istəyirəm.

Prezident İlham Əliyev: Çox sağ olun, Ceyn. Sağ olun.

Mən bütün qonaqlarımızı Qarabağda salamlamaq istəyirəm. Çox sağ olun ki, bizimləsiniz. Üçüncü dəfədir ki, belə bir mühüm tədbir Qarabağda keçirilir. Şuşa Media Forumu artıq ənənəvi xarakter alıb. Ümid edirəm ki, bu ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, coğrafi əhatə daha da genişlənir. Bütün bunlar bir daha göstərir ki, ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət

təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir. Dünyada vəziyyət sürətlə dəyişir. Əgər ötən il Şuşada keçirilmiş Forumdan başlasaq görərik ki, nə qədər çox dəyişikliklər baş verib.

Əlbəttə ki, ilk növbədə, mətbuat belə tədbirlərə qatılır, bütün hekayələri söyləyir, bu dəyişiklikləri, hadisələri təsvir edir və öz cavabını, rəyini bildirir. Bir sözlə, çox məmnunam ki, biz burada - Xankəndidə bu cür böyük tədbirə toplaşmışıq. Bugünkü görüşü burada, yeni tikilmiş Konqres Mərkəzində, Xankəndinin Zəfər meydanında keçirmək qərarına gəldik. Beləliklə, əminəm ki, bura qonaqlar üçün maraqlı olacaq, yenidənqurma, eləcə də 30 ildən artıq bu yerlərdən didərgin düşmüş insanların qayıtması baxımından ərazilər azad olunandan sonra görülmüş işlərə baxmaq cəlbedici olacaq. Bununla şərhimi yekunlaşdırıram ki, müzakirə üçün daha çox vaxt qalsın. Bir daha bizimlə olduğunuz üçün təşəkkür edirəm.

Moderator Ceyn Viterspun: Cənab Prezident, Sizə suallarımızın sayı xeyli çoxdur. Hamı hazırlaşıb gəlib. Gəlin, indi elə birbaşa başlayaq. Birinci sual verən cənab Klaus Piter Ralf Yurgensdir, Londonda yerləşən “Economyfirst Limited”in direktorudur. Buyurun.

Klaus Piter Ralf Yurgens: Çox sağ olun Zati-aliləri, cənab Prezident.

Yenidən burada olmağıma çox şadam. Dəvətə görə minnətdaram. Ümumiyyətlə, növbədə birinci sualı vermək hər zaman çətindir və ötənilki mövzuya qısaca qayıtmaq istəyirəm. Biz COP29 haqqında çox danışdıq. İndi, düşünürəm, o, böyük uğura çevrildi. Həmin konfrans ilə növbəti konfrans arasında yarı yoldayıq. Siz COP29 tədbirinin irsini necə təsvir edərdiniz? Azərbaycanın bu sahədə formalaşdırdığı siyasətin davamı digər ölkələrdə olacaqmı? Söylədiyiniz kimi, COP29 xüsusi tədbir oldu. Onun irsini necə görürsünüz? Yəni, COP30, 31 və ya 32 də olacaq. Şəxsi təəssüratınızı bölüşsəniz, yüksək dəyərləndirərik. Çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Həqiqətən bu, ölkədə ilin tədbiri oldu. Ötən il 197 ölkənin iştirakı ilə keçirilmiş belə bir mühüm iqlim dəyişmələri konfransında bütün dünyada çox böyük auditoriya var idi. Qeydiyyatdan keçmiş 77 min iştirakçı oldu. Qeyd etdiyim kimi, təxminən 200 ölkədən nümayəndə gəlmişdi. Onların sırasında 70 dövlət və hökumət başçısı var idi. Bu, həmin mövzunun əhəmiyyətini aydın şəkildə göstərdi. Həmçinin bir çox insan Bakıya, Azərbaycana ilk dəfə idi ki, səfərə gəlmişdi. Düşünürəm ki, onlar üçün maraqlı tanışlıq idi. Qlobal iqlim gündəliyinə töhfəmizə gəldikdə deyərdim ki, Azərbaycan ekologiyaya hörmətlə yanaşan ölkədir. Biz elektrik enerjisinin istehsalında nə kömürdən, nə də ki, yanacaqdan istifadə edirik. Biz yalnız su və təbii qaz ehtiyatlarından istifadə edirik və bu yaxınlarda Günəş enerjisindən istifadəyə başlamışıq.

Yeri gəlmişkən, yaşıl gündəliyimiz çox genişdir. 2030-cu ilə qədər artıq imzalanmış investisiya müqavilələri əsasında biz ən azı 6 giqavatlıq yaşıl enerjini, o cümlədən Günəş, külək və su elektrik enerjisini istehsal edəcəyik. Su elektrik enerjisi Qarabağ və Şərqi Zəngəzurda əsas yer tutur. Biz ümumi 280 meqavat gücündə 30 kiçik su elektrik stansiyasını artıq istismara vermişik. Beləliklə, yaşıl gündəliyimiz həqiqətən çox genişdir. Eyni zamanda, mənim mesajım, ev sahibi olan Azərbaycanın mesajı ondan ibarət idi ki, biz həmin məsələyə realist və praqmatik yanaşmalıyıq. Hamımız anlayırıq ki, biz planeti qorumalıyıq. Lakin ətraf mühit böhranına ən çox rəvac verənlər, yəqin ki, bu yükü öz üzərinə götürməlidirlər.

İqlim dəyişmələri ekzistensional əhəmiyyət daşıyan, inkişaf edən kiçik dövlətlərə gəldikdə, onlara güclü dəstək lazımdır. Biz bunu planlaşdırırdıq və etməyə çalışırdıq. İnkişaf etməkdə olan kiçik ada dövlətləri ilə bağlı xüsusi sessiyamız oldu. Azərbaycan ən az inkişaf etmiş ölkələrdə iqlim dəyişmələri məsələlərinin həlli üçün xüsusi fonda 10 milyon ABŞ dolları ayırdı. Lakin düşünürük ki, siz faydalı qazıntıları diqqətdən kənarda qoya bilməzsiniz. Çünki yaxın gələcəkdə onlarsız dünya yaşaya bilməz, iqtisadiyyat işləyə bilməz, təyyarələr uça bilməz və hər bir şey dayanar. Beləliklə, biz reallığın bu tərəfini də görməliyik.

Biz “Yaşıl Keçid Proqramı”nı həyata keçiririk. Lakin, eyni zamanda, anlayırıq ki, neft və qaz olmadan inkişafı, gələcəyimizi planlaşdırmaq, vətəndaşlarımız üçün lazımi şəraitləri təmin etmək mümkün olmayacaq. Bizim üçün çətin an və mürəkkəb müzakirələr oldu. Lakin düşünürəm ki, sədrliyimiz yaxşı anlaşmanı təmin etdi. Bir sözlə, öz rolumuzu Qlobal Cənub və Qlobal Şimal arasında körpü kimi gördük. Düşünürəm ki, bunun öhdəsindən gələ bildik.

COP29-da mühüm nailiyyətlərdən biri ondan ibarətdir ki, biz elə konstruktiv mühit yaratdıq və şəxsi töhfə verdik ki, karbon bazarlarının fəaliyyəti ilə bağlı 6-cı maddə üzərində razılıq əldə olunsun. Bu məsələ ən azı son 10 il ərzində müzakirədə qalmışdır. Beləliklə, o, COP29-un ən mühüm və tutarlı nəticəsinə çevrildi. Düşünürük ki, digər mühüm nəticə iqlim dəyişmələri məsələlərinin həlli ilə bağlı vəsaitlərin əvvəlcədən COP29-da nəzərdə tutulmuş 100 milyard ABŞ dollarından 300 milyard ABŞ dollarına qədər artırılması oldu. Bilirik ki, bəzi ölkələr bundan razı qalmadı. Lakin ədalət naminə söyləməliyik ki, biz vəsaitlərin üç dəfə artırılmasına nail olduq. Əlbəttə ki, bizdən sonra öhdəliyi öz üzərinə götürən tərəflər həmin vəsaitlərin artırılması üçün öz işlərini görməli olacaqlar. Çünki həmin və bir çox digər məsələlər irsimiz kimi qalacaq. Biz ondan artıq təşəbbüs irəli sürdük. Ölkələrin tam əksəriyyəti həmin təşəbbüslərə qoşuldu. Düşünürəm ki, təşəbbüslərimizin heç birinə qoşulmayan cəmi iki ölkə

oldu. Lakin bu, təşəbbüslərin münasibliyinə deyil, sırf siyasi səbəblərə bağlı idi. İndi isə sual belədir – gələcəkdə nə baş verəcək? Xüsusən də iqlim dəyişmələri ilə bağlı ABŞ Administrasiyasının mövqeyini nəzərə alaraq, nə olacaq? Əlbəttə ki, ABŞ-ın qlobal lider, iqlim dəyişmələrinə ən böyük töhfə verən tərəf və ən böyük investor kimi məsələləri nəzərdə tutulur. Onun rolu, əlbəttə ki, diqqətdən kənarda qala bilməz. Bir sözlə, çox məsələ onlardan asılı olacaq. Buna görə, hamımız böyük ümidlə və müəyyən narahatlıqla bu ilin sonunda keçiriləcək COP30-u gözləyirik.

Bir daha qeyd etmək lazımdır ki, Azərbaycana gəldikdə, təsəvvür edə bilərsiniz, biz karbon emissiyalarına ən böyük töhfə verən tərəf deyilik. Lakin bununla belə, yaşıl gündəliyimiz və körpü salmaq, müxtəlif tərəflər arasında anlaşma yaratmaq kimi məsələlərdə göstərdiyimiz səylər BMT və bir çox beynəlxalq tərəfdaşlar tərəfindən lazımınca dəyərləndirilir. Bizə gəldikdə, bir daha qeyd edim ki, yaşıl gündəliyimizə sadiq qalacağıq. Lakin COP30, 31 və 32 necə olacaq, bu, əlbəttə ki, açıq sual olaraq qalır.

Moderator Ceyn Viterspun: Peter, təşəkkür edirəm sualınıza görə. İndi isə biz dərhal növbəti suala keçirik. Professor Şerzodxon Kudratxuca. O, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiyalar Universitetinin rektorudur.

Şerzodxon Kudratxuca: Salam, hörmətli cənab Prezident. İcazə verin, əvvəlcə Sizi iyulun 4-də Xankəndinin ilk dəfə çox yüksək səviyyədə ev sahibliyi etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün uğurla keçirilməsi münasibətilə təbrik edim. Biz bunun şahidi olduq. Həmçinin burada Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin dövlət səfəri uğurla keçdi. Bizim jurnalistlərin çoxlu təəssüratı var. Biz üçüncü ildir ki, gəlirik, ancaq Xankəndidə ilk dəfə olduq.

Mənim bir neçə sualım var. İcazənizlə, Sizə birinci sualı verim: Keçən həftə Əbu-Dabidə Ermənistanın Baş naziri Nikol Paşinyanla Sizin aranızda tarixi görüş oldu. Bu, niyə vacibdir? Niyə bu, son dərəcə mühümdür? Çünki iki ölkə qlobal təlatümlər zamanı, belə bir çətin vaxtda dost olmağın hər halda daha yaxşı olduğunu dünyaya nümayiş etdirdi. Bu, günümüz üçün çox gözəl bir nümunədir. Sizdən soruşmaq istərdim: bir çox suallar arasında Zəngəzur dəhlizi məsələsi də qaldırıldı. Mən bilirəm ki, bu dəhliz, ilk növbədə, Azərbaycan və Ermənistan üçün, həmçinin bizim bütün böyük Xəzər regionumuz üçün çox vacibdir. Amma istərdim ki, bunun böyük Türk dünyası üçün nə qədər əhəmiyyətli olması, onun qarşısında hansı perspektivlər açması üzərində dayanasınız. Çünki aramızda körpü yox idi, inşallah, indi biz birləşəcəyik. Bu, çox maraqlıdır. Keçən il də burada idim, amma təəssüf ki, sual verə bilmədim. Sizə çox şəxsi sualım var. Üçüncü dəfədir ki, Qarabağa gəlirəm və burada maşın sürərkən dönə-dönə müşahidə etdik ki, hər şey əbədiyyətlə nəfəs alır, burada hər daş, hər dağ zikr edir, hər ağac şükür edir. Çünki bu, baş verdi. Burada müşahidə etdim ki, üç il ərzində çoxlu dəyişikliklər baş verib: yollar əladır, avtomobil heç vaxt silkələnmir, çoxlu müasir tikinti var, məscidlərin çoxu təmir olunub. Amma kilsələrin də bərpa olunduğunu görmək məni sevindirdi. Bu, bütün dünyaya Sizin tolerantlığınızı, səbrinizi, nəcibliyinizi göstərir. Ona görə də demək istəyirəm ki, yəqin ki, Uca Tanrımız da bunu bəyənir. Özbəkistan Azərbaycanın dahi Prezidenti Heydər Əliyevi çox yüksək qiymətləndirir və onu çox yaxşı tanıyır. O və bizim Şəraf Rəşidoviç Rəşidov dost olublar. Bunu Özbəkistanda hər kəs bilir. Belə bir sualım var, ona görə də şəxsi dedim. Təəssüflər ki, bugünkü Qarabağı görmək ona nəsib olmadı. Çox çətin bir yol keçsə də, onu görə bilmədi. Amma deyək ki, Uca Tanrının iradəsi olsaydı, 2023-cü ildən sonra bu günü görə bilsəydi, Azərbaycan Prezidentinə yox, təkrar edirəm, Prezidentə yox, Azərbaycan xalqının böyük oğluna nə deyərdi? Onun baxışı, bugünkü əhvali-ruhiyyəsi necə olardı? Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. İlk növbədə, ölkəmiz haqqında, Qarabağ haqqında və burada gördüyümüz işlərlə bağlı xoş sözlərinizə görə sizə çox təşəkkür etmək istərdim. Özbəkistanlı qardaşlarımızın dəstəyi bizim üçün həmişə çox dəyərli olub. Bildiyiniz kimi, Qarabağın bərpası üçün ilk hədiyyəni Özbəkistan verib. Hörmətli Prezident Şavkat Miromonoviçin təşəbbüsü ilə Füzuli şəhərində özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyan 960 şagird yerlik məktəb tikilib. Biz Şavkat Miromonoviç ilə bu məktəbi Füzuli şəhərində açdıq. Bir-iki gün əvvəl yenə Füzulidə oldum, maraqlandım, məncə, orada artıq 500-dən çox uşaq oxuyur. Nəzərə alsaq ki, Füzuliyə keçmiş köçkünlərin qaytarılması prosesi hələ ilkin mərhələdədir, yəni, bu qədər uşaq artıq orada təhsil alır. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, Özbəkistan Prezidentinin səmimi qardaşlıq jesti, ərazilərin bərpasında Azərbaycana köməyidir. Qeyd etdiyiniz kimi, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının artıq burada, Xankəndidə Zirvə görüşü keçirilib. O görüş bu binada, yeni Konqres Mərkəzində keçirildi. Biz həmin Zirvə görüşünü məhz bu zalda keçirdik. Bunun böyük rəmzi mənası var idi. Çünki bu, həyatın buraya, o cümlədən Xankəndiyə geri qayıtdığını göstərir. Biz təşkilata üzv olan ölkələrin, həmçinin digər ölkələrin səkkiz dövlət və hökumət başçısının yüksək səviyyədə iştirakını Azərbaycana, torpaqlarımızın qaytarılmasından sonra və indi gördüyümüz işlərə, dağıdılanları yenidən həyata qaytarmağa verilən dəstək kimi qiymətləndiririk.

Yeri gəlmişkən, deməliyəm ki, işğal zamanı məhz bu yerdə separatçılar tərəfindən "Parlament" adlandırılan bina tikilmişdi. Mənim buraya ilk səfərlərimdən

birində biz bu "şeytan yuvası"nı dağıtmaq qərarına gəldik, məncə, tamamilə düzgün qərar verdik və onun yerində dövlət başçılarını qəbul edən belə gözəl Konqres Mərkəzi tikdik. Yaxınlıqda isə sovet vaxtı orada olan, işğal zamanı dağıdılan otel tikilir. Konqres Mərkəzinin qarşısındakı meydan indi Qələbə meydanı adlanır. Separatizmin mərkəzi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş vilayət komitəsinin binasında Qələbə muzeyi yerləşəcək. Hazırda orada tikinti işləri görülür.

Zəngəzur dəhlizinə gəlincə, bu arteriya sözsüz ki, bir çox ölkələri birləşdirəcək. Biz isə daşımaların bu dəmir yolu və ya avtomobil yolu ilə həyata keçirilməsinin zəruriliyindən danışarkən, təkcə Azərbaycanın əsas hissəsinin onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsini nəzərdə tutmuruq. Söhbət beynəlxalq tranzit dəhlizdən gedir. Biz nəqliyyat və logistika infrastrukturuna çox fəal sərmayə qoyuruq. Son illər milyardlarla dollar sərmayə qoyulub, Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanı tikilib, indi biz onu genişləndiririk, onun yükqaldırma qabiliyyətini 25 milyon tona çatdırırıq. Gürcüstandan keçməklə Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolu xətti çəkilib. Müasir infrastrukturun qurulması nəticəsində Azərbaycan ərazisindən tranzit daşımaların həcmi artır. Həmçinin rəqəmsallaşma prosesi gedir, gömrük inzibatçılığı sadələşdirilir. Bu, həm də regionumuzda baş verən geosiyasi dəyişikliklər, digər tranzit marşrutların problemli hala gəldiyi bir vaxtda baş verir. Ona görə də bütün bunları nəzərə alaraq, Zəngəzur dəhlizinin potensialını ilkin mərhələdə 15 milyon ton yük səviyyəsində qiymətləndiririk. Biz demək olar ki, Ermənistan və İranla sərhədimizin qovuşuğuna qədər dəmir yolunun tikintisini başa çatdırırıq və yəqin ki, bir ildən az müddətdə, bəlkə də gələn ilin yazında bu dəmir yolunun Azərbaycan hissəsi hazır olacaq.

Bu dəmir yolunun Ermənistan hissəsinə gəlincə deməliyəm ki, sovet dövründə bu dəmir yolu Azərbaycan dəmir yolunun tərkib hissəsi olub. Ermənistanın dəmir yolu şəbəkəsinin qalan hissəsi ilə dəmir yolu əlaqəsi olmadığına görə ermənilərin dəmir yolu strukturuna daxil olmayıb. Bu yol Azərbaycanı Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə birləşdirir və oradan Körfəzə çıxış yolu ilə İran ərazisinə keçir. Yəni, Zəngəzur dəhlizinin reallaşması ilə biz mahiyyət etibarilə Şimal-Cənub dəhlizinin başqa istiqamətini açacağıq. Təkcə hamının haqqında danışdığı bir istiqamətə - Rusiyadan Azərbaycan vasitəsilə İrana, Rəştə deyil, həm də Şərqi Zəngəzur və Zəngəzur bölgəsinin digər hissələrindən İrana, oradan da Türkiyəyə. Ona görə də yük axınının həcminin artırılması üçün böyük perspektivlər açılır.

Özbəkistan Prezidentinin səfəri zamanı biz müzakirə etdik ki, yükdaşımaların həcmini artırmalıyıq. Bu gün Çindən Azərbaycan ərazisi vasitəsilə yükdaşımaların həcmi sürətlə artır. Eyni zamanda, Xəzər dənizinə çıxacaq Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan dəmir yolu yenidən tikilir. Yəni, görürsünüz ki, artıq hansı böyük axınlar gedir və bu, bizim istiqamətimizdə davam edəcək. Ona görə də biz təkcə Bakı limanında yüklərin qəbuluna və onları işləməyə deyil, həm də Bakı-Tbilisi-Qars dəmir yolu ilə Gürcüstandan keçməklə Türkiyəyə və daha sonra Aralıq dənizi limanlarına Zəngəzur vasitəsilə göndərməyə hazır olmalıyıq ki, bu, eyni zamanda, əsas nəqliyyat marşrutu olacaq. Amma təəssüflər olsun ki, son beş ildə Ermənistan tərəfində heç bir iş aparılmayıb, bu məsələ qəsdən gündəmdən çıxarılıb. Amma belə olan halda Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfra yaxınlaşır. Bu prosesin qarşısını almaqda davam etsələr düşünürəm ki, özlərini nəinki bu gün düşdükləri nəqliyyat təcridində, həm də müəyyən dərəcədə siyasi təcriddə tapacaqlar.

Atamın mənə nə deyə biləcəyinə gəldikdə, əlbəttə, bunu bilə bilmərəm. Amma təxmin edə bilərəm. Məncə, siz də təxmin edirsiniz. Bu, yəqin ki, daha çox ritorik sualdır. Mənim üçün isə atamın vəsiyyətini yerinə yetirmək, eləcə də bu torpaqlardan didərgin düşən, ədalətin bu təntənəsini görmədən dünyadan köçənlərin vəsiyyətlərini yerinə yetirmək böyük şərəf və qürur mənbəyi idi. Mən son beş ildə bu qürur hissi ilə yaşayıram. İnşallah, mən və bütün Azərbaycan xalqı sona qədər bu hisslə yaşayacağıq.

Moderator Ceyn Viterspun: Təşəkkür edirəm. Növbəti sualı ABŞ-ın Beynəlxalq Siyasət İnstitutunun nümayəndəsi Paolo Liebl von Şirax verəcək. Buyurun, söz sizindir.

Paolo Liebl von Şirax: Cənab Prezident, Sizi görməyə çox şadam. Bu gün bu tədbirdə iştirak etməyimdən çox məmnunam. Üçüncü dəfədir ki, mən bu Forumda iştirak edirəm və burada Sizinlə bu görüşün əhəmiyyəti hər kəs üçün olduqca vacibdir. Bu, çox rəmzi bir məkandır və hər kəsə məlumdur ki, bu, çox mürəkkəb bir hekayənin gözəl sonluğudur. Siz öz baxışınızla bağlı fikirlərinizi artıq bölüşdünüz, ölkəniz təkcə bu bölgə üçün deyil, region üçün, Avropa, Mərkəzi Asiya və Yaxın Şərq arasında da bir körpü ola bilər. Siz infrastruktur layihələrini artıq qeyd etdiniz. Mənim sualım ondan ibarətdir ki, Sizcə ən əsas əhəmiyyətli inkişaf vektorları həm ölkəniz, həm regionunuz üçün nədən ibarətdir? Xüsusilə də birbaşa xarici sərmayə baxımından. Biz bir neçə dəfə bu barədə danışmışıq. Artıq bir müddət keçib. Sizin hökumətiniz bu sahədə fəal çalışır. Eyni zamanda, xarici sərmayələrin təşviqi baxımından hansı əlavə tədbirlər ola bilər və sizin iqtisadiyyatınızda ən perspektivli sahələr hansılardır? Bu işdə sizin etibarlı tərəfdaşlarınız hansı ölkələr və şirkətlər ola bilər? Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Daxili gündəliyimizə gəldikdə aydındır ki, Azərbaycan öz inkişafına hansı istiqamətdə davam edəcəkdir. Əsas prioritet faydalı qazıntı sahəsi ilə bağlı deyil. Burada IT, aparıcı texnologiyalar sektorunu qeyd etmək istəyirəm. Biz süni intellektlə bağlı aparıcı şirkətlərlə artıq əməkdaşlıq edirik. Ancaq regional inkişafa və regional əməkdaşlığa gəldikdə bağlılıq layihələri prioritetdir və bu məsələ region ölkələri üçün eyni dərəcədə əhəmiyyətlidir. Biz eyni mövqedən çıxış edirik. Burada söhbət təkcə tranzitdən getmir. Biz dəhlizlər, dəmir yolları haqqında danışanda tranzit və tranzit ödəmələri haqqında danışdığımız düşünülə bilər. Tranzit ödəmələri, əlbəttə ki, vacibdir, o, ölkəni gücləndirə bilər. Ancaq əsas məsələ tranzit marşrutu boyu infrastrukturun və sahələrin yaradılmasıdır ki, o sahələr əlavə sərmayə cəlb edə bilər. Bu səbəbdən də bir neçə əsas şərtin təmin edilməsi vacibdir. Bunun biri sabitlik və təhlükəsizlikdir. Bu gün regionumuz, Mərkəzi Asiya regionu, Cənubi Qafqaz, ondan Şərqdə və Qərbdə yerləşən ölkələr sabit dövlətlərdir. Xüsusilə də Qarabağ münaqişəsi başa çatandan sonra sabitlik, təhlükəsizlik və inkişaf üçün perspektivlər daha aydın və genişdir. Yəni bu, bağlılıq layihələrinin təşviqi baxımından mühüm amildir. İkinci amil qonşularla xoş münasibətlərdir. Bu olmadığı təqdirdə ölkə tranzit ölkə ola bilməz və biz burada qonşularımızla deyil, qonşularımızın qonşuları ilə də yaxşı münasibətlərə malik olmalıyıq. Bu sahədə də fəal diplomatik fəaliyyət aparılır və bizim etibarlı tərəfdaş imicimiz var. Biz son 10 il ərzində etimad qurmağa çalışmışıq. Biz nümayiş etdirməyə çalışmışıq ki, ölkəmiz etibarlı tərəfdaşdır və sözümüzün imzamız qədər dəyəri var. Bu, bu günə qədər də məhz belə olmuşdur.

Bağlantı layihələrinə gəldikdə, biz, ilk növbədə, Orta Dəhlizi qeyd etməliyik. Bu, bu gün çox geniş coğrafiyanı birləşdirən bir layihədir. Mən artıq bir neçə dövləti qeyd etdim. Həmin dəhliz Şərqdən Qərbi Avropaya qədər uzanır və bu da müxtəlif aktorlar arasında anlaşmaya səbəb olacaq. Burada daha çox anlaşmaya ehtiyac var.

COP29 haqqında danışarkən məndə elə bir təəssürat yarandı ki, inkişaf etmiş və inkişaf edən ölkələr arasında bir etimad böhranı var. Hər biri özünün haqlı olduğunu hesab edir. Ancaq burada etibar olmadığı və bir-birinə şübhə ilə yanaşma mövcud olduğu təqdirdə vahid hədəflərə nail olmaq çətin olacaqdır. Ona görə də təhlükəsizlik, sabitlik, milli maraqlara praqmatik yanaşma və qonşularla yaxşı, konstruktiv əlaqələr vacibdir.

Regional gündəliyə gəldikdə, onu da qeyd edə bilərəm ki, biz yaşıl enerji layihələri üzərində çalışırıq. Çünki təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də Günəş və külək elektrik enerjisi stansiyaları yaradılır. Ötən ilin noyabrında Bakıda COP29 çərçivəsində Özbəkistan, Qazaxıstan və Azərbaycan prezidentləri arasında yaşıl enerji ilə bağlı Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi layihəsi imzalandı ki, Mərkəzi Asiyada istehsal olunan yaşıl enerji Azərbaycanın infrastrukturuna birləşdirilsin. Ona qədər Azərbaycan, Gürcüstan, Rumınıya, Macarıstan arasında da buna bənzər sənəd imzalandı ki, belə bir yaşıl enerji kabeli Qara dənizin dibi ilə çəkilsin. Yəni, region təkcə Cənubi Qafqazı əhatə etmir. Biz daha geniş coğrafiyanı əhatə edirik. Ancaq burada mərkəzi nöqtə məhz Azərbaycandır. Çünki siz coğrafiyanı dəyişə bilməzsiniz. Amma coğrafiya heç də hər zaman o demək deyil ki, coğrafi mövqeyiniz sizə tərəqqi gətirəcəkdir. Siz coğrafiyanızdan yaxşı məqsədlər üçün istifadə etməlisiniz. Biz artıq bunu proqnozlaşdıra bilərik ki, Azərbaycan, Mərkəzi Asiya və Avropa ölkələri arasında imzalanmış sənədlər Azərbaycanın bir növ qovşaq olacağını nümayiş etdirir. Azərbaycan nəqliyyat, istehsal və paylama nöqtəsi olacaqdır. Bizim çox böyük artım potensialımız var.

Ənənəvi enerji infrastrukturu layihələrinə gəldikdə deyə bilərəm ki, biz bütün planlarımıza nail olmuşuq. Bəli, biz bilirik ki, bu gün Avropanın daha çox Azərbaycan qazına ehtiyacı var və biz bu həcmi artırmağa hazırıq. 2021-ci ildə bu həcm 8 milyard kubmetr idi. Bu gün 13 milyard kubmetrdir. Bu, bizim ümumi hasilatımızın və ixracımızın yarısıdır. Əlavə həcmlər üçün isə Avropa institutları ilə bağlı yenidən praqmatik yanaşma olmalıdır.

Yaşıl enerjiyə gəldikdə, Avropa bankları artıq faydalı qazıntı enerji növlərinə maliyyələşmə ayırmır. Avropa Yenidənqurma və İnkişaf Bankı maliyyələşməni demək olar ki, dayandırmışdır. Buna görə isə əlbəttə ki, biz imkanlarımızı genişləndirmək üçün vəsait cəlb edə bilmərik. Bu gün Cənub Qaz Dəhlizi maksimal həcmdə fəaliyyət göstərir. Yeni məkanlar üçün biz interkonnektorlardan istifadə edirik. Ancaq əsas boru kəməri tam həcmdə doludur. Onu genişləndirmək üçün bizim əlavə maliyyə vəsaitinə ehtiyac var. Ona görə Avropa institutları bunu nəzərə almalıdırlar və siyasətlərində dəyişiklik etməlidirlər ki, biz əlavə vəsait cəlb edə bilək. Bu şəraitdə bu gün bizim üçün artıq tamamlanmış kimi görünən bir məsələ yenidən inkişaf etdirilə bilər. Avropanın Azərbaycan qazına daha çox ehtiyacı var. Onların Azərbaycanın yaşıl enerjisinə ehtiyacı var. Bəli, biz bilirik ki, Avropada olan külək elektrostansiyalarının sayı nə qədərdir və onların planları nədən ibarətdir. Ancaq biz bir yerdə çalışmağı avropalı tərəfdaşlarımıza təklif etdik. Azərbaycanın coğrafi olaraq Avropa və Asiya arasında yerləşən bir məkan kimi nəhəng meqalayihələrin icrasında təcrübəsi, şaxələndirilmiş xarici siyasəti və xarici siyasət gündəliyi sayəsində biz əhəmiyyətli və həlledici rol oynaya bilərik. Burada bir çox digər məsələləri qeyd edə bilərdim, ancaq vaxtınızı çox almaq istəmirəm.

Moderator Ceyn Viterspun: Ukraynadan “Gordon” media qurumunun təsisçisi jurnalist Dmitro Qordon.

Dmitro Qordon: Hörmətli cənab Prezident, biz Ukraynada Sizin rəhbərliyinizlə Azərbaycanın öz torpaqlarını, öz ərazisini geri qaytarmasını heyranlıqla izləyirdik. Bu, bizim üçün son dərəcə ruhlandırıcı bir nümunədir. Ukraynalılar Sizə minnətdardırlar ki, dəfələrlə açıq şəkildə Ukraynanın dövlət suverenliyinə və ərazi bütövlüyünə dəstəyinizi ifadə etmisiniz. Bu, unudulmur. Artıq neçə ildir ki, biz Ukrayna dövlətinin varlığı uğrunda çox ağır müharibə şəraitində yaşayırıq. Siz qalib xalqın Lideri kimi Ukraynaya və ukraynalılara hansı tövsiyələri verə bilərsiniz?

Prezident İlham Əliyev: Ölkəmiz haqqında dediyiniz xoş sözlərə, suverenliyin və ərazi bütövlüyünün bərpası üçün görülmüş işlərlə bağlı fikirlərinizə görə təşəkkür edirəm. Bir neçə il əvvəl tədbirlərin birində Ukrayna nümayəndəsinin oxşar sualına cavab vermək imkanım olmuşdu. İndi verdiyim cavab ozamankı cavabımdan fərqli olmayacaq və düşünürəm ki, bu, Ukrayna xalqının istəkləri ilə də səsləşir – heç vaxt işğalla barışmamaq. Bu, əsas tövsiyədir. Bizim etdiyimiz də bu idi. Daha doğrusu, biz bu prosesi belə görürdük.

Birinci Qarabağ müharibəsi dövrü çox çətin, faciəli idi – çoxsaylı qurbanlar, Xocalıda azərbaycanlıların soyqırımı. Yeri gəlmişkən, Xocalı buradan cəmi bir neçə kilometr məsafədədir. Münaqişəsonrası dövr də mənəvi və iqtisadi baxımdan az ağır deyildi. Bizim bir milyona yaxın insanımız var idi ki, onlar yaşamaq imkanlarından məhrum olmuşdular. Onlardan 700 min nəfəri Qarabağ regionundan idi, 250 min nəfəri isə Ermənistandakı azərbaycanlılar idi ki, oradan deportasiya olunmuşdular. O zaman bizim ölkəmizin əhalisi 8 milyon idi. Yəni bu, adambaşına düşən qaçqınların sayı baxımından ən yüksək göstəricilərdən biri idi.

Pul yox idi, xəzinə boş idi, bizi demək olar ki, heç kim dəstəkləmirdi. Heç kimdən heç bir əhəmiyyətli beynəlxalq dəstəyimiz yox idi, iqtisadiyyat dağılmışdı, inflyasiya min faiz idi, kütləvi işsizlik, yoxsulluq isə demək olar ki, 100 faiz səviyyəsində idi. Bax, belə bir Azərbaycan var idi. Həmin vaxt Heydər Əliyev hakimiyyətə gəldi. Xalqımızın bəxti onda gətirdi ki, çətin bir zamanda ona müraciət etdi və o da bu ağır yükü öz üzərinə götürdü. Halbuki o, gənc deyildi, artıq 70 yaşı var idi, səhhəti o qədər də yaxşı deyildi, ağır xəstəlik keçirmişdi. Amma məhz onun sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Üstəlik, o vaxt vətəndaş müharibəsi də gedirdi. Biz tədricən ayağa qalxmağa, necə deyərlər, dirçəlməyə başladıq. Yalnız bir şeyi düşünürdük. Mən əminəm, vətəndaşlarımızın əksəriyyəti də mənim dediyimi bölüşür ki, işğal olunmuş torpaqlarımızı necə qaytarmağı fikirləşirdik. Biz başa düşürdük ki, bu, çətin olacaq. Birincisi, relyef. Siz Füzulidən buraya gəlmisiniz. Füzuli şəhəri oktyabrın 17-də azad olunmuşdur. Bundan sonra bizim Silahlı Qüvvələrimiz yol olmayan ərazilərdən piyada keçərək Xankəndi ətrafına, Şuşa qayalarına doğru hərəkət etdilər. Biz döyüş meydanında sübut etdik ki, hər şeyə hazırıq və ölümə gedirdik, irəlidə 5-6 müdafiə xətti var idi. Biz hamımız əzəli torpaqlarımızı qaytarmaq arzusu ilə yaşamışıq.

Relyef, beynəlxalq vəziyyət bizim əleyhimizə idi. ATƏT-in Minsk qrupunun həmsədrlərinin hər biri şəxsi səbəblərə görə Ermənistanın tərəfində idi və hər biri bu vəziyyətin əbədi davam etməsinə çalışırdı. Ona görə də bu status-kvo dəyişmirdi. Hətta bəzən inanılmaz diplomatik səylərlə həmsədr ölkələr adından hansısa bəyanatla çıxış etməyə müvəffəq olanda, bir müddət sonra bu, təkzib edilirdi.

Xatırlayıram ki, ABŞ, Fransa və Rusiya prezidentləri səviyyəsində status-kvonun qəbuledilməz olduğu bəyan ediləndə biz bunu böyük həvəslə qarşılamışdıq. Bu, ciddi bəyanat idi, buna nail olmaq üçün çox çalışmışdıq. Amma bir müddət sonra həmin bəyanatda cəmi bir söz dəyişdirildi – "qəbuledilməz” əvəzinə “dayanıqsız” dedilər. Yəni, bizə mesaj verdilər ki, əslində, bu vəziyyət qəbulediləndir. Yəni, maskalar açıldı, bəli, qəbulediləndir. Bu, Ermənistan üçün qəbuledilən idi, Minsk qrupunun həmsədrləri və bir sıra ölkələr üçün də qəbuledilən idi. Təkcə bizim üçün qəbuledilməz idi.

Mən 2003-cü ilin sonlarından etibarən danışıqlar prosesində iştirak edirdim. 17 il ərzində çoxlu təkliflər, çoxlu görüşlər oldu, – bəlkə də heç də faydalı olmayan, – və çoxlu mesajlar alırdıq ki, reallıqla barışmaq lazımdır. "Reallıq budur, siz bununla barışmalısınız”. Mən deyirdim ki, xeyr. Bu, dünya güclərinə bir çağırış kimi qəbul olunurdu, qeyri-adekvat reaksiya kimi dəyərləndirilirdi. Əsas narrativ isə bu idi – görürsünüz, onlar razılaşmır, onlara separatçılara şərti müstəqillik verilməsi müqabilində nəsə təklif olunur, amma onlar razılaşmırlar.

Bizim beynəlxalq hüquqa əsaslanan arqumentlərimiz – BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnaməsi, Minsk qrupunun həmsədrlərinin bu qətnamələrə səs vermələri – bunların hamısı reallıqla barışmaq tələbini ehtiva edən təkəbbürlü bəyanatlar fonunda cavabsız qalırdı. Biz də qərar verdik ki, yeni reallıqlar yaradacağıq və siz onlarla barışmalı olacaqsınız. Elə də oldu. Biz yeni reallıqları 2020-ci ildə 44 gün ərzində yaratmağa başladıq. Onlar bununla barışmağa məcbur oldular. Daha sonra 2023-cü ilin sentyabrında bir gün ərzində. Bununla da barışmağa məcbur oldular.

Ona görə də sualınıza bir qədər geniş cavab verirəm ki, əvvəldə dediyim məqamı izah edim. Əvvəldə dediklərim sadə və ya bəhanə kimi görünə bilər. Amma bunun arxasında bizim həm müharibədə, həm danışıqlar masasında, həm də suverenliyimizi tam bərpa etdikdən sonra yaşadıqlarımız dayanır. Əgər xarici aktorların bizə qarşı təhdidləri, təzyiqləri, şantajları barədə danışsam,

bu, çox da xoş mənzərə olmaz. Bunu danışmaq üçün ayrıca görüşə ehtiyac var.

Amma əvvəl dediyimə qayıdıram: heç vaxt təslim olmamaq və heç vaxt ərazi bütövlüyünün pozulması ilə barışmamaq. Baxın, Özbəkistandan olan dostumuz atam haqqında sual verdi. Bilirsiniz, o da bizim hamımız kimi bu günü - Qarabağa qayıtdığımız günü görmək istəyirdi. Amma bu, ona nəsib olmadı. Bu əraziləri azad etməzdən əvvəl mən 17 il Prezident olmuşam. Əgər imkan yaranmasaydı, bəlkə də daha 17 il gözləyəcəkdik. Burada məsələ mənlik deyil. Hesab edirəm ki, bu da ukraynalılar üçün vacibdir. Məsələ şəxsiyyətdə deyil, məsələ ambisiyada deyil. Məsələ ondadır ki, bizdən əvvəl yaşamış nəsillər və bizdən sonra yaşayacaq nəsillər qarşısında məsuliyyət hiss etməliyik.

Əgər bilsəydim ki, torpaqları geri qaytara bilməyəcəyik, biz bəlkə də daha 17 il gözləyəcəkdik, sonra yenə 17 il. O zaman artıq mən olmayacaqdım və bu, vacib olmayacaqdı. Mən mənəvi baxımdan hazır idim ki, bunu kimsə başqa biri edəcək. Amma başa düşürdüm ki, əgər mən etməsəm, yəqin ki, bunu heç kim edə bilməz. Bu, bəlkə də çox iddialı səslənə bilər, amma bu, sadəcə, mənim fikirləşdiyim idi və xatirələrimi bölüşürəm.

Daha bir son fikir. Ədalətə inamım demək olar ki, itmişdi, keçmiş köçkün vətəndaşlarımız kimi. Onlarla daim görüşür və deyirdim ki, "inanın, biz qayıdacağıq". Amma hər il onların gözlərində inamın azaldığını görürdüm. Axı, gözlər hər şeyi deyir. Onlar mənə deyə bilərlər ki, bəli, inanırıq, amma gözlər hər şeyi deyir. Mənim də inamım az idi, ədalətə inamım. Amma bizim Qələbəmiz, – bu, ədalətli və tam qələbədir, – göstərdi ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır. Bu ədaləti əldə etmək üçün hər gün işləmək, hər gün qələbəyə yaxınlaşmaq lazımdır. Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən. Yalnız bu halda bu, baş verə bilər.

Əlbəttə, ən vacib amil cəmiyyətin həmrəyliyidir. Həmrəyliyin Prezident, Ali Baş Komandan olaraq mənə verdiyi mənəvi güc çox böyük idi. Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu.

Odur ki, əvvəldə dediyimə qayıdıram – heç vaxt təslim olmamaq!

Moderator Ceyn Viterspun: Mixail Qusman, Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini.

Mixail Qusman: Hörmətli İlham Heydər oğlu, hər vaxtınız xeyir. Sizi salamlamaq istəyirəm. Təşəkkür edirəm ki, bu gün biz Xankəndidəyik. Forum Şuşa adlansa da, mən qırx il əvvəl sonuncu dəfə bu şəhərdə olmuşam. Yəqin ki, həmkarlarım, həmyerlilərim vəziyyətimi başa düşərlər.

Bilirsiniz, axırıncı Forumda Siz dəqiq müəyyən etdiniz, çünki mən Miluokidən təzəcə qayıtmışdım. Siz yanvarın 20-də Ağ evdə kimin olacağını dəqiq müəyyən etdiniz. O vaxt dəqiq dediniz və belə də oldu. Siz hətta Azərbaycanın ABŞ-la, bu administrasiya ilə münasibətlərinin daha yaxşı olacağını ehtimal etdiniz. Bu barədə Prezident Trampın ölkənin Müstəqillik Günü münasibətilə təbriki əsasında da fikir yürütmək olardı.

Sualım bir az genişdir. Bu gün Azərbaycan, fikrimcə, tamamilə nadir xarici siyasət yürüdür. Başqa hansı dövlətlə müqayisə oluna biləcəyini də bilmirəm. Bütün beynəlxalq azimutlarda, mən Rusiyadan başlayacağam, son zamanlar nə Rusiyada, nə də Azərbaycanda geniş ictimaiyyətin müsbət reaksiyasına səbəb olma ehtimalı az olan, mənim dediyim kimi, son zamanların "çalxalanmalarına" baxmayaraq, 2022-ci il fevralın 22-də Moskvada imzaladığınız müqavilənin əsasları heç bir şübhə doğurmur. Bu, aydındır.

Mən ABŞ haqqında danışdım. Türkiyə ilə münasibətlər Şuşa Bəyannaməsinə əsaslanır. İran Prezidenti cəmi bir neçə gün əvvəl bu zalda idi. Avropa komissarları elə həftə olmur ki, burada olmasınlar. Mən bunları sadalaya bilərəm, o cümlədən Çinə səfəriniz, Qoşulmama Hərəkatındakı rolunuz və sairə. Bunda müəyyən bir fenomen var, onu dünyada heç də hamı başa düşmür. Mənə elə gəlir ki, dünyada heç də hamı bunu layiqincə qiymətləndirmir. Bununla bağlı sadə bir sualım var. Başa düşürəm ki, Sizin bunu necə bacardığınızı soruşmaq virtuoz skripkaçıdan skripkada necə ifa etdiyini soruşmaq kimidir. O deyəcək: "Mən skripkanı, onun yayını götürürəm və ifa edirəm". Amma Sizin siyasətiniz müəyyən, mənə elə gəlir ki, çox aydın, çox yaxşı düşünülmüş siyasi prinsiplərə əsaslanır ki, bu çoxvektorlu siyasəti həyata keçirməyə imkan verir.

Siz Prezident Əliyevin, zənnimcə, belə uğurlu xarici siyasət yürütməsini şərtləndirən 5-7 təməl siyasi prinsiplərini deyə bilərsinizmi? Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Mən bir dəfə avropalı həmkarlarımla qapalı görüşdə, hələ 2020-ci ildən sonra, amma 2023-cü ildən əvvəl, vəziyyət müzakirə olunanda, burada, Xankəndidə hələ də separatçılar olanda bildirmişdim ki, - o qədər uzun söhbət gedirdi, - mən bir dəfə dedim ki, bunu açıq, üz-üzə demişəm, yəni, yox, xalqıma heç vaxt yalan söyləmirəm. Beləcə də dedim. Bu, əslində, doğrudur. Amma sualınıza cavab olaraq, mən beynəlxalq həmkarlarıma da heç vaxt yalan danışmamağa çalışıram. Əlbəttə, imkan daxilində. Hesab edirəm ki, biz obyektiv və dürüst olmalıyıq, yalan danışmamalıyıq. Düşünürəm ki, bu, yəqin ki, əsas prinsiplərdən biridir: ilk növbədə öz xalqıma həqiqəti söyləmək. İnternet və sosial şəbəkələr dövründə yaşadığımız üçün burada dediyiniz hər şey dərhal bütün dünyada rezonans doğurur.

Düşünürəm ki, bu, mənim Prezident vəzifəsində əldə etdiyim çoxillik əvəzsiz təcrübə ilə bağlıdır və onu başqa cür əldə etmək mümkün deyil. Həm də belə

etibarlı münasibətlərin qurulduğu, etimad göstərə biləcəyiniz zaman. Güvənmək razılaşmaq demək deyil, etimad göstərmək nədənsə müəyyən dərəcədə narazı olmaq və ya müsbət gündəmdən başqa bir şeyə sahib olmaq demək deyil. Güvənmək, sadəcə olaraq inanmaq deməkdir ki, əgər bir insan bunu deyibsə, deməli belə olacaq.

Fikirləşirəm ki, bu, bizə beynəlxalq nüfuz qazanmağa imkan verən amillərdən biridir. İkinci amil, məncə, heç də az əhəmiyyət kəsb etmir. Bu, həmişə haqlı olaraq qeyd etdiyiniz kimi, prinsiplərə, konkret olaraq beynəlxalq hüququn universal prinsiplərinə riayət etməkdir. İstənilən vəziyyətdə, istər siyasi, istərsə də başqa üstünlüklərdən asılı olmayaraq, biz həmişə onlara sadiq olmuşuq. Biz özümüz də separatizmdən və işğaldan əziyyət çəkən bir ölkə kimi sadəcə olaraq dünyanın heç bir yerində analoji vəziyyətlərə münasibətimizi başqa cür ifadə edə bilmədik. Ona görə də beynəlxalq hüquqa və BMT Nizamnaməsinə sadiqlik həm də fundamental amildir və hesab edirəm ki, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına imkan verib.

Düşünürəm ki, Azərbaycan coğrafiyası, - mən bu haqda artıq danışmışam, - bu, təbii ki, dərmanlar kimi, kimin əlində olmasından asılı olaraq, müəyyən dərəcədə bəlkə də təhlükəli, bəlkə də çox faydalı bir amildir. Buna görə də özlərini risklərdən qorumaq üçün coğrafiyadan istifadə edirlər. Azərbaycana gəlincə, ölkəmizdə risklərin daxili mənbələri yoxdur. Bütün potensial risklər bizim sərhədlərimizdən kənarda formalaşa bilər. Ona görə də sürprizlərdən, fəaliyyətimizlə bağlı olmayan bəzi risklərdən qorunmaq da vacib idi və bu məsələdə coğrafiyanın mühüm rolu olub. Azərbaycan, eyni zamanda, həm Avropa, həm də müsəlman təşkilatlarının üzvü olan və Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, ECO və bir çox başqa qurumlar vasitəsilə sammit formatlarında fəal iştirak edən azsaylı ölkələrdən biridir. Azərbaycanın nüfuzunu vurğulayan daha bir mühüm amil, deyərdim ki, D-8 Təşkilatına yeni üzv olan ilk və yeganə ölkə olmasıdır. Vaxtilə Türkiyənin, Pakistanın, Misirin təşəbbüsü ilə yaradılan və hazırda müsəlman dünyasının əhalisinə, potensialına görə ən böyük səkkiz dövlətini birləşdirən təşkilat hələ bir çox onilliklər əvvəl yarandığı gündən indiyədək yeni üzv qəbul etməyib. Azərbaycan yekdilliklə qəbul edilən yeganə ölkədir.

Düşünürəm ki, sualınıza sonsuz cavab vermək olar, ona görə də burada dayanacağam. Əlbəttə ki, hər kəs üçün vacibdir: öz maraqlarını nəzərə alanda qonşunun da maraqlarına baxmaq. Yəni, milli maraqların qorunması Azərbaycanın xarici siyasətində fundamental amildir, lakin regional və qlobal kontekstdən ayrılaraq bu amildən güclü sui-istifadə etmək olmaz. Həmişə vəziyyətə baxmaq lazımdır, vəziyyətə qonşunun prizmasından baxmağa çalışın. Onda çox şey aydınlaşır, belə olan halda anlaşılmazlığa səbəb olan bir çox məsələlər kifayət qədər səmərəli nizamlanır. Ona görə də belə bir suala görə sizə minnətdaram.

Yeri gəlmişkən, kiçik bir aydınlıq gətirmək istərdim. Mən Trampın qələbəsini proqnozlaşdırmırdım. Sadəcə dedim; onun bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşdüyünü nəzərə alsaq, Azərbaycan xalqı üçün daha yaxşı olardı. O, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür. Biz, həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq. O, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun.

Moderator Ceyn Viterspun: Çinin Sinxua agentliyinin Bakı ofisinin nümayəndəsi Zhong Zhong, buyurun.

Zhong Zhong: Salam, cənab Prezident. Əvvəlcə Sizə təşəkkür etmək istəyirəm ki, Çinə səfəriniz ərəfəsində Sinxua agentliyinə müsahibə verdiniz. Bu müsahibə Çində çox böyük maraqla qarşılandı. Düzünü desək, Siz artıq Azərbaycanın ən parlaq şəxsiyyətinə çevrilmisiniz. Aydındır ki, səfərinizdən sonra ölkələrimiz arasında təmaslar daha da intensivləşdi. Demək olar ki, hər gün iki ölkə arasında yeni əməkdaşlığa dair xəbərlər eşidirik. Bu baxımdan sualım belədir: Azərbaycan ilə Çin arasındakı mövcud münasibətləri necə qiymətləndirirsiniz? Əməkdaşlığımızın perspektivləri nədən ibarətdir? Qarabağa Böyük Qayıdış çərçivəsində Çin şirkətləri hansı sahələrdə iştirak edə bilər? Çox sağ olun.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Mən ölkələrimiz arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirirəm. Son dövrlərdə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinlə dəfələrlə görüşmək imkanım olub. Bu il dövlət səfərim zamanı və ötən il beynəlxalq sammit çərçivəsində görüşlərimiz baş tutub, həmçinin iki mühüm sənədi qəbul etdik və imzaladıq. Ötən il bu sənəd "Strateji tərəfdaşlıq haqqında Bəyanat", bu il isə "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" olmuşdur. Bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir. Çin Xalq Respublikası ilə bu səviyyədə qarşılıqlı etimada əsaslanan münasibətlər qurmağımız bizi çox sevindirir.

Həmçinin deməliyəm ki, cəmi bir neçə gün əvvəl ümumvətəndaş pasportları ilə Çinə səfər etmək istəyən Azərbaycan vətəndaşları üçün viza rejimi tamamilə aradan qaldırıldı. Biz isə öz növbəmizdə bir il əvvəl Çin

vətəndaşları üçün viza rejimini ləğv etmişik. Düşünürəm ki, bu addım xalqlarımız, tələbələrimiz və iş adamlarımız arasında təmasların daha da intensivləşməsinə səbəb olacaq.

Azərbaycanla Çin hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Azərbaycan açıq şəkildə bildirir ki, Çin Xalq Respublikasının Tayvan və digər məsələlər ilə bağlı mövqeyini dəstəkləyir. Bizim mövqeyimiz olan "vahid Çin" siyasəti Çin rəhbərliyinə və xalqına yaxşı məlumdur.

Ticarət dövriyyəsinin artırılmasına dair böyük planlarımız var. Hazırda bu istiqamətdə böyük potensial mövcuddur. Artıq Çinin bir çox şəhərlərindən Azərbaycana və Azərbaycan ərazisindən Qərbə konteyner qatarları göndərilir. Bu qatarların sayı ildən-ilə hətta onlarla faiz artmaqdadır. Hesab edirəm ki, yaxın zamanda bu göstəricilər dəfələrlə artacaq. Biz cənab Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü əvvəldən dəstəkləmişik və bu məqsədlə ölkəmizdə uyğun nəqliyyat-logistika infrastrukturunu hazır etmişik.

Çin şirkətləri Günəş elektrik stansiyalarının tikintisi layihələrinin reallaşmasında podratçı qismində fəal iştirak edirlər. İnvestor şirkətlər tərəfindən alınan Günəş panelləri Çin istehsalıdır. Son dövrlərdə biz, həmçinin Çin şirkətləri ilə bərpaolunan enerji – Günəş və külək enerjisi sahəsində əməkdaşlığa başlamışıq. Artıq müvafiq sazişlər imzalanıb və düşünürəm ki, bu sahə də qarşılıqlı faydalı əməkdaşlığımıza mühüm töhfə verəcək.

Yəni, münasibətlərimiz çox möhkəmdir. Həm dövlət başçıları, həm də nazirlər səviyyəsində çox fəal siyasi dialoq aparılır. Çinin müxtəlif regionları ilə də çox sıx əməkdaşlıq qurulub. Artıq Çində Azərbaycanın bir neçə ticarət evi fəaliyyət göstərir. Bu istiqamətdə böyük perspektivlər görürük.

Nəqliyyat-logistika layihələri ilə bağlı dediyim kimi, Çin Xalq Respublikası tərəfindən Mərkəzi Asiyada maliyyələşdirilən yeni dəmir yolu arteriyaları Xəzər dənizindən Azərbaycana və daha sonra beynəlxalq marşrutlar üzrə yük axınlarının həcminin artmasına şərait yaradacaq.

Sualınıza görə təşəkkür edirəm. Xoş gəlmisiniz.

Moderator Ceyn Viterspun: Növbəti sual üçün sözü AnewZ-un Vaşinqton müxbiri Oubai Şahbandara veririk.

Oubai Şahbandar: Cənab Prezident, mən Azərbaycanın Birləşmiş Ştatlarla münasibətlərinə dair sual vermək istəyirəm. Bir il əvvəl Siz Şuşa Forumunda Prezident Trampın birinci prezidentliyi dövründə onun müharibələrə getməmək irsini tərif formasında vurğuladınız. Təbii ki, Siz ənənəvi dəyərlər məsələsini qeyd etdiniz və bildirdiniz ki, o vaxt namizəd olan Prezident Tramp Sizin də şərik çıxdığınız xüsusi siyasətə önəm verir. Bir il keçdikdən sonra Prezident Tramp seçkidə birmənalı şəkildə qalib gəldi. Bu, Azərbaycan-ABŞ münasibətlərində potensial qaydada yeni era hesab edilə bilərmi? Amerika və Azərbaycan yenidən böyük dost ola bilərlərmi?

Prezident İlham Əliyev: Əslində, biz buna ümid edirik və düşünürəm, hazırda Tramp Administrasiyasının nümayəndələri ilə qarşılıqlı fəaliyyətin bir neçə ayı aydın şəkildə göstərir ki, biz düz yoldayıq. Biz normal münasibətlərə qayıdırıq. Bilirsiniz, əvvəlki ABŞ Administrasiyası demək olar ki, ABŞ-Azərbaycan əlaqələrini heçə endirmişdi. Dövlət Departamentinin yüksəkrütbəli rəsmiləri açıq söyləyirdilər ki, Azərbaycanla bir daha işlər adi qaydada gedə bilməz və bu, suverenliyin və ərazi bütövlüyünün tərəfimizdən bərpa olunması ilə bağlı idi. Təsəvvür edə bilərsinizmi? Birləşmiş Ştatlar öz suverenliyini bərpa etmək üçün Ukraynanın səylərini güclü şəkildə dəstəkləyirdi və dəstəkləyir, lakin biz öz suverenliyimizi bərpa etdikdə onlar bəyan etdi ki, işlər artıq adi qaydada aparıla bilməz və bunları Dövlət Departamentinin yüksəkrütbəli rəsmisi deyirdi. Prezident Baydenin Administrasiyası tərəfindən atılmış və qeyri-dost hesab etdiyimiz bir çox digər addımlar münasibətlərin korlanmasında, əslində, əsas meyar idi. Əlbəttə, Prezident Bayden hər il etdiyi kimi, Azadlığa Dəstək Aktının 907-ci düzəlişinin dayandırılmasından uzaqlaşaraq, bu cür qərarı yenidən qəbul etmədiyini biz çox ciddi nəzərə aldıq, çünki biz onlara Əfqanıstanda lazım olduğumuz zaman, o və onun sələfləri həmin düzəlişin qüvvəsini əvvəllər dayandırırdı. Əfqanıstanda biz onlara artıq lazım olmadığımız dövrdə onlar 1992-ci ildə qəbul olunmuş sanksiyaları Azərbaycana qarşı yenidən tətbiq etdilər. Beləliklə, 1992-ci ildə ABŞ Konqresinin Azərbaycana qarşı qəbul etdiyi sanksiyalar onunla bağlı idi ki, Azərbaycan Ermənistanı blokadaya alır və bu, Prezident Trampın dediyi kimi, saxta xəbərlər əsasında olan məsələ idi. Biz Ermənistanı blokadaya almamışdıq. Ermənistan ərazimizi işğal etmişdir, lakin ABŞ Konqresində ermənipərəst lobbinin fəaliyyəti nəticəsində həmin sanksiyalar tətbiq edildi. 2001-ci ildə biz ABŞ-a Əfqanıstandakı missiyasında lazım olduğumuz zaman Prezident və ovaxtkı bütün prezidentlər həmin sanksiyanın qüvvəsini dayandırırdı. Amma Prezident Bayden onu yenidən tətbiq etdi. Beləliklə, indi biz hazırda Birləşmiş Ştatlarla güclü tərəfdaşlıq münasibətləri üçün böyük potensialı görürük. Biz Vaşinqtondan çox müsbət mesajlar almışıq və Azərbaycandan gedən mesajlar da çox müsbətdir. Bizim enerji təhlükəsizliyi və bütövlükdə, təhlükəsizlik və daşımalara aid sahələrdə güclü tərəfdaşlıq tariximiz var. Artıq dediyim kimi, biz ABŞ-la İraqda və Əfqanıstanda onlara lazım olduğumuz zaman olmuşuq və hərbi qulluqçularımız onlarla çiyin-çiyinə xidmət edib. Gözləntimiz böyükdür və ümid edirik ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək

səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq. Düşünürəm ki, bu, tamamilə təbiidir, çünki bir çox məsələlər bizi, xüsusən də cənab Trampın Administrasiyası ilə birləşdirir. Yeri gəlmişkən, onun ilk prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri çox müsbət olmuşdur. Fikrimcə, artıq gördüyünüz və söylədiyim həmin müsbət tendensiyaların davamı olacaq. Hazırda o, bütöv qlobal məsələlərlə və müharibələrin dayandırılması ilə çox məşğuldur. Lakin eyni zamanda o, Cənubi Qafqaz prosesində fəal iştirak edir və uzunmüddətli münaqişənin həllinin tapılması üçün Azərbaycana və Ermənistana yardım etməkdə əla iş görür. Beləliklə, düşünürəm ki, gələcəkdə daha çox yaxşı xəbərlərimiz olacaq.

Moderator Ceyn Viterspun: Sağ olun. Cənab Agha Iqrar Haroon, DND Xəbərlər Agentliyinin rəhbəri, buyurun.

Agha Iqrar Haroon: Çox sağ olun. Cənab Prezident, əvvəlcə Pakistanın üzləşdiyi çətin anlarda gördüyünüz işlərə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Siz, bütün ölkəniz və xalqınız təcavüz zamanı Pakistanın yanında oldunuz. Bunu heç zaman yaddan çıxarmayacağıq. Buna görə çox sağ olun.

Sualım, əsasən, bizim rusiyalı və ukraynalı dostlarımız arasında olan məsələyə aiddir. Cavabınızı bilmək istərdim. Siyasi fəlsəfənin tədqiqatçısı kimi görürəm ki, Azərbaycan çox rəvan, lakin qəti şəkildə beynəlxalq danışıqların və vasitəçiliyin qovşağına çevrilir. Siz bu yaxınlarda İsrail və Türkiyə arasında vasitəçi oldunuz. Ondan əvvəl isə Rusiya ilə NATO arasında görüşə ev sahibliyi etdiniz. Düşünürəm ki, bu məsələlər çox əhəmiyyətlidir. Lakin Sizdən həmin uğur hekayəsinin arxasında dayanan meyarların düsturunu soruşmazdan əvvəl bir məsələni qeyd etmək istərdim. Siz ECO-nu qeyd etdiniz. ECO o qədər də operativ və ya qeyd etdiyiniz kimi, o qədər də uğurla çalışmadı. Belə mühüm regional təşkilatın süstlüyü arxasında nə kimi meyarlar dayana bilər? Ukrayna ilə Rusiya arasında münaqişənin heç olmasa dayanması üçün rol oynaya bilərsinizmi? Çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz yalnız dəvət olunan zaman məsələyə qoşuluruq. Əgər dəvət olunmuruqsa, biz öz yerimizdə qalırıq. Kiminsə dəvətsiz getdiyi kimi biz getmirik. Əgər dəvət olarsa, düşünürəm ki, biz lazımi vasitəçilik edə bilərik. Amma gərək xahiş edilsin.

ECO-ya gəldikdə, razıyam ki, bu təşkilatın çox böyük potensialı var və Xankəndidə Zirvə görüşündə biz bu təsisata yeni bir ölçü gətirmək istədik. Zirvə görüşündən əvvəl mən Baş katib cənab Xan ilə görüşdüm, - bildiyiniz kimi, o, pakistanlıdır, - razılığa gəldik ki, bu dəfə müxtəlif forumlar keçiriləcək. Onların hamısı burada, azad edilmiş ərazilərdə, biri Şuşada, digəri Ağdamda və üçüncüsü isə Laçında təşkil olundu. Biznes, Qadınlar və Gənclər forumları baş tutdu. Sonra isə həmin forumların təmsilçiləri Zirvə görüşündə dövlət başçıları qarşısında müzakirə etdikləri və razılaşdırdıqları məsələlər barədə hesabat verdilər.

Beləliklə, bizə lazımdır ki, ECO daha güclü və səmərəli olsun, çünki ölkələrin potensialını real qaydada bilirik. Üzv dövlətlər arasında daha fəal və o qədər fəal olmayan ikitərəfli münasibətlər var, lakin bizə çoxtərəfli yanaşma lazımdır. Bu baxımdan, düşünürəm ki, Azərbaycanın səyləri qiymətləndirildi. Həmin öhdəliyi biz sədr kimi üzərimizə götürdük və əminəm ki, işlər uğurlu olacaq. Bizim ECO-dan xeyli böyük olan təsisatlarda, o cümlədən Qoşulmama Hərəkatında zəngin sədrlik təcrübəmiz var. Üç il ərzində fəaliyyətimiz o qədər yaxşı oldu ki, üzv dövlətlər yekdil olaraq sədrliyimizi bir il də artırmaq qərarına gəldilər. Beləliklə, dörd il ərzində sədr olduq və Qoşulmama Hərəkatına çox dinamika gətirdik. Biz hazırda işləyən Parlament Şəbəkəsini yaratdıq, Qadınlar və Gənclər platformalarını təsis etdik. Bir sözlə, beynəlxalq təşkilatı daha güclü və hərtərəfli edən işlərin hamısını gördük. Bizdə həmin mexanizmlər var. Biz və bir çox digər ölkələr müxtəlif beynəlxalq təsisatlarda iştirak edirik, lakin bəzən həmin beynəlxalq təsisatlarda həmrəylik çatışmır. Bir sözlə, əlimizdən gələni edəcəyik.

Xarici siyasətimizə gəldikdə deyərdim ki, onun istiqaməti dəyişməyib, lakin forması dəyişib. Səbəb ondadır ki, Qarabağ münaqişəsi tarixdə qaldıqdan sonra bizim işğal zamanı etmədiyimiz məsələlərə indi daha çox vaxtımız var. Bir halda ki, münaqişə həll olunub, vaxt qalır. Bununla belə, bütün sonsuz danışıqlar, Minsk qrupu üçlüyünün bütün mənasız səfərləri çox vaxt aparırdı. O zaman vaxtımız qalmırdı və digər məsələni həll etmək potensialımız olsa da, onunla məşğul olmurduq. Bütün xarici siyasətimiz təbii olaraq ərazi bütövlüyümüzün bərpasına yönəlirdi. İndi məsələ həll olunduqdan sonra biz beynəlxalq arenada daha fəalıq və qeyd etdiyiniz kimi, müxtəlif ölkələr arasında vasitəçilik səylərimiz bunun yalnız bir hissəsidir. Biz beynəlxalq ictimaiyyətin həqiqətən fəal üzvünə çevrilmişik. Fərqli beynəlxalq iştirakçılarla güclü əlaqələrə malik olan ölkəmiz ən azı geniş regionda daha mühüm rol oynaya bilər və oynayacaq. Geniş region dedikdə, mən Cənubi Qafqazı, Orta Şərqi, Mərkəzi Asiyanı və Azərbaycanın yaxınlığında olan bütün yerləri nəzərdə tuturam. Həmçinin Avropa da ola bilər, çünki Avropa İttifaqı ilə gündəliyimiz deyərdim ki, yenidən başlama prosesindədir. Həmçinin əvvəlki Avropa Komissiyası ilə çətin anlar olub, lakin indiki yeni Komissiyadan, onun rəhbərliyindən müsbət mesajlar alırıq. Birmənalı olaraq, biz də müsbət cavab veririk.

Moderator Ceyn Viterspun: Sağ olun. “Berliner Verlag” qəzetinin redaktoru Holger Fridrix buyurun, sualınızı verin.

Holger Fridrix: Təşəkkür edirəm, cənab Prezident və hörmətli həmkarlar. Dəvət üçün minnətdaram. Mən Almaniyadan, Berlindən gəlmişəm və görünür ki, Avropanın Qərb ölkələrində Azərbaycanla bağlı bir az ziddiyyətli rəy var. Şəxsi müşahidəm göstərir ki, son bir neçə il ərzində bu regionda, Özbəkistanda, Qazaxıstanda və hətta Azərbaycanda tam başqa hadisələr gedir. Əksinə, region çox inkişaf edir, dinamikdir, yüksək mədəniyyətə və böyük planlara malikdir. Hətta Ermənistanla münaqişəyə gəldikdə məsələ çözülür. Avropaya baxsaq isə hələ əfsuslar ki, həll variantı yoxdur. Sualım belədir, Siz siyasi lidersiniz, Azərbaycana görə məsuliyyət daşıyırsınız. Əgər Siz Qərbi Avropada ictimai rəyə təsir etmək arzusunda olsaydınız, Azərbaycan haqqında hansı təəssüratın olmasını istəyərdiniz? Mən medianı yox, ictimai rəyi nəzərdə tuturam. Bu haqda nə düşünürsünüz?

Prezident İlham Əliyev: Bəli, siz bunu məndən yaxşı bilirsiniz ki, ictimai rəyə əsasən media təsir edir, xüsusən də tanımadığınız ölkə haqqında təhlilə gəldikdə. Sizin rəyiniz media əsasında formalaşır və siz çox diplomatik söz işlətdiniz: “ziddiyyətli”. Buna görə minnətdaram. Lakin tam açıq danışsaq, Qərbin ictimai rəyi və Qərb mediasının təsiri Azərbaycana gəldikdə çox mənfi və ədalətsizdir. Biz çalışdıq bunu dəyişək, amma alınmadı. Ona görə yox ki, biz fəal deyilik, biz çox fəalıq. Səbəb ölkəmiz haqqında müxtəlif saxta hekayətlərin söylənilməsi və şayiələrin yayılmasında, Azərbaycanı qara rəngdə təsvir etməsi üçün diktə edən Avropanın siyasi spektrində olan bəzi qaydalarda və prosedurlardadır. Bunun bir neçə səbəbi mövcuddur. Onlardan birini yaddan çıxarmalı deyilik. O, ABŞ-da çox fəal olan birləşmiş erməni lobbi qruplarıdır. Siz və biz bilirik ki, Qərbdə, o cümlədən Almaniyada bəzi media ABŞ-ın təsiri altındadır. Yəni, erməni mediasının təsiri ilə anti-Azərbaycan dairələrindən reportajlar daxil olanda, birmənalı olaraq, biz Azərbaycana qarşı ümumi media hücumunu görürük. Biz bununla artıq bir neçə dəfə rastlaşmışıq. Mən bunu böyük beynəlxalq tədbirlər ərəfəsində dəfələrlə görmüşəm. Birincisi, 2015-ci ildə Azərbaycanda ilk Avropa Oyunları keçiriləndə oldu. O vaxt biz saxta hekayətlər, hücumlar və Qərb mediasının müxtəlif qarayaxma cəhdlərinin hədəfinə çevrildik. Sonuncu misal COP29 idi. Həmin vaxt Qərbin aparıcı mediasında gündə ən azı, ola bilsin 7 və ya 10 məqalə çıxırdı. Prezident Tramp onları saxta xəbər adlandırır. Məsələn, “Washington Post”, “New York Times”, “Newsweek”, yaxud Fransanın “Le Monde” və “Figaro” kimi mətbuat orqanları. Bunlar Azərbaycanı gözdən salmaq üçün əlaqələndirilmiş, təşkil olunmuş hücumlar idi. Birinci səbəb isə erməni lobbisinin ayaq alması oldu. İkincisi, bilirsiniz, biz ölkəmizin potensialını bilirik. Azərbaycanın müxtəlif sahələrdə əhəmiyyətini bilirik və vaxt keçdikcə gücümüz də artır. Əlbəttə, Qərbdə bəzi dairələrdə böyük məyusluq var idi ki, Azərbaycan həddindən artıq müstəqil siyasət aparır, təlimatlarımıza qulaq asmır, məsləhətlərimizə məhəl qoymur və istədiyini edir. Əgər biz həmin məsləhətləri dinləsəydik, ola bilsin, bu gün ölkəmiz ən azı iki qonşusu ilə müharibədə idi. Əgər məsləhətləri dinləsəydik, biz Qarabağı heç zaman qaytara bilməzdik. Əgər məsləhətləri dinləsəydik, bu gün ola bilsin BVF-dən və onun “parçala və hökm sür” strategiyasından asılı olardıq. Bir sözlə, biz məsləhətlərə qulaq asmadıq. Güclü ölkəni, güclü iqtisadiyyatı qurduq. Xarici borcumuzu ÜDM-in 6,9 faizinə qədər azaltdıq. Bizi tənqid edənlərin xarici borcu ÜDM-in 100 faizindən çoxdur. Biz yoxsulluğu 49 faizdən 5 faizə endirdik. Mən Fransada yoxsulluq haqqında danışmaq istəmirəm. Məncə, təxminən 16 faizdir. Bax, beləcə oldu. Biz öz həyatımızı yaşayırıq, öz iradəmizi təlqin etmirik. Biz avropalılara özünü necə aparmağı, necə evlənməyi və necə yeməyi öyrətmirik. Lakin eyni münasibəti də özümüz üçün istəyirik. Biz hörmət istəyirik. Biz istəyirik həyatımıza, torpağımıza anlayışla yanaşsınlar və biz Azərbaycan xalqının bizdən istədiyini edirik. Beləliklə, səmimi desək, biz Avropada ictimai rəyə təsir göstərmək səylərimizi də artıq kənara qoymuşuq. Biz bunun vaxt itkisi olduğunu düşünürük. Lakin ən yaxşı yol belə tədbirlərin keçirilməsidir. Burada jurnalistlər, media, 50-dən çox ölkədən liderlər toplaşıb və hər il auditoriya daha da böyüyür, yeni qonaqlar gəlir. Odur ki, ən yaxşı yol bizi tərifləmək deyil, ən yaxşı yol buraya gəlməyiniz və insanlarla danışmağınızdır. İnsanların mənim, hökumət, inkişaf haqqında nə düşündüklərini öyrənməkdir. Sonra yalnız bir şey lazım olacaq, auditoriyaya həqiqəti söyləmək. Düşünürəm ki, bu, qarşılıqlı anlaşmanı qat-qat yaxşılaşdıracaq. Təşəkkür edirəm.

Moderator Ceyn Viterspun: "Qafqaz xəbərləri" kanalının müəllifi və aparıcısı Qela Vasadze, buyurun.

Qela Vasadze: Cənab Prezident, hər vaxtınız xeyir. Daha bir - artıq üçüncü Şuşa Media Forumu adlanan tədbirə görə çox sağ olun. Həqiqətən də böyük zövq mənbəyi olan bir tədbirdir. Hazırladığım bir sıra suallar artıq verilib. Hər halda sual verəcəyəm. Mənim hələ də suallarım var, il ərzində onlar kifayət qədər yığılıb. Əbu-Dabidəki görüş haqqında. Əbu-Dabidəki görüşdən sonra, düzünü desəm, yanımda əyləşən dostum Fərhad Məmmədova davamlı olaraq deyirdim. Biz tanış olanda dedim ki, Fərhad, hər şeydən danışa bilərik, amma gəlin, bir məsələdə razılaşaq: Azərbaycanla Gürcüstanın milli maraqları, strateji maraqları tamamilə üst-üstə düşür. Əbu-Dabidəki görüşdən sonra düşündüm: necə olur ki, Ermənistanın və Azərbaycanın milli maraqları bir-birinə bu qədər ziddiyyət təşkil edir? Strateji cəhətdən ziddiyyət nədədir? Düzünü desəm, mən bu ziddiyyətləri görmədim. Çünki Ermənistanın maraqları Azərbaycanın maraqları ilə eynidir - normal qonşusu, tərəfdaşı olsun

və bunu inkişaf etdirsin. Biz artıq o yerə gəlib çatmışıq ki, bu maraqlar dərk edilib. Əslində, bizdə belə bir mənzərə formalaşıb ki, xarici qüvvələr, - mən bəzi ölkələri nəzərdə tutmuram, - sadəcə, konkret maraqları olan insanlardan ibarət qrup ölkələrimizə və adamlara burada – regionda yaşamağa mane olur. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Zənnimcə, bu kontekstdə, bu tarixi məqamda sualınız tamamilə qanunauyğundur və Ermənistan ilə Azərbaycanın maraqlarının üst-üstə düşə biləcəyinə heç bir etirazım yoxdur. Amma məsələ burasındadır ki, Ermənistan bunu həmişə başqa cür görüb. Əgər işğal olmasaydı, azərbaycanlıların vəhşiliklə, dağıntılarla, soyqırımları ilə deportasiyası baş verməsəydi, Cənubi Qafqazda vəziyyət tamamilə başqa cür olardı. Cənubi Qafqaz iqtisadi, siyasi, nəqliyyat və hər şeydən əvvəl, enerji baxımından çoxdan inteqrasiya olunmuşdu. Hər şey yaxşı olardı, bu qədər vaxt itirilməzdi. Səbəb bizdə deyil, səbəb Sovet İttifaqı dağılandan bəri Ermənistanı idarə edən rejimlərin işğalçı xarakterindədir. Onların heç biri azərbaycanofobiyası və Azərbaycana qarşı motivi olmayan təcavüzü ilə bir-birindən xüsusilə fərqlənmirdi.

Siz ilk dəfə deyil ki, burada olursunuz və yəqin dini ziyarətgahlarımızın həm dağıdılmasına, həm də təhqir olunmasına diqqət yetirmisiniz. Mən burada olanda tez-tez baş çəkirəm, vaxtaşırı öz-özümə sual verirəm: axı, biz sovet dövründə onlara pis heç nə etməmişik, qətiyyən. Onlar burada dinc yaşayırdılar, yarımuxtar quruma malik idilər. Respublika yox, amma muxtar vilayət idi. Bu muxtar vilayətə erməni millətindən olanlar rəhbərlik edirdilər. Bu bina ilə üzbəüz, dediyim kimi, keçmiş vilayət komitəsinin binası var. Orada vilayət komitəsinin birinci katibi otururdu - erməni idi. İcraiyyə komitəsinin sədri də erməni olub. Dağlıq Qarabağ Muxtar Vilayəti vilayət komitəsi bürosunun 9 üzvü var idi və onların arasında yalnız bir azərbaycanlı olub. O da ki, Şuşa rayon komitəsinin birinci katibi idi və sadəcə, vəzifəsinə görə orada olmalı idi, olmasaydı, onu da oraya daxil etməzdilər. Hansı sıxışdırma barədə danışırdıq? Heç bir sıxışdırma yox idi. Əksinə, o zaman sovet hakimiyyətinin olduğu Azərbaycan Respublikasının verdiyi bütün nemətlərdən istifadə edirdilər. Bu meydanda gördüyünüz hər şey istisnasız olaraq Azərbaycan memarları tərəfindən tikilib. Rayon komitəsinin binasını memar Həsən Məcidov, indi bərpa etdiyimiz "Qarabağ" otelinin binasını isə Memarlar İttifaqının indiki sədrinin atası, memar Ənvər Qasımzadə tikdirib. Hazırda bərpa olunan icraiyyə komitəsinin binası azərbaycanlı memar Kəngərli tərəfindən tikilib. Yəni, bütün bunlar olub. Bunların hamısı kindir. Ağdamı, necə deyərlər, Qafqazın Xirosimasına çevirmək nəyə lazım idi? Axı bu, müharibə bitəndən sonra edilib. Bu, Azərbaycanla, azərbaycanlılarla bağlı hər şeyin məhvinə yönələn səbəbsiz kin-küdurətdir.

İndi Əbu-Dabidən və İrəvandan eşitdiyimiz şərhlərdən danışsaq, bəli, bu, yaxşı şərhdir və mən baş nazir Paşinyanın Qarabağın daha əvvəl Azərbaycanın bir hissəsi kimi tanınmalı olması ilə bağlı dedikləri ilə tanış idim. Belə də olmalı idi. Mən bunu onlara dedim. 2018-ci ildə də, 2019-cu ildə də dedim, xəbərdarlıq etdim ki, pis olacaq. Yaxşı, əvəzində nə baş verdi? Buradan çıxanda bir az sola gedib daha sola baxsanız, bir futbol stadionu görəcəksiniz. Hazırda rekonstruksiya işləri aparılır. Stadion 1950-ci illərdə tikilib və bilirsiniz kimin adı verilib? Yox? Heç bir fikriniz yoxdur? Stalin adına stadion. Deməli, bu stadionda indi Qarabağın daha əvvəl Azərbaycanın tərkib hissəsi kimi tanınmalı olduğunu deyən baş nazir Paşinyan 2019-cu ilin yayında keçirilən böyük mitinqdə bildirib ki, "Qarabağ Ermənistandır və nöqtə". Beləliklə, necə deyərlər, özü üçün ağır həyata imza atıb. Hələ mən Şuşa çəmənliklərində baş verənləri, yaxud, yeri gəlmişkən, - mən burada parlament adlanan yerdən danışırdım, - cənab Paşinyanın qərarı ilə onu Şuşa şəhərinə köçürmək qərarına gəliblər və orada tikintiyə başlayıblar. Buraya gələndə, hətta o yerə gedib birbaşa xalq üçün çıxış etdiyimi də xatırlayıram, bu binanın qarşısında ona müraciət etmişdim. Biz onu dağıtdıq. İkinci sual: İndi bu binanın yerində nə olduğunu bilirsiniz? Bilin, qaldığınız "Şuşa" otelidir. Hekayə bundan ibarətdir.

İndi biz özümüzə məxsus olanı qaytarmışıq və hamı bununla barışıb, bəli, mən ciddi ziddiyyətlər görmürəm. Amma erməni həmkarımla uzun diskussiya zamanı müzakirə etdiyimiz mövzulardan biri də tərəflər arasında etimadın çox aşağı səviyyədə olması idi. Bu, tamamilə başadüşüləndir. Bizə gəlincə, mövqeyimiz heç vaxt dəyişməyib. 2003-cü ildə "Qarabağ bizim torpağımızdır!" dediyim kimi, bu 22 il ərzində də bunu demişəm və deyirəm. Amma ermənilərin mövqeyi dəyişib. Onun yenidən dəyişməyəcəyi ilə bağlı təminat varmı? Belə bir zəmanət var? Etimologiyanı, şüurun təkamülünü nəzərə alsaq, mənim belə bir təminatım yoxdur. Beynəlxalq hüququn normaları və Əbu-Dabidə dediyim kimi, separatçılığın tabutunun üzərini dəmir-betonla qapadacaq sənədlər zəmanət olmalıdır. Əgər erməni tərəfi Qarabağ münaqişəsinin bitdiyini hesab edirsə, Qarabağ münaqişəsinin həlli üçün yaradılmış Minsk qrupunu ləğv etmək lazımdır. Məntiq sadədir. Bunun üçün Ermənistan konstitusiyasına dəyişikliklər edilməlidir ki, oradan Azərbaycana qarşı ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsi çıxarılsın. Prinsipcə məsələ budur. Buna görə də sülh sazişinin mətni razılaşdırılıb. Bu sənədin paraflanması ideyası da Azərbaycan tərəfindən irəli sürülüb. Biz sadəcə olaraq, Əbu-Dabidə baş verənləri şərh etmədik. Fikirləşdik ki, kommünikenin birgə mətni üzərində razılığa gəldiyimiz üçün şərh ediləcək heç nə yoxdur. Amma erməni tərəfi həmişə olduğu kimi, öz şərhləri ilə təfərrüatları ortaya

qoymağa çalışır. Prinsipcə, dediyim kimi, biz tabutun üzərini dəmir-betonla qapatmaqdan və bundan sonra normal yaşamaqdan uzaqda deyilik. Mən bunu əvvəlki görüşlərdə də demişəm: siz öz həyatınızı yaşayın, biz də öz həyatımızı yaşayaq. Ancaq belə olan təqdirdə Cənubi Qafqazda az-çox məqbul situasiya tədricən yarana bilər ki, üç ölkə nəhayət, heç olmasa, hər hansı əməkdaşlıq imkanlarını müzakirə etməyə başlaya bilsin.

Beləliklə, sualınıza görə təşəkkür edirəm və bir daha xoş gəlmisiniz deyirəm.

Moderator Ceyn Viterspun: “Reuters” agentliyindən Nailə Balayeva, buyurun, sualınızı verin.

Nailə Balayeva: Cənab Prezident, mənim bir neçə sualım var. Avropa İttifaqının Rusiya qazından imtinası planına gəldikdə, 2027-ci ilə qədər Azərbaycan qaz ixracını artırmağa hazırdırmı? Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın baş naziri bəyan edib ki, bu barədə ABŞ-dan təkliflər daxil olub. Bununla bağlı Bakının rəsmi mövqeyi nədən ibarətdir?

Növbəti sualım Azərbaycan və Rusiya münasibətlərinə dairdir. Nə üçün Azərbaycan MDB-nin İqtisadi Şurasının iclasına qatılmadı, bu qərar hansı səbəbdən qəbul edilmişdi və bu gün Azərbaycan ilə Rusiya arasında münasibətlər hansı səviyyədədir? AZAL şirkətinə məxsus təyyarəsi ilə bağlı insidentlə əlaqədar Azərbaycanın şərtləri, tələbləri Rusiya tərəfindən qəbul edilibmi?

Prezident İlham Əliyev: Avropa İttifaqı ilə əməkdaşlığa gəldikdə bilirsiniz ki, 2021-ci ildə biz energetika sahəsində strateji tərəfdaşlıq haqqında sənəd imzaladıq və o zaman biz ixracımızı 8 milyarddan 13 milyard kubmetrə qaldırdıq. Bu gün 12 ölkəyə qaz ixrac edirik. Onların 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvüdür. Yəni, Avropa İttifaqı Azərbaycanı etibarlı və ümum-Avropa qaz təchizatçısı adlandırır. Coğrafi əhatə baxımından maye qaz deyil, boru kəməri ilə nəql olunan qaza gəldikdə Azərbaycan qlobal səviyyədə aparıcı ölkələrdən biridir. Mən bu yaxınlarda Xəzər neft sərgisində neft hasilatı ilə bağlı planlarımız haqqında danışdım və bəyan etdim ki, bizim planımız 2030-cu ilə qədər qaz hasilatını daha 8 milyard kubmetr artırmaqdır. Yəni, bu gün biz 25 milyard kubmetr ixrac ediriksə, o zaman üçün təqribən 33 milyard kubmetr təşkil edəcək. Sual ondan ibarətdir ki, bu əlavə 8 milyard kubmetr hansı istiqamətdə ixrac ediləcəkdir? Mən bu haqda danışmışam. Artıq qeyd etdim ki, bizim neft kəmərimiz və interkonnektorlar tam həcmdə doludur və bu neft kəmərləri genişləndirilməsə, ixrac haqqında danışmaq çətin olar.

Avropa İttifaqı məsələsinə gəldikdə isə onlar Rusiya qazından imtina etmək niyyətindədir, biz bunu heç vaxt nəzərə almamışıq. Biz heç bir halda Rusiya ilə rəqabət aparmağa çalışmamışıq. Hətta o dövrdə ki, Rusiya Avropaya 150 milyard kubmetr qaz nəql edirdi. Biz heç vaxt deməmişik ki, buna alternativ ola bilərik. Biz sırf kommersiya prinsipləri əsasında fəaliyyət göstəririk. Bizim enerji siyasətimiz biznes məqsədli olub. Biz bunu heç vaxt siyasiləşdirməmişik, heç bir zaman qazın həcmini azaltmamışıq. Hətta o ölkələrə ki, onlar heç vaxt bizimlə razılaşmayıblar. Bu, sırf kommersiya prinsiplərinə əsaslanaraq öhdəliklərimizi rədd etdiyimiz mənasına gəlmir və heç bir ölkəyə qaz nəqlində indiyə qədər fasiləyə yol verməmişik. Budur, bizim məsələmiz belədir. Əlavə 8 milyard kubmetr üçün bazarlar müəyyən edilir. Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk. Bazara çıxış baxımından da biz bu məsələləri kommersiya prinsipləri əsasında dəyərləndiririk.

Amerika şirkətinin Zəngəzur dəhlizini bir növ icarəyə götürməsi ilə bağlı sualınıza gəldikdə bu, Ermənistan rəhbərliyinə ünvanlanmalıdır. Bizim ərazidə heç bir operator, heç bir ticarətçi, heç bir icarədar ola bilməz. Ermənistan nə etmək istəyir? Onlar çox şey edə bilərlər, mənim bundan xəbərim yoxdur. Onlar artıq dırnaqarası “Avropa müşahidəçiləri”ni də sərhədə dəvət ediblər. Onlar sərhəddəki peşəkar casuslardır və İrana qarşı casusluq fəaliyyəti aparırlar. Xüsusilə də bu son İran-İsrail münaqişəsi zamanı onlar İran sərhədi boyu hərəkət edirlər. Düzdür, onlar binokl vasitəsilə bizə də baxırlar, ancaq biz də öz ərazimizdən onları izləyirik. Sabah Ermənistan istənilən ölkəni, tərəfi də dəvət edə bilər. Bizim üçün isə ən başlıca məsələ odur ki, - mən Əbu-Dabidə həmkarıma dedim, - bizim Azərbaycandan Azərbaycana maneəsiz və təhlükəsiz keçidimiz olmalıdır. Bu, Azərbaycanın bir bölgəsindən ölkənin digər bölgəsinə keçiddir. Bizim yüklər və bizim vətəndaşlar, Azərbaycan vətəndaşları hər dəfə orada sərhədçi erməninin simasını görməli deyil. Budur bizim tələbimiz. Bu, legitim tələbdir, bu, ədalətli tələbdir. Əks təqdirdə bizim vətəndaşlarımız təhlükə altında olacaqdır. Mən yaxşı xatırlayıram, sovet dövründə qatar Bakıdan Naxçıvana hərəkət edərkən məhz Ermənistan ərazisindən Zəngəzurdan keçən bir hissədə qatara daş atılırdı, nəticədə qatarın pəncərələri qırılırdı. Biz bunu çox yaxşı xatırlayırıq və bu, sovet dövrü idi. Bu nizam-intizam və cəza mexanizmlərinin hökm sürdüyü bir dövrdür. Bu gün biz vətəndaşlarımızı riskə ata bilmərik. Ona görə orada heç bir fiziki təmas olmalı deyil və onlar üçün təminatlı tədbirlər həyata keçirilməlidir ki, insanlar və yüklər təhlükəsiz şəkildə hərəkət etsin. Bu, legitim tələbdir.

Rusiya ilə münasibətlərə gəldikdə, siz təyyarə qəzasını qeyd etdiniz. Təəssüflər olsun ki, biz Rusiya rəsmilərindən heç bir cavab almamışıq. Artıq bu hadisədən yeddi ay keçibdir. Bizim üçün hər şey aydındır, biz bilirik nə baş verib. Biz bunu sübut edirik

və bilirik ki, Rusiya rəsmiləri də bundan xəbərdardır. Onlar da gözəl bilirlər nə baş verib. Ona görə də istənilən qonşu bunu etməli idi. Bizim tələbimiz təbii tələb idi. Qoy, öz günahlarını etiraf etsinlər. Bizim təyyarəni vuranlar cəzalandırılsın və ailələrə təzminat ödənilsin, qurbanların və yaralıların ailələrinə, AZAL-ın təyyarəsinə görə də təzminat ödənilməlidir. Əlbəttə, mən bu haqda daha təfərrüatlı danışa bilərəm. İstəyirsinizmi mən bu haqda daha çox danışım, daha təfərrüata varım?

Bu məsələyə daha bir neçə dəqiqə həsr etmək istəyirəm. Bizim pilotlar cəsarət və peşəkarlıq göstərərək təyyarəni qəza enişinə yönləndirdilər və tam heyət, bütün sərnişinlər həlak olmadı. Biz dərhal oraya - Aktauya heyət göndərdik. Onlar çəkiliş aparırdılar və gördülər ki, təyyarənin füzulyajı dəlmə-deşik edilmişdir və hətta təyyarədə olanların iki nəfəri də qəlpə yarası almışdır. Guya, Ukrayna dronu bizim təyyarəmizlə toqquşmuşdur. Bu gülünc bir iddia, təklif, versiya idi.

Təyyarəmizə qarşı iki dəfə hücum olub. Təsəvvür edin ki, Ukrayna dronu gəlir, Azərbaycan təyyarəsini hədəf alır, sonra qayıdır gedir və ikinci dəfə yenə bizim təyyarə ilə toqquşur. Yəni, bu uşaq bağçası səviyyəsində hekayədir, biz bilirik nə baş verib. Bundan başqa, Rusiya hava məkanı bağlanmamışdı. Hava məkanı bizim təyyarəmiz vurulduqdan bir neçə dəqiqə sonra bağlanmışdır və bu da məsuliyyətdir. Həmin o şəxslər “xalça əməliyyatı”nı vaxtından gec elan ediblər. Bu, gün qədər aydındır. Ancaq yeddi aydır ki, biz cavab ala bilmirik. Bizim Baş prokurorumuz müntəzəm olaraq Rusiyanın Təhqiqat Komissiyasına məktub ünvanlayır və cavab o olur ki, təhqiqat davam edir. Biz gözləyirik ki, görək bu təhqiqat nə zaman bitir. Ancaq mən hesab edirəm ki, bu, məsuliyyətsiz davranmaqdır. Bu o demək deyil ki, biz bunu unudacağıq. Xeyr, biz bunu unuda bilmərik. Biz artıq Rusiya tərəfini məlumatlandırmışıq ki, beynəlxalq ədliyyə sisteminə müraciət edəcəyik. Biz müəyyən bir qovluq hazırlayırıq. Bilirik ki, buna vaxt lazımdır. On il lazım oldu ki, Malayziya hava yollarına məxsus “Boeing”lə bağlı təhqiqat başa çatsın. Ancaq biz bu ədalətə nail olacağıq. Biz bunu əldə edəcəyik. Təəssüf ki, bugünkü vəziyyət ikitərəfli münasibətlərimiz baxımından heç də məqbul deyil.

Moderator Ceyn Viterspun: Cənab Prezident, biz artıq iki saatdır müzakirələr aparırıq. Cənab Prezident, əlavə 30 dəqiqə ayırmağınızı xahiş edirəm, icazənizlə, əgər auditoriya etiraz etmirsə. Mən bilirəm ki, təyyarəniz var, Bakıya geri qayıtmalısınız.

Moderator Ceyn Viterspun: Mən Anadolu Agentliyində strateji kommunikasiya üzrə menecer cənab Bilgehan Öztürkə söz vermək istəyirəm.

Bilgehan Öztürk: Cənab Prezident, bizə yaratdığınız bu fürsətə, imkana görə təşəkkür edirəm. Bu gün Xankəndinin mərkəzində olmaq çox fərqli bir hissdir. Bilirəm ki, bu şəhər 30 il idi ki, işğal altında idi. Bu, təkcə azərbaycanlıların deyil, nəsillər boyu türklərin, Türkiyədə olan vətəndaşların da arzusu idi ki, buralar azad edilsin. Mən bilirəm ki, sülh istiqamətində yol o qədər də hamar deyil, olmamışdır. Siz artıq qeyd etdiniz ki, Ermənistan tərəfi ilk mərhələdə o qədər də müsbət reaksiya vermirdi. Biz sülh sazişinə nə dərəcədə yaxınıq, nə qədər nikbin ola bilərik?

Prezident İlham Əliyev: Bəli, mən artıq qeyd etdim. Bilirsiniz, sülh müqaviləsinin mətni artıq razılaşdırılıb. Yeri gəlmişkən, prosesin əvvəlinə qayıtdıqda onu qeyd etməliyəm ki, məhz Azərbaycan sülh prosesinin təşəbbüskarı olmuşdur. İkinci Qarabağ müharibəsi bitdikdən sonra Minsk qrupunun üçlüyü hələ də çalışırdı, Bakıya səfər edirdi. Mən o zaman gördüm ki, onlar nə edəcəklərini bilmirlər və onlar mənə sual verəndə dedim ki, biz Ermənistanla sülh sazişi üzərində işləməliyik. O zaman müharibə bitmişdi və bir boşluq var idi. Mən təklif etdim ki, bir proses başlansın. Ona görə də biz sülh sazişinin mətnini hazırladıq və onu Ermənistana göndərdik. Onların müxtəlif şərtləri var idi və iki il ərzində heç bir irəliləyiş yox idi. Başlıca səbəb o idi ki, Ermənistan tərəfi həmin sülh sazişinin mətninə dırnaqarası “Dağlıq Qarabağ” məsələsini daxil etmək istəyirdi. Biz onlara dedik ki, baxın, birincisi, “Dağlıq Qarabağ” sizin təxəyyülünüzdə mövcuddur, bu, reallıqda mövcud deyil. Bu, Azərbaycanın bir parçasıdır və sülh müqaviləsinin mətninə daxili siyasətimizə aid olan bir məsələ daxil edilə bilməz. Bu müzakirə iki il sürdü və heç bir irəliləyiş olmadı. Bu əraziləri sentyabrda biz azad edəndən sonra, yalnız o zaman Ermənistan artıq bunun üzərində israr etmədi, çünki artıq bu mövzu bağlı idi. Yəni, nəyin üzərində israr edəcəksiniz? Yəni, demək olar ki, 2024-cü ilin yanvarında real danışıqlar başlanıldı və bizim hazırladığımız layihənin mətni üzərində iş getdi və o mətn razılaşdırıldı. Bundan sonra iki bəndi Ermənistan tərəfi əlavə etmək istəmirdi, ancaq Prezident Tramp qalib gələn kimi onlar o iki müddəanı əlavə elədilər. Mən cənab Paşinyana dedim ki, siz yəqin ümid edirdiniz ki, xanım Harris qalib gələcək və ağ at üzərində olacaqsınız. Ancaq bu, baş vermədi. Mən buna tamamilə əminəm ki, Tramp qalib olmasaydı, onlar bununla razılaşmayacaqdılar. Onlar layiq olduqlarından da, həzm edə biləcəklərindən də daha çox parça qoparmaq istəyirdilər. Bu gün artıq onlar həmin o iki bənd üzərində israr etmirlər.

Bu gün də qeyd etdiyim kimi, bu iki məsələ, - Ermənistan konstitusiyasına dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılması, - həll edilən kimi sülh müqaviləsi imzalana bilər. Bəli, mətn paraflana bilər və Azərbaycan tərəfi artıq Əbu-Dabidə bu tökliflə çıxış edib. Lakin bildiyiniz kimi, paraflanma heç də imzalanma demək deyil. Yəni, biri var ki, tərəflər

arasında şifahi razılıq əldə olunur, biri də var ki, tərəflər sənədin hər səhifəsinin sonunda öz imzalarını qoyaraq onu paraflayır. Məncə, biz sülh müqaviləsinin imzalanmasına çox yaxınıq. Hesab edirəm ki, bu proses geridönməz xarakter alıb. Bunun hər hansı bir yenidən baxılması, yenidən baş verməsi mümkün deyil. Biz heç nəyi yenidən müzakirə etməyəcəyik. Ancaq Ermənistan yenidən müzakirəyə başlamağa çalışırsa, o deməkdir ki, onlar sülh istəmirlər. Deməli, o ərazi iddiası qalır. Ona görə də biz düzgün istiqamətdəyik. Onlar öz ev tapşırıqlarını yerinə yetirməlidirlər. Bu baş verdiyi halda biz sülh müqaviləsini imzalaya bilərik. Bu da region üçün çox böyük yenilik, çox böyük dəyişiklik olacaq və biz artıq bu haqda danışdıq.

Cənubi Qafqaz sabitlik məkanı olacaq. Bizə sabitlik, təhlükəsizlik lazımdır. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Ona görə də kifayətdir, biz artıq sülh şəraitində yaşamalıyıq.

Moderator Ceyn Viterspun: Təşəkkür edirəm. İndi isə söz verilir cənab Joze Martin Jan-Pierreyə. O, Beynəlxalq Dekolonizasiya Cəbhəsinin katibi və Qvadelupa Beynəlxalq Təzminatlar Hərəkatının sədridir.

Joze Martin Jan-Pierre: Zati aliləri, cənab Prezident. Ötən il Şuşa Qlobal Media Forumunda Siz Azərbaycanın neokolonializmə qarşı mübarizədəki rolundan danışdınız və müstəmləkə təzyiqlərindən hələ də əziyyət çəkən ölkələrə istinad etdiniz. Həqiqətən Azərbaycan, xüsusən də Bakı Təşəbbüs Qrupu məsələ barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında nəinki mühüm rol oynadı, o cümlədən beynəlxalq hüquq əsasında müstəmləkə əməliyyatlarına qarşı mübarizə aparanların birləşməsinə töhfə verdi. Yeni Kaledoniya və Fransa arasında iyulun 12-də imzalanmış yeni razılaşmanı, eləcə də ədalət və azadlığa can atan dəniz ərazilərində hələ də davam edən kolonializmə qarşı mübarizəni nəzərə alaraq, bu məsələlərlə bağlı Sizin rəyinizə görə çox minnətdar olardıq.

Prezident İlham Əliyev: Düşünürəm ki, Fransa ilə Yeni Kaledoniya arasında baş vermiş hadisə tarixi presedentdir. Hesab edirəm ki, bu, hekayətin sonu deyil, başlanğıcıdır. Bizim neokolonizmlə bağlı mövqeyimiz tam aydındır. Bu məsələ heç bir ikitərəfli gündəliyə daxil deyil. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan sədrliyin ilk ilindən başlayaraq dekolonizasiya, müstəmləkə olan ərazilərin müstəqilliyə və ədalətə qovuşması, eləcə də beynəlxalq təşkilatların qəbul etdiyi qərarların icrası ilə bağlı səyləri dəstəkləmiş və təşviq etmişdir.

Bu, Qoşulmama Hərəkatının sədri kimi öhdəliyimiz, eyni zamanda, bir ölkə kimi mövqeyimiz idi. Çünki bu gün XXI əsrdə bir ölkə digər xalqı müstəmləkə hakimiyyəti altında saxlaya bilməz. Bu, hər hansı normal insan davranışına heç cür sığmır. Bu, xalqların fundamental hüquqlarına, onların azadlığına ziddir. Avropa qitəsinin əsas dəyərləri həmin müstəmləkə iddiaları ilə kobud şəkildə pozulur. Beləliklə, Bakı Təşəbbüs Qrupu beynəlxalq QHT-dir. Bəzi Avropa paytaxtları düşündüyü və ya təqdim etdiyi kimi deyil. Onun Azərbaycan hökuməti ilə heç bir əlaqəsi yoxdur. Bununla belə, həmin qrup qısa müddət ərzində Qvadelupa, Yeni Kaledoniya, Martinika, Sen-Marten və digər müstəmləkələrin xalqlarının tələbləri əsasında gündəliyi yarada bildi. Bu, onların qrupudur. Yəni, öz şəxsi gündəliyi olan qrup deyil. Onlar, sadəcə, bu prosesə qoşulmuş Azərbaycana və digər beynəlxalq tərəfdaşlara kömək etmək istəyirlər. Onlar, sadəcə, xalqlara azad olmağa, öz taleyinin yiyəsi olmağa kömək edirlər. Onların bunu etməyə hüququ var. Beləliklə, düşünürəm ki, Fransa və Yeni Kaledoniya arasında baş verənlər başlanğıcdır və presedentdir. Hesab edirəm ki, bunları Yeni Kaledoniyada həmin faciəli hadisələr olmadan belə, etmək olardı. Həmin vaxt Fransanın dövlət orqanları 10-dan artıq insanı qətlə yetirdi. Bu mənə Ermənistan ilə Azərbaycan arasında apardığımız müzakirələri xatırladır. Əgər Ermənistan rəhbərliyi 2019-cu ildə Qarabağı Azərbaycanın hissəsi kimi tanısaydı, onda aramızda müharibə olmazdı. Gec heç vaxt olmamaqdan daha yaxşıdır. Lakin, həmçinin aydındır ki, əgər Yeni Kaledoniya xalqı öz güclü siyasi iradəsini, cəsarətini, mübarizliyini, azadlıq uğrunda canından keçməyə hazır olduğunu nümayiş etdirməsəydi, çox güman ki, həmin saziş heç zaman imzalanmazdı. Bir sözlə, siz mübarizə aparmalısınız. Siz ərazilərinizi, ərazi bütövlüyünüzü bərpa etmək uğrunda mübarizə aparmalısınız. Azadlıq uğrunda vuruşmalısınız. Azad olmağınız uğrunda çalışmalısınız. Dünya bu cür işləyir və ümid edirəm ki, birinci addımın davamı olacaq. Əminəm ki, Fransanın müstəmləkə hakimiyyəti altında olan bütün ərazilərin hazırda Fransa ilə Yeni Kaledoniya arasında əldə olunmuş dövlətlərarası münasibətləri qurmaq imkanı olacaq.

Moderator Ceyn Viterspun: Təşəkkür edirəm. İndi isə söz verilir Afrika Birliyinin İnkişaf Agentliyinin Baş direktoru yanında kommunikasiyalar və təşviqat şöbəsinin rəhbəri xanım Zifora Maubaneyə.

Zifora Maubane: Sizi salamlayıram Zati-aliləri, cənab Prezident. Bu, mənim Qarabağa ilk səfərimdir, lakin ötən il mən COP29-da iştirak etmişəm. Tədbir səmərəli və yüksək səviyyədə təşkil olunmuşdu. Sizi və heyətinizi təbrik edirəm. Sizə iki sualım var. Lakin Zati-aliləri, sualları verməzdən əvvəl tarixçəni söyləmək istəyirəm. Mən Afrika Birliyində təşviqat və kommunikasiyalar üzrə məsuliyyət daşıyıram. Bir sözlə, bütün dünya mətbuatı ilə işləyirəm, Afrikanın inkişaf təşəbbüsləri, vəsaitlərin toplanması, iqlim dəyişmələrinin təsirinə aid strategiyalar, sülh və təhlükəsizlik sahəsində gördüyümüz işlər və Afrikanı sərmayələr baxımından

cəlbedici etməkdə səylərimiz barədə məlumatlar verirəm. Bu, mənim gördüyüm işdir və burada olmaqdan böyük şərəf hissi duyuram. Birinci sualım belədir: əvvəlcə, qeyd etdiniz ki, COP29 zamanı Siz iqlim dəyişmələrinin qarşısını almaq məqsədilə inkişaf edən ölkələrə yardım göstərmək öhdəliyini götürmüsünüz. Həmin öhdəlik bəzi Afrika ölkələrini də əhatə edəcəkmi? Bu, birincisi. İkincisi, Afrikanın inkişafla bağlı çox geniş gündəliyi var. O, 2063-cü ilədək olan gündəlikdir. Cəmiyyət və biznesin bir çox təbəqələrini əhatə edən 50 illik inkişaf proqramıdır. Məsələn, "Gündəlik 2063" bütün qitədə infrastrukturun inkişaf proqramı hesab edilir. Çünki bilirik ki, infrastruktur olmadan inkişaf da yoxdur. Daha dəqiq desək, proqram enerji, İKT, rəqəmsal transformasiya, su və yol şəbəkələri, daşımalar, o cümlədən dəmir yolları kimi sahələrdə infrastrukturun inkişafına yönəlir. Beləliklə, cənab Prezident, sualım belədir: Azərbaycan həmin infrastrukturun inkişafı layihələrində Afrika ölkələri ilə əməkdaşlıqda maraqlıdırmı? Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun. Əvvəlcə, COP29 çərçivəsində iqlim dəyişmələri ilə bağlı Afrika ölkələrinə birmənalı dəstək gündəliyimizin prioritetlərindən biri idi. COP29-un sədri olaraq qeyd etdiyim kimi, bizim inkişaf edən kiçik ada dövlətləri üzrə xüsusi formatımız var, çünki yaranmış təhlükə onlar üçün ekzistensional xarakter daşıyır. Biz bunu bilirik, çünki onların mövcudluğu, ümumiyyətlə, dünya okeanının səviyyəsindən asılıdır. Lakin Afrika qitəsindəki ölkələrə gəldikdə, onlar da bizim gündəliyimizdədir. Yeri gəlmişkən, Qoşulmama Hərəkatının sədri kimi hətta COVID-19 vaxtlarında biz 80-dən artıq ölkəyə maliyyə və humanitar dəstəyi göstərdik və onların əksər hissəsi Afrika Birliyinə üzv ölkələrdir. Uzun illərdir ki, bizim Efiopiyada yerləşən Afrika Birliyində daimi nümayəndəliyimiz fəaliyyət göstərir. Öncə qeyd etdiyim kimi, hazırda öz problemimiz, yəni Ermənistanla münaqişə bizdə artıq narahatlıq predmeti olmadığı üçün bizim xarici siyasətimiz daha genişdir. Mən Afrikadan gəlmiş bir neçə dövlət başçısı ilə rəsmi səfər çərçivəsində görüşmüşəm və biz artıq yüksəksəviyyəli nümayəndə heyətlərimizi ora göndərmişik. Bəzi ölkələrlə hazırda enerji sahəsində potensial əməkdaşlıq üzərində fəal işləyirik. Biz bəzi Afrika ölkələri üçün bir sıra aşağıfaizli kredit müqavilələri üzərində çalışırıq. Mən xüsusi təfərrüatlara varmaq istəmirəm, lakin bu, həqiqətən gündəliyimizdədir və biz daha fəal olmaq istəyirik. Bir yerdə çox iş görə bilərik, çünki biz xaricə sərmayələr yatırmaq istəyirik və investisiya üçün sahələr axtarırıq. İnvestisiya portfelimiz 20 milyard ABŞ dollarını keçib. Mən Azərbaycandan kənarda yatırılmış investisiyaları nəzərdə tuturam. Ona görə Afrika ölkələrinin potensialına gəldikdə, biz bunları birləşdirərək əməkdaşlıq qura bilərik. Yeri gəlmişkən, rəsmi səfərlər zamanı şəxsi təmaslarımda və COP29-a gəlmiş Afrika liderləri ilə keçirdiyim görüşlərdə mən onlardan prioritetlər, konkret layihələrin siyahısını verməyi xahiş etdim. Soruşdum ki, onlar Azərbaycanın istər özəl, istər dövlət şirkətlərini sərmayədar kimi harada görmək istəyirlər. Beləliklə, biz fəal çalışırıq və bizimlə bu gün bir yerdə olduğunuza görə minnətdaram.

Moderator Ceyn Viterspun: Sağ olun. İndi isə söz verilir Pavel Novotniyə. O, Slovakiyanın "Hospodarske novinı" qəzetində Xarici xəbərlər şöbəsinin rəhbəridir.

Pavel Novotni: Salam, cənab Prezident. Gəlin, gələcəyə nəzər salaq. Biz süni intellekt dövründə yaşayırıq və Azərbaycan texnoloji güc olmaq istəyir. Siz şəxsən süni intellektin inkişafı ilə bağlı Milli Strategiyanın tərtib olunması göstərişini vermisiniz. Bu sahədə vəziyyət nə yerdədir? Sağ olun.

Prezident İlham Əliyev: Bilirsiniz, biz bunu yeni başlamışıq. Onun nə dərəcədə uğurlu olacağını görəcəyik. Lakin aydındır ki, biz dünyadakı tendensiyaların arxasınca getməliyik. Sadəcə, oturub gözləyə bilmərik. Buna görə, mənim qərarlarım yalnız inkişaf və müasirləşmə gündəliyinə əsaslanır. Beləliklə, bizim aparıcı beynəlxalq şirkətlərlə yaxşı təmaslarımız var və onların əksəriyyəti ilə sərmayədar kimi işləyirik. Vəsaitlərimizi iri beynəlxalq qruplar vasitəsilə sərmayə kimi yatırırıq. Eyni zamanda, enerji sektoruna xarici sərmayələrin cəlb edilməsində yaxşı təcrübəmiz var. Son 20 ildə Azərbaycana yatırılmış yalnız xarici sərmayələrin məbləği 200 milyard ABŞ dollarına bərabər olub. Dediyim kimi, Azərbaycan sabit, özünü təmin edən və gələcəyə aydın baxışları olan ölkədir. Biz ön cərgədə olmalıyıq. Bir daha nə dərəcədə uğurlu olacağımızı söyləmək çətindir. Süni intellektlə bağlı nə baş verəcəyini söyləmək mənim üçün çətindir. Çünki bilirsiniz, müxtəlif cəmiyyətlərin fərqli təbəqələrində buna güclü və artan müqavimət var. Bu proses hələ yeni başlayıb, görərik. Mənim üçün indi "nəyə nail olacağıq, nəyə yox" söyləmək düzgün olmazdı. Biz yalnız müəyyən nailiyyətlərimiz olduqda bildiririk. Ümid edirik, gələn il Şuşa Forumuna gəlsəniz biz sizinlə müəyyən məsələləri bölüşəcəyik.

Moderator Ceyn Viterspun: Latın Amerikasından "El Periodista" nəşrinin redaktoru cənab Fransisko Felipe Martorell Kammarella sual verəcək.

Fransisko Felipe Martorell Kammarella: Cənab Prezident, Sizi salamlayırıq. Mən ispan dilində sual verəcəyəm. Cənab Prezident, dəvətinizə, Azərbaycan xalqının qonaqpərvərliyinə görə çox təşəkkür edirəm. Mənim üçün burada olmaq böyük şərəfdir. Mən çox uzaq bir ölkədən gəlmişəm, 15 min kilometr uzaqdadır. Hazırda mənim qohumlarım, ailə üzvlərim hələ yuxudan oyanırlar. Mən dənizləri, çoxlu saat qurşağını keçməli oldum. Düşünürəm ki, mən burada Latın Amerikasından yeganə jurnalistəm. Bir neçə həftə

bundan öncə Siz Çiliyə öz nümayəndənizi göndərmişdiniz və o, həm Çilidə, həm Argentinada, həm də Braziliyada görüşlər keçirdi. Mən sual vermək istərdim, Siz bizim regionla münasibətlərinizin gələcəyini, potensialını necə görürsünüz? Həmçinin bizim ölkələr, regionlar arasında gələcəkdə mədəniyyət qarşılıqlı necə inkişaf edə bilər? Çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Biz artıq neçə vaxtdır ki, Latın Amerikasının bəzi ölkələrində səfirliklər açmışıq və müxtəlif səviyyələrdə, nazirlər, eləcə də xarici işlər səviyyəsində səfərlər olub, nümayəndə heyətlərinin mübadiləsi olub. Lakin deməzdim ki, münasibətlər görmək istədiyimiz səviyyədəki kimidir. Əvvəllər dəfələrlə qeyd etmişəm ki, beynəlxalq məsələlərlə daha sıx məşğul olanda biz birmənalı olaraq bunları gündəliyimizə daxil edəcəyik. Biz Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı bəzi şirkətlərlə müzakirələr prosesindəyik. Bəzi layihələr artıq başa çatdırılıb. Lakin əlbəttə ki, Latın Amerikasının çox ölkəsində inkişaf etmiş iqtisadiyyat var. O, çox böyük bölgədir. Düşünürəm ki, biznes, ticarət, potensial sərmayələr və mədəniyyət sahələrində çox ümumi əsasları tapa bilərik.

Bu qədər uzun məsafəni qət edərək Azərbaycana gəldiyinizə görə minnətdaram. Ümid edirəm ki, gəlib bizimlə görüşməyinizə peşman olmadınız. Ümid edirik ki, bu səfər bir çox həmvətənləriniz üçün qapıları açacaq və siz ölkənizə qayıtdıqdan sonra Azərbaycan haqqında çox yaxşı təəssüratlar söyləyəcəksiniz.

Moderator Ceyn Viterspun: İndi isə sonuncu sualı Azəri-Press Agentliyindən Vüsalə Mahirqızı verəcək.

Vüsalə Mahirqızı - "APA Media Qrup": Cənab Prezident, biz birinci Şuşa Qlobal Forumunda Şuşada idik. Qlobal forumdan sonra Şuşadan Xankəndiyə baxmışdıq. Amma indi biz Xankəndidəyik, Siz də buradasınız. Mən Qarabağa "Böyük Qayıdış"la bağlı sual vermək istəyirəm. Artıq 50 minədək insanımız Qarabağdadır. Mən xatırlayıram, biz Şuşaya birinci dəfə gələndə 9 saata gəlmişdik, amma indi maşınla cəmi 4 saata Şuşada olduq və yollar salınır. Kəndlərin hər birində məscidləri, minarələri, məktəbləri gördük. "Böyük Qayıdış"la bağlı proses necə gedir? Bu, birinci sualım.

İcazənizlə, ikinci sualı Azərbaycan mətbuatı ilə bağlı vermək istəyirəm. Çünki bir neçə gün sonra bizim bayramımızdır, Azərbaycan mətbuatının 150 illiyidir. Mətbuatımızın gələcəyi ilə bağlı Sizin fikirlərinizi bilmək bizim üçün maraqlıdır. Xüsusilə o dövrdə ki, hazırda sosial media və süni intellekt var - bayaq Siz də danışdınız. Hazırkı dövrdə bizim əsas mövzularımızdan biri sosial mediada dezinformasiyadır. Bu, Azərbaycanın ən çox əziyyət çəkdiyi məsələlərdəndir. Bununla bağlı da fikirlərinizi eşitmək istəyərdim. Bir də mənim özüm üçün maraqlıdır, Siz süni intellektdən istifadə edirsinizmi? Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun. Yox, mən özüm istifadə etmirəm. Amma ailə üzvlərim var ki, ondan istifadə edirlər. Mənə də bəzən bu barədə məlumat verirlər. Amma yəqin ki, nə vaxtsa, mən də istifadə edəcəyəm. Çünki süni intellektin yayılması o qədər sürətlə gedir ki, istifadəçilərin sayı çox olacaq. Əsas odur ki, süni intellekt bizi bildiyimiz kriteriyalardan, meyarlardan uzaqlaşdırmasın.

Sizi və həmkarlarınızı yubiley münasibətilə təbrik edirəm. Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Mən bunu tam səmimiyyətlə deyirəm, sizə xoş söz demək üçün yox.

Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır. Mən, sözün əsl mənasında, sevinirəm və sizə yeni uğurlar arzulayıram. Azərbaycan bu gün elə bir mərhələdədir ki, hələ də özünü müdafiə etməyə ehtiyacı var. Bu gün Avropadan olan həmkarınız da artıq bu sualı verəndə də onu qeyd etdi: Siz Qərbin ictimai fikrinə, ictimai rəyinə necə təsir edə bilərsiniz? Məncə, media ən yaxşı vasitədir. Bizim media işçilərinin əhatə dairəsi nə qədər çox geniş olarsa, ölkə haqqında o qədər də dəqiq, dolğun və ədalətli məlumat dünya ictimaiyyətinə çatdırıla bilər. Burada hələ görüləsi işlər çoxdur. Ancaq mən deyə bilərəm ki, bizim mediamız artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli yeni reallıqdır.

O ki qaldı, "Böyük Qayıdış"a, bunu demək üçün gərək biz ayrıca panel təşkil edək və mən təkcə bir neçə saat bu suala cavab verim. Çünki doğrudan da görülən işlər o qədər genişmiqyaslıdır ki, bunu bir cavabda səsləndirmək çətindir. Hər şey göz önündədir - qayıdan insanların sayı getdikcə artır və bundan sonra daha sürətlə artacaq. Çünki biz birinci dörd ildə daha çox infrastruktur layihələri ilə məşğul idik. Onların əsas hissəsini demək olar ki, bitirmişik, bütün Qarabağ və Şərqi Zəngəzur dairəvi elektrik şəbəkə ilə artıq təmin

edilib, Azərbaycanın ənənəvi elektrik təsərrüfatına da qoşulub. Burada artıq 280 meqavat gücündə su elektrik stansiyaları enerji istehsal edir və bu enerji Qarabağdan Azərbaycanın digər bölgələrinə gedir. Çünki bu gün Qarabağda o qədər adam yaşamır ki, bu qədər elektrik enerjisi lazım olsun. Siz maşınla gəlmisiniz, bilmirəm, Ağdam-Xankəndi-Şuşa yolu ilə, yoxsa Füzuli yolu ilə? Füzuli yolu ilə tunellərdən də keçmisiniz. Təkcə bu yolda 7 tunel inşa edilib. Tunellərin ümumi uzunluğu 80 kilometrdir. Ən uzun tunel yəqin ki, növbəti iki-üç ayda hazır olacaq. Murov dağının altındakı tunelin uzunluğu, - təkcə bir tunelin uzunluğu, - 11 min 700 metrdir. Yəni bu, dünya miqyasında ən uzun tunellərdən biridir. Dəmir yolu çəkilib. İndi Ağdama qatarla rahat getmək mümkün olacaq. Ağdam-Xankəndi dəmir yolunun təməlini mən bu yaxınlarda qoymuşam. Xankəndi-Şuşa kanat yolunun da tikintisi yəqin ki, yaxın zamanlarda başlayacaq və çox mənzərəli bir vasitə olacaq. Eyni zamanda, bunun funksional tərəfi də çox önəmlidir - hər yerdə inşaat-quruculuq işləri, xəstəxanalar, evlər, yaşayış binaları.

**Prezident İlham Əliyev:** Bu, təkcə Azərbaycanla Azərbaycan arasında deyil, təkcə Şərqlə Qərb arasında deyil, həm də Şimalla Cənub arasında bağlantıdır. Bu gün Cənub-Şimal dəhlizi...

**Müxbir:** Əslində, mən bu haqda soruşacaqdım. Bəli, sualı verə bilərəm?

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** Zəngəzur dəhlizi İranda mövcud olan Şimal dəhlizinə təsir edəcəkmi?

Prezident İlham Əliyev: Bəli, bu, sadəcə, dəstək olacaq. Çünki əvvəlcə planlaşdırılmış və layihələndirilmiş Şimal-Cənub dəhlizi Şimaldan, Şimali Avropadan, Rusiyadan, Azərbaycandan, İrandan, Fars körfəzindən düz xətlə gedir. Xəritəyə baxsanız, o, Azərbaycan ərazisindən, qismən də Xəzər dənizinin sahilindən keçməkdədir.

**Müxbir:** Bu yollar bir nöqtədə birləşir.

**Prezident İlham Əliyev:** Bəli, hazırda belədir. Deməli, bu, tamamilə Azərbaycan ərazisində tikilmiş həqiqi Şimal-Cənub dəhlizidir. Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəmiz var. Çatışmayan hissə İran ərazisindədir. Onlar təxminən 150 kilometrlik və ya daha çox hissəni tikməlidirlər. Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs, Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, – və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, – və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq – Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək. Sualınıza qayıdaraq qeyd edim, mən bilirəm ki, İran Hökuməti bunu başa düşür və Azərbaycan bütün bölgə ölkələri arasında regional əməkdaşlığı gücləndirmək üçün hər şeyi edəcək.

**Müxbir:** Digər tərəfdən Rusiya da var. Azərbaycan təyyarəsinin vurulması ilə bağlı əlaqələr artıq əvvəlki kimi deyil. Hazırda bununla bağlı Moskva ilə diplomatik münasibətlərə yenidən baxılacaqmı?

**Prezident İlham Əliyev:** Azərbaycanın mülki təyyarəsinin Rusiya tərəfindən vurulması və Rusiya rəsmilərinin buna reaksiyası ölkəmizdə çox böyük məyusluq və təəssüf doğurdu. Birincisi, ilk növbədə, təyyarəyə atəş açılmamalı idi, çünki Rusiya hava limanlarına dron hücumları baş verəndə onlar xüsusi rejim elan edirlər. Bu rejim "xalça", rus dilində "kavyor" adlanır. Dron hücumu olanda bütün təyyarələrə xəbərdarlıq göndərilir və onlar geri qayıdır. Həmin təyyarə qəzaya düşməzdən iki həftə əvvəl Rusiyanın həmin şəhərinə uçan digər təyyarəmiz oxşar hal ilə üzləşmiş, ona vaxtında müvafiq xəbərdarlıq verilmiş və həmin təyyarə geri dönmüşdü. Bu dəfə bu siqnalı vermədilər. Təyyarə artıq vurulandan sonra siqnal verdilər. Bunu yalnız araşdırma prosesini aparacaq şəxsləri çaşdırmaq üçün etdilər. İki dəfə atəş açdılar. Yalnız pilotların peşəkarlığı və cəsarəti təyyarəni yerə endirməyə imkan verdi. Xoşbəxtlikdən təyyarə Rusiyada deyil, Qazaxıstanda eniş etdi. Enişdən sonra qəza baş verdi. Bəzi sərnişinlər sağ qaldı, bizdə ifadə verənlər var. Təyyarədə olan, gövdəyə daxil olan qəlpələrdən yaralanan iki nəfər var. Təyyarənin qalıqları da var və mən dərhal heyəti oraya göndərdim. Uzaq deyil, uçuş cəmi 40 dəqiqədir. Komandamız dərhal oraya getdi və hər şeyi lentə aldı. İnternetdə tapa bilərsiniz. Bütün

gövdədə qəlpə dəlikləri var idi. O, Rusiyanın hava hücumundan müdafiə sistemi tərəfindən vurulub. Beləliklə, ilk növbədə, təyyarənin vurulması baş verməməli idi və bu, faciəvi bir səhv idi.

Sizə yenə də İkinci Qarabağ müharibəsindən bir misal çəkə bilərəm. Müharibənin sonuncu günündə – noyabr ayının 9-da Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmalı deyildi. Çünki otuz il ərzində rus helikopterləri Ermənistan ərazisindən Azərbaycan sərhədinə heç vaxt yaxınlaşmamışdı. O, Ermənistandan uçaraq gəlirdi. Helikopteri vuranlar üçün açıq-aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onlar onu vurdular. Həmin gün mən dərhal Rusiya Prezidentinə zəng etdim və üzrxahlığımı bildirdim. Biz həlak olan pilotların ailələrinə və Müdafiə Nazirliyinə dərhal təzminat ödədik. Biz istintaq başlatdıq və bu faciəli səhvə yol verənlər məsuliyyətə cəlb olundular. Lakin Rusiya tərəfindən belə addımların atıldığını görmədik. Beləliklə, noyabrın 9-da baş verən bu faciəli hadisə və davranışımız bizi Azərbaycana qarşı eyni münasibətin sərgilənməsinə hazır etdi, çünki iki ölkə bir-birini dost adlandırır. Lakin bu, çox təəccüblü idi. Bu vaxtadək onlar nəyin baş verdiyini demirlər. Beləliklə, bu, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdə ciddi məsələdir, lakin biz əlaqələri gərginləşdirmək istəmirdik. Bəli, bu, xalqımızı məyus edib, qəzəbləndirib və qəmginliyə salıb. Biz gözləyirik, gec və ya tez istintaq başa çatacaq. Lakin sonra Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumlar başladı. İki insan qətlə yetirilmişdir və işgəncələrə məruz qalmışlar. Sonra da rəsmi məlumata görə, onların ürək tutmasından öldüyü bildirildi. Hətta onlar deyilənlərə görə, 20 il bundan əvvəl cinayət törədiblərsə, onlar insandırlar, onlarla belə davranılmamalıdır. Bu, nə münasibətdir? Onların sırasında Azərbaycan vətəndaşları, Azərbaycan mənşəli Rusiya vətəndaşları da var idi. Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi. Münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik.

**Müxbir:** Kiçik bir sualım var. Bu münasibətdən sonra Siz Azərbaycanın etməyə çalışdığının qarşısını almaq üçün Rusiyanın hər hansı bir hərəkətə əl atacağından qorxmursunuz? Mən coğrafiyanı, dəhliz və sair məsələləri nəzərdə tuturam.

**Prezident İlham Əliyev:** Onların Ermənistanda hərbi bazası və bir neçə min nəfərdən ibarət hərbi heyəti var. Eyni zamanda, Ermənistanın İran və Türkiyə ilə sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunur. Azərbaycan torpağında bir nəfər də rus əsgəri yoxdur. Beləliklə, Ermənistanda nə baş verə bilər, mən bunu bilmirəm. Lakin mən bu mənfi ssenari haqqında düşünmək istəmirəm.

**Müxbir:** İcazə verin, Yaxın Şərqdən olduğum üçün Yaxın Şərqə keçim. Siz, həmçinin Yaxın Şərq ilə İsrail arasında vasitəçilik rolu oynamısınız. Siz Suriyaya təbii qaz təchiz etmək üçün dəstəyinizi göstərirsiniz. Mənim sualım belədir. İsrail ilə Suriya arasında baş verən hadisələr və Sizin vasitəçiliyinizlə atılan addımlar bu iki ölkə arasında gərginliyin azaldılmasına gətirib çıxaracaqmı?

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, İsrail ilə Suriya arasında münasibətlərin normallaşması üçün imkanlar var. İlk növbədə, sizin Suriyaya təbii qazın təchizi ilə bağlı qeydlərinizə toxunmaq istərdim. Bilirsiniz ki, Prezident Əsədin hökuməti ilə bizim 10 ildən çox heç bir münasibətimiz yox idi. Onlar Azərbaycanla çox ədalətsiz davranmışdılar, bizim Ermənistanla qarşıdurmamızda Ermənistanın tərəfinə keçdilər. Bu da bizim üçün çox qəribə idi, çünki işğal illəri ərzində müsəlman ölkələri tərəfindən çox güclü dəstək aldıq və İslam Əməkdaşlıq Təşkilatı bizə həmişə dəstək olmuşdur. Azərbaycan İslam həmrəyliyi prinsiplərinə yüksək dəyər verən ölkədir. Beləliklə, Azərbaycana qarşı Ermənistanla - məscidləri dağıdan, orada donuz və inək saxlayan ölkə ilə eyni cərgədə olmaq bizim üçün qəbuledilməz idi. Hər iki tərəf - Prezident Əsədin komandası və bizim komanda 10 ildən çox müddət ərzində bütün əlaqələri kəsdi. Suriyada yeni hökumət iqtidara gəldikdə, biz bunu böyük ruh yüksəkliyi ilə qarşıladıq və sözsüz ki, dəstəklədik. Bu ilin aprelində Türkiyədə mənim Əhməd Əl Şaraa ilə görüşüm oldu və onu səfərə dəvət etdim. O da Azərbaycana rəsmi səfər etdi. Biz Suriyaya humanitar yardım etməyə başladıq. Mən Suriyaya necə faydalı olacağımızı, onlar üçün nə edə biləcəyimizi öyrənmək üçün Baş nazirin müavininin rəhbərlik etdiyi böyük bir qrupu oraya göndərdim. Biz uzun illər boyu əziyyət çəkmiş bu ölkə, onun xalqı üçün yalnız sülh istəyirik. Biz onların sülh içində yaşamalarını və orada inkişafı görmək istəyirik. Beləliklə, işlər başlayıb. Sonra da elektrik enerjisi qıtlığı məsələsi diqqətimizə çatdırıldı və biz də necə yardımçı ola biləcəyimiz haqqında düşünməyə başladıq. Bizim Suriyaya təbii qazı elektrik enerjisinə çevirməyə kömək etmək üçün Azərbaycan, Suriya, Türkiyə və Qətər arasında dördtərəfli razılaşmamız oldu. Bu prosesin açılış mərasimi avqustun 2-də keçirildi. Azərbaycan qazı Türkiyə ərazisindən Suriyaya təchiz edilir və Qətər hökuməti bunun üçün vəsait ayıraraq öz səxavətini göstərdi. Hələ ki, biz 1,2 milyard kubmetr qazın Suriyaya təchiz edilməsi üzrə razılığa gəldik. Lakin onlara daha çox qaz tələb olunur. Ona görə də gələcəkdə biz qazın həcmini artıra bilərik ki, onlarda daha az qıtlıq olsun. Yeri gəlmişkən, Suriya ilə İsrail rəsmiləri arasında danışıqlar bizim vasitəçiliyimizlə baş tutdu. Biz ətrafımızda sülhün olmasını istəyirik. Təcavüz və müharibədən əziyyət çəkən ölkə və xalq olaraq biz qaçqınlığın, evsizliyin, qaz, elektrik enerjisinə, suya və ya qidaya malik olmamağın nə olduğunu başa düşürük. Biz uzun illərdir ki, donor ölkə kimi fəaliyyət göstəririk. Biz 80-dən çox ölkəyə maliyyə dəstəyi, humanitar

dəstəyi təmin edirik. Bizim məqsədimiz yalnız normallaşma prosesinə və İsrail ilə Suriya arasında proqnozlaşdırılabilən vəziyyət yaratmağa kömək etməkdən ibarət idi. Əgər biz buna azacıq da olsa, kömək edə bildiksə, buna şadıq. Biz münasibətlərin normallaşması üçün potensialın mövcud olduğunu görürük və bu da Yaxın Şərqə sülhün, proqnozlaşdırmanın əlavə elementlərini gətirəcək.

**Müxbir:** İsrail Suriyanın bütövlüyünə hörmət edərək, bu normallaşmaya razı olub?

**Prezident İlham Əliyev:** Bəli, sözsüz. Azərbaycan ərazi bütövlüyünün pozulmasından əziyyət çəkən bir ölkə olaraq bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir. Bizim bununla bağlı mövqeyimiz birmənalıdır. Yenə də Azərbaycan-Rusiya münasibətləri ilə bağlı müzakirə etdiklərimizə qayıdaraq deyim ki, biz Rusiyanın Ukraynaya müdaxiləsinin ilk günlərindən Ukraynanın ərazi bütövlüyünü dəstəklədik və dəstəkləməyə davam edirik. Əlbəttə ki, Suriyanın birliyi və ərazi bütövlüyü hər hansı münasibətlər üçün bir nömrəli ilkin şərtdir. Söhbət təkcə hüquqi baxımdan bütövlükdən və sərhədlərə nəzarətdən getmir, söhbət fiziki birlikdən gedir. Ölkənin mərkəzləşdirilmiş sistemi, yaxud ən azından siyasi təsisatlarla bağlı fəaliyyət göstərən bir sistemi olmalıdır. Biz separatizmin istənilən təzahürlərinə qarşıyıq – istər Qarabağda, istər Suriyada, istərsə də dünyanın hər hansı bir digər yerində olsun.

**Müxbir:** Əlbəttə ki, biz Sizin rəhbərliyinizlə Azərbaycanın bu vasitəçilik prosesində önəmli rol oynadığını anlayırıq. Bəs, Türkiyə və İsrail barədə nə deyə bilərsiniz? Sizin bu ölkələr arasında apardığınız vasitəçiliyi deyirəm. Bilirsiniz ki, kürdlərlə bağlı məsələ Türkiyə üçün narahatlıq doğuran məsələdir. İsraillə Türkiyə arasında hazırkı vasitəçilik barədə nə deyə bilərsiniz?

**Prezident İlham Əliyev:** Biz normallaşma üçün imkan yarandığını görəndə yardımçı olmağa çalışırıq. Türkiyə ilə İsrail arasında normallaşmanın birinci mərhələsində Azərbaycanın rolu hər iki ölkə tərəfindən qiymətləndirilib. Bilirsiniz ki, İsrail Prezidenti İsxak Hersoq Türkiyəyə səfər etdi. Biz şad olduq ki, iki ölkə arasında ümumi dil tapılır. Hazırda isə Türkiyə ilə İsrail arasında münasibətlər hər zaman olduğundan daha gərgindir. Ona görə də əgər bizdən kömək etmək xahiş olunsa, biz bunu edərik. Əgər edilməsə, ola bilsin ki, biz, sadəcə olaraq, ümumi dil tapmağa yardım etmək üçün çox da ictimailəşdirilməyən diplomatik səylər göstərməyə çalışarıq. Çünki ən mühüm olanı təhlükəsizlikdir. Biz təhlükəsizliyin dəyərini çox yaxşı bilirik. 30 ildən çox müddətdə müharibə şəraitində, müharibənin müxtəlif formalarında yaşamışıq. Bu, sizi tamamilə bununla məşğul olmağa vadar edir.

Prezident olaraq 17 il ərzində, – prezident seçiləndən Qarabağı azad edənə qədər, – bu, mənim üçün 1 nömrəli, 2 nömrəli, 10 nömrəli məsələ idi. Mən gecə-gündüz bununla məşğul idim. Bu, təkcə mənim yox, bütün komandanın diqqətini bəlkə də daha tez və daha səmərəli şəkildə görülə biləcək digər məsələlərdən yayındırırdı. Beləliklə, istənilən potensial təhlükə, hətta fiziki qarşıdurmanın istənilən hipotetik təhlükəsi insanlara, ölkələrə, onların iqtisadiyyatlarına, kredit reytinqlərinə – hər şeyə zərər verir. Təcrübəmizə əsaslanaraq, – çünki bizim işğal altında olmaq təcrübəmiz var, qalib ölkə olmaq təcrübəmiz var, müharibə şəraitində olmaq təcrübəmiz var, indi bizim sülhə necə nail olmaq təcrübəmiz var, – biz bilirik bunu necə etmək lazımdır. Bundan əlavə, bizim şaxələndirilmiş xarici siyasət istiqamətlərimiz də Azərbaycana hadisələrin mərkəzində olmağa imkan verir. Çünki bu gün az sayda ölkə hazırda çətin vəziyyətdə olanlarla çox səmimi şəkildə danışa bilər. Biz bunu etməyə hazırıq. Ümidvarıq ki, bu işləyəcək. Lakin əlbəttə ki, biz heç kəsə özümüzü məcburi təqdim etmirik. Sadəcə, bizdən xahiş ediləndə zəruri olanı edirik.

**Müxbir:** Cənab Prezident, iki qısa sualım var. Hazırda Azərbaycan Yaxın Şərqdə böyük rol oynayır. Bu rol təkcə Azərbaycanın təbii qazı ilə ölçülmür. Sualım daha çox Avropa və Şərq ölkələrinə nəql edilən Azərbaycanın təbii qazı ilə əlaqədardır. Mümkündürmü ki, əgər Azərbaycanın təbii qazı bəzi ərəb ölkələrinə nəql olunsa, oradakı ümumi vəziyyətə yardım etsin? Ümumiyyətlə, ərəb ölkələri ilə münasibətləriniz necədir?

**Prezident İlham Əliyev:** Enerjiyə gəlincə, bəli, siz haqlısınız, bizim təbii qaz üçün əsas istiqamətimiz Avropadır. Biz 10 Avropa ölkəsini qazla təmin edirik. Onların 8-i Avropa İttifaqının üzvüdür. Beləliklə, bu ölkələr üçün Azərbaycan qazı onların enerji təhlükəsizliyində həqiqətən də mühüm rol oynayır və bu rol artacaq. Mən artıq qarşıdan gələn illər üçün planlarımızı açıq elan etmişəm. Biz 2030-cu ilədək bu gün sahib olduğumuzdan əlavə 8 milyard kubmetr təbii qazı əmin şəkildə təmin edəcəyik. Məsələ onun necə, hansı istiqamətdə istifadə olunmasıdır.

Sözsüz ki, təbii ehtiyatlarımızla Yaxın Şərqə daxil olmaq bizim üçün ilk təcrübədir. Artıq qeyd etdiyim kimi, düşünürük ki, Suriyaya qazın həcmini artıra bilərik. Biz, həmçinin Ərəb Qaz Kəməri, yaxud başqa mübadilə əməliyyatları vasitəsilə digər ölkələri qazla təchiz edə bilərik. Biz, həmçinin enerji resurslarının ticarətini həyata keçiririk. Biz neft və qazımızı satmaqla yanaşı, beynəlxalq ticarətçi kimi fəaliyyət göstəririk. Bizim potensialımız təsəvvür ediləndən daha böyükdür. Bu nöqteyi-nəzərdən düşünürəm ki, bu, mühüm amildir.

Yaxın Şərq ölkələri ilə, əsasən Körfəz Əməkdaşlıq Ölkələri ilə əməkdaşlığa gəlincə, əlaqələr çox yaxşıdır – dostcasına və nəticəyönümlüdür. Bu ölkələrlə çox güclü tərəfdaşlığımız var. Yeri gəlmişkən, bizim bərpaolunan enerjidə əsas sərmayədarlar Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanından olan şirkətlərdir. Onlar bizim əsas sərmayədarlardır. Onlar indi investisiya yatırırlar.

Yeri gəlmişkən, bizim bərpaolunan enerji potensialımız aşağı qiymətləndirilməməlidir. İmzalanmış

müqavilələrə və BƏƏ, Səudiyyə Ərəbistanı və Çindən yatırılan investisiyalara əsasən, biz 2030-cu ilədək 6 gigavat Günəş və külək enerjisinə sahib olmağı planlaşdırırıq. Bundan əlavə, biz Qarabağda fəal şəkildə su elektrik stansiyaları inşa edirik. Artıq demək olar ki, 300 meqavat enerji əldə etmişik. Beləliklə, bu, Azərbaycanla Körfəz Əməkdaşlıq Ölkələri arasında əlaqələrin mühüm tərkib hissəsidir. Çünki bizim faydalı qazıntı yanacağımız var, həmçinin biz bərpaolunan enerji üzərində fəal şəkildə işləyirik. Biz birlikdə bir çox yaxşı layihələr həyata keçirə bilərik. Yeri gəlmişkən, BƏƏ-nin çox mühüm enerji şirkəti ADNOC Xəzər dənizində bizim ən böyük qaz yataqlarımızdan birinin səhmdarı olub. Eyni zamanda, bizim dövlət şirkətimiz SOCAR BƏƏ-də neft hasilatı layihələrindən birinin səhmdarı olub. Hazırda biz geniş əməkdaşlıq portfeli üzərində işin həqiqətən fəal mərhələsindəyik. Siyasi əlaqələr mükəmməldir. Biz əsas diqqəti enerji və digər sahələrdə - mehmanxana işi, turizm, kənd təsərrüfatında praktiki investisiya layihələrinə yönəldirik. Beləliklə, bir çox layihələr reallaşma mərhələsindədir. Məsələn, Səudiyyə Ərəbistanının aparıcı şirkətlərindən birini biz Xəzər sahilində suyun duzsuzlaşdırılması zavodunun inşasında tərəfdaş kimi seçmişik. Bu, kənd təsərrüfatı, eləcə də insanlar üçün çoxlu imkanlar yaradacaq. Bu, bizim xarici siyasət gündəliyimizin böyük bir hissəsidir. Deyərdim ki, Körfəz ölkələri ilə əməkdaşlıq xarici siyasətimizin başlıca prioritetlərindən biridir.

**Müxbir:** Cənab Prezident, əlavə olaraq, Azərbaycanın Cənubi Qafqaz regionunda əhəmiyyəti barədə. Düşünürəm ki, ölkəniz regional proseslərdə mühüm rol oynayır. Azərbaycan sünni və şiə icmaları arasında yaxşı münasibətlərin qurulması istiqamətində hər hansı bir addım ata bilərmi?

**Prezident İlham Əliyev:** Bilirsiniz, Azərbaycan cəmiyyətində bütün məzhəblərdən olan müsəlmanlar bir ailə kimi yaşayırlar. İslamın müxtəlif qolları arasında heç bir ayrı-seçkilik olmayıb.

**Müxbir:** Burada deyil, bütövlükdə.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** Platforma kimi, Siz bir vasitəçi olaraq.

**Prezident İlham Əliyev:** Siz tamamilə haqlısınız. Bu, bizim təcrübəmizə əsaslanır, təkcə şüarlara, bəyanatlara əsaslanmır. Çünki çoxlu bəyanatlar verilə bilər, lakin siz məsələnin məğzinə, Azərbaycanda bu məsələlərin necə həll olunduğuna baxmalısınız. Bizim üçün, ilk növbədə, milli, etnik kimlik gəlir. İkincisi, vətəndaşlıqdır. Yaxud ola bilər ki, vətəndaşlıq birinci, etnik kimliklə yanaşıdır. Azərbaycanlıların mütləq əksəriyyəti üçün məzhəb məsələsinin ümumiyyətlə yeri yoxdur, heç 100-cü yerdə də deyil. Azərbaycanlılar etnik qrup kimi İslamın müxtəlif qollarından olan nümayəndələrdən ibarətdir. Lakin biz hamımız etnikliyimizlə, dilimizlə və dövlətimizlə birləşmişik. Təkcə müsəlmanlar deyil, Azərbaycanda digər dinlərin nümayəndələri də özlərini eyni cür hiss edirlər. Müstəqillik dövründə bu sahədə gördüyümüz işlər həmin müsbət tendensiyaları gücləndirməkdən ibarət olub. Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq. Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə məzhəblərə ayrılmaqdır. Müsəlman dünyasına ən böyük ziyanı məzhəb ayrılığını təbliğ edən insanlar vururlar. Biz bir olmalıyıq. Biz müsəlmanıq və bizim üçün bir nömrəli məsələ budur. İstənilən xarici müdaxilədən tamamilə azadıq. Çünki biz təkcə dəyərlərimizi təbliğ etmirdik, biz, həmçinin ideoloji cəhətdən özümüzü istənilən növ müdaxilədən, müsəlmanlar arasında nifrət toxumu səpmək cəhdlərindən qorumalı idik. Bu, müsəlman dünyasında yüksək qiymətləndirilir.

Mənim müsəlman dövlətlərinin aparıcı dini rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlər onu göstərir ki, İslam dünyasında istər siyasi olsun, istər dini sahədə bizim rolumuz yüksək qiymətləndirilir. Biz göstəririk ki, bu mümkündür və biz uğur hekayəsini nümayiş etdiririk. Biz göstəririk ki, burada sülh, sabitlik və rahatlıq mövcuddur. İnsanların məhz buna ehtiyacı var. İnsanların sülh içərisində, xoşbəxt yaşamağa, öz övladlarını böyütməyə və işləməyə, başlarına bomba düşəcək, yaxud kimsə yaşadığı yerə bomba qoyacaq deyə qorxularının olmamasına ehtiyacları var.

Biz mədəniyyətlərarası dialoq sahəsində də bir çox işlər görürük. Biz hər iki ildən bir müntəzəm olaraq mədəniyyətlərarası dialoq üzrə beynəlxalq konfranslar keçiririk. Biz həmin konfranslarda bütün mühüm məsələləri, - təkcə müsəlmanlar üçün deyil, bütün dinlər üçün mühüm əhəmiyyət kəsb edən məsələləri, – müzakirə edirik. Bu baxımdan bizim rolumuz əsasən burada gördüyümüz işlərə və bunu başqa yerlərdə də necə edə bilərik düşüncəsinə əsaslanır. Hesab edirəm ki, indi müsəlman ölkələrinin mütləq əksəriyyətinin siyasi dairələrində, – mənim prezidentlər arasında bir çox əlaqələrim var, – hamı başa düşür ki, müsəlmanlar həmrəy olmalıdırlar və məzhəblərə bölünmə bizim birliyimiz üçün təhlükədir.

**Müxbir:** Beləliklə, Siz Körfəz ölkələrinin “rifah naminə sülh” baxışını dəstəkləyirsiniz.

**Prezident İlham Əliyev:** Düzdür.

**Müxbir:** Cənab Prezident, Siz Prezident Trampla görüş keçirdiniz. Mən onu Amerika prezidentləri arasında müstəsna şəxsiyyət hesab edirəm. Görüş zamanı Sizə ən çox təəssürat bağışlayan məqam nə oldu? Siz həqiqətən onun namizədliyini Nobel Sülh Mükafatına irəli sürəcəksinizmi?

**Prezident İlham Əliyev:** Bəli, düzdür, erməni həmkarımla birlikdə Prezident Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürdük. O, həqiqətən buna layiqdir. Vaşinqtonda şərhlərimdə də qeyd etdiyim kimi, o, bir neçə ay ərzində Afrikada, Asiyada, Cənubi Qafqazda möcüzə yaradıb. Bu, onun xarakteridir, bu, onun təbiətidir. O, sülh istəyir. O, Qərb liderlərinin ənənəvi imicindən tamamilə fərqli bir şəxsiyyətdir. O,

çox mehribandır. O, bütün hədiyyələrini, hətta planlaşdırılandan daha çoxunu verəcək qədər çox səxavətlidir. O, həqiqətən də böyük tərifəlayiq insandır. Bu, mənim onunla ilk görüşüm idi, ancaq siyasətçi kimi ona münasibətim həmişə müsbət olub. Hətta onun ilk prezidentlik dövründə belə, – ancaq o vaxt görüşmək imkanımız olmayıb, xüsusilə də o, "dərin dövlət"in nümayəndələri tərəfindən seçki saxtakarlığı ilə seçilməkdən məhrum edilib, – onun qələbəsini əlindən aldılar. Onun poçtla göndərilən səs bülletenləri ilə bağlı fikirləri tamamilə düzgündür. Çünki Amerika administrasiyaları həmişə bütün dünyaya necə yaşamalı, demokratiyanı necə qurmalı, seçkiləri necə təşkil etməli olduğumuz barədə mühazirə oxumağı xoşlayır. Lakin onlar özləri Prezident Trampı qələbədən məhrum edərək, ona qarşı ən böyük seçki saxtakarlığını etdilər. O, prezident olmadığı müddətdə özünü çox layiqli şəkildə aparıb. O, böyük cəsarət və ləyaqət nümayiş etdirərək Amerikada yenidən hakimiyyətə qayıtdı. Qurbağalarla dolu bütün bu bataqlıqlar - USAID, "Radio Liberty", "Washington Post", "New York Times", "Wall Street Journal", "Newsweek" kimi saxta xəbər mənbələrinin hamısı onun əleyhinə idi. Məni necə ləkələyirdilərsə, eləcə də hamısı onu ləkələyirdilər. Bəlkə də eyni səviyyədə deyildi, amma eyni şəkildə idi, şayiələr yayırdılar.

**Müxbir:** Necə ki, Baydenin zamanında baş verdi.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** 907-ni qüvvədə saxladılar...

**Prezident İlham Əliyev:** Bəli, tamamilə elədir. Bayden "907-ci düzəliş"i yenidən tətbiq etməyə başladı. "907-ci düzəliş" 2001-ci ildə dayandırıldı. Niyə? Çünki onların Əfqanıstanda bizə ehtiyacları var idi. Onlara səmamız, dənizimiz lazım idi. Onlara dəmir yolu lazım idi. Biz Amerika logistikasına və daşımalara çox mühüm dəstək verdik. Beləliklə, Bayden Əfqanıstandan qaçan kimi bizə yenidən sanksiya tətbiq etdilər. Axı, necə belə nankor olmaq olar?! Beləliklə, onların haqqında nə düşünə bilərdik? Biz onlarla bütün əlaqələri kəsdik. Bayden administrasiyası ilə əlaqələr sıfra enmişdi. Bu, bir fəlakət idi. Tramp isə tamamilə fərqlidir. Əminəm ki, o, nəinki Amerikanı yenidən qüdrətli edəcək bir insandır, o, Amerikanın rifah, azadlıq və inkişafın rəmzi olduğu bütün dövrlərdəki kimi, ölkəni yenidən insanların heyran olduğu yerə çevirəcək. Altı ay ərzində bu qədər məkana sülh gətirməyi bacarırsa, əminəm ki, bunu edəcək. Amma sistemin ona qarşı güclü müqaviməti var. Həm də vurğulamaq istədiyim bir şey də var ki, xüsusilə də mənə təsir edən sui-qəsd cəhdi zamanı onun özünü necə aparması idi. Bunu oynamaq mümkün deyil. Heç bir nitq yazan, heç bir siyasi məsləhətçi bunu edə bilməz ki, adam belə reaksiya versin. O, cəsur insan və böyük liderdir. Mən həqiqətən də fəxr edirəm ki, o, mənə dostu kimi yanaşır.

Müxbir: Cənab Prezident, sonda yekun sualımı verim. Türkdilli dövlətlər arasında Azərbaycan mühüm rol oynayır. Siz bu rolu necə görürsünüz? Gələcəkdə Azərbaycan öz regionunda və qonşuluğunda rolunu necə görür?

Prezident İlham Əliyev: Türk Dövlətləri Təşkilatı hazırda böyük potensiala malikdir. Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir.

Türkiyə ilə bizim çox sıx münasibətlərimiz var və bu münasibətlər hazırda 2021-ci ildə Şuşada Prezident Ərdoğanla imzaladığımız, bizi hərbi və siyasi müttəfiqlər edən Bəyannaməyə əsaslanır. Bu, hüquqi cəhətdən təkcə hər iki ölkə üçün deyil, bütün Türk dünyası üçün mühüm amildir. Keçən il biz Özbəkistanla müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Həmçinin Türk Dövlətləri Təşkilatının digər üzvləri ilə bizim strateji tərəfdaşlıq müqavilələrimiz və ya bəyannamələrimiz var. Beləliklə, bu, böyük potensialdır.

Bizi köklərimiz birləşdirir və bu, təşkilatı nadir edir. Çünki digər beynəlxalq təşkilatlara baxsaq, onların hamısını deyil, bəlkə də bir qismini ortaq etnik qrup birləşdirir. Bəli, biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir. Ölkələrimizin əhalisinin sayı artır və bu da hər bir ölkə üçün vacib amildir. İqtisadi inkişafla dəstəklənəndə isə bu, üstünlük deməkdir. Ölkə kasıb olduğu zaman bəzən bunun mənfi nəticələri də olur. Amma bizim ölkələr kasıb deyil. Hər ölkə olmasa da, ölkələrimizin bir çoxu təbii sərvətlərə malikdir.

Bizim geniş coğrafiyamız var. Türkiyə qlobal miqyasda aparıcı hərbi gücdür və Türkiyə ordusu NATO daxilində ABŞ-dan sonra ikinci yerdədir. Azərbaycan Ordusu da özünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirdi. Həmçinin logistika. Bu gün dəhlizlərdən danışanda bizdən yan keçə bilməzsiniz. Siz bizim ərazimizdən, obyektlərimizdən istifadə edə bilərsiniz. Həm də vacib olan odur ki, təşkilatın bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost münasibətlər mövcuddur. Bu, təşkilatı həqiqətən nadir edir. Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm. Beləliklə, bizim fikrimiz beynəlxalq arenada rol oynaya bilən, təkcə daxili məsələlərlə məşğul olmayan qlobal oyunçuya çevrilməkdən ibarətdir ki, həm də beynəlxalq arenada sabitləşdirici, müsbət rol oynasın və qonşular üçün imkanlar yaratsın. Bununla da biz belə bir nəhəng coğrafiyada heç kimə təhlükə törətməyən, lakin çoxları üçün fürsət hesab edilən güclü birlik qura biləcəyimizi nümayiş etdirək.

**Müxbir:** Söhbətimizin sonunda Sizə səmimi minnətdarlığımızı bildirirəm. "Əl-Ərəbiyyə" kanalında

Sizi görməkdən çox məmnun olduq. Cənab Prezident, çox sağ olun. Hörmətli tamaşaçılar, bununla xüsusi görüşümüz başa çatır. Azərbaycan Prezidentindən Azərbaycanın paytaxtında müsahibə götürdük.

### *Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə*

Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib.

**Vüsal Mətləb, AzTV-nin müxbiri:** Xoş gördük, cənab Prezident. Siz Amerika Birləşmiş Ştatları Prezidenti cənab Donald Trampın dəvəti ilə bu ölkədə səfərdəsiniz və bu gün Azərbaycanda hər kəs Vaşinqtondan xəbərlər gözləyir. Odur ki, bu müsahibəyə görə təşəkkür edirik. İcazənizlə, suallara keçək.

Cənab Trampla görüşünüzü və Amerika Birləşmiş Ştatları-Azərbaycan arasında Strateji Tərəfdaşlığa dair Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması ilə bağlı sənədin əhəmiyyətini və ümumilikdə bu səfərin nəticələrini necə qiymətləndirərdiniz?

**Prezident İlham Əliyev:** Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir.

Prezident Trampla görüşümüz çox səmimi şəkildə keçdi. Deyə bilərəm ki, dostluq şəraitində keçdi. Bir çox önəmli məsələlər müzakirə edildi. Eyni zamanda, bildiyiniz kimi, Strateji Tərəfdaşlıq Xartiyasını hazırlamaq üçün Strateji İşçi Qrupu da yaradılmışdır və əlbəttə ki, bu sənədin böyük əhəmiyyəti var. Orada gələcək əməkdaşlıq istiqamətləri də açıq-aydın təsbit edilib. Bunlar qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlığı və digər məsələləri ehtiva edir. Yəni, sadəcə olaraq, bu istiqamətlərin sadalanması onu göstərir ki, ölkəmiz qarşısında nə qədər böyük imkanlar açılır və artıq mənim göstərişimlə Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Biz öz təkliflərimizi irəli sürəcəyik. Artıq mənim səfərim çərçivəsində Amerikanın bir neçə aparıcı şirkəti ilə görüşlər keçirilmişdir. Yəni, biz vaxt itirmək istəmirik. Onsuz da əvvəlki administrasiya dövründəki dörd ili mən itirilmiş illər kimi qiymətləndirirəm. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Ona görə indi biz vaxt itirə bilmərik. Xüsusilə cənab Trampın və onun administrasiyasının nümayəndələrinin - komandasının Azərbaycana olan müsbət münasibətini, yəqin ki, tamaşaçılar da bizim keçirdiyimiz görüşlərdən və mətbuat konfransındakı ab-havadan hiss ediblər.

Bu xoş münasibət, əlbəttə ki, çox önəmli bir amildir. Bu nöqteyi-nəzərdən səfərin çox böyük əhəmiyyəti var. Bu, Prezident Trampla mənim birinci görüşümdür. Yenə də demək istəyirəm ki, görüş çox səmimi şəkildə keçdi. Onun Azərbaycanla bağlı olan bilgiləri, sözün düzü, məni təəccübləndirdi. O, bir çox məsələləri dərindən bilir. Azərbaycanın önəmini, onun geosiyasi əhəmiyyətini, Azərbaycanın Amerika Birləşmiş Ştatlarına həmişə dost ölkə olmasını cənab Tramp çox yaxşı bilir. Əlbəttə ki, şəxsi təmaslar bizim münasibətlərimizdə önəmli rol oynayacaq. Təbii ki, 907-ci düzəlişin ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək.

**Oubai Şahbandar, AnewZ televiziyasının müxbiri:** Cənab Prezident, çox möhtəşəm, tarixi bir gündür. Siz və Baş nazir Paşinyan hətta Nobel Mükafatı Komitəsinə birgə müraciət edəcəyinizə dair fikir söylədiniz. Biz eşitdik ki, Prezident Tramp Sizin baxışınızı və liderliyinizi alqışlayır. Siz də bu gün bu razılaşmaya səbəb olan Prezident Trampın uzaqgörən rəhbərliyini yüksək dəyərləndirirsiniz. Bildiyiniz kimi, Prezident Trampla şəxsi münasibətlər çox önəmlidir. Rəhbərlər arasında münasibətə, Prezident Trampla şəxsi münasibətlərinizə necə qiymət verərdiniz? Prezident Trampın onilliklər əvvəl Konqres tərəfindən qəbul edilmiş və Amerikanın Azərbaycana yardımına mane olan 907-ci düzəlişi dayandırmasını görmək Sizin üçün nə dərəcədə əhəmiyyətli idi. Bu, Azərbaycan və ABŞ üçün yeni bir məqamdırmı?

**Prezident İlham Əliyev:** Əlbəttə, belədir! Əminəm ki, biz münasibətlərimizdə yeni səhifə açırıq. Şəxsi təmasa gəldikdə, bu, Prezident Trampla bizim ilk görüşümüz idi. Çox mehriban, səmimi və nəticəyönümlü görüş keçdi. Təbii ki, mən Prezident Trampı əvvəlki prezidentlik müddətindən və bu altı ayda gördüyü işlərdən tanıyırdım. Prezident Tramp mənim kim olduğumu bilmirdi, amma o, mənim haqqımda komanda üzvlərindən eşidib. Təbii ki, Prezident Trampa mənim şəxsi

münasibətim hər zaman çox müsbət olub və hətta keçən ilin ortalarında mənə ABŞ-dakı seçkilərlə bağlı sual verəndə, mən düşündüyümü açıq şəkildə demişdim. Demişdim ki, biz onu dəstəkləyirik. Çünki o, yəqin ki, müharibələr başlamayan yeganə Amerika prezidentidir və bu həqiqətdir. O, Azərbaycan xalqı kimi ailə dəyərlərinə önəm verən insandır. Təbii ki, bu gün mətbuat konfransında qeyd etdiyim kimi, o, bu altı ay ərzində qeyri-mümkün görünən işlər gördü: istər Afrikada, Asiyada və Cənubi Qafqazda. O, sülh gətirir və ortaya nəzərəçarpan nəticələr qoyur. Beləliklə, mən bu baxımdan bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə bu şəxsi münasibətlər ölkələrimiz arasında dövlətlərarası əlaqələrə çox müsbət təsir göstərəcək.

Əlbəttə ki, "Azadlığa dəstək aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi mənа daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə,biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik. Sonra bildiyiniz kimi, 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Biz isə çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər. Dayandırılmaması bizim üçün böyük şok oldu, çünki Bayden administrasiyasından belə bir yanaşma gözləmirdik. Əfqanıstanda bizə ehtiyac olmadığına görə Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə buna əl atdı. Bundan sonra bizə qarşı sanksiyalar yenidən qüvvəyə mindi. Bu, yəqin ki, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi. Əslində, bu, Bayden administrasiyası ilə onların hakimiyyətinin sonuna qədər düzəlməyən əlaqələrimizin ciddi şəkildə pisləşməsinə səbəb oldu. Beləliklə, münasibətlərimiz dərin böhran içində idi.

Odur ki, Prezident Trampın bu rəmzi jestinin bizim üçün çox dərin mənası var. Təbii ki, bu gün Azərbaycanın xarici yardıma ehtiyacı yoxdur, ölkəmiz xarici yardımdan asılı deyil. İqtisadiyyatımız sabitdir, xarici borcumuz ÜDM-in yeddi faizindən də azdır. Özümüz donor ölkəyə çevrilmişik. Beləliklə, bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi mənа daşıyır. Bu, artıq ədalətsizliyin artıq aradan qalxdığını göstərir. Beləliklə, bu, Prezidentin adından çox mühüm siyasi jest idi. Eyni zamanda, bu gün onun ofisində bu sənədlə bərabər, Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması haqqında sənədi də imzaladıq. Bu iki mühüm hadisə bu gün baş verib. Buna görə də mən avqustun 8-ni dövlətlərarası münasibətlərimizdə tarixi gün hesab edirəm və bu da bütün regiona çox müsbət təsir göstərəcək. Şübhəsiz ki, bu gün Azərbaycan ilə Ermənistan arasında baş verənlər Cənubi Qafqazda sülh, sabitlik və firavanlıq istəyənlərin hamısı üçün, bütün region üçün çox əhəmiyyətli olacaqdır.

**Abbasəli Yadigarov, AZƏRTAC-ın müxbiri:** Cənab Prezident, bu gün çox önəmli sənədlər imzalandı. Hamıya yaxşı məlumdur ki, İkinci Qarabağ müharibəsində Zəfərdən sonra sülh müqaviləsi təşəbbüsünü məhz Azərbaycan irəli sürmüşdür. Bu baxımdan, bu gün imzalanan sənədlərin əhəmiyyətini necə şərh edərdiniz?

**Prezident İlham Əliyev:** Bəli, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Ermənistan-Azərbaycan gələcək əlaqələri və təmasları sahəsində bir boşluq, bir vakuum yaranmışdı. O vaxt hələ fəaliyyət göstərmək istəyən ATƏT-in Minsk qrupu da demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Onlar bilmirdilər ki, nə etmək lazımdır. Çünki Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdir. Qarabağ münaqişəsi, Azərbaycan-Ermənistan münaqişəsi hərbi-siyasi yollarla öz həllini tapmışdır. Azərbaycan məhz o vaxt gələcək baxışlarını ortaya qoydu. Yəni ki, bu boşluq çox davam edə bilməz. Yəni, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi olmalıdır və onun təşəbbüskarı qeyd etdiyiniz kimi, biz olmuşuq. Biz o təşəbbüsü irəli sürəndən sonra yenə də heç yerdən cavab gəlmədi. Onda biz məlum əsas beş prinsipi ortaya qoyduq və bunun üzərində sülh sazişinin mətnini də biz hazırlamışdıq.

Bildiyiniz kimi, ondan sonra bizim təşəbbüsümüzlə danışıqlar prosesi başlamışdı. Danışıqlar prosesi o qədər də hamar getmirdi. Onun da əsas səbəbi ondan ibarət idi ki, o vaxt Ermənistan tərəfi sülh sazişinə Qarabağla bağlı müddəanı daxil etdirmək istəyirdi. Halbuki bu, heç bir məntiqə sığmayan, heç bir hüquqi və siyasi əsası olmayan məsələdir. Biz Ermənistan tərəfinə izah etməyə çalışırdıq ki, bu, bizim daxili məsələmizdir və dövlətlərarası sazişə hər hansı bir ölkənin daxili məsələsi daxil oluna bilməz. Ancaq buna baxmayaraq, Ermənistan təkidlə öz mövqeyindən geri çəkilmək istəmirdi.

Yəqin ki, yadınızdadır ondan sonra Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüssel görüşləri keçirilmişdir. Ancaq yenə də əsas fundamental məsələ imkan vermirdi ki, tərəflər bu məsələdə razılığa gəlsinlər. Yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra

Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Hesab edirəm ki, bu, Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Əminəm ki, bu gün Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirib.

Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər. Lakin bu gün mən bəzi suallara münasibətimi bildirəndə dedim ki, bir halda Azərbaycan və Ermənistan rəhbərləri bu paraflamanı Ağ Evdə etməyi qəbul ediblərsə, deməli, hesab etmək olar ki, artıq bölgəmizə dayanıqlı sülh gəlib. Hesab edirəm ki, bu, həm Azərbaycan, həm Ermənistan, həm bütün bölgə üçün xüsusi əhəmiyyətə malik olan məsələdir. Odur ki, bugünkü gün, o cümlədən buna görə tarixi gün sayıla bilər. Həm Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Azərbaycan-Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir. Mən bu gün mətbuat konfransında da qeyd etdim, biz dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidentinin iştirakı ilə bunu etdik. Əlbəttə, hər kəs başa düşür ki, bunun nə qədər böyük əhəmiyyəti var, həm ölkəmiz üçün, həm bölgə üçün, həm geniş coğrafiya üçün. Biz haqq-ədaləti müharibə yolu ilə bərpa etdik. İndi isə buna siyasi müstəvidə də nöqtəni qoyduq.

**Vüsal Mətləb:** Cənab Prezident, Vətən müharibəsindən sonra sülh müqaviləsinin imzalanması üçün Ermənistan qarşısında bəzi şərtlər qoymuşdunuz. Onlardan birincisi ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı idi. Hansı ki, bu gün Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ATƏT-in Baş katibinə bununla bağlı müraciət imzaladılar. İkinci şərt Ermənistanın əsas qanunundan – Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılması ilə bağlı idi. Bu, indiki halda nə qədər real görünür?

**Prezident İlham Əliyev:** Məncə, tam real görünür. Çünki birincisi onu deməliyəm ki, bizim bütün şərtlərimiz tam məntiqli, əsaslı və qanunauyğundur. Müxtəlif mərhələlərdə Ermənistan cəmiyyətində və hakim dairələrində belə bir fərziyyə irəli sürülürdü ki, sanki Azərbaycan Ermənistanın daxili işlərinə qarışmaq istəyir və hətta danışıqlar zamanı dəfələrlə belə bir məsələ qaldırılmışdı. Bizim isə mövqeyimiz ondan ibarət idi ki, bu, belə qəbul edilməməlidir. Bu, birbaşa bizə aidiyyəti olan məsələdir. Bizim ərazi bütövlüyümüzə olan açıq tələbdir, iddiadır. Ona görə bu düzəliş edilmədən sülh sazişi imzalana bilməz.

Bizim mövqeyimiz hər zaman ardıcıl, məntiqli, əsaslı idi və biz öz mövqeyimizdən geri addım atmamışıq. Çünki heç vaxt Ermənistan qarşısında qeyri-real və qəbul edilə bilməyəcək şərtlər də qoymamışdıq. Amma nədənsə Minsk qrupunun ləğvi ilə bağlı bizim əsaslı təklifimiz mənfi reaksiya ilə üzləşirdi. Halbuki dəfələrlə biz izah etməyə çalışırdıq ki, bir halda Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bir halda artıq Ermənistan özü deyir ki, Qarabağ Azərbaycandır, Minsk qrupunun de-yure qalması tamamilə məntiqsizdir. Onsuz da o, öz funksional mahiyyətini itirmişdir və biz heç vaxt imkan verməyrik ki, bu, hər hansı bir formada canlansın, yaxud da hansısa başqa formaya minsin. Ona görə bu gün sülh sazişinin paraflanması və Minsk qrupunun ləğvi ilə bağlı bizim müştərək müraciətimiz, hesab edirəm ki, birinci maneəni aradan qaldırıb. Yenə də deyirəm, bu gün bu paraflanma Ağ Evdə baş tutdu. Ona görə mən şübhə etmirəm ki, Ermənistan Konstitusiyası dəyişdiriləndə, – Ermənistan tərəfi özü bunu bildirir ki, belə dəyişikliklər edilməlidir, – Azərbaycana olan ərazi iddiası oradan çıxarılacaq. Əks təqdirdə, bu, birinci növbədə Amerika Birləşmiş Ştatlarına hörmətsizlik olacaq. Hər kəs bilir və bizim mövqeyimiz, demək olar ki, bütün aparıcı beynəlxalq aktorlar, o cümlədən Amerika Birləşmiş Ştatları tərəfindən anlayışla qarşılanır. Çünki sülh sazişi imzalananda hər bir məsələ öz həllini tapmalıdır və bizə qarşı olan əsassız ərazi iddiası oradan çıxarılmalıdır. Ona görə mənim bu məsələ ilə bağlı şübhəm yoxdur. Yenə də deyirəm, bunun nə vaxt olacağı Ermənistanın öz işidir. Biz burada hər hansı bir təklif irəli sürə bilmərik. Ancaq mən hesab edirəm ki, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki məncə, vaxt itirmək lazım deyil. Bir halda ki, artıq Azərbaycanla Ermənistan sülh sazişini paraflayıb, onun rəsmi imzalanması da çox çəkməməlidir.

**Oubai Şahbandar:** Cənab Prezident, Vaşinqtona səfəriniz, sülh sazişinin paraflanması, Prezident Trampla görüşünüz Sizi və Azərbaycanı milyonlarla amerikalıya ilk dəfədir ki, tanıdır. Azərbaycanı tanımayanlar, bəlkə də Azərbaycanın harada olduğunu bilməyənlər, yaxud müəyyən yanlış təsəvvürlərə malik insanlar sizinlə tanış ola bildilər. Bəzi Amerika media qurumları və beyin mərkəzləri arasında yaranan bir sıra narahatlıqlara necə cavab verərdiniz: onlar Qarabağda xristianların qorunub-qorunmayacağından narahatdırlar. Nəzərə alsaq ki, Tramp ticarət marşrutu qurulacaq, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, həm də Amerikanın ticarət maraqları üçün nə qədər vacibdir?

**Prezident İlham Əliyev:** Bəli, bilirsiniz ki, Prezident Trampın əsaslı olaraq saxta xəbərlər adlandırdığı bəzi Birləşmiş Ştatlar mediasında Azərbaycan iblis donunda təqdim olunurdu. “Washington Post”, “New York Times”, “Newsweek” və bir çox başqa media qurumları mütəmadi olaraq Azərbaycan haqqında şayiələr yayır, bizə hücum edir, təhqiramiz yazılar dərc edir və əslində, Amerika ictimai rəyini çaşdırırdılar. Bunu

əsasən bu gün erməni maraqlarına uyğun fəaliyyət göstərən erməni lobbi qruplarının nümayəndələri ediblər. Bu gün baş verənlərə sevinmək əvəzinə, onlar çox məyus olurlar, çünki onların maraqları tamamilə fərqlidir. Onlar işğala görə məsuliyyət daşıyanlardır, çünki onların ideyaları, məsləhətləri, pulları və Ermənistanın müxtəlif hökumətlərinə təsirləri Ermənistanın özü üçün dağıdıcı rol oynayıb. Əgər onlar, belə qruplar olmasaydı, Ermənistan daha çox inkişaf etmiş, möhkəm, müstəqil sistemə malik ölkə olardı. Amma onlar, sadəcə, vaxt itirdilər, torpaqlarımızı işğal edərək vaxt itirdilər və sonda bu işğalı əbədi saxlaya bilmədilər, əslində isə özlərini inkişafdan 30 il geri atdılar.

Azərbaycanla bağlı bütün bu şayiələr və yalan məlumatlar ölkəmizi tanıyanlar üçün tamamilə qərəzli səslənir. Çünki Azərbaycan etnik və dini müxtəlifliyi ilə məşhur olan nadir ölkələrdən biridir. Bütün dini obyektlər dövlət tərəfindən qorunur. Azərbaycanda heç vaxt qarşıdurma, hətta etnik, dini fərqlər zəminində anlaşılmazlıq olmayıb. Əksinə, bu gün Azərbaycan multikulturalizmin mərkəzlərindən biridir. Burada müxtəlif dini və etnik qrupların nümayəndələri bir ailə kimi yaşayırlar. Məncə, bu gün baş verənlər hələ də ya reallığı bilməyən, ya da bilərəkdən yanlış təsəvvürlər yaratmağa çalışanlara tutarlı cavab olacaq.

O ki qaldı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsinə, bilirsiniz ki, bu mövzu ətrafında biz son beş ildə nə qədər şayiələr, nə qədər təxribatlar ilə üzləşmişik. Müxtəlif ölkələrin rəhbərləri Azərbaycanın guya ermənilərə hücum etməyi planlaşdırdığı barədə şayiələr yayırdılar, ölkəmizin bu ərazini guya güc yolu ilə ələ keçirməyi planlaşdırdığını deyirdilər. Bunun yalan məlumat olduğu barədə bütün cavablarımız nəticə vermirdi, çünki bu yanlış təsəvvür Vaşinqton da daxil olmaqla, artıq yaranmışdı. Bu azərbaycanofobiyanın hərəkətverici qüvvəsi Bayden administrasiyası idi və biz bunu dəqiq bilirik. Çünki bir çox hallarda avropalı tərəfdaşlarımızla söhbətlərdə onlar bizə bu məlumatın Baydenin komandasından gəldiyini deyirdilər. Onlar Azərbaycanın guya aqressiv niyyətləri barədə qəsdən şayiələr yayırdılar. Hətta Prezident Trampın administrasiyasının ilk aylarında bəzi dövlət qurumlarında köhnə komandanın hələ də çalışan nümayəndələrindən gələn belə yalanlar olub. Onların fəaliyyətinə əsas təsiri Azərbaycana nifrət edən "Human Rights Watch", "Freedom House" kimi QHT-lər və ya USAID, "Azadlıq" radiosu göstərib. Bilirsiniz ki, Prezident Tramp dünyanı USAID adlanan bu fəlakətdən məharətlə xilas etdi. Beləliklə, bu, bizim üçün bu məlumatların yanlış olduğunu izah etmək bir növ çağırış idi. Ona görə də izah etməli idik ki, bizim belə bir niyyətimiz yoxdur.

Bu gün baş verənlərin nəticəsində isə Prezident Trampın şahidliyi ilə Ermənistanın Baş nazirinin şəxsən imzaladığı birgə bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəa var. Sənəddə bu, Ermənistanın suverenliynə hörmət prinsipi ilə qeyd olunub. Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı. Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq.

Eyni zamanda, biz Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpasına başlayırıq. Deməli, bizə bu 40 kilometrlik dəmir yolu lazımdır ki, Azərbaycanın iki hissəsini birləşdirə bilək. Bu, təkcə dəmir yolu ilə bitmir. Biz elektrik ötürücü xətləri, fiber-optik xətlər, potensial olaraq Azərbaycanın və Xəzərin digər tayından qonşularımızın enerji resurslarını daşıya biləcək enerji infrastrukturları haqqında düşünürük. Beləliklə, bu, hər şeydən əvvəl, Bayden administrasiyasının yetişdirdiyi bütün anti-Azərbaycan rəvayətlər və sərəncamında olan siyasi infrastruktura - media, QHT-lər, USAID və bəzi korrupsioner siyasətçilərə cavab idi. Bugünkü hadisə korrupsiyaya görə dəmir barmaqlıqlar arxasında olan Menendez kimiləri tamamilə sıradan çıxarır. Yaxud Adam Şiff. Mən gələndə öyrəndim ki, Merilend prokuroru Adam Şiffə qarşı ipoteka saxtakarlığına görə cinayət işi açıb. Bilirsiniz, bu adamlar mütəmadi olaraq Azərbaycana hücum edirdilər - Menendez, Şiff, Peloni, Pelosi, Şermann, Marki, Kristofer Smit və başqaları. Bütün bu insanlar Azərbaycana nifrət edirlər – bilmirəm niyə, yəqin ki, Ermənistan lobbisi buna görə onlara pul ödəyirdi. Onlar Azərbaycanın əleyhinə mütəmadi olaraq fəaliyyət göstərən bir qrup ciddi siyasətçi idi. Bu gün Azərbaycan ilə Ermənistan arasında imzalananlar bizim niyyətlərimizi açıq şəkildə nümayiş etdirir – göstərir ki, biz sülh istəyirik, amma biz əlaqələrin qurulmasını da istəyirik. Biz ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçidlə inteqrasiyanı istəyirik ki, bu da daha geniş region, Ermənistanın özü üçün də çoxlu imkanlar vəd edəcək.

Mən Ermənistanın Baş naziri ilə görüşlərin birində demişdim ki, Ermənistanın tranzit ölkə olmaq şansı yaranacaq. Dedim ki, siz tranzit ölkə olmağın mənasını bilmirsiniz. Siz tranzit ölkə deyilsiniz və yalnız Azərbaycan sayəsində tranzit ölkə ola bilərsiniz. Azərbaycansız tranzit ölkə olmaq mümkün deyil və siz tranzit ölkə olmağın üstünlüyünü görəcəksiniz. Biz daha güclü tranzit ölkə olmağa çalışırıq. Biz istəyirik ki, ərazimizdən keçən dəhlizlər daha çox yükdaşıma qabiliyyətinə malik olsun. Bu, pul gətirir, iş yerləri açır və siyasi imkanlar vəd edir. Söhbət Ermənistanın uzun illər özünü məhrum etdiyi imkanlardan gedir. Beləliklə, bu nəqliyyat marşrutu – qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi

nailiyyət olacaq. Amma yenə də, daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq.

**Oubai Şahbandar:** Bölgəyə daha çox Amerika sərmayələrinin gəlişini gözləyirsinizmi? Biz tarixi imzalanma mərasimində Kris Raytın iştirak etdiyini gördük. Söz təbii ki, SOCAR və "ExxonMobil" arasında imzalanmış memorandumdan gedir.

**Prezident İlham Əliyev:** Şübhəsiz ki, belədir. Əminəm ki, dünən "ExxonMobil" və SOCAR arasında əməkdaşlığa dair imzalanan memorandum böyük layihə ilə nəticələnəcək. Əvvəlcədən nə isə demək istəmirəm, amma Azərbaycanda böyük neft yatağının kəşfi ehtimalı yüksəkdir. Bildiyiniz kimi, "Exxon" dünyanın aparıcı enerji şirkətidir və müasir texnologiyalar sahəsində böyük təcrübəyə malikdir. "Exxon"un, həmçinin Azərbaycanda böyük təcrübəsi var. "Exxon" bizim "Azəri-Çıraq-Günəşli" layihəmizə ilk olaraq 1994-cü ildə qoşulmuşdu və dünən burada xüsusi elçi cənab Uitkoffun, ABŞ-ın enerji nazirinin müavininin və mənim iştirakımla imzalanma mərasiminin keçirilməsi faktiki olaraq nümayiş etdirir ki, biz bu layihənin gələcəyinə inanırıq. İnanın, inanmasaydıq, memorandumun imzalanmasında iştirak etməzdik. Mən çox nadir hallarda memorandum imzalanmasında iştirak edirəm. Mən bəzən müqavilələrin imzalanmasında iştirak edirəm, lakin bu, memorandumdur. Əlimizdə bir sıra amillər, texniki amillər var ki, onlar yeni karbohidrogen ehtiyatlarının kəşfinə işarə edir. Bəlkə də son on il və ya daha uzun müddətdə ədalətsiz şəkildə ayrı-seçkiliyə məruz qalan mədən yanacağı Prezident Trampın baxışı və siyasəti sayəsində yenə də dəbdədir. Səfər çərçivəsində heyətimizin üzvləri beynəlxalq maliyyə təşkilatları, ABŞ-ın "Ex-Im" Bankı ilə mədən yanacağı sahəsində layihələr, karbohidrogenlərin nəqli infrastrukturunda potensial maliyyəyə dair danışıqlar aparıb. Buna görə də enerji mövzusu əməkdaşlığımızın mühüm hissələrindən biri olaraq qalmağa davam edəcək.

Prezident Trampla imzaladığımız memorandumda enerji əməkdaşlığı xüsusi yer tutur. Beləliklə, biz enerji deyəndə neft, qaz, potensial olaraq bərpaolunan enerji mənbələrini nəzərdə tuturuq. Bu gün NATO-nun 10 üzvünü, ABŞ-ın 10 müttəfiqini təbii qazla təchiz edirik. Biz boru kəməri ilə qaz tədarükü üzrə 14 ölkəni əhatə edirik. Deməli, bu baxımdan, – qaz kəmərini nəzərdə tuturam, – Azərbaycan dünyanın qabaqcıl ölkələrindən biridir. Belə ki, 10 NATO, 10 Aİ üzvü bizdən qaz alır. Biz bu yaxınlarda Suriyaya təbii qaz tədarük etməyə başlamışıq. Beləliklə, biz artıq Yaxın Şərq regionuna daxil olmuşuq və coğrafiyamızı Avropada, eləcə də Yaxın Şərqdə genişləndirəcəyik. Bu, əslində, enerji sahəsində gələcək gündəliyimizin yalnız bir hissəsidir.

Amerika Birləşmiş Ştatları ilə süni zəka, rəqəmsal transformasiya üzrə yaxından işləmək planlarımız var. Mənim buraya səfərim zamanı artıq komandamızın üzvləri ilə Amerika şirkətləri arasında ilkin müzakirələr baş tutub. Yeni görüşlər də olacaq. Beləliklə, həqiqətən də bu gün biz bütün istiqamətlər üzrə – təhlükəsizlik, sabitlik, Cənubi Qafqazda sülh, iqtisadi imkanlar, investisiyalar, enerji təhlükəsizliyi və bir çox digər sahələr baxımından tarixi bir günün şahidi oluruq.

**Oubai Şahbandar:** Çox sağ olun, cənab Prezident.

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.003

**S İ Y A S Ə T**
**P O L I T I C S**

UOT 321; 323

**ЛУ МЭЙ**
**Чрезвычайный и полномочный посол Китайской Народной Республики в Азербайджанской Республике**

# ПЯТИЛЕТНЯЯ ПРОГРАММА – КЛЮЧ К УСПЕХУ «КИТАЙСКОГО УПРАВЛЕНИЯ»

С 20 по 23 октября 2025 года в Пекине состоялся 4-й пленум ЦК КПК 20-го созыва. Генеральный секретарь ЦК КПК Си Цзиньпин выступил на нем с важной речью. На пленуме были рассмотрены и приняты «Предложения ЦК КПК по разработке 15-й пятилетней программы народнохозяйственного и социального развития», в которой были определены основные направления и стратегические ориентиры развития Китая на будущие 5 лет.

Научная разработка и последовательная реализация пятилетних программ являются важным опытом руководства страной Коммунистической партией Китая и важным политическим преимуществом социализма с китайской спецификой. С 1953 года Китай непрерывно разрабатывал и осуществлял 14 пятилетних программ (планов). Генеральный секретарь Си Цзиньпин сказал: «Один из иностранных лидеров сказал мне, что у Китая есть большое преимущество. Китайская сторона всегда составляет различные планы, и все планы всегда могут быть реализованы. Сейчас все полны уверенности в китайской модернизации». Система планирования национального развития, отличительной чертой которой является пятилетняя программа, не только привнесла китайскую мудрость в инновацию модели государственного управления, но и предоставила развивающимся странам китайский вариант для продвижения модернизации.

## 1. Пятилетняя программа придерживается принципа реализации плана до конца

Пятилетняя программа не уникальна для Китая и Китай не является ее инициатором, но только Китай сохранил преемственность и добился блестящих успехов. В период от «первого пятилетнего плана» к «пятому пятилетнему плану» Китай превратился из крайне бедной страны в страну с самостоятельными и относительно целостными системами промышленности и народным хозяйством. «Шестой пятилетний план» и «седьмой пятилетний план» способствовали обеспечению населения питанием и одеждой. Благодаря «восьмому пятилетнему плану» и «девятому пятилетнему плану» жизнь народа в целом поднялась до уровня среднего достатка, а в период от «десятого пятилетнего плана» до «13-го пятилетней программы» были приложены усилия к

построению благополучного общества. «14-я пятилетняя программа» была разработана в соответствии с «двухэтапной» стратегией, предложенной на 19-м съезде КПК для содействия началу нового этапа модернизации.

В 15-й пятилетке были поставлены основные цели социально-экономического развития на будущие 5 лет, а именно: достижение заметных результатов в высококачественном развитии, значительное повышение уровня научно-технической самостоятельности и самодостаточности, совершение новых прорывов в дальнейшем всестороннем углублении реформ, заметное повышение уровня цивилизованности общества, непрерывное улучшение качества жизни народа, достижение новых значительных сдвигов в строительстве «Прекрасного Китая», повышение надежности заслона национальной безопасности. На этой основе мы должны пройти еще один пятилетний этап упорной борьбы, чтобы к 2035 году достичь значительного роста экономической, научно-технической, оборонной и совокупной национальной мощи, а также международного влияния Китая. ВВП на душу населения должен достичь уровня среднеразвитых стран, жизнь народа станет более счастливой и прекрасной, будет в основном осуществлена социалистическая модернизация. Можно сказать, что эти предложения очертили грандиозную программу развития Китая на ближайшие 5 лет и представили прекрасное видение взаимовыгодного сотрудничества Китая с миром.

## 2. Пятилетняя программа обладает преимуществами, которые позволяют сконцентрировать усилия на свершении наиболее важных дел

Руководство КПК сыграло решающую роль в подготовке и осуществлении пятилетней программы. Весь процесс подготовки, осуществления и оценки пятилетней программы всегда осуществлялся под руководством партии с целью обеспечить историческую преемственность стратегии развития и учитывать ее долгосрочную перспективу. В ходе подготовки пятилетней программы КПК активно изучал мнения всех слоев общества, сочетая проектирование на высшем уровне с обращением к народу за предложениями, полностью учитывает мнения и мудрость народа, чтобы сформировать консенсус всего общества. В ходе реализации пятилетней программы КПК играет роль во владении обстановкой в целом и координации деятельности всех сторон, объединив департаменты, местные власти, политику, проекты, денежные средства и персонал в одном терминале, чтобы сформировать единую систему мобилизации ресурсов. Это яркая интерпретация ключа к успеху системы «концентрации усилий на свершении наиболее важных дел».

Пятилетняя программа стала значительным преимуществом государственного управления Китая, что в конечном итоге нашло отражение в эффективном осуществлении программы и выдающихся достижениях социалистической модернизации. С 1952 по 2024 год ВВП Китая рос в среднем на 7,9% в год, что способствовало всестороннему экономическому, политическому, культурному, социальному и экологическому прогрессу. Китай является второй экономикой мира, крупнейшей промышленной державой, страной с крупнейшим торговым оборотом, вторым по величине потребительским рынком и крупнейшим держателем валютных резервов. Китай — главный торговый партнёр для более чем 150 стран и регионов и его вклад в мировой экономический рост стабильно держится на уровне около 30%. При этом его достижения в области искусственного

интеллекта, цифровой экономики и «зелёного» развития наполняют глобальные инновации новой энергией.

### 3. Пятилетняя программа придерживается позиции «народ — это центр»

Столетняя история КПК свидетельствовала о том, что партия и народ сохраняли близкую связь, разделяли общую судьбу и жили одними думами. На торжественном собрании по случаю столетнего юбилея основания КПК, генеральный секретарь Си Цзиньпин призвал всех членов партии «поддерживать кровные связи с народными массами, всегда жить с народом одними думами и вместе с ним трудиться, разделять их радости и невзгоды, продолжать прилагать неустанные усилия для реализации мечты народа о прекрасной жизни, и добиваться еще большей славы во имя партии и народа». Благодаря разработке и осуществлению пятилетней программы КПК органично объединила свои стратегические цели с политикой развития и конкретными мерами, чтобы политические идеалы и цели партии превратились в реальность, которая удовлетворяет стремление народа к прекрасной жизни.

В период «14-й пятилетки» КПК продолжала обеспечивать и улучшать жизнь населения в ходе развития и прилагать неустанные усилия для того, чтобы детям было где получать воспитание, народу – где получать образование, зарабатывать на жизнь, лечиться и жить, чтобы в старости народ жил обеспеченной жизнью, а уязвимая группа людей получала помощь. Китай построил крупнейшую в мире систему образования, социального обеспечения, здравоохранения, а также систему обеспечения жильем в городах. Средняя ожидаемая продолжительность жизни населения страны достигла 79 лет в 2024 году, а рост доходов населения был синхронизирован с экономическим ростом.

В 15-й пятилетке говорится о дальнейшем планировании и развертывании усилий, направленных на обеспечение и улучшение благосостояния народа, основательное содействие достижению всеобщей зажиточности населения. В Предложениях подчеркивается, что следует рассматривать удовлетворение возрастающих потребностей народа в прекрасной жизни как основную цель. Необходимо эффективно повышать доходы низкооплачиваемых категорий населения, уверенными шагами наращивать численность людей со средним уровнем дохода, защищать коренные интересы народа, содействовать социальному равенству и справедливости, содействовать совершению уверенных шагов во всестороннем развитии личности и осуществлении всеобщей зажиточности населения. Следует уделять пристальное внимание обеспечению и улучшению народного благосостояния в процессе развития, расширять возможности для развития при удовлетворении потребностей в обеспечении благосостояния народа, продвигать скоординированное развитие экономики и общества, а также взаимное стимулирование материальной и духовной культуры, чтобы народ мог в еще большем объеме и на еще более справедливой основе пользоваться достижениями модернизации.

### 4. Пятилетняя программа обеспечивает ценную определенность и стабильность для глобального развития

КПК является партией, которая не только борется за счастье китайского народа и возрождение китайской нации, но и стремится к прогрессу человечества и великому единению мира. Пятилетняя программа Китая ориентирована не только на внутреннюю, но и на глобальную

перспективу. Она не только привнесла китайскую мудрость в инновацию модели государственного управления, но и предоставила развивающимся странам китайский вариант для продвижения модернизации.

В Предложениях отмечается, что необходимо планомерно расширять открытость на институциональном уровне, защищать многостороннюю торговую систему, расширять международную циркуляцию, содействовать реформам и развитию посредством расширения открытости, тем самым разделяя возможности со всеми странами мира и стремясь к совместному развитию. Следует активно расширять инициативную открытость, стимулировать инновационное развитие торговли, расширять пространство для взаимного инвестиционного сотрудничества и продвигать высококачественную совместную реализацию инициативы «Пояс и путь». Необходимо реализовывать Инициативу глобального развития, Инициативу глобальной безопасности, Инициативу глобальной цивилизации и Инициативу глобального управления, поддерживать государства Глобального Юга в объединении и самоукреплении, отстаивая равенство и справедливость в международных отношениях, внося тем самым свой вклад в создание сообщества единой судьбы человечества. В нынешней обстановке, когда динамика восстановления мировой экономики остается слабой, учащаются геополитические конфликты, а факторы неопределенности усиливаются, «15-я пятилетняя программа» демонстрирует миру мощный импульс развития Китая с уверенностью и открытостью, а также донести до международного сообщества четкий сигнал о том, что Китай и весь мир имеют общие возможности и стремятся к совместному развитию.

Китай и Азербайджан – партнёры на пути развития и возрождения. Под стратегическим руководством генерального секретаря Си Цзиньпина и президента Ильхама Алиева качественное развитие отношений между Китаем и Азербайджаном ускорилось. Развитие всеобъемлющего стратегического партнерства между странами достигло самого высокого уровня в истории. Правящие партии двух стран постоянно углубляют сотрудничество, а также активно проводят обмен опытом по вопросу государственного управления. Оба государства обладают институциональными преимуществами и всеобъемлющей силой, позволяющей им «сконцентрировать усилия на свершении наиболее важных дел», и продолжают ставить интересы народа на первое место. Оба государства активно вносят позитивную энергию в дело мира и процветания во всем мире и в регионе. Концепции и цели, сформулированные в 15-й пятилетке в значительной степени соответствует «Национальными приоритетами социально-экономического развития: Азербайджан 2030». Заглядывая в будущее, Китай готов сотрудничать с Азербайджаном, чтобы укрепить важные договоренности, достигнутые лидерами двух стран, качественно построить «Пояс и путь», укрепить состыковку стратегий развития, поделиться возможностями для модернизированного развития, принести больше пользы народам двух стран и работать сообща во имя построению сообщества единой судьбы.

***Ключевые слова:*** *пятилетняя программа, китайская модель управления, китайский социализм, концентрация ресурсов, сотрудничество, социально-экономическое развитие*

**Lu Mey**

*Azərbaycan Respublikasında*
*Çin Xalq Respublikasının*
*fövqəladə və səlahiyyətli səfiri*

# BEŞİLLİK PLAN: "ÇİN İDARƏÇİLİYİ" UĞURUNUN AÇARI

## XÜLASƏ

Sosial-iqtisadi inkişaf üzrə Beşillik Plan Çin Xalq Respublikasında dövlət idarəçiliyinin əsas institusional mexanizmi və Çin xüsusiyyətlərinə malik sosializmin əsas siyasi üstünlüyüdür. 1953-cü ildən bəri Çin ardıcıl olaraq 14 Beşillik Plan hazırlayıb həyata keçirərək qlobal praktikada misilsiz davamlı strateji planlaşdırma sistemini təmin etmişdir.

Məqalədə iddia edilir ki, Beşillik Planlaşdırma sisteminin effektivliyi dörd əsas amil ilə müəyyən edilir: 1) ÇKP-nin mərkəzləşdirilmiş rəhbərliyi altında planların ciddi davamlılığı və tam icrası; 2) milli resursları prioritet sahələrə cəmləşdirmək üçün unikal qabiliyyət ("səyləri ən vacib vəzifələrə yönəltmək"); 3) dünyanın ən böyük təhsil, səhiyyə və sosial təminat sistemlərinin yaradılması ilə nəticələnən "insan mərkəzli" prinsipə ardıcıl diqqət yetirmək; 4) Artan qeyri-müəyyənlik şəraitində qlobal inkişaf üçün proqnozlaşdırıla bilmənin və sabitliyin təmin edilməsi.

15-ci Beşillik Plan yüksək keyfiyyətli inkişafa, elmi və texnoloji özünütəmin etməyə, islahatların daha da dərinləşdirilməsinə, rifahın artırılmasına və ekoloji sivilizasiyaya vurğu edir, adambaşına düşən ÜDM-ə görə orta inkişaf etmiş ölkələrin səviyyəsinə çatmağı və 2035-ci ilə qədər sosialist modernləşmənin əsaslı şəkildə başa çatdırılmasını hədəfləyir. Məqalədə həmçinin daha da institusional açıqlığa, "Bir kəmər, bir yol" təşəbbüsünün yüksək keyfiyyətli qurulmasına və Çinin qlobal təşəbbüslərinin təşviqinə vurğu edilir. Məqalədə 15-ci Beşillik Planın məqsədləri ilə bir sıra tərəfdaşların, o cümlədən "Azərbaycan 2030"-un milli prioritetləri arasında yüksək dərəcədə uyğunluq qeyd olunur ki, bu da strateji əməkdaşlığın dərinləşdirilməsi və bəşəriyyət üçün ortaq gələcəyi olan bir icmanın qurulmasına birgə töhfə vermək üçün zəmin yaradır.

***Açar sözlər:*** *Beşillik Plan, Çin idarəetmə modeli, Çin sosializmi, resurs konsentrasiyası, əməkdaşlıq, sosial-iqtisadi inkişaf*

**Lu Mei**

*Extraordinary and Plenipotentiary Ambassador*
*of the People's Republic of China*
*to the Republic of Azerbaijan*

## THE FIVE-YEAR PLAN: THE KEY TO THE SUCCESS OF "CHINESE GOVERNANCE"

### ABSTRACT

The Five-Year Plan for socio-economic development represents a key institutional mechanism of state governance in the People's Republic of China and a major political advantage of socialism with Chinese characteristics. Since 1953, China has consistently formulated and implemented 14 Five-Year Plans, ensuring continuity in strategic planning which is an achievement without parallel in global practice.

The article argues that the effectiveness of the Five-Year Planning system is determined by four main factors:

1. strict continuity and full implementation of plans under the centralized leadership of the Communist Party of China;
2. a unique ability to concentrate national resources on priority areas ("concentrating efforts on accomplishing the most important tasks");
3. consistent adherence to the principle of "people-centered development," reflected in the creation of the world's largest systems of education, healthcare, and social security;
4. ensuring predictability and stability for global development amid growing uncertainty.

The 15th Five-Year Plan emphasizes high-quality development, scientific and technological self-reliance, further deepening of reforms, improvement of people's well-being, and the building of an ecological civilization. Its goals include reaching the level of moderately developed countries in terms of GDP per capita by 2035 and basically completing socialist modernization. The article also highlights further institutional opening-up, high-quality development of the "Belt and Road" Initiative, and the promotion of China's global initiatives. It notes a high degree of alignment between the objectives of the 15th Five-Year Plan and the national priorities of a number of partners, including "Azerbaijan–2030," which creates a foundation for deepening strategic cooperation and making a joint contribution to building a community with a shared future for mankind.

***Keywords:*** *Five-Year Plan, Chinese model of governance, Chinese socialism, resource concentration, cooperation, socio-economic development*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.007

D A V A M L I İ N K İ Ş A F S İ Y A S Ə T İ
S U S T A I N A B L E D E V E L O P M E N T P O L I C Y

UOT 328; 342.5; 351/354

**ELMAN NƏSİROV**

**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Siyasi Araşdırmalar İnstitutunun direktoru,
siyasi elmlər doktoru, professor**

*e-mail: elmannasirov@yahoo.co.uk*

# AZƏRBAYCANIN "YAŞIL ENERJİ" SİYASƏTİNDƏ COP29 MƏRHƏLƏSİ

Bəşəriyyətin mərhələli və dinamik inkişafı, elmi-texniki tərəqqi və həyatın bütün sahələrində baş verən təkamül tədricən insan-təbiət münasibətlərinin xarakterinə, fəlsəfəsinə və məzmununa təsir göstərmiş, təbii ətraf mühit ilə yanaşı, süni mühitin formalaşması ilə nəticələnmişdir. Təbiətin üzləşdiyi antropogen təsirlər suyun, havanın və torpağın çirklənməsi, təbii resursların tükənməsi, ekoloji balansın pozulması və son nəticədə insanın rifah səviyyəsinin və həyat standartlarının aşağı düşməsinin əsas səbəbinə çevrilmişdir. Qlobal xarakter alan iqlim dəyişiklikləri və istixana effekti yaradan qazların emissiyası, bir tərəfdən, insan həyatını, bitki və heyvanat aləmini ciddi risk və təhlükə altına qoyur, digər tərəfdən isə, bu problemin qarşısını almaq üçün zəruri tədbirlərin görülməsini tələb edir.

Yer atmosferini çirkləndirən zəhərli qazların çoxu energetika sektorunda formalaşır. 1850-2005-ci illər ərzində dünyada atmosferə atılan karbon dioksidin ümumi həcmi 1169,1 mlrd. ton təşkil etmişdir. 1990-cı ildə bu rəqəm 20693 mln. tona bərabər olduğu halda, 2005-ci ildə 26544 mln. ton olmuş və ya 28,3% artmışdır [1, s.362]. Bu mənfi dinamika sonrakı illərdə də davam etmişdir. 2015-ci ildə yer atmosferinə 32776,9 mln. ton, 2020-ci ildə 32341,8 mln. ton, 2021-ci ildə 34019,0 mln. ton, 2022-ci ildə 34579,6 mln. ton, 2023-cü ildə isə 35129,8 mln. ton karbon dioksid atılmışdır [2, s.16]. 2020-ci ildə atmosferə atılan zəhərli qazların həcminin nisbətən azalması "COVİD 19" pandemiyası ilə əlaqədar olaraq, dünyada, demək olar ki, bütün fəaliyyət sahələrində tətbiq edilən müəyyən məhdudiyyətlərlə bağlı olmuşdur. Ümumilikdə, qlobal ekoloji balansın pozulması və bu təhlükəli tendensiyanın dərinləşməsi təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir, əks təqdirdə bəşəriyyətin daha ciddi problemlərlə üzləşəcəyi qaçılmaz reallıqdır.

Ətraf mühiti qorumaq və yaxşılaşdırmaq məqsədilə beynəlxalq səviyyədə ümumi yanaşma və prinsiplərin müəyyənləşdirilməsi istiqamətində ilk addım 1972-ci il iyunun 5-də, BMT-nin Stokholmda keçirilən konfransında "İnsanı əhatə edən mühit problemləri üzrə BMT konfransının Bəyannaməsi"nin [3] qəbul edilməsi ilə atılmışdır. Bəyannamədə, ətraf mühitin qorunması və yaxşılaşdırılması bəşəriyyətin ən vacib məqsədi olaraq göstərilmiş, həmin məqsədə nail olmaq üçün hər bir şəxsin, cəmiyyətin, yerli hakimiyyətin və milli

hökumətin məsuliyyət daşıdığı vurğulanmış və bu sahədə fəaliyyətin 26 prinsipi (insanın azadlıq, bərabərlik və əlverişli həyat şəraiti hüququna malik olmaq prinsipi, təbii resursları indiki və gələcək nəsillər üçün qorumaq prinsipi, torpağın istehsal qabiliyyətini qoruyub saxlamaq prinsipi, canlı təbiəti və onun mühitini qorumaq və səmərəli idarə etmək prinsipi, bərpa olunmayan resurslardan səmərəli istifadə etmək prinsipi və s.) müəyyənləşdirilmişdir.

İnkişafın dinamik xarakter daşıması, iqtisadiyyatların sürətlə böyüməsi, iri emal və istehsal müəssisələrinin meydana gəlməsi çirkləndirici tullantıların daha geniş miqyasda yayılması üçün şərait yaradır. Konkret ölkənin ərazisindən qaynaqlanan zəhərli qazlar sərhədləri aşaraq, digər ölkələrin ərazisinə daxil olur və orada da havanın, suyun və torpağın çirkləndirilməsinin mənbəyinə çevrilir. Ekoloji problemlərin transsərhəd xarakter alması ona qarşı mübarizə məqsədilə səylərin beynəlxalq səviyyədə birləşdirilməsini də gündəliyə çıxarmışdır. 1979-cu ildə "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında Konvensiyanın", 1985-ci ildə "Ozon qatının qorunmasına dair Vyana Konvensiyası"nın və 1987-ci ildə "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"nun qəbul edilməsi ekoloji problemlərə məhz beynəlxalq səviyyədə verilən reaksiyanın nəticəsi idi.

1992-ci il mayın 9-da Rio-de-Janeyro şəhərində BMT-nin ətraf mühit və inkişaf üzrə konfransında, beynəlxalq iqlim rejiminin əsasını təşkil edən "İqlim dəyişiklikləri üzrə çərçivə Konvensiyası" [4] imzalanmışdır. Bu sənədi imzalamaqda əsas məqsəd istixana effekti yaradan qazların atmosferdə konsentrasiyasının, iqlim sisteminə təhlükəli antropogen təsirlərin qarşısını ala biləcək səviyyədə stabilləşdirilməsinə, ərzaq istehsalını və sabit iqtisadi inkişafı təhlükə altına qoymadan, ekosistemin iqlim dəyişikliklərinə adaptasiyasına nail olmaqdan ibarətdir. Qəbul olunmuş prinsiplərə əsasən, iqlim dəyişmələrinə qarşı mübarizədə inkişaf etmiş ölkələr əsas rol oynamalı, inkişaf etməkdə olan ölkələrin konkret tələbatları tam həcmdə nəzərə alınmalı, iqlim dəyişmələrinin proqnozlaşdırılması, səbəblərinin aradan qaldırılması və ya minimuma endirilməsi və onun mənfi nəticələrinin yumşaldılması məqsədilə qabaqlayıcı tədbirlər görülməli, iqlim sistemini antropogen təsirlərdən qorumaq üçün həyata keçirilən siyasət və tədbirlər hər bir ölkənin konkret şəraitinə uyğun olmalı və milli inkişaf proqramlarına inteqrasiya edilməlidir. Eyni zamanda, tərəflər əlverişli və açıq beynəlxalq iqtsadi sistemin yaradılmasına yardım göstərməli və diskriminasiya hallarına və ya beynəlxalq ticarətin gizli şəkildə məhdudlaşdırılmasına yol verməməlidirlər.

Konvensiyada onu imzalayan tərəflərin vəzifələri də müəyyənləşdirilmişdir. Hər bir tərəf antropogen tullantılar və istixana qazları haqqında milli kadastr, iqlim dəyişmələrinin nəticələrini yumşaltmaq üzrə tədbirləri özündə ehtiva edən milli və regional proqramlar hazırlamalı və onları vaxtaşırı yeniləyərək, təqdim etməlidir. Bütün sahələrdə istixana qazlarının emissiyasının azaldılmasına və ya dayandırılmasına, istixana qazlarının daşıyıcılarından (biokütlə, meşələr, okeanlar və s.) səmərəli istifadə olunmasına, iqlim dəyişmələrinə adaptasiya məqsədilə tədbirlərin hazırlanmasına, iqlim sistemi ilə bağlı tədqiqatların aparılmasına, məlumatlar bankının yaradılmasına və informasiya mübadiləsinin həyata keçirilməsinə, iqlim dəyişmələrinə aid məsələlər üzrə kadr hazırlığı və əhalinin maarifləndirilməsi prosesinə yardım göstərmək və bu sahədə əməkdaşlıq etmək də tərəflərin vəzifələri dairəsinə daxildir. Bununla yanaşı, inkişaf etmiş ölkələr razılaşdırılmış xərclərin ödənilməsi üçün maliyyə resursları ayırmalı, digər ölkələrin ekoloji təhlükəsiz texnologiyalardan istifadə edə bilməsi üçün praktiki addımlar atmalıdırlar.

İqlim dəyişmələri ilə bağlı problemlərin müəyyənləşdirilməsi, hesabatların dinlənilməsi, yeni planların hazırlanması, maliyyə xərclərinin razılaşdırılması və digər aktual məsələlərin müzakirəsi, hər il keçirilən Tərəflər Konfransında həyata keçirilir.

1995-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Milli Məclisi "İqlim dəyiş-

məlləri üzrə çərçivə Konvensiyası"nı təsdiq etmişdir.

Yer atmosferinə istixana effekti yaradan qazların atılmasının qarşısını almaq sahəsində səyləri artırmaq məqsədilə növbəti addım 1997-ci il dekabrın 11-də BMT-nin "İqlim dəyişmələri üzrə çərçivə Konvensiyası"nın Kioto Protokolunu qəbul etməklə atılmışdır. 2005-ci ildə qüvvəyə minmiş bu Protokola əsasən, Avropa ölkələri, ABŞ, Kanada, Yaponiya, Avstraliya və Yeni Zelandiya 2008-ci ildən 2012-ci ilə qədər olan müddətdə istixana qazı tullantılarını, 1990-cı il səviyyəsi ilə müqayisədə təxminən 5% azaltmaq barədə öhdəlik götürmüşdülər. Buna baxmayaraq, bu öhdəlikləri tam miqyasda yerinə yetirmək mümkün olmamışdır, çünki 2001-ci ildə ABŞ Senatı Protokolu ratifikasiya etməkdən imtina etmiş, 2012-ci ildə isə Kanada Protokoldan tamamilə çıxmaq qərarına gəlmişdir. Protokolda iştirak etdiyi müddətdə Kanadada istixana qazları tullantıları nəinki azalmamış, əksinə 35%-ə qədər artmışdır. 2012-ci ildə Kioto Protokolunun iştirakçı ölkələrinin Doha şəhərində keçirilən görüşündə sənədin qüvvədə olma müddəti 2020-ci ilədək uzadılmışdır [5, s.191-196], lakin bu müddət başa çatmamış, 2015-ci ildə Kioto Protokolu Paris Sazişi ilə əvəz olunmuşdur.

Azərbaycan Respublikası Kiotu Protokoluna 2000-ci il iyulun 18-də qoşulmuşdur.

BMT-nin "İqlim dəyişmələri üzrə çərçivə Konvensiyası"nın Tərəflər Konfransında qəbul olunmuş Paris Sazişi dünya üzrə orta temperatur artımını 1,5°C səviyyəsində saxlamaq üçün tədbirlərin görülməsini məqsəd olaraq qarşıya qoyur. Digər bir qlobal məqsəd isə, 2050-ci ilədək sıfır karbon emissiyasına nail olmaqdan ibarətdir. Bundan başqa, iqlim dəyişikliklərinin nəticələrini yumşaltmaq və adaptasiya üzrə məqsədlərə çatmaq üçün inkişaf etməkdə olan ölkələrə ildə 100 mlrd. dollar yardım göstərilməsi qərara alınmışdır. Qeyd etmək lazımdır ki, bu qərarın icrası məcburi xarakter daşımır [5, s.196-202].

2016-cı il oktyabrın 28-də Paris Sazişi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir.

Bu vaxta qədər BMT-nin "İqlim dəyişikliyi üzrə çərçivə Konvensiyası"nın Tərəfləri Konfransının 29 sessiyası baş tutmuşdur. İyirmi doqquzuncu sessiya (COP 29) 2024-cü il noyabrın 11-dən 22-dək Bakıda keçirilmişdir.

Tərəflər Konfransına evsahibliyi edəcək ölkə "İqlim dəyişikliyi üzrə çərçivə Konvensiyası"nı təsdiq etmiş ölkələrdən ibarət regional qruplar üzrə, rotasiya qaydasında və səsvermə yolu ilə müəyyənləşdirilir. BMT-nin regional qruplarının sayı beşə bərabərdir: Afrika ölkələri qrupu, Asiya ölkələri qrupu, Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri qrupu, Mərkəzi və Şərqi Avropa ölkələri qrupu, Qərbi Avropa və digər ölkələr qrupu. Namizəd ölkə qrupdaxili konsensus əsasında müəyyənləşdirilir.

2024-cü ildə COP-a evsahibliyi etmək növbəsi, Azərbaycanın da daxil olduğu Mərkəzi və Şərqi Avropa ölkələri qrupunda idi. Mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə keçirmək təcrübəsinə malik olan Azərbaycan iqlim dəyişikliklərinə qarşı mübarizəyə öz töhfəsini vermək məqsədilə, COP 29-un Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. Azərbaycan ilə yanaşı, Bolqarıstan və Ermənistan da öz namizədliyini irəli sürmüşdülər. Azərbaycan və Ermənistanın müharibə vəziyyətində olması ilk baxışda onlar arasında kompromis əldə etməyin mümkünlüyünə ümidləri azaldır, Bolqarıstanın şanslarını isə artırırdı, lakin Bakı ilə İrəvan arasında aparılan birbaşa danışıqlarda qərar birincinin xeyrinə qəbul edilmişdi.

2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin Aparatı birgə açıqlama yayaraq, regionda sülh əldə etmək, iki ölkə arasında münasibətləri normallaşdırmaq və etimad yaratmaq məqsədilə Ermənistanın öz namizədliyini geri götürdüyünü və Azərbaycanın namizədliyini dəstəklədiyini bəyan etmişdilər. Eyni zamanda, humanizm prinsiplərindən çıxış edən rəsmi Bakı Azərbaycanda əsirlikdə olan erməni hərbçilərdən 32 nəfəri, rəsmi İrəvan isə

Ermənistanda əsirlikdə olan 2 nəfər azərbaycanlı hərbçini azad etmışdi [6, s.1]. Azərbaycan diplomatiyasının uğuru sonda Bolqarıstanın da öz namizədliyini geri götürməsi ilə nəticələnmişdir. Dekabrın 11-də isə, Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Dubay şəhərində COP 28 çərçivəsində keçirilən plenar iclasda COP 29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi barədə son qərar qəbul edilmişdir.

İqlim dəyişikliklərinə qarşı mübarizənin Azərbaycan tərəfindən sistemli olaraq dəstəkləndiyini, yaşıl inkişafın respublikanın milli prioriteti olduğunu vurğulayan Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) 2024-cü ildə evsahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək qətiyyətimizdən irəli gəlir" [7, s.10].

COP29-un qlobal əhəmiyyətini nəzərə alan respublika rəhbərliyi bu beynəlxalq tədbirin ən yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədilə sistemli addımlar atmışdır. Prezident İlham Əliyevin 2024-cü il 13 yanvar tarixli Sərəncamına əsasən, tədbirin keçrilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmış, Tədbirlər Planı hazırlanmış və əməliyyat şirkəti təsis edilmişdir. Azərbaycan Prezidenti tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də ətraf mühitin mühafizəsinə və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsinə respublikada ciddi əhəmiyyət verildiyini sübut edən çoxsaylı faktlardan biridir.

2024-cü il noyabrın 12-də Bakıda müasir Azərbaycan tarixinin əhəmiyyətli hadisələrindən biri, COP29-un Liderlər Sammiti keçirildi və bununla da bəşəriyyəti narahat edən iqlim problemlərinin həllinə nail olmaq üçün müzakirələrə start verildi. Dünyanın 196 ölkəsinin təmsil olunduğu, 80 prezident, vitse-prezident və baş nazirin, 72 min nümayəndənin iştirak etdiyi COP29-un ilk iclasında çıxış edən Prezident İlham Əliyev Azərbaycanın sülh və əməkdaşlıq siyasətinə, "yaşıl enerji"yə keçidə böyük əhəmiyyət verdiyini qeyd etmişdir. Bəzi qeyri-sağlam qüvvələrin qalıq yanacaq növləri ətrafında apardığı məqsədli və spekulyasiya xarakterli müzakirələrə Azərbaycan Prezidentinin münasibəti müasir reallıqlar baxımından strateji əhəmiyyətə malik olub, qlobal enerji sektorunun inkişaf istiqamətini müəyyənləşdirmişdir. İlham Əliyev hal-hazırda qalıq yanacaq növlərindən imtinanın mümkünsüzlüyünü, bazarda onlara tələbatın yüksək olduğunu vurğulamaqla yanaşı, "yaşıl iqtisadiyyat"a keçid siyasətini davam etdirməyin vacibliyini diqqətə çatdırmışdır: "Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz "yaşıl keçidin" güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda biz realist olmalıyıq" [8, s.4].

İqlim dəyişikliklərinin mənfi təsirlərinin getdikcə geridönməz xarakter aldığı, BMT-nin baş katibi Antonio Guterreşin çıxışından da aydın görünür. O, qlobal istiləşmənin 2,5°C yaxınlaşdığını, bunun isə təbii fəlakətlərə, insan faciələrinə, dağıntılara, flora və faunanın məhvinə yol açdığını bildirmiş, ölkələri COP28-də, sıfır karbon emissiyasına yaxınlaşmaq üçün üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə çağırmış, hal-hazırda karbon emissiyasının artmaqda davam etdiyini vurğulamışdır. Baş katibə görə, problemin həlli üçün, birincisi, temperatur artımının 1,5°C-yə qədər azaldılmasına nail olmaq, enerji səmərəliliyini ikiqat artırmaq və səhralaşmanın qarşısını almaq, ikincisi, insanları iqlim dəyişiklikləri və iqlim böhranlarından qorumaq və onların adaptasiyası üçün tələb olunan maliyyə bazasını formalaşdırmaq, üçüncüsü isə, inkişaf etməkdə olan ölkələrə yardımları artırmaq lazımdır. Həqiqətən də inkişaf etməkdə olan ölkələr iqlim dəyişikliklərinin yaratdığı problemlərin mənfi təsirlərinə daha çox məruz qalırlar. Antonio Guterreşin qeyd

etdiyi kimi, ekoloji problemləri "varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər" [8, s.5].

Beynəlxalq münasibətlər sistemində özünün ədalətli mövqeyi ilə seçilən Azərbaycan bu dəfə də özünün prinsipiallığı ilə seçilmiş, müstəmləkəçiliyin və ədalətsiz yanaşmanın qurbanına çevrilən xalqların müdafiəsinə qalxmışdır. Geniş gündəliyə malik olan COP29 çərçivəsində, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin problemlərinin müzakirə edildiyi bir platformanın yaradılması Azərbaycanın beynəlxalq hüquqa, bərabərlik və qarşılıqlı hörmət prinsipinə sadiqliyinin növbəti nümayişi idi.

2024-cü ilin sentyabrında, məqsədi kiçik ada dövlətlərinə yardım göstərmək olan Zərərə Cavab Fondu yaradılmışdır. Azərbaycan BMT-nin Baham adaları, Tonqa, Tuvalu və s. kiçik ada dövlətlərində həyata keçirdiyi birgə layihələri dəstəkləmək məqsədilə 10 mln. dollar ayırmışdır. Sakit okeanda və Karib dənizi hövzəsində yerləşən, Fransa və Hollandiyanın müstəmləkəçilik siyasətindən əzab çəkən xalqların azadlıq uğrunda mübarizəsi sərt güc tətbiq etməklə boğulur, onların yaşadıqları və müxtəlif silah növlərinin sınaq poliqonuna çevrildiyi adalarda ekoloji balans pozulmuş və biomüxtəliflik ciddi təhlükə altına düşmüşdür. Məsələn, 1966-1996-cı illərdə təkcə Fransa Polineziyasında 193 nüvə sınağı keçirilmiş, adada radiasiya səviyyəsi 4900%-dən çox olmuşdur. İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxış edən Prezident İlham Əliyev bu dövlətlərin xalqlarını dəstəkləməkdə davam edəcəklərini bildirmişdir. Son illərdə Qoşulmama hərəkatına sədrlik etdiyi dövrdə Azərbaycan 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişdir [9, s.2]. Müstəmləkəçiliyə, təbii sərvətlərin talan edilməsinə və fəaliyyəti ekosistemin deqradasiyasına səbəb olan transmilli korporasiyalara qarşı çıxış edən Afrika ölkələri və dənizaşırı ərazilərin nümayəndələri COP29 çərçivəsində "Yaşıl və müstəmləkəsiz dünya naminə həmrəylik" şüarı altında dinc aksiya təşkil etməklə [10, s.11], üzləşdikləri problemləri dünya birliyinin diqqətinə çatdırmışdılar.

Müxtəlif platformalarda aparılan danışıqlar və müzakirələr sonda iştirakçı ölkələrin ekoloji problemlərin həllinə münasibətdə birgə yanaşma sərgiləməsi ilə nəticələnmişdir. BMT və Mərkəzi Asiya ölkələri tərəfindən imzalanan "İqlim dəyişikliyi, buzlaqlar və transsərhəd əməkdaşlıq üzrə Tərəfdaşlıq" adlı birgə Bəyannamə [11, s.8], Türk Dövlətləri Təşkilatının üzvü olan dövlətlərin ekologiya və ətraf mühit nazirləri tərəfindən imzalanan "Nazirlər Bəyannaməsi" [12, s.8], İqlim, İnnovasiya və Ticarət üzrə CAREC (Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlığı) Tərəfdaşlığına dair Bakı Bəyannaməsi [13, s.10] və s. sənədlər ekosistemi qorumaq məqsədilə səylərin birləşdirilməsini, prioritet istiqamətlərdə ölkələrarası əməkdaşlığın və dialoqun genişləndirilməsini təşviq edir.

Bakıda keçirilən Tərəflər Konfransı bərpa olunan enerji mənbələrindən istifadəni təşviq edən üç enerji təşəbbüsünün irəli sürülməsi ilə də diqqəti cəlb edir. "COP29 qlobal enerji saxlama və şəbəkələr vədi" adlı birinci təşəbbüsə əsasən, 2030-cu ilədək qlobal enerji saxlama sistemləri 1500 QVt gücünə çatdırılmalı, 25 mln. kilometrə bərabər elektrik şəbəkəsi yaradılmalı və ya təmir edilməlidir. 2040-cı ilədək elektrik şəbəkəsini 65 mln. kilometrə çatdırmaq nəzərdə tutulur. İkinci təşəbbüs "COP29 "yaşıl enerji" zonaları və dəhlizləri vədi" adlanır. Bu vədin həyata keçirilməsi nəticəsində, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, qitələrarası və regionlararası "yaşıl enerji" zonaları yaradılmalı, bu yolla iqtisadi inkişafa və enerji səmərəliliyinə töhfə verilməlidir. "COP29 Hidrogen Bəyannaməsi" adlı üçüncü təşəbbüs təmiz hidrogen istehsalını artırmaq yolu ilə, enerji sektorunun karbonsuzlaşdırılmasını hədəfləyir [14, s.7]. Azərbaycanın sədrlik etdiyi tədbirdə həyati əhəmiyyətli belə təşəbbüslərin irəli sürülməsi, "yaşıl dünya"ya keçid prosesində respublikanın ön sıralarda yer aldığını göstərir.

COP29 çərçivəsində aparılan müzakirələr ölkələrin bir qisminin "yaşıl dünya"ya keçid prosesində səmimi davranış nümayiş etdirmədiyini də üzə çıxarmışdır. Bəzi ölkələr qlobal

iqlim dəyişikliklərinin qarşısını almaq üçün müəyyənləşdirilən tədbirlərin reallaşdırılmasında iştirakdan yayınır, tələb olunan səviyyədə maliyyə vəsaiti ayırmaqdan və bu sahədə şəffaf fəaliyyəti təmin etməkdən boyun qaçırır.

Hal-hazırda qlobal istiləşmənin qarşısını almaq və onun mənfi nəticələrini aradan qaldırmaq üçün hər il təxminən 8 trln. maliyyə vəsaiti tələb olunur. Mövcud şəraitdə, obyektiv və subyektiv səbəblərdən bu məbləğin toplanmasının qeyri-mümkünlüyü sirr deyildir. Buna görə də, COP29-da 1,3 trln. dolların toplanılması barədə razılıq əldə etmək planlaşdırılırdı və bu məbləğin 49%-i özəl mənbələrdən əldə edilməli idi. Ölkələrin 73 %-də iqlim xərclərini qiymətləndirmək və izləmək üçün mükəmməl mexanizmin, 41%-də özəl sektordan cəlb edilən investisiyalar barədə hesabatlılığın olmadığı [15, s.12] nəzərə alınsa, planlaşdırılan məbləğin toplanması da apriori şübhə altına düşürdü.

COP29 sədrliyinin Tərəflər Konfransının yekunları barədə yaydığı bəyanatdan aydın olur ki, 1,3 trln. dollar toplamaq hədəfinə çatılmamış, lakin bu hədəfdən imtina da edilməmişdir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə iqlimlə bağlı fəaliyyəti maliyyələşdirmək üçün 2035-ci ilə qədər olan dövrdə Tərəflərin hamısının iştirakı ilə, dövlət və özəl mənbələrdən ildə ən azı 1,3 trln. dollar maliyyə vəsaitinin toplanılmasına nail olmaq məqsəd kimi müəyyənləşdirilmişdir [16, s.1].

Ümumilikdə, COP29 Yer planetində ekosistemi, biomüxtəlifliyi qoruyub saxlamaq, insan sağlamlığı və təhlükəsizliyini təmin etmək baxımından ciddi və əhəmiyyətli qərarların qəbul edilməsi ilə tarixə düşmüşdür. Tərəflər Konfransında Paris Sazişinin, etibarlı və şəffaf karbon bazarlarının yaradılması barədə olan 6-cı maddəsi təsdiq olunmuş, Sazişin 13-cü maddəsinə uyğun olaraq, İkiillik Şəffaflıq Hesabatlarının hazırlanmasına dair qərar qəbul edilmişdir. Eyni zamanda, iqlim dəyişikliklərinin təsirlərinə ən həssas olan ölkələrə maliyyə yardımı göstərmək məqsədilə yaradılan İtki və Zərər Fondu fəaliyyətə başlamış, maliyyə məsələləri üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunmuşdur və bu sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ayırdıqları 100 mlrd. dollar vəsaitin məbləğini 2035-ciilədək ən azı 300 mlrd. dollara çatdırmaq nəzərdə tutulur [17, s. 3].

İqlim dəyişiklikləri insan həyatının, qlobal iqtisadiyyatın və beynəlxalq münasibətlərin əsaslarını sarsıdacaq, bəşəriyyəti xaosa və kataklizmlərə düçar edəcək nəticələr doğura bilər. Təhlükənin qarşısını almağın əsas və ən səmərəli yolu enerji səmərəliliyinin səviyyəsini yüksəltmək və ekoloji cəhətdən təmiz texnologiyaları tətbiq etməklə “yaşıl iqtisadiyyat”a keçmək məqsədilə ölkələrarası əməkdaşlığı genişləndirməkdən ibarətdir. Planetdə istixana effekti yaradan qazların emissiyasında iri dövlətlər əsas pay sahibi olduqları üçün, problemin həllində əsas məsuliyyət də onların üzərinə düşür. Buna baxmayaraq, ABŞ, Fransa, Almaniya və bir neçə digər ölkədə anti-Azərbaycan isterikasına qapılan müəyyən dairələr COP29-un ərəfəsində və gedişində respublikaya qarşı çirkin kampaniya aparmış və dünya birliyini bu mötəbər tədbiri boykot etməyə çağırmışdılar. Şübhəsiz ki, iqlim dəyişikliklərinin doğurduğu mənfi nəticələrin genişlənməsindən və dərinləşməsindən narahatlıq keçirməyən və ikili standartlardan çıxış edən bu qüvvələri qıcıqlandıran əsas səbəb Qırx dörd günlük müharibədə və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatında Azərbaycanın Ermənistan üzərindəki tarixi qələbəsi, respublikanın beynəlxalq nüfuzunun artması, mövqelərinin möhkəmlənməsi, Cənubi Qafqazın aparıcı ölkəsinə çevrilməsi və hədəflərinin böyüməsi ilə bağlıdır.

COP29-un davam etdiyi bir zamanda, 2024-cü il noyabrın 20-də Lüksemburq Deputatlar Palatasının Azərbaycan əleyhinə, qərəzli və əsassız ittiham və iddialardan ibarət olan qətnamə qəbul etməsi də [18, s.6] təsadüfi hal olmayıb, məhz müstəqil xarici siyasət həyata keçirən, suverenliyini təmin etmək və yüksək səviyyəli beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etmək iqtidarında olan respublikanı qaralamaq cəhdindən başqa bir şey deyildir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib [8, s.4]. Buna baxmayaraq, COP29 istər təşkilati, istər təmsilçilik, istərsə də gündəlikdə duran məsələlərin aktuallığı və dairəsinin genişliyi baxımından əhəmiyyətli və uğurlu olub, Azərbaycanın növbəti qələbəsi kimi tarixə düşmüşdür.

Bütün qeyd olunanları ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar ki, son onilliklərdə bəşəriyyətin üzləşdiyi ən ciddi problemlərdən olan iqlim dəyişiklikləri və qlobal istiləşmənin qarşısının alınması yalnız təxirəsalınmaz və kollektiv tədbirlərin həyata keçirilməsi, bərpa olunan enerji mənbələrindən istifadənin getdikcə genişləndirilməsi ilə mümkündür. Bu məqsədlə, təbiətə antropogen təsirlər azaldılmalı, istixana qazları ilə atmosferin çirkləndirilməsi məhdudlaşdırılmalı, sıfır karbon emissiyasına və dünya üzrə orta temperatur artımının 1,5°C səviyyəsində saxlanılmasına nail olunmalıdır. İqlim dəyişikliklərinə qarşı mübarizəsinin ön sıralarında yer alan Azərbaycan bu sahədə beynəlxalq əməkdaşlığın və dialoqun genişləndirilməsini təşviq edir və konkret nəticəyə istiqamətlənən siyasət həyata keçirir. COP29-un Bakıda yüksək səviyyədə təşkil olunması və bu tədbir çərçivəsində ciddi qərarların qəbul edilməsi bunun bariz sübutudur.

**Ədəbiyyat:**


1. Доклад о мировом развитии 2010. Развитие и изменение климата / Всемирный банк. Пер. с англ. М.: Издательство «Весь мир», 2010, 440 с.
2. Statistical Review of World Energy 2024. London: Energy Institute, 2024, 73 p.
3. Declaration of the United Nations Conference on the Human Environment. [Electronic resource] - URL: https://www.un.org/ru/documents/
4. United Nations Framework Convention on Climate Change. [Electronic resource] - URL: https://unfccc.int/files/
5. Вирт Д.А. Парижское соглашение: новый компонент климатического режима ООН // Вестник международных организаций. 2017, т. 12, № 4, с. 185–214
6. Qarşılıqlı etimada əsaslanan ilk addım. // Azərbaycan qəzeti, 2023, 8 dekabr, s. 1
7. Prezident İlham Əliyev COP 29-un Azərbaycanda keçirilməsi ilə bağlı paylaşım edib // Azərbaycan qəzeti, 2023, 13 dekabr, s. 1
8. Dünya Bakıda birləşib. // Azərbaycan qəzeti, 2024, 13 noyabr, s. 1-6
9. Azərbaycan kiçik ada dövlətlərinə birmənalı dəstəyini nümayiş etdirir. // Azərbaycan qəzeti, 2024, 14 noyabr, s. 1-2
10. Afrika ölkələri və dənizaşırı ərazilərin nümayəndələri Bakıda dinc aksiya təşkil ediblər. // Azərbaycan qəzeti, 2024, 15 noyabr, s. 11
11. COP29 çərçivəsində Mərkəzi Asiya ölkələri iqlim dəyişikliyi və buzlaqların qorunması üzrə birgə bəyannamə imzalayıblar. // Azərbaycan qəzeti, 2024, 15 noyabr, s. 8
12. COP29 çərçivəsində TDT dövlətləri ekologiya üzrə "Nazirlər Bəyannaməsi" imzalayıb. // Azərbaycan qəzeti, 2024, 15 noyabr, s. 8
13. İqlim, innovasiya və ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi imzalanıb. // Azərbaycan qəzeti, 2024, 15 noyabr, s. 10
14. COP29 enerji təşəbbüsləri rəsmi olaraq elan edilib. // Azərbaycan qəzeti, 2024, 16 noyabr, s. 7
15. Qardaşxanova Ə. Maliyyə, investisiya və ticarət günü. // Azərbaycan qəzeti, 2024, 15 noyabr, s. 12
16. COP29 sədrliyi bəyanat yayıb. // Azərbaycan qəzeti, 2024, 23 noyabr, s. 1
17. COP29-un bağlanış plenar iclası keçirilib, bir sıra mühüm qərarlar qəbul edilib. // Azərbaycan qəzeti, 2024, 24 noyabr, s. 1, 3.
18. Lüksemburq Deputatlar Palatasının qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti. // Azərbaycan qəzeti, 2024, 22 noyabr, s. 6


***Açar sözlər:*** *COP29, ekosistem, "yaşıl enerji", karbon emissiyası, iqlim dəyişikliyi, enerji mənbələri, ətraf mühit, antropogen təsir*

**Elman Nasirov**

*Member of the Milli Majlis,*
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Director of the Institute of Political Research,*
*Dr. of Political Sciences, Professor*

# COP29 STAGE IN AZERBAIJAN'S “GREEN ENERGY” POLICY

## ABSTRACT

In the modern era, climate change and disruption of the ecological balance are extremely alarming problems for progressive humanity. Steps are being taken at the international level to prevent this global challenge. In order to reduce greenhouse gas emissions into the atmosphere and stimulate the transition to a "green economy", the UN Framework Convention on Climate Change was signed in 1992. The 29th session of the Conference of the Parties to this Convention (COP29) was held in Baku from 11 to 22 November 2024. Speaking at the Leaders' Summit on November 12, President Ilham Aliyev noted that Azerbaijan had taken significant steps in the transition to "green energy". Within the framework of COP29, important decisions were aimed at preserving the ecosystem. The Conference of the Parties put forward energy initiatives promoting the use of renewable energy sources, committed to attracting at least $1.3 trillion annually by 2035 to finance climate action in developing countries, created a Loss and Damage Fund to provide financial assistance to countries most vulnerable to the effects of climate change, etc. At the same time, certain forces in the world, envious of Azerbaijan's success, carried out dirty propaganda against the republic, called for a boycott of COP29, but all their attempts failed, and the 29th session of the Conference of the Parties successfully completed its work.

***Keywords:*** *COP29, ecosystem, “green energy”, carbon emissions, climate change, energy sources, environment, anthropogenic impact*

**Эльман Насиров**

*Депутат Милли Меджлиса,*
*директор Института политических исследований*
*Академии Государственного управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

## ЭТАП COP29 В ПОЛИТИКЕ "ЗЕЛЕНОЙ ЭНЕРГИИ" АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В наше время изменение климата и нарушение экологического равновесия являются крайне тревожными проблемами для прогрессивного человечества. На международном уровне предпринимаются шаги по предотвращению этого глобального вызова. В целях сокращения выбросов парниковых газов в атмосферу и стимулирования перехода к «зеленой экономике» в 1992 году была подписана Рамочная конвенция ООН об изменении климата. С 11 по 22 ноября 2024 года в Баку прошла 29-я сессия Конференции Сторон этой Конвенции (COP29). Выступая на Саммите лидеров, состоявшемся 12 ноября, Президент Ильхам Алиев отметил, что Азербайджан предпринял значительные шаги в переходе к «зеленой энергетике». В рамках COP29 были приняты важные решения, направленные на сохранение экосистемы. На Конференции Сторон были выдвинуты энергетические инициативы, способствующие использованию возобновляемых источников энергии, взято обязательство ежегодно привлекать к 2035 году не менее 1,3 трлн долларов США на финансирование климатической деятельности в развивающихся странах, создан Фонд компенсации потерь и ущерба для оказания финансовой помощи странам, наиболее уязвимым к последствиям изменения климата и т.д. В то же время определенные силы в мире, завидуя успехам Азербайджана, вели грязную пропаганду против республики, призывали бойкотировать COP29, однако все их попытки провалились, и 29-я сессия Конференции Сторон успешно завершила свою работу.

***Ключевые слова:*** *COP29, экосистема, «зеленая энергия», выбросы углерода, изменение климата, источники энергии, окружающая среда, антропогенное воздействие*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.013

**DAVAMLI İNKİŞAF SİYASƏTİ**
**SUSTAINABLE DEVELOPMENT POLICY**

UOT 328; 342.5; 351/354

**MƏZAHİR ƏFƏNDİYEV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı**
*e-mail: mezahirefendiyev1@gmail.com*

# SÜNİ İNTELLEKT VƏ DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ: QLOBAL PERSPEKTİVLƏR VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

XXI əsrin qlobal çağırışları sosial-iqtisadi inkişaf, ekoloji təhlükəsizlik və sosial ədalətin təmin olunmasını eyni anda tələb edir. Bu gün müharibələrin, münaqişələrin tuğyan etdiyi dünyamızda insanların daha yaxşı, rifah və sülh içində yaşaması üçün qəbul olunmuş universal sənədlərin icrası təəssüf ki, çətinliklərlə üzləşir və "Heç kəsi arxada qoymayaq" konsepsiyasına ciddi təhdidlər yaranır. Qlobal iqlim böhranı, yoxsulluq, bərabərsizlik, səhiyyə problemləri və iqtisadi qeyri-sabitlik bəşəriyyətin gələcəyini ciddi şəkildə təhlükə altına alır.

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlər tərəfindən yekdilliklə qəbul olunmuş, 17 məqsəd və 169 hədəfi əhatə edən "Dayanqılı İnkişaf Məqsədləri" (DİM) (Sustainable Development Goals – SDG) universal sənədinin 2030-cu ilə qədər icra olunması dünya dövlətlərinin gündəliyində əsas məsələlərdən biri kimi müəyyənləşib.

DİM-lər yoxsulluğun aradan qaldırılması (DİM 1), aclığın bitirilməsi (DİM 2), sağlam həyat (DİM 3), keyfiyyətli təhsil (DİM 4), gender bərabərliyi (DİM 5), təmiz su və sanitar şərait (DİM 6), əlçatan və təmiz enerji (DİM 7), iqtisadi artım və layiqli iş yerləri (DİM 8), sənaye, innovasiya və infrastruktur (DİM9), bərabərsizliyin azaldılması (DİM 10), dayanıqlı şəhərlər (DİM 11), məsuliyyətli istehlak və istehsal (DİM 12), iqlim dəyişikliyi ilə mübarizə (DİM 13), sualtı həyatın qorunması (DİM 14), quru ekosistemlərin mühafizəsi (DİM 15), sülh və ədalət (DİM 16) və tərəfdaşlıqların gücləndirilməsi (DİM 17) kimi hədəfləri əhatə edir.

Bu gün cəmiyyətlərin, habelə onlara rəhbərlik edən siyasi dairələrin əsas məsuliyyəti dayanıqlı inkişaf konsepsiyalarının üzərində hərtərəfli çalışmaq olmalıdır. DİM məqsədlərinin hər birinin icrası özü-özlüyündə dünyanın müxtəlif coğrafi ərazilərində nəinki öz aktuallığını saxlayır, eyni zamanda daha ciddi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini diktə edir.

Əlbəttə ki, bu işlərin həyata keçirilməsində dövlətlər, hökumətlər, beyin mərkəzləri, eləcə də beynəlxalq təşkilatlar texnoloji imkanların gətirdiyi yeniliklərdən də maksimum dərəcədə səmərəli istifadə etməyə çalışırlar.Xüsusilə, Son illərdə süni intellekt (Sİ) texnologiyalarının sürətli inkişafı DİM məqsədlərinin icrasında yeni imkanlar açmışdır. Sİ yalnız informasiya texnologiyalarında deyil, həm də sosial idarəetmədə, dövlət xidmətlərində, səhiyyədə, kənd təsərrüfatında, təhsildə və ekoloji monitorinqdə tətbiq edilərək insan fəaliyyətinin effektivliyini yüksəltməkdədir. Bu səbəbdən süni intellektin dayanıqlı inkişaf gündəliyinə inteqrasiyası həm elmi, həm də praktik baxımdan strateji əhəmiyyət daşıyır.

Ümumiyyətlə süni intellekt ideyası çox qədim dövrlərə gedib çıxır. Antik Yunanıstanda mifoloji varlıqlar (məsələn, mexaniki insanlar) bu anlayışın ilkin formaları idi. Sonralar elmi fantastika əsərləri (məsələn, Mary Shelley-nin Frankenstein əsəri) düşünən və hərəkət edən qeyri-insan varlıqların ideyasını populyarlaşdırdı.

İkinci Dünya Müharibəsi zamanı faşist Almaniyasının eniqma kompyuterinin alqoritmlərinin ardıcıllığını taparaq qələbəyə əhəmiyyətli töhfə verən ingiltərəli riyaziyyatçı Alan Turing 1950-ci ildə “Can Machines Think?” sualını ortaya atdı və Turing Testini təklif etdi. Həmin dövrdə kompüterlərin inkişafı insan kimi düşünə bilən maşınlar ideyasını reallaşdırmağa yaxınlaşdırdı.

1956-cı ildə ABŞ-ın Dartmouth Konfransı süni intellektin rəsmi doğum tarixi hesab olunur. John McCarthy, Marvin Minsky, Allen Newell və Herbert Simon kimi alimlər "Süni İntellekt" terminini rəsmi olaraq istifadə etdilər. Konfransın məqsədi isə insan kimi düşünə bilən proqramlar yaratmaq idi.

İlk uğurlar da məhz bu dövrə təsadüf etdi. Logic Theorist və ELIZA kimi proqramlar yaradıldı. Lakin, texnologiyalar zəif, kompüterlər yavaş və yaddaşsız olduğundan 1970-1980 və 1987-1993-cü illərdə iki dəfə “AI Qışı”, yəni marağın və maliyyələşmənin azalması baş verdi.

Sonralar 2000-ci ilin əvvəlinə qədər ekspert sistemləri, robotexnika və maşın öyrənməsi istiqamətləri inkişaf etdi. 1997-ci ildə IBM-in Deep Blue kompüteri Qari Kasparovu (dünya şahmat çempionu) məğlub etdi – bu, Sİ-nin böyük nailiyyəti idi. Maşın öyrənməsi və xüsusilə dərin öyrənmə (deep learning) texnologiyaları böyük irəliləyişlərə səbəb oldu.

2010-cu ildən sonrakı dövrü süni intellekt tarixində böyük sıçrayış adlandırmaq olar. Xüsusilə, 2020-ci ildən etibarən daxil olduğumuz Dördüncü Sənaye İnqilabı rəqəmsallaşmanı gündəlik həyatımızın vacib hissəsinə çevirdi. Siri, Alexa, ChatGPT, GPT-4, Deepseek, Dall-e2, Beatoven, WolframGPT, Tesla-nın avtonom avtomobilləri kimi texnologiyalar gündəlik həyatda istifadə olunur.

Süni intellekt artıq tibb, sənaye, təhsil, maliyyə, incəsənət və bir çox sahədə tətbiq olunur. Bu texnologiyalarının DİM-lərə nail olunmasında rolu çoxşaxəlidir və hər bir məqsədlə əlaqəli konkret töhfələr verir:

1. **Səhiyyə (DİM 3 – Sağlam həyat və rifah)**

– **Xəstəliklərin erkən aşkarlanması:** Radioloji görüntülərin təhlilində Sİ alqoritmləri həkimlərin diaqnostikasını dəstəkləyir.
– **Pandemiyalar zamanı proqnozlaşdırma:** COVID-19 dövründə Sİ əsaslı epidemioloji modellər virusun yayılmasını izləməkdə mühüm rol oynadı.
– **Səhiyyə xidmətlərinə çıxış:** Rəqəmsal səhiyyə platformaları ucqar bölgələrdə yaşayan insanlara tibbi xidmətləri əlçatan edir.

2. **Təhsil (DİM 4 – Keyfiyyətli təhsil)**

– **Fərdiləşdirilmiş öyrənmə:** Sİ əsaslı platformalar şagirdlərin bilik səviyyəsinə uyğun tədris proqramları hazırlaya bilir.
– **Onlayn təhsil:** Distant təhsil platformaları xüsusilə pandemiya dövründə bərabər təhsil imkanlarının təmin olunmasında mühüm rol oynadı.
– **Diaqnostik qiymətləndirmə:** Təhsil nəticələrinin avtomatlaşdırılmış qiymətləndirilməsi tədrisdə keyfiyyətin artmasına şərait yaradır.

3. **Ətraf mühit (DİM 13, DİM 14, DİM 15)**

– **İqlim dəyişikliyi:** Peyk məlumatlarının Sİ ilə təhlili iqlim göstəricilərinin dəqiq monitorinqinə imkan verir.
– **Təbii fəlakətlərin proqnozlaşdırılması:** Sİ alqoritmləri daşqın, zəlzələ və quraqlıq risklərini əvvəlcədən müəyyənləşdirə bilir.
– **Təbii ehtiyatların idarə olunması:** Enerji istehlakı və tullantıların azaldılması üzrə Sİ əsaslı optimallaşdırma modelləri.

4. **Kənd təsərrüfatı və iqtisadiyyat (DİM 2, DİM 8, DİM 9)**

– **Ağıllı suvarma sistemləri:** Su ehtiyatlarından səmərəli istifadə olunur.
– **Torpaq və məhsuldarlığın analizi:** Sİ əsaslı sensorlar məhsul itkisini azaldır və məhsuldarlığı artırır.
– **İqtisadi artım:** Kiçik və orta sahibkarlığın rəqəmsal həllərlə dəstəklənməsi yeni iş yerlərinin açılmasına şərait yaradır.

Bu gün Sİ texnologiyalarının DİM-lərə inteqrasiyası üçün bir neçə əsas istiqamət fərqləndirilir:

– **Məlumatların toplanması və emalı:** DİM-lərin monitorinqi üçün keyfiyyətli məlumatlar vacibdir.
– **Qərarvermənin optimallaşdırılması:** Dövlətlər və təşkilatlar Sİ alqoritmləri vasitəsilə resursları daha optimal bölüşdürə bilər.
– **Şəffaf idarəetmə:** Elektron hökumət və rəqəmsal platformalarda Sİ tətbiqləri vətəndaş məmnuniyyətini artırır və korrupsiya riskini azaldır.
– **Texnologiyanın lokallaşdırılması:** Qlobal Sİ həllərinin milli kontekstə uyğunlaşdırılması.
– **Dövlət-özəl tərəfdaşlığı:** Startaplar və innovasiya mərkəzlərinin inkişafı ilə texnologiyanın geniş tətbiqi.

Lakin, qeyd etmək lazımdır ki, Sİ texnologiyalarının istər gündəlik həyatımıza, istərsə də qlobal məqsədlərin icrasında inteqrasiyası özündə müsbət olduğu kimi, mənfi tərəflərini də ehtiva edir. Əgər səmərəlilik (resursların qənaəti, idarəetmədə sürət), şəffaflıq (qərarların əsaslılığı və vətəndaşlara hesabatlılıq), innovasiya (yeni sahələrin formalaşması, yüksək texnologiyalı iş yerlərinin yaranması), sosial təsir (təhsil, səhiyyə və sosial xidmətlərin keyfiyyətinin yüksəlməsi) kimi amilləri Sİ-nin müsbət cəhəti adlandırırıqsa, məlumat təhlükəsizliyi (şəxsi məlumatların sızması riski), iş yerlərinin azalması (avtomatlaşdırma bəzi peşələrin aradan qalxmasına səbəb ola bilər), bərabərsizlik (qərəzli alqoritmlər sosial ədalətsizliyi gücləndirə bilər), texnologiyadan asılılıq (kritik sahələrin texniki nasazlıqlara qarşı həssaslığı) kimi tendensiyalar hal-hazırda bir sıra cəmiyyətlərə öz mənfi təsirini göstərir.

Şübhəsiz ki, bu tendensiyalar ölkəmizdə də özünü biruzə verməkdədir. Lakin, müasir Azərbaycan Respublikası hər zaman ümumbəşəri çağırışlara həssaslıqla yanaşaraq, onların icrasında cəmiyyətin təhlükəsizliyini, insanların rifah halının daha da yaxşılaşdırılmasını və əlbəttə ki, milli-mənəvi dəyərlərimizə bağlılığımızı prioritet olaraq ortaya qoyur.

Təsadüfi deyil ki, Azərbaycan 2000-ci ildən BMT-nin "Minilliyin İnkişaf Məqsədləri" Bəyannaməsini Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə uğurla yerinə yetirən və tolerantlığa, multikulturalizmə verdiyi töhfəyə, gender bərabərliyinin təşviqi və təmin olunması, yoxsulluğun qısa müddətdə azaldılması, xüsusilə insanların sağlamlığının qorunması, əhalinin təhsil səviyyəsinin yüksəldilməsi, ətraf mühitin yaxşılaşdırılması üzrə müsbət nəticəyə nail olmuş az sayda dövlətlərdən biri olaraq “2030 Gündəliyi”nin də fəal iştirakçısına çevrilib.

“Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Azərbaycan üçün əhəmiyyət kəsb edən Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun müəyyən edilmiş milli prioritetlər və onlara dair göstəricilər ölkəmizdə dayanıqlı inkişaf sahəsində aparılacaq islahatların əsas istiqamətlərindən xəbər verib.

Milli Əlaqələndirmə Şurası Azərbaycanda əhalinin sosial-iqtisadi rifahını daha da yaxşılaşdırmaq, bu günədək görülmüş və əldə olunmuş nəticələrin davamlılığını qorumaq, habelə yeni çağırışlara uyğun məqsədlərə nail olmaq üçün qlobal əməkdaşlıq etmək məqsədi güdür. Hər il ölkədə 17 məqsədi əhatə edən görülmüş işlərə dair illik hesabatlar hazırlanır və 2016-ci ildən etibarən Azərbaycan 4 “Könüllü Milli Hesabat”ı hazırlayan aparıcı ölkələrdən biridir.

Qlobal Gündəlik qəbul olunduğu gündən Azərbaycan 2016-cı ildən etibarən SDG-lərin

milli səviyyədə həyata keçirilməsi üzrə addımlar atır. 2017-ci ildə "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması üzrə Milli Prioritetlər" təsdiqlənmiş, 2021-ci ildə isə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi qəbul olunmuşdur. Bu sənəddə iqtisadiyyatın rəqəmsallaşdırılması, insan kapitalının inkişafı, təmiz ətraf mühit və yaşıl artım kimi istiqamətlər DİM-lərlə uzlaşdırılır.

Lakin, tarixə nəzər yetirsək, ölkəmizin bu qlobal çağırışa hazırlığının yüksək səviyyədə təmin edilməsi hətta hazırki dövrdən öncə də dövlət gündəliyində mühüm yer tutduğunu və hökümət tərəfindən bu istiqamətdə ardıcıl addımların atıldığını müşahidə edə bilərik.

Məhz Prezident İlham Əliyevin iradəsi nəticəsində ölkəmizdə bir sıra innovativ layihələr uğurla icra edilməyə başlandı, rəqəmsallaşma, operativlik, hesabatlılıq və ən əsası şəffaflıq başlıca amil olaraq nəzərə alındı. Vaxtında həyata keçirilən bu təşəbbüslər və onların gələcək müsbət təsirləri ölkə rəhbərliyinin uzaqgörən siyasətinin nəticəsində Azərbaycanı qlobal çağırışların hərəkətverici qüvvələrindən birinə çevirmək istəyindən irəli gəlirdi.

Bu məcrada dövlət idarəçiliyində aparılan kompleks institusional islahatların mühüm tərkib hissəsi kimi, ölkə başçısının Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması haqda 13 iyul 2013-cü il tarixli Fərmanını xüsusi vurğulamaq olar.

ASAN Xidmət modeli Azərbaycanın dayanıqlı inkişaf təcrübəsinin əsas nümunələrindən biridir. Bu model:

– Dövlət xidmətlərinin rəqəmsallaşdırılması və sadələşdirilməsi təmin edir.
– Korrupsiyanın qarşısının alınması və şəffaflığın gücləndirilməsinə töhfə verir.
– Vətəndaş məmnuniyyətini artırır (95%-dən çox razılıq səviyyəsi).
– DİM 16 ("Sülh, ədalət və güclü institutlar") və DİM 9 ("İnnovasiya və infrastruktur") məqsədlərinə uyğundur.

DİM və Sİ texnologiyasının sintezini bir sıra digər sahələrdə də görmək mümkündür:

**1. "Rəqəmsal Azərbaycan" strategiyası**

Bu strategiya çərçivəsində:

– Elektron hökumət xidmətləri genişləndirilir.
– Elektron səhiyyə sistemləri qurulur.
– Rəqəmsal təhsil və distant tədris platformaları inkişaf etdirilir.
– Süni intellekt texnologiyalarının dövlət xidmətlərində istifadəsi nəzərdə tutulur.

**2. İqtisadiyyat və enerji sektoru**

– Kiçik və orta sahibkarlıq (KOB) üçün rəqəmsal həllər hazırlanır.
– Enerji sektoru: Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan olunması Azərbaycanın DİM 7 ("Təmiz və əlçatan enerji") məqsədinə uyğunluğunu göstərir.
– Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində bərpa olunan enerji layihələri həyata keçirilir.

**3. Sosial və ekoloji layihələr**

– Yaşıl Şəhərsalma konsepsiyası – Bakı və digər şəhərlərdə ekoloji nəqliyyat həlləri.
– Ağıllı kənd layihəsi – Zəngilan rayonunda pilot layihə kənd təsərrüfatında Sİ və rəqəmsal texnologiyaların tətbiqini göstərir.
– Təhsil və səhiyyə sahəsində rəqəmsallaşma – onlayn təhsil və elektron xəstəxana sistemləri.

Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidentinin 19 mart 2025-ci il tarixli Sərəncamına əsasən ölkəmizdə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq olunmuşdur. Həmin Strategiyası son illərdə qəbul olunmuş dövlət proqramları və institusional islahatlarla Dayanıqlı

İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində mühüm alətə çevrilməkdədir. Bu istiqamətdə aparılan təhlillər göstərir ki, süni intellektin tətbiqi yalnız idarəetmə səmərəliliyini artırmır, həm də sosial rifah, ekoloji sabitlik və iqtisadi diversifikasiya kimi əsas hədəflərə konkret şəkildə töhfə verir.

### 1. DİM-lərlə uyğunluğun empirik xəritəsi

Sİ texnologiyalarının tətbiqi üzrə mövcud göstəricilər aşağıdakı DİM-lərlə birbaşa əlaqəlidir:

**DİM 3 (Sağlam həyat və rifah):** 2024-cü ilin sonuna qədər "e-Səhiyyə" platforması üzrə 2,1 milyon elektron xəstəlik kartı formalaşdırılıb. Süni intellekt əsaslı diaqnostik sistemlər (məsələn, "MedAI" pilot layihəsi) 6 bölgədə rentgen və MRT nəticələrinin avtomatik analizini təmin edir. Bununla xəstəliklərin erkən aşkarlanması göstəriciləri 17% artıb.

**DİM 4 (Keyfiyyətli təhsil):** "Rəqəmsal bacarıqlar" və "EdTech AI" layihələri çərçivəsində 2023–2024-cü illərdə 85 min şagird və müəllim süni intellekt əsaslı öyrənmə platformalarından istifadə edib. Empirik nəticələrə görə, bu platformalardan istifadə edən şagirdlərin qiymətləndirmə nəticələri 12% yüksəlib.

**DİM 9 və DİM 16 (İnnovasiya, infrastruktur, sülh və ədalət):** ASAN Xidmətin rəqəmsal idarəetmə sistemlərində 2024-cü ildə 15 milyon xidmət əməliyyatı həyata keçirilib. Vətəndaş məmnunluğu göstəricisi 96,5%-ə çatıb. Bu göstərici beynəlxalq səviyyədə Estoniyanın e-hökumət modeli ilə müqayisədə (95%) yüksək nəticə sayılır.

**DİM 7 və DİM 13 (Təmiz enerji və iqlim):** Qarabağ və Şərqi Zəngəzurda qurulan "yaşıl enerji zonaları"nda artıq 2025-ci ilin ilk yarısında 240 MVt günəş və külək gücü istismara verilib. Süni intellekt əsaslı enerji idarəetmə sistemləri enerji istehsalında 8-10% qənaət təmin edib.

Bu məlumatlar göstərir ki, Azərbaycanın Sİ strategiyası DİM-lərin ən azı 6 əsas istiqamətində real nəticələr doğurur.

### 2. Hazırda əhatə olunmayan DİM-lər və potensial istiqamətlər

Təhlillər göstərir ki, Sİ Strategiyasında hələlik DİM 1 (Yoxsulluğun azaldılması), DİM 5 (Gender bərabərliyi), DİM 10 (Bərabərsizliyin azaldılması) və DİM 14 (Sualtı həyat) üzrə tədbirlər məhduddur. Bu boşluqlar aşağıdakı empirik əsaslı tövsiyələrlə doldurula bilər:

Gender aspektinin inteqrasiyası: 2024-cü il "Qadınlar və Süni İntellekt" təşəbbüsünə əsasən, İT sektorunda qadınların payı 23%-dən 31%-ə yüksəlib. Bu göstərici artım tempini saxladığı halda, 2030-a qədər DİM 5-in yerli icra hədəflərinə tam nail olmaq mümkündür.

Alqoritmik ədalət mexanizmləri: Dövlət Data Mərkəzi tərəfindən yaradılan "AI Ethics Hub" platformasında 2025-ci ilin yanvarına qədər 42 dövlət alqoritmi etik uyğunluq testindən keçirilib. Bu praktika sosial bərabərliyin təmin olunmasında (DİM 10) mühüm alətə çevrilir.

Ekosistemlərin qorunması üçün Sİ tətbiqləri: Ekologiya Nazirliyinin "EcoAI" sistemi vasitəsilə Xəzər dənizində neft sızmalarının aşkarlanma sürəti 60%-ə qədər yüksəlib. Bu göstərici DİM 14 və DİM 15 məqsədlərinin yerli monitorinqinə real dəstək verir.

### 3. Beynəlxalq müqayisə və Azərbaycanın mövqeyi

Azərbaycanın Sİ və DİM inteqrasiyası istiqamətində əldə etdiyi nəticələr bir sıra beynəlxalq təcrübələrlə müqayisədə yüksək dinamika göstərir:

Estoniya modeli: Estoniyada e-hökumət sistemlərində 99% xidmət onlayn göstərilir. Azərbaycanda bu göstərici 2025-ci ilin birinci yarısında 88%-ə çatıb. Artım tempi (illik +5%) nəzərə alınarsa, 2027-ci ilə qədər Estoniya səviyyəsinə yaxınlaşmaq mümkündür.

Sinqapurun "AI for Public Good" təşəbbüsü sosial xidmətlərdə və təhsildə Sİ-dən istifadəyə yönəlib. Azərbaycan modeli (ASAN və DOST xidmətləri) bu istiqamətdə regionda ən yaxın analoq sayılır.

BMT-nin “AI and SDG Index 2023” hesabatında, Azərbaycan Cənubi Qafqaz regionunda 1-ci yerdə, ümumilikdə isə 193 ölkə arasında 58-ci yerdə qərarlaşıb. Bu, “AI for Development” indikatorları üzrə 2020-ci illə müqayisədə 27 pillə irəliləyiş deməkdir.

## 4. Sahəvi nəticələr və iqtisadi təsirlər

Sİ texnologiyalarının tətbiqi nəticəsində yaranan iqtisadi faydalar artıq ölçülə bilən göstəricilərlə ifadə olunur:

ÜDM-ə təsir: 2024-cü ilin sonuna qədər Sİ texnologiyaları ilə əlaqəli sahələrin (fintech, e-commerce, data analitika) ÜDM-də payı 5,8%-ə çatıb. Bu göstərici 2020-ci illə müqayisədə 2,3 dəfə artım deməkdir.

Yeni iş yerləri: “Rəqəmsal bacarıqlar və Sİ” proqramı üzrə 2023–2024-cü illərdə 7.200 nəfər yeni ixtisaslar üzrə məşğulluq əldə edib.

Enerji qənaəti: “Smart Grid Azerbaijan” layihəsində Sİ əsaslı şəbəkə idarəetməsi elektrik itkisini 9% azaldıb.

Sosial xidmətlərdə qənaət: ASAN və DOST sistemlərində Sİ əsaslı avtomatlaşdırılmış qərarvermə modelləri ilə 2024-cü ildə dövlət büdcəsinə 38 milyon manat qənaət təmin olunub.

## 5. Nəticə və perspektiv istiqamətlər

Empirik göstəricilər aydın şəkildə sübut edir ki, süni intellekt Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində artıq ölçülə bilən strateji alətə çevrilib. Bununla belə, prosesin davamlılığı üçün aşağıdakı istiqamətlər üzrə yeni mərhələyə keçid zəruridir:

Məlumatların keyfiyyətinin artırılması: Açıq dövlət məlumatlarının keyfiyyət göstəriciləri (metadata, yenilənmə tezliyi) üzrə vahid standartların tətbiqi.

Hüquqi çərçivənin təkmilləşdirilməsi: 2025-ci ildə qəbul olunması nəzərdə tutulan “Süni İntellekt haqqında Qanun”un BMT-nin SDG prinsipləri ilə uyğunlaşdırılması.

İnsan kapitalı: Süni intellekt mühəndisliyi üzrə ixtisaslaşmış magistr proqramlarının sayının 2023-cü ildəki 2-dən 2025-ci ildə 6-ya yüksəlməsi.

Beynəlxalq əməkdaşlıq: OECD, UNESCO və BMT-nin “AI for Planet” təşəbbüslərində Azərbaycanın fəal iştirakı.

Sosial monitorinq: Sİ-nin iş yerlərinə, gəlir bərabərliyinə və cins nisbətinə təsiri üzrə illik hesabatların hazırlanması.

Qeyd olunanları nəzərə alaraq, bu gün süni intellektin DİM-lərin həyata keçirilməsində qlobal miqyasda strateji vasitəyə çevrildiyini əminliklə deyə bilərik. Onun tətbiqi səhiyyədən təhsilə, iqtisadiyyatdan ətraf mühitin mühafizəsinə qədər geniş sahələrdə dayanıqlı inkişafı sürətləndirir.

Azərbaycan nümunəsi göstərir ki, milli prioritetlərin DİM-lərlə uyğunlaşdırılması, ASAN konsepsiyası kimi idarəçilik innovasiyaları və rəqəmsal transformasiya siyasəti ölkəni Cənubi Qafqazda qabaqcıl mövqeyə çıxarır. Bununla belə, etik çağırışlar, iş yerlərinin qorunması və texnologiyadan asılılığın azaldılması istiqamətində əlavə tədbirlərin görülməsi vacibdir:

1. Məlumat təhlükəsizliyi üzrə güclü qanunvericilik bazası və hüquqi çərçivə.
2. İnsan kapitalının inkişafı – İT və Sİ sahəsində kadr hazırlığı.
3. Beynəlxalq əməkdaşlıq – dünya dövlətləri və beynəlxalq təşkilatların proqramları çərçivəsində birgə layihələrin genişləndirilməsi.
4. Sosial təsirlərin monitorinqi – iş yerlərinin qorunması və yeni bacarıqların inkişafı üçün proqramlar.

Azərbaycan təcrübəsi göstərir ki, süni intellekt yalnız texnoloji yenilik deyil, həm də dayanıqlı inkişafın empirik mühərriki rolunu oynayır. Ölçülə bilən nəticələr – xidmətlərin səmərəliliyi, iqtisadi qənaət, sosial bərabərlik və ekoloji mühafizə – Sİ-nin DİM-lərlə inteqrasiyasının real effektini təsdiqləyir. Gələcək mərhələdə məqsəd bu nailiyyətləri ölçülə bilən, hesabatlı və inklüziv model formasında davam etdirməkdir.

**Ədəbiyyat:**

1. United Nations (2015). Transforming our world: the 2030 Agenda for Sustainable Development. New York: UN.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.
3. ASAN Xidmət (2023). Rəsmi statistika və hesabatlar.
4. Avropa İttifaqı – Azərbaycan əməkdaşlıq hesabatları (2020–2023).
5. OECD (2021). AI and the Sustainable Development Goals. Paris: OECD Publishing.

***Açar sözlər:*** *Azərbaycan, rəqəmsallaşma, Süni İntellekt (Sİ), Dayanıqlı İnkişaf Məqsədləri (DİM)*

**Mazahir Afandiyev**

*Member of the Milli Majlis of the Republic of Azerbaijan*

## ARTIFICIAL INTELLIGENCE AND SUSTAINABLE DEVELOPMENT GOALS: A GLOBAL PERSPECTIVE AND AZERBAIJAN EXPERIENCE

### ABSTRACT

In today's digitalizing world, where the Fourth Industrial Revolution is taking place, Artificial Intelligence (AI) technologies have become a strategic tool on a global scale for achieving the Sustainable Development Goals (SDGs). By offering innovative solutions in healthcare, education, agriculture, environment, and the economy, AI contributes to improving social welfare and the efficient use of resources. As an exemplary member state of the United Nations, the Republic of Azerbaijan plays a leading role in implementing the global Agenda and is successfully integrating into technological transformation through initiatives such as ASAN Service, the Center for Analysis and Coordination of the Fourth Industrial Revolution (4SIM), the “Digital Azerbaijan” strategy, and smart village projects. National priorities aligned with the SDGs and annual reports demonstrate the country’s consistent progress in this direction. At the same time, challenges such as data security, ethical issues, and technological dependency must be taken into account. To fully harness the benefits of AI, the development of a national strategy, investment in human capital, and international cooperation are considered essential.

***Keywords:*** *Azerbaijan, digitalization, Artificial Intelligence (AI), Sustainable Development Goals (SDGs)*

**Мазахир Эфендиев**

*Депутат Милли Меджлиса Азербайджанской Республики*

## ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ И ЦЕЛИ УСТОЙЧИВОГО РАЗВИТИЯ: ГЛОБАЛЬНЫЕ ПЕРСПЕКТИВЫ И ОПЫТ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В современном цифровом мире, где происходит Четвёртая промышленная революция, технологии искусственного интеллекта (ИИ) становятся стратегическим инструментом глобального масштаба для достижения Целей устойчивого развития (ЦУР). Предлагая инновационные решения в области здравоохранения, образования, сельского хозяйства, охраны окружающей среды и экономики, ИИ способствует повышению социального благосостояния и эффективному использованию ресурсов. Азербайджанская Республика, как образцовый член ООН, занимает ведущие позиции в реализации глобальной Повестки дня и успешно интегрируется в технологическую трансформацию через такие инициативы, как ASAN-xidmət, Центр анализа и координации Четвёртой промышленной революции (4SIM), стратегия “Цифровой Азербайджан” и проекты “умных деревень”. Национальные приоритеты, соответствующие ЦУР, и ежегодные отчёты демонстрируют последовательную деятельность страны в этом направлении. Вместе с тем необходимо учитывать вызовы, такие как безопасность данных, этические вопросы и технологическая зависимость. Для полного использования преимуществ ИИ важными считаются разработка национальной стратегии, развитие человеческого капитала и международное сотрудничество.

***Ключевые слова:*** *Азербайджан, цифровизация, искусственный интеллект (ИИ), Цели Устойчивого Развития (ЦУР)*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.018

**DAVAMLI İNKİŞAF SİYASƏTİ**
**SUSTAINABLE DEVELOPMENT POLICY**

UOT 328; 342.5; 351/354

**NURİDƏ MUSTAFAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişaf kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru**

*e-mail: soilnur@yahoo.com*

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN POTENSİALININ İNKİŞAFINDA PEŞƏ TƏHSİLİNİN ROLU

Müasir dünyada qəbul edilmiş davamlı insan inkişafı konsepsiyası bu günün tələblərini nəzərə almaqla gələcək nəsillərin ehtiyaclarını ödəməyi və bu istiqamətdə tərəqqiyə nail olmağı nəzərdə tutur. Bu o deməkdir ki, təbii sərvətlərdən istifadə, ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə elmi bilik və texnologiyanın inkişafı ilə həyata keçirilməlidir ki, gələcək nəsillər də onlardan eyni şəkildə istifadə etsinlər.

Davamlı inkişaf konsepsiyası kapitalın artırılması və ekoloji şəraitin yaxşılaşdırılması ilə müşayiət olunan bəşəriyyətin uzunmüddətli tərəqqisinin əsas şərti kimi nəzərdən keçirilir. Ümumilikdə, bəşəriyyət üçün bu konsepsiya ekoloji biliklər və məlumatların geniş mübadiləsi fonunda, maliyyə resurslarının zəngin regionlardan yoxsul regionlara qismən, məqsədyönlü və dəstəkləyici şəkildə yönəldilməsini nəzərdə tutur. Davamlı inkişaf konsepsiyası üç fundamental perspektivin birləşməsindən yaranmışdır: iqtisadi, sosial və ekoloji. Davamlı inkişafa nail olmaq üçün vasitə olan bu müxtəlif perspektivləri uzlaşdırmaq olduqca mürəkkəb bir vəzifədir, çünki davamlı inkişafın hər üç elementi balanslaşdırılmış şəkildə nəzərdən keçirilməlidir. İqtisadi, ekoloji və sosial sahələr sadəcə olaraq indiki və gələcək nəsillərin rifahını təmin etmək üçün vasitədir. Beləliklə, davamlı inkişaf təkcə ətraf mühitin qorunması və ya iqtisadi artım deyil, hər şeydən əvvəl insan inkişafıdır. Konsepsiyanın əsas məqsədi insan potensialının reallaşdırılması üçün əlverişli şəraitin yaradılması, bərabər imkanların təmin edilməsi, hüquq və azadlıqların müdafiəsi, inklüziv cəmiyyətin formalaşmasıdır [5].

Müasir qloballaşma, rəqəmsallaşma və davamlı inkişafa keçid prosesləri sosial-iqtisadi tərəqqinin əsas resursu kimi insan potensialının əhəmiyyətini artırıb. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (UNDP) görə, insan inkişafı insanların sağlamlıq, təhsil və layiqli həyat səviyyəsini təmin edən həyat tərzini seçmək imkanlarının genişləndirilməsi prosesi kimi müəyyən edilir [9]. Davamlı insan inkişafı (UNDP konsepsiyasına uyğun olaraq) cəmiyyətdə həyat keyfiyyətini, imkan səviyyəsini və bərabərliyi əks etdirən bir sıra əsas göstəricilərlə ölçülür. İnsan İnkişafı İndeksi, BMT İnkişaf Proqramı tərəfindən 1990-cı ildə təqdim edilən klassik və ən dəqiq göstəricidir.

Məlum olduğu kimi, 1980-ci illərin sonlarına qədər ölkələrin inkişaf səviyyəsi ilk növbədə iqtisadi göstəricilər – adambaşına düşən ümumi daxili məhsul (ÜDM) vasitəsilə qiymətləndirilirdi. Bununla belə, bu yanaşmanın

ciddi məhdudiyyətləri var idi: insanların həyat keyfiyyətini əks etdirmir, təhsilə, səhiyyəyə, sosial müavinətlərə əlçatanlığı nəzərə almır, müxtəlif əhali qrupları arasındakı bərabərsizliyi göstərmirdi. Bu dövrdə BMT-də və elmi dairələrdə inkişafın "dar" iqtisadi anlayışının tənqidi gücləndi. 1980-ci illərin sonlarında Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) yeni inteqrasiya edilmiş göstərici üzərində işə başladı. İdeyanın əsas tərəfdarı Mahbub ul Haq (pakistanlı iqtisadçı) idi və Amartya Sen (hindli filosof və iqtisadçı, 1998-ci il Nobel mükafatı laureatı) inkişafın insan azadlıqlarının və imkanlarının genişləndirilməsi kimi qiymətləndirilməsini təklif edərək konsepsiyanın həmmüəllifi olmuşdur. İnsan İnkişafı İndeksinin əsasını məhz onların birgə ideyaları təşkil edirdi. 1990-cı ildə BMTİP yeni bir göstərici olan İnsan İnkişafı İndeksini (İİİ) təqdim edən ilk İnsan İnkişafı Hesabatını nəşr etdi. Hesabatda vurğulanırdı ki, "bir millətin əsl sərvəti onun xalqındadır". İnsan İnkişafı İndeksi üç əsas ölçüdən ibarətdir: səhiyyə, təhsil və iqtisadi göstəricilər, bunların hər biri müvafiq alt qruplara bölünür (şəkil 1).

İllik İnsan İnkişafı Hesabatına görə, bu göstəricinin dəyərləri 1990-2023-cü illər arasında dinamik dalğalanmalar göstərib. Şəkil 2-də göstərildiyi kimi, Azərbaycanda 2000-ci illərin əvvəllərindən bəri İnsan İnkişafı İndeksində sabit artım müşahidə olunur. 2000-ci ildə İnsan İnkişafı İndeksi 0,622 təşkil etmiş və ölkəni orta insan inkişafı kateqoriyasına daxil etmişdir. 2010-cu ilə qədər İnsan İnkişafı İndeksi əhəmiyyətli dərəcədə artaraq 0,727-yə çatmışdır ki, bu da səhiyyə, təhsil və həyat səviyyəsinin yaxşılaşmasında əhəmiyyətli irəliləyişi əks etdirir. Bu artım sonrakı illərdə də davam etmişdir: 2015-ci ildə İnsan İnkişafı İndeksi 0,748, 2018-ci ildə 0,757 və 2019-cu ildə 0,761 təşkil etmişdir ki, bu da sosial-iqtisadi şəraitin tədricən yaxşılaşdığını göstərir.

Maraqlıdır ki, 2020-ci ildə göstərici 0,730-a qədər azalıb ki, bu da gözlənilən ömür müddətinə, səhiyyə xidmətlərindən istifadəyə və iqtisadi fəaliyyətə mənfi təsir göstərən qlobal COVID-19 pandemiyasının təsiri ilə əlaqələndirilə bilər. Lakin 2021-ci ildə bu rəqəm tədricən 0,745-ə yüksələrək 2022-ci ildə 0,760 həddinə çatıb. Ən yüksək artım 2023-cü ildə qeydə alınıb və İnsan İnkişafı İndeksı göstəriciləri 0,789 müəyyən olunub. Bu səbəbdən, BMT İnkişaf Proqramının təsnifatına əsasən, Azərbaycan insan inkişafı səviyyəsi yüksək olan ölkələr kateqoriyasına daxildir.




**Şəkil 1.** İnsan İnkişafı İndeksinin əsas komponentləri [5]




**Şəkil 2.** Azərbaycanın İnsan İnkişafı İndeks göstəricilərin dinamikası (1990-2023-ci illər ) [10]

Beləliklə, ümumilikdə Azərbaycanın 2000-ci ildən 2023-cü ilə qədər olan dövr üçün İİİ dinamikası ardıcıl və davamlı artım nümayiş etdirir . Bu, təhsil, səhiyyə və həyat standartlarında uzunmüddətli müsbət tendensiyaları əks etdirir [9].

Yuxarıda qeyd edildiyi kimi, İnsan İnkişafı İndeksi uzunömürlülük və həyat səviyyəsi ilə yanaşı, təhsili onun üç əsas komponentindən biri kimi ehtiva edir. Təhsil təkcə bilik əldə etmək vasitəsi kimi deyil, həm də insan potensialının, sosial hərəkətliliyin və cəmiyyət daxilində imkanların genişləndirilməsi amili kimi nəzərdən keçirilir. Təhsil səviyyəsi nə qədər yüksək olarsa, əhalinin məşğulluq, gəlir və innovasiya imkanları bir o qədər çox olar. Bu, İİİ-nin "ləyaqətli həyat səviyyəsi" komponentini artırır [6].

Təhsilə əlçatanlıq sağlamlığa müsbət təsir edir (sağlam həyat tərzi mədəniyyətinin inkişafı və tibbi məlumatlara çıxış yolu ilə) və bu, gözlənilən ömür uzunluğunda özünü göstərir.

Təhsil sosial davamlılığı artırır, yoxsulluğu və bərabərsizliyi azaldır və demokratik institutları gücləndirir.

Beləliklə, təhsil insan inkişafının bütün ölçülərinə multiplikativ təsir göstərən fundamental amildir. Bu baxımdan 2030 Davamlı İnkişaf Məqsədlərinə nail olunmasında təhsilin rolu diqqətə layiqdir.

Məlum olduğu kimi, 25 sentyabr 2015-ci ildə BMT-nin Davamlı İnkişaf Sammitində Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) qəbul etdilər. Onlar Davamlı İnkişaf üzrə 2030 Gündəliyinin, onlara nail olmaq üçün 15 illik planın bir hissəsi oldular. BMT sənədlərində vurğulanır ki, bütün 17 Davamlı İnkişaf Məqsədi (DİM) "insanların rifahının yaxşılaşdırılmasına və planetin qorunmasına" yönəlib. Bu baxımdan, insan potensialının yaradılmasının əsasını təşkil edən aşağıdakı Davamlı İnkişaf Məqsədlərini qeyd etmək xüsusilə vacibdir [7]:

**SDG 4 (Keyfiyyətli Təhsil)** – bilik və bacarıqların inkişafı üçün universal çıxışı təmin etmək;

**SDG 8 (Layiqli iş və iqtisadi artım)** – bacarıqların inkişafı və sahibkarlıq vasitəsilə davamlı iş yerlərinin yaradılması;

**SDG 10 (Bərabərsizliyin azaldılması)** – regionlar və sosial qruplar arasında təhsil və iqtisadi imkanların bərabərləşdirilməsi.

Təhsil sisteminin strukturu insanın həyata və peşə fəaliyyətinə hazırlanmasını təmin edən səviyyələrin, qurumların və mexanizmlərin iyerarxik şəkildə təşkil edilmiş kompleksidir [10].




**Şəkil 3.** Azərbaycanda təhsil səviyyələrinin strukturu [8]

Təhsil sisteminin strukturuna insan potensialının inkişafını təmin edən və davamlı insan inkişafının əsası olan məktəbəqədər, ümumi orta, orta ixtisas, ali və əlavə və fasiləsiz təhsil daxildir.

Məktəbəqədər təhsil (uşaq bağçaları, körpələr evləri, məktəbə hazırlıq qrupları). Əsas məqsəd 1 yaşdan 6 yaşadək uşaqların ilkin inkişafı, sosiallaşması, məktəbə hazırlığı və s. məsələləri əhatə edir.

Ümumi orta təhsil üç mərhələdən ibarətdir: ibtidai təhsil- (I–IV) siniflər, ümumi orta təhsil - (V–IX) siniflər, tam orta təhsil (X–XI). Əsas məqsədi hər bir vətəndaşa ümumi bilik, bacarıq və dünyagörüşü qazandırmaq, şəxsiyyətin formalaşmasını təmin etməkdir. Məcburi təhsil Azərbaycanda IX sinifə qədər (ümumi orta) mərhələni əhatə edir.

Orta ixtisas təhsili (texnikumlar, kollec və peşə məktəbləri). Qəbul şərti abituriyentlərin ümumi orta (9-cu sinifdən sonra) və ya tam orta (11-ci sinifdən sonra) təhsilinin olmasıdır. Əsas məqsədi konkret peşə və ixtisas üzrə nəzəri və praktik biliklərin verilməsi, əmək bazarına hazırlıqdır.

Bu gün Azərbaycanda peşə təhsili sisteminin xüsusiyyətlərinə nəzər salaq. Qeyd etmək vacibdir ki, davamlı inkişaf kontekstində peşə təhsili cəmiyyətin innovativ potensialının formalaşmasında əsas amilə çevrilir. UNESCO hesabatına görə, peşə hazırlığının hər bir əlavə səviyyəsi məşğulluğu 10-15%, gəliri orta hesabla 8-10% artırır [11]. Bundan əlavə, peşə təhsilinin inkişafı aşağıdakılara töhfə verir:

1. yüksək texnologiyalı və "yaşıl" sənayelər üçün ixtisaslı kadrların hazırlanması;
2. təhsil və əmək bazarı arasında əlaqələrin gücləndirilməsi;
3. davamlı öyrənmə mədəniyyətinin formalaşdırılması (ömür boyu öyrənmə). Beynəlxalq Əmək Təşkilatına hesabatına görə, davamlı inkişaf aşağı karbonlu və ekoloji cəhətdən təmiz iqtisadiyyat üçün mütəxəssislər hazırlamaq üçün peşə təhsili sistemlərinin transformasiyasını tələb edir [4].

Peşə təhsili təkcə iqtisadi deyil, həm də sosial funksiyaya xidmət edir, sosial ədalətin və imkan bərabərliyinin artırılmasına töhfə verir. Peşə təhsili aşağıdaki məsələləri təmin edir: sosial mobillik, gənclərin öz potensialını həyata keçirməsi və inteqrasiyası üçün yolların açılması; inklüzivlik - qadınlar, xüsusi ehtiyacı




**Şəkil 4.** Peşə təhsilinin əsas funksiyaları [8]

olan şəxslər və sosial cəhətdən həssas qruplar üçün təhsilə çıxış imkanlarının genişləndirilməsi; tələbələrin davamlı düşüncə, etika və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməklə vətəndaş məsuliyyətinin gücləndirilməsi.

Beləliklə, peşə təhsili artıq təkcə məşğulluq aləti deyil, insan qabiliyyətlərinin inkişaf mexanizminə çevrilir ki, bu da birbaşa olaraq Davamlı İnkişaf Məqsədlərinə, xüsusən də DİM 4 və DİM 8-ə uyğun gəlir.

Peşə təhsili (PTT) iqtisadiyyatın müxtəlif sahələri üçün orta səviyyəli mütəxəssislərin hazırlanmasını təmin edən milli təhsil sisteminin mühüm səviyyəsidir. Ümumi orta və ali təhsil arasında aralıq mövqe tutur. Orta ixtisas təhsilinin əsas məqsədi konkret əmək funksiyalarının yerinə yetirilməsi və məzunların əmək bazarına uğurla inteqrasiyası üçün zəruri olan peşəkar biliklərin, praktiki bacarıqların və səriştələrin formalaşdırılmasıdır. Azərbaycanda peşə təhsili sisteminin formalaşması və inkişafının tarixi mərhələlərinə nəzər salaq.

İnqilabqabağı dövrü (XIX – XX əsrin əvvəlləri) sənayenin və neft sektorunun inkişafı ilə əlaqədar Bakıda və Gəncədə ilk peşə məktəbləri və emalatxanaları yaranmışdır. İlk texniki təhsil müəssisəsi 1874-ci ildə açılmış Bakı Real Məktəbi idi. Bu təhsil müəssisəsi sənətkarlıq sahəsində sənaye-mexaniki, mühəndislikqabağı ixtisaslara hazırlıq məqsədilə fəaliyyət göstərirdi. 1918-1920-ci illəri əhatə edən Azərbaycan Xalq Cümhuriyyətinin ikinci dövründə milli peşə təhsili sisteminin təşkili istiqamətində ilk addımlar atıldı. Məktəblərdə və təhsil ocaqlarında peşə-texniki kurslar açıldı. Lakin ADR qısa müddət ərzində mövcud olduğu üçün tam hüquqlu peşə təhsili sistemi formalaşmağa vaxt tapmadı (şəkil 5).

Sovet dövrü 1920-1991-ci illəri əhatə etmişdir. 1920-ci illərdə peşə və fabrik məktəbləri şəbəkəsi yaradıldı. 1930-1950-ci illərdə sənayeləşmə işçilərin kütləvi təlimini tələb etdi, peşə məktəbləri (VTS) və texnikumlar açıldı. 1960-1980-ci illərdə peşə təhsili sistemi özünün pik nöqtəsinə çatdı: onlarla peşə məktəbi, texnikum və ixtisas liseyi fəaliyyət göstərir, neft sənayesi, kimya, tikinti, maşınqayırma və kənd təsərrüfatı sənayesi üçün kadrlar hazırlanırdı. Peşə məktəbi məzunları sənayeni ixtisaslı işçilərlə təmin edirdilər.

Müstəqillik dövrü (1991-ci ildən). 1991-ci ildə SSRİ-nin dağılması və müstəqilliyin bərpası ilə peşə təhsili sisteminin inkişafında yeni dövr başlandı. Qeyd etmək lazımdır ki, bu dövrdə peşə təhsili sistemi böhran içində idi: bir çox peşə məktəbləri bağlandı və ya aktuallığını itirdi. Azərbaycan bütün təhsil sisteminə mənfi təsir göstərən bir sıra ciddi sosial-iqtisadi problemlərlə üzləşmişdir. Lakin 2000-ci illərdən bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq peşə təhsilində islahatlara başlanılmışdır. Peşə liseyləri və kollecləri yaradılmış, yeni ixtisaslar – informasiya texnologiyaları, xidmət, turizm, bank işi tətbiq edilmişdir. Beynəlxalq təşkilatlarla (Aİ, YUNESKO, GEF və s.) əməkdaşlıq edilməyə başlanılmışdır.

2010-cu ildən peşə təhsilinin müasir inkişaf mərhələsi başlamışdır və bu gün də davam etməkdədir. 2016-cı ildə “Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təsdiq edilib və burada peşə təhsilinin müasirləşdirilməsinə ayrıca bölmə ayrılıb. Yeni tipli




**Şəkil 5.** Azərbaycanda peşə təhsilinin tarixi inkişaf mərhələləri[8].

peşə təhsili mərkəzləri (müasir peşə təhsil mərkəzləri) yaradılır. Boloniya Prosesi və Avropa Kvalifikasiya Çərçivəsi ilə inteqrasiya davam edir. Aşağıdakı istiqamətlər üzrə mütəxəssislərin hazırlanmasına diqqət yetirilir: İKT və rəqəmsal iqtisadiyyat, enerji və yaşıl iqtisadiyyat, turizm və xidmət, kənd təsərrüfatı sektoru.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycanda peşə təhsili yolunu 5 mərhələyə bölmək olar:

1. Sənətkarlıq və texniki məktəblərin yaranması (XIX-XX-ci əsrin əvvəlləri )
2. ADR dövründə ilk milli təşəbbüslər (1918-1920)
3. Sovet dövründə kütləvi inkişaf (1920-1991)
4. Müstəqilliyin əvvəlində böhran və islahatlar (1991-2010-cu illər)
5. Müasir modernləşmə və beynəlxalq standartlara inteqrasiya (2010-cu illər - indi).

Hazırda Azərbaycanda peşə təhsili sistemində fəal modernləşmə və islahatlar aparılır. Ölkədə 100-ə yaxın peşə məktəbi və liseyi, eləcə də bir neçə ixtisaslaşdırılmış yeni nəsil peşə təhsili mərkəzləri var [3].

Şəkil 6-da 1991-2025-ci illər üçün peşə təhsili müəssisələrinin sayında dəyişiklik dinamikası verilmişdir. Məlumatlardan göründüyü kimi, 1990-cı ildə peşə təhsili müəssisələrinin sayı 176 idisə, sonrakı illərdə xeyli azalma müşahidə edilərək 2025-ci ildə 87-yə çatmışdır. Bu müəssisələrin sayının azalmasının əsas səbəbləri kimi ölkədə baş verən siyasi və iqtisadi dəyişikliklər, ali təhsilə geniş diqqətin verilməsi, bu sahədə təhsil islahatlarının aparılması və s. göstərilə bilər.

Məlum olduğu kimi, SSRİ-nin dağılmasından sonra sənaye müəssisələri ilə bağlı iş yerlərinə tələbat kəskin şəkildə azaldı. Həmin illərdə özəl ali təhsil müəssisələrinin inkişafı ilə universitetlərin nüfuzu yüksəldi, kollec və peşə məktəbləri isə “ikinci dərəcəli” kimi qəbul olunmağa başladı. Bəzi peşə məktəbləri kolleclərə çevrildi, bəziləri isə birləşdirildi və ya bağlandı. Bu, onların əmək bazarının tələblərinə cavab verə bilmədiyi vəziyyətlə nəticələndi. Peşə təhsili proqramları çox vaxt köhnəlmiş olurdu və müasir bacarıqları təmin etmirdi, bu da bu cür müəssisələrə qəbulun cəlbediciliyini əhəmiyyətli dərəcədə azaldırdı.

1990-ci illərdə Azərbaycanda peşə məktəblərinin sayının azalması iqtisadiyyatın və




**Şəkil 6.** Azərbaycanda peşə təhsili müəssisələrinin sayı[3].

cəmiyyətin struktur transformasiyasını əks etdirir. Azərbaycanın müstəqilliyinin ilk illərində orta ixtisas təhsili sistemi özünün ənənəvi funksiyasını – sənaye iqtisadiyyatı üçün işçilərin kütləvi hazırlanması funksiyasını yerinə yetirməkdə davam etdiyi halda, bazar iqtisadiyyatına keçid dövründə onun əhəmiyyəti xeyli azalmışdır. Müəssisələrin bağlanması, iqtisadiyyatın yenidən qurulması və gənclərin ali təhsilə geniş istiqamətləndirilməsi peşə məktəblərinin sayının azalmasına və onların cəlbediciliyinin azalmasına səbəb oldu. Lakin son illərdə orta ixtisas təhsilində bir növ intibah müşahidə olunur. Hökumət başa düşür ki, bu təhsil səviyyəsi əmək bazarının tələblərinə çevik cavab vermək, ixtisaslı orta səviyyəli mütəxəssislər üçün təlim vermək və davamlı sosial-iqtisadi inkişaf üçün mühüm alət kimi xidmət etmək qabiliyyətinə malikdir. Mövcud peşə təhsili siyasəti təhsilin məzmununun yenilənməsinə, maddi-texniki infrastrukturun müasirləşdirilməsinə, yeni peşələrin tətbiqinə, biznes subyektləri ilə tərəfdaşlıq əlaqələrinin inkişafına, ölkənin insan kapitalının gücləndirilməsinə yönəlib.

2015-ci ildə təhsil müəssisələrinin sayının 112-dən 2025-ci ildə 87-yə enməsi göstərir ki, şəbəkənin optimallaşdırılması prosesi aparılır, köhnəlmiş müəssisələrin bağlanması və ya birləşdirilməsi, həmçinin mərkəzləşdirilmiş müasir peşə təhsili mərkəzlərinin (VET-mərkəzlərinin) sayının artırılması həyata keçirilir (şəkil 6).

1990-ci illərdə peşə təhsili alan tələbələrin ümumi sayı 82188 nəfər qeyd olunub, sonrakı illərdə həmin göstəricilər kəskin şəkildə azalmağa başladı. 2000-2020-ci illərə qədər tələbələrin sayında artım müşahidə olunmadı, lakin son illərdə peşə təhsilinə maraq artıb və nəticədə 2025-ci ildə orta ixtisas təhsili müəssisələrinə qəbul olan tələbələrin sayı 35 262 nəfərə çatıb (şəkil 7). Bu, əvvəlki illərlə müqayisədə müsbət tendensiya nümayiş etdirir. Peşə təhsili müəssisələrinə qəbul son üç ildə təxminən 30% artıb.

Şəkil 8-dəki məlumatlardan göründüyü kimi, 1990-cı illərdə Azərbaycanda peşə təhsili müəssisələrini bitirənlərin sayı qəbul olunan tələbələrin sayından çox idi. Bu vəziyyətin əsas səbəbləri siyasi qeyri-sabitlik, sosial-iqtisadi böhran və keçid dövrü idi. 1990-cı illərin əvvəllərində peşə məktəbləri və texnikumlar hələ də “sovet qəbul modeli” ilə fəaliyyət göstərirdi. Bu müəssisələrdə daha öncə – SSRİ-nin dağılmasından əvvəl işə götürülən böyük “tələbə ehtiyatı” var idi.

Birinci Qarabağ müharibəsi (1991-1994), iqtisadi tənəzzül və qeyri-sabitlik yeni qəbul olunan tələbələrin sayını azaltmışdı. Bir çox ailələr erkən işə və ya miqrasiyaya üstünlük




**Şəkil 7.** Azərbaycanda peşə təhsili müəssisələrinin tələbələrin sayı, (nəfər)[3].

verərək uşaqlarını məktəbə göndərə bilmirdilər. Bununla belə, artıq oxumuş olanların təhsillərini başa vurma ehtimalı daha yüksək idi, çünki bu, ən azı müəyyən iş imkanları açırdı. 1990-cı illərin əvvəllərində orta ixtisas təhsili hələ də yüksək nüfuza malik idi, məzunlar asanlıqla fabriklərdə, zavodlarda və tikintilərdə iş tapırdılar.Tələbə və məzun sayı arasındakı disbalans, 2000-ci ildən sonra əks tendensiyaya səbəb olan Azərbaycanın peşə təhsili sistemindəki struktur dəyişikliklərinin nəticəsi idi: məzunların sayı tələbələrin sayından geri qalmağa başladı. 2000-ci illərdə Azərbaycanda peşə təhsili müəssisələrini bitirənlərin sayı azalmış, daxil olanların sayı isə artmışdı. Bu, peşə təhsili sisteminin keyfiyyət və struktur problemlərini əks etdirirdi. Bazar islahatlarının başlamasından sonra bəzi tələbələr erkən iş axtarmaq üçün təhsillərini tərk etmək məcburiyyətində qaldılar. Miqrasiya (həm daxili, həm də xarici) tələbə qəbulunun azalmasına səbəb oldu, bir çox gənc başqa regionlara və ya ölkələrə işləmək üçün getdi. 2000-ci illərdə ali təhsilin cəmiyyətdə nüfuzu artdı, peşə məktəbləri isə "orta" kimi qəbul edildi. Bu, bir çox orta məktəb məzunlarının müvəqqəti olaraq kolleclərə yazılmasına və sonra orta ixtisas təhsili proqramlarını başa vurmadan universitetlərə getməsinə səbəb oldu.

Son illərdə dövlət siyasətində, peşə təhsili sahəsində əsaslı islahatlar həyata keçirilib. 2016-cı ildə peşə hazırlığının idarə edilməsi, müasirləşdirilməsi və əlaqələndirilməsi məqsədi ilə Təhsil Nazirliyinin nəzdində Peşə Təhsili üzrə Dövlət Agentliyi (PPE) yaradılmışdır [2]. Agentlik Azərbaycanın orta ixtisas təhsili sistemində islahatların həyata keçirilməsində əsas rol oynayır, o cümlədən, təhsillə əmək bazarı arasında "körpü" yaratmağa, tədris və proqramların məzmunun modernləşdirilməsinə, yenilənməsinə, təhsil müəssisələrinin müasir tələblərə uyğunlaşdırılmasına cavabdehdir. Agentlik tələbələrin fundamental peşə hazırlığına, dual təhsil formalarına, qabaqcıl təlimə və işəgötürənlərin cəlb edilməsinə xüsusi diqqət yetirir.

Milli Kvalifikasiyalar Çərçivəsi (AzNQF) sistemi diplomların müqayisəliliyini, qeyri-formal təhsilin tanınmasını və təhsil səviyyələri arasında keçidi təmin edir. Tələbələrin vaxtlarının bir hissəsini kollecdə, bir hissəsini isə iş yerində keçirdikləri dual öyrənmə modelləri tətbiq edilir. Bu, onlara real dünyada peşəkar təcrübə qazanmağa imkan verir. Bakıda, Gəncədə, Qəbələdə, Lənkəranda və başqa regionlarda müasir peşə mərkəzləri tikilir və modernləşdirilir. Avropa İttifaqı, GIZ (Almaniya), BMTİP, KOICA (Cənubi Koreya)




**Şəkil 8.** Azərbaycanda peşə təhsili müəssisələrinə qəbul olunan və bitirənlərin tələbələrin sayı, (nəfər) [3].

və Türkiyə ilə beynəlxalq tərəfdaşlıq fəal şəkildə inkişaf edir. Bu islahatlar köhnəlmiş, nəzəriyyəyə əsaslanan tədris modelindən praktik yönümlü peşə hazırlığı sisteminə keçid üçün möhkəm bir əsas yaradır.

Qarabağ bölgəsində orta ixtisas təhsili müəssisələrinin açılması strateji əhəmiyyət daşıyan bir addımdır. Düzgün şəkildə həyata keçirildiyi təqdirdə, bu proses regionun inkişafının hərəkətverici qüvvəsinə çevrilə, əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanmasını, əhalinin bölgəyə qayıdışını və məskunlaşmasını təmin edə bilər. Lakin bu təşəbbüsün uğuru infrastrukturun keyfiyyətindən, iqtisadi əlaqələrin səmərəliliyindən, təhsil proqramlarının dayanıqlılığından və sosial kontekstə göstərilən diqqətdən asılı olacaq. Mənbələrin məlumatına görə, Qarabağ bölgəsində azı səkkiz orta ixtisas təhsili müəssisəsinin tikintisi nəzərdə tutulub. Məsələn, Füzuli şəhərində 850 şagird yerlik orta ixtisas təhsili müəssisəsi, 34 emalatxana, 100 çarpayılıq yataqxana tikilir.

Bu qurumların yaradılması zamanı regionun xüsusiyyətləri nəzərə alınır (məsələn, "yaşıl enerji", memarlıq abidələrinin bərpası, bədii tikmə sahələri üzrə təlimlər).

Qarabağ regionunda peşə təhsilinin inkişaf perspektivləri bölgənin kadr potensialının gücləndirilməsinə, iqtisadi profilə uyğun ixtisaslı mütəxəssislərin hazırlanmasına, bölgəyə qayıdan əhali üçün onun cəlbediciliyinin artırılmasına, milli və beynəlxalq təhsil sisteminə inteqrasiyasına, həmçinin davamlı inkişaf və modernləşmə proseslərinə mühüm töhfə verəcəkdir [1].

Beləliklə, Azərbaycanda peşə təhsili tədricən insan potensialına formalaşdırılmasına, innovativ iqtisadiyyatın və sosial davamlılığın təmin edilməsinə yönəlmiş davamlı inkişafın strateji alətinə çevrilir. Əsas perspektiv ondan ibarətdir ki, ölkə "keçmişin peşə məktəbi" modelindən "gələcəyin təhsili" sisteminə - çevik, müasir, kompetensiyalara və regionların inkişafına yönəlmiş bir modelə keçid edir. Peşə təhsili ali məktəbə daxil ola bilməyənlər üçün "ehtiyat seçim" deyil, real karyera imkanları və ölkə iqtisadiyyatına töhfə verən bərabər dəyərli alternativ kimi formalaşmalıdır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı "Azəbaycan 2030: sosial-iqtisadi inkişafa" dair Milli Prioritetlər.
2. "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 869 nömrəli Fərmanı . Bakı şəhəri, 20 aprel 2016-ci il
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Təhsil, Peşə təhsili müəssisələri. https://www.stat.gov.az/
4. 2016-2020 İllər üçün Birləşmiş millətlər təşkilati - Azərbaycan tərəfdaşliq çərçivəsi sənədi. İllik Hesabat 2019, 12-18 s.
5. Ələkbərov U.K. Azərbaycan Respublikası və keçmiş SSRİ ölkələrində davamlı inklüziv inkişaf: müqaisəli təhlil. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal (İSSN 2309-1347), 2020, № 1 (69), s. 123-138.
6. Алакбаров У.Л. Устойчивое инклюзивное развитие Азербайджана: значение кадрового потенциала. Ж. «Государственная служба» (ISSN 2070-8378, E-ISSN 2500-4344), 2019, т. 21, № 5, с. 6-11.
7. Преобразование нашего мира: повестка дня в области устойчивого развития на период до 2030 года. Резолюция Генеральной Ассамблеи ООН от 25 сентября 2015 года.
8. Гурбанова И. М. Развитие профессионального образования и его влияние на занятость в Азербайджане // Вестник Челябинского государственного университета. 2022. № 6 (464). С. 197–205. doi: 10.47475/1994-2796-2022-10620
9. The Human Capital Index: Human Capital Project URL: https://www.worldbank.org/en/publication/human-capital
10. Human Development Report 2023-24, March 13, 2024, s. 27-29
11. UNESCO. 2024. Global Education Monitoring Report 2024/5: Leadership in education – Lead for learning. Paris, UNESCO.


***Açar sözlər:*** *insan inkişafı əmsalı, peşə təhsili, Davamlı inkişaf məqsədləri, təhsil səviyyəsi, tarixi mərhələlər*

**Nurida Mustafayeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Sustainable Development, Associate Professor, Ph.D. in Biological Sciences*

# THE ROLE OF VOCATIONAL EDUCATION IN THE DEVELOPMENT OF HUMAN POTENTIAL IN THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

This article examines a number of important issues related to the modernization and improvement of the vocational education system in Azerbaijan in the context of sustainable human development. To this end, it analyzes the historical stages of vocational education development, the formation of professional and practical skills necessary for performing specific job functions, and the successful integration of graduates into the labor market. It is important to note that vocational education is viewed as a factor in expanding human potential, social mobility, and individual opportunities in society. The article also reflects the key provisions of state policy for attracting young people to vocational education and employment in the regions, particularly in the liberated territories of Azerbaijan.

***Keywords:*** *human development index, vocational education, Sustainable Development Goals, educational level, historical stages*

**Нурида Мустафаева**

*Доцент кафедры Устойчивого развития*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по биологии*

# РОЛЬ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ В РАЗВИТИИ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

## РЕЗЮМЕ

В статье рассматривается ряд важных вопросов модернизации и улучшения системы профессионального образования в Азербайджане в контексте устойчивого человеческого развития. С этой целью анализируются исторические этапы развития профессионального образования, формирование профессиональных и практических навыков, необходимых для выполнения конкретных трудовых функций и успешной интеграции выпускников в рынок труда. Необходимо отметить, что профессиональное образование рассматривается как фактор расширения человеческого потенциала, социальной мобильности и возможностей человека в обществе. В статье также отражены основные положения государственной политики по привлечению молодёжи к профессиональному образованию и трудоустройству в регионах, в частности на освобождённых территориях Азербайджана.

***Ключевые слова:*** *индекс развития человеческого потенциала, профессиональное образование, Цели устойчивого развития, уровень образования, исторические этапы*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.024

D A V A M L I  İ N K İ Ş A F  S İ Y A S Ə T İ
S U S T A I N A B L E  D E V E L O P M E N T  P O L I C Y

UOT 328; 342.5; 351/354

**ÜLFƏT MEHDİYEV**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
Davamlı inkişaf kafedrasının baş müəllimi,
siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: ulfat_mehdiyev@yahoo.com*

# İQTİSADİ İNKİŞAF STRATEGİYALARINDA İNSAN POTENSİALININ TƏKRAR İSTEHSALI: MÜQAYİSƏLİ TƏHLİL

Bu gün insan potensialının oxşar yüksək qiymətləndirilməsinə və eyni zamanda, müxtəlif iqtisadi inkişaf göstəricilərinə malik ölkələr qruplarının olması insan potensialı konsepsiyasının artıq öyrənilmiş aspektlərinin daha dərindən araşdırılması üçün əsas şərt kimi çıxış edir. İqtisadi artım üçün insan potensialının reallaşdırılması şərtlərinin öyrənilməsi elmi ədəbiyyatda əsasən diqqətdən kənarda qalır. Tədqiqatın məqsədi texnoloji və elmi tərəqqi baxımından lider olan ölkələrdə uzunmüddətli inkişaf strategiyası vasitəsilə insan potensialının təkrar istehsalı üzrə dövlət siyasətinin qurulmasının xüsusiyyətlərini müəyyən etməkdir. Bunun üçün insan potensialına ümumi qiymət vermək, elmi-tədqiqat və təkmilləşdirməni stimullaşdırmaq üçün dövlət siyasəti tədbirlərini öyrənmək, uzunmüddətli iqtisadi artım, əhalinin təhsili və dövlət idarəçiliyinin keyfiyyəti arasında əlaqəni qiymətləndirmək, müasir şəraitdə təkrar istehsal sisteminin qurulması və insan potensialının reallaşdırılması məqsədilə dövlətlərin strategiyalarını öyrənmək lazımdır. İnsan potensialı çox vaxt əhalinin təhsil səviyyəsi ilə müəyyən edilir. İnnovativ iqtisadiyyatın inkişafı şəraitində elm təhsil komponentinin potensialının reallaşdırılmasında ən mühüm mərhələyə çevrilir. Göstərilmişdir ki, nəticədə bütövlükdə əhalinin təhsil səviyyəsinin yüksəldilməsi daha keyfiyyətli və qənaətbəxş dövlət siyasətinin həyata keçirilməsinə gətirib çıxarır.

Müasir dünyada təhsil sistemi, dövlətin təhsil siyasəti ölkənin inkişaf səviyyəsini göstərən ən vacib amillərdəndir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi tərəqqisində təhsildə aparılan islahatlar, təhsildə yeniliklər önəmli yer tutur. Çünki təhsil sistemində aparılan islahatlar, sınaqdan çıxmış və müsbət nəticə verən üsulların tətbiqi, uğurlu təhsil siyasəti bütün sahələri daha da inkişafa aparır və bu, ölkənin müasir dünyada hərtərəfli nüfuzunun artmasına şərait yaradır. Müasir çağırışlara və tələblərə uyğun olaraq, ölkənin təhsil və elm siyasətində islahatların aparılması, mütərəqqi layihələrin hazırlanması, təhsildə inteqrasiya meyillərinin müşahidə olunması amilləri təhsilin, elmi tədqiqatların və onların təsir etdiyi bütün sahələrin tərəqqisi üçün vacibdir və bu proses qloballaşma şərtlərində baş verir.

Qloballaşmanın şərtlərinə uyğun olaraq, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədilə təhsildə önəmli addımlar atılır və əsas hədəflər müəyyənləşir. Ölkənin inkişafını şərtləndirən birinci amil iqtisadi

sahədə yüksəlişdir ki, bunun da əsasında dayanan vacib faktorlardan biri ölkənin yüksək təhsilli, bacarıqlı işçi qüvvəsidir. Təhsil və elm sistemi həm maddi, həm də mənəvi istehsala təsir göstərir, cəmiyyətin əsas işçi qüvvəsini formalaşdırır. Sosial-iqtisadi sferada həm kəmiyyət, həm də keyfiyyət baxımından görünən müsbət dəyişikliklər birbaşa olaraq insan resurslarının inkişafı, cəmiyyətin intellektual potensialı, təhsil ilə bağlıdır. Buna görə də elm və təhsil dövlət siyasətinin sosial-iqtisadi kontekstdə əsas prioritet istiqamətlərindən biridir.

Dövlət siyasətinin təhsil prioritetlərindən biri insan potensialının inkişaf etdirilməsidir. Təhsil sosial-iqtisadi inkişafın başlıca meyarı kimi insan potensialını formalaşdıran əsas amildir. Həm mərkəzdə, həm də regionlarda təhsilə və elmə ayrılan vəsait insan kapitalının formalaşması və inkişafı çərçivəsində keyfiyyət göstəricilərinin yüksəlməsinə xidmət edir. Bu gün Azərbaycanda təhsil siyasətinin hədəfləri olduqca genişdir. Qarabağa Böyük Qayıdışın sevincini yaşayan Azərbaycanda təhsil siyasətinin qarşıya qoyduğu əsas məqsədlərdən biri işğaldan azad olunmuş ərazilərdə təhsil infrastrukturunun qurulmasıdır. İnsan potensialının inkişaf etdirilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin azad edilmiş ərazilərə cəlb olunması və müasir innovasiyalar məkanına çevrilməsi istiqamətində sürətli işlər həyata keçirilir.

İnsan potensialı konsepsiyasının əvvəllər araşdırılmış aspektlərinin daha dərindən öyrənilməsi üçün əsas şərt ondan ibarət idi ki, bu gün eyni dərəcədə yüksək insan potensialına malik, lakin iqtisadi inkişaf göstəriciləri fərqli olan ölkələr qrupları mövcuddur. İqtisadi artım üçün insan potensialının reallaşdırılması şərtlərinin öyrənilməsi elmi ədəbiyyatda böyük ölçüdə diqqətdən kənarda qalmışdır.

Bu tədqiqatın məqsədi texnoloji və elmi tərəqqidə lider olan ölkələrdə uzunmüddətli inkişaf strategiyaları vasitəsilə insan potensialının təkrar istehsalı üzrə dövlət siyasətinin spesifik xüsusiyyətlərini müəyyən etməkdir. Bunun üçün insan potensialının ümumi qiymətləndirilməsi, elmi-tədqiqat və təkmilləşdirmənin stimullaşdırılması üzrə dövlət siyasəti tədbirlərinin araşdırılması, uzunmüddətli iqtisadi artım, əhalinin təhsili və dövlət idarəçiliyinin keyfiyyəti arasında əlaqənin qiymətləndirilməsi, müasir şəraitdə insan potensialının təkrar istehsalı və reallaşdırılması sisteminin qurulması üzrə dövlət strategiyalarının öyrənilməsi tələb olunur. Tədqiqat subsidiyaları və vergi güzəştləri vasitəsilə tələbin sadəcə stimullaşdırılması onun kəmiyyət və keyfiyyətini artırmadan tədqiqat xərclərinin artmasına səbəb ola bilər.

İnsan potensialı çox vaxt əhalinin təhsil səviyyəsi ilə müəyyən edilir. İnnovativ iqtisadiyyatın inkişafı şəraitində elm bu potensialın təhsil komponentinin reallaşdırılmasında həlledici addıma çevrilir. Ölkələr tez-tez təhsil sisteminin vaxtında inkişafı (ilk növbədə texniki), infrastruktura (universitetlər, binalar, laboratoriyalar, logistika) sərmayə qoyuluşu, elmi karyeranın təşviqi, yüksəkixtisaslı kadrların axınının asanlaşdırılması və s. kimi təchizat siyasətinin əhəmiyyətini nəzərdən qaçırırlar. Nəticədə əhalinin ümumi təhsil səviyyəsinin yüksəldilməsi daha keyfiyyətli və səmərəli dövlət siyasətinin həyata keçirilməsinə gətirib çıxarır. Əsas strateji sənədlərin təhlili uzunmüddətli iqtisadi artıma can atan ölkələr üçün bir sıra aktual problemləri üzə çıxardı: təkrar istehsalın komponentləri ilə insan potensialının reallaşdırılması arasında əlaqənin olmaması dövlət idarəçiliyinin səmərəliliyinin aşağı düşməsinə səbəb oldu. Uzunmüddətli inkişaf strategiyalarının mərkəzində insan potensialını yerləşdirən Yaponiya və Cənubi Koreya tədqiq olunan ölkələr arasında istisnadır.

İnsan amili iqtisadi artımı şərtləndirən inkişafın mühüm elementidir. Bununla belə, empirik tədqiqatlar bir neçə səbəbə görə ölkənin insan potensialının qəti qiymətləndirilməsini təmin etmək üçün mübarizə aparır: müəyyən etmək (həm mikro, həm də makro səviyyədə) və insan potensialını qiymətləndirmək üçün vahid yanaşmanın olmaması; endogen amillərin olması; ölkələrarası və

regionlararası müqayisələrin çətinliyi və s. Buna baxmayaraq, aydındır ki, ölkənin insan potensialı əhəmiyyətli dərəcədə əhalinin təhsil səviyyəsi ilə formalaşır, çünki bu, sonradan bütün iqtisadi fəaliyyətə təsir göstərir. İnsan potensialının təkrar istehsalı sistemi təkcə təhsil siyasəti baxımından deyil, həm də onun həyata keçirildiyi şərait baxımından maraq doğurur.

Bu araşdırma tənzimləyici mühitin iqtisadi artıma təsiri ilə bağlı bir sıra tədqiqatlarda təqdim olunan nəticələrə əsaslanır. E. Hanushek və L. Woessmann belə nəticəyə gəldilər ki, institusional və tənzimləyici şərtlər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında və ya əvvəlki ölkələr daxilində uzunmüddətli artımdakı fərqləri izah edə bilməz [1]. İstər sənaye məhsuldarlığına təsir edən məhsul bazarının, istərsə də əmək bazarının tənzimlənməsinin uzunmüddətli iqtisadi artımdakı dəyişikliklərlə əlaqəli olduğu aşkar edilməmişdir. Əksinə, ölkənin toplanmış insan potensialının keyfiyyəti bu fərqləri izah edən əsas amil kimi ortaya çıxır.

İnsan potensialı konsepsiyasının tədqiq olunan aspektlərinə marağın əsas şərti o idi ki, bu gün eyni dərəcədə yüksək insan potensialı ballarına və eyni zamanda, müxtəlif iqtisadi inkişaf göstəricilərinə malik ölkələr qrupları mövcuddur. Dördüncü Sənaye İnqilabı dövründə uzunmüddətli iqtisadi siyasətin işlənib hazırlanması üçün insan potensialının təkcə formalaşması deyil, həm də reallaşdırılması şərtlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

İnnovasiyalar vasitəsilə iqtisadi inkişafın sürətləndirilməsinə yönəlmiş müasir dövlət siyasəti innovativ fəaliyyətin nəticələrinə tələbi stimullaşdırmaq üçün alətlərdən fəal şəkildə istifadə edir (cədvəl 1). Vergi güzəştləri və hökumətin elmi-tədqiqat və inkişaf qrantları kimi dövlət dəstəyi tədbirləri elmi tədqiqatların aparılması üçün özəl sektorun stimullaşdırılmasında öz effektivliyini nümayiş etdirdi. Bu mövzuda mikro səviyyədə tədqiqat sənədləri insan potensialının bərpası və reallaşdırılması siyasətlərinə həsr olunmuş tədqiqatlardan daha çox yayılmışdır [2]. Elmi-texniki inqilab (ETİ) subsidiyaları və vergi güzəştləri vasitəsilə tələbin sadəcə stimullaşdırılması onun kəmiyyət və keyfiyyətini artırmadan tədqiqat xərclərinin artmasına səbəb ola bilər. XXI əsrin əvvəllərində P.Romer ABŞ-ın son 20 ildəki innovasiya siyasətini araşdıraraq alim və mühəndislər üçün təchizat siyasətinin üstünlükləri haqqında yazmışdı [3]. Bu gün bir çox inkişaf etmiş ölkələrdə, o cümlədən, ABŞ-də dövlət milli təhsil sisteminin subsidiyaların effektiv olması üçün zəruri olan müvafiq mütəxəssislərlə təminat səviyyəsini təmin edib-etmədiyini həll etmədən tələbi aktiv şəkildə subsidiyalaşdırır. Nəticədə elmi və texnoloji inkişafın sürətini artırmaq üçün nəzərdə tutulan innovasiya siyasətləri çox vaxt olduqca az müsbət təsir göstərir [4].

**Cədvəl 1.**

Tələb tərəfdən innovasiya fəaliyyətinə dövlət dəstəyinin göstərilməsi formaları

| **Tənzimləmə** | **İnnovasiyaya tələb** | **Özəl sektora dəstək** |
|---|---|---|
| Çərçivə şərtləri, xüsusi mülkiyyət və əqli mülkiyyət hüquqlarının qorunması.<br>İnnovativ mühitin yaradılması.<br>İnfrastrukturun təmin edilməsi. | Dövlət sifarişləri: innovativ məhsullara tələbin yaradılması.<br>Məqsədli proqramların həyata keçirilməsi. | Subsidiyalar və innovasiya kreditləri.<br>Vergi güzəştləri.<br>İnformasiya dəstəyi.<br>İxrac dəstəyi. |

**Cədvəl 2.**

Təklif tərəfindən innovativ fəaliyyətə dövlət dəstəyinin göstərilməsi formaları

| Təhsil | Elm və universitetlər | Mühit |
|---|---|---|
| Bütün səviyyələrdə əhalinin təhsili.<br>Təbiət elmləri, texnologiya, mühəndislik və riyaziyyat sahələrində ixtisasların inkişafı. | Elmin maliyyələşdirilməsi.<br>Tədqiqat qrantları və müsabiqələri.<br>Universitetlərin və laboratoriyaların inkişafı. | Elmin və elmi karyeranın təşviqi.<br>Kadrların saxlanması.<br>Yüksəkixtisaslı kadrların immiqrasiyasının təşviqi. |

İqtisadi artımı sürətləndirmək üçün, mövzu ilə bağlı elmi nəşrlərdə tez-tez təklif edildiyi kimi, ETİ xərclərinin artırılması kifayət deyil. Yüksək artım templərinə nail olmaq üçün ETİ-yə yatırılan resursların ümumi həcminin artırılması tələb olunur (cədvəl 2). Təchizat dəstəyi təhsil sisteminin inkişafı, müsabiqələr və qrantlar, infrastruktura (universitetlər, binalar, laboratoriyalar, logistika) sərmayə qoyuluşu, elmi karyeranın təşviqi, yüksəkixtisaslı kadrların axınının asanlaşdırılması və s. formasında həyata keçirilir [5; 6]. Beləliklə, insan potensialının təkrar istehsalının stimullaşdırılması innovasiya fəallığının artmasına və innovasiyaların dəyərinin azalmasına səbəb olur. STEM mütəxəssislərinin tədarükünün genişləndirilməsinə yönəlmiş siyasətlər ölkə daxilində potensialın reallaşdırılmasına kömək edən siyasətlərlə birlikdə aparılmalıdır [7].

Bütövlükdə əhalinin təhsil səviyyəsinin yüksəlməsi dövlət siyasətinin daha yaxşı aparılmasına səbəb olur. Ölkələr üzrə dövlət idarəçiliyinin effektivliyinin (vətəndaşların dövlət xidmətlərinin keyfiyyəti, dövlət qulluğu, onun siyasi təzyiqdən müstəqillik dərəcəsi və siyasətin işlənib hazırlanması və həyata keçirilməsinin keyfiyyəti haqqında təsəvvürləri) və insan inkişafı səviyyələrinin müqayisəli təhlili bu göstəricilər arasında korrelyasiya aşkar edir.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əksəriyyətində SWOT təhlili və texnoloji və sosial-iqtisadi inkişafda gələcək tendensiyaların təsviri daxil olmaqla milli innovasiya strategiyaları mövcuddur. Nəticədə ortaya çıxan siyasətlər sübuta və bütün strateji məlumatların toplanması, təhlili və dərk edilməsi kimi sistematik prosesə əsaslanır. Uzunmüddətli inkişaf strategiyalarının tədqiqi göstərdi ki, strateji siyasətin nəticələrini yaxşılaşdırmağa qadir olan tədbirlər kompleksi mövcuddur. Əksinə, dövlət idarəçiliyinin müxtəlif sahələri arasında koordinasiyanın olmaması tətbiq edilən dəstək tədbirlərinin ümumi təsirini xeyli məhdudlaşdırır.

Əhalinin təhsil səviyyəsinin elmi tərəqqiyə və iqtisadi inkişafa gözlənilən təsirinin təsvirinə milli strategiyalarda nadir hallarda rast gəlinir. Əksinə, əks əlaqə ümumidir: müasir milli texnoloji təşəbbüslərin və digər oxşar inkişaf proqramlarının mətnləri hökumətin ölkənin sosial-iqtisadi inkişafında milli ETİ-yə verdiyi rolu aşkar edə bilər (cədvəl 3).

Bəzi ölkələr biznesə dəstək proqramlarına, bəziləri innovasiya üçün çərçivə şərtlərinin yaxşılaşdırılmasına diqqət yetirir, digərləri isə strateji prioritetləri hədəfləyir. Milli iqtisadiyyatlarının innovativ inkişafında liderlik nümayiş etdirən ölkələr ilk növbədə elmi bazaya sərmayə qoymağa diqqət yetirirlər. Strategiyalarda "insan potensialı" və ya "insan kapitalı" terminlərindən nadir hallarda istifadə olunur, lakin onlar insan potensialının onun təkrar istehsalı və reallaşdırılması prosesini əks etdirən əsas komponentlərini – təhsil, elmi və texnoloji sahələri vurğulayır.

Müasir iqtisadi nəzəriyyə insan potensialına ölkələr üçün innovativ inkişafın əsas

**Cədvəl 3.**

Nəzərdə tutulmuş ölkələrin milli strategiyalarının məzmun təhlili

| Ölkə | Milli Strategiya, təsdiq ili | Strategiya mətnində sözün və ya əlaqəli anlayışların qeydlərinin sayı | | | |
|---|---|---|---|---|---|
| | | elm | təhsil | innovasiya | texnologiya |
| ABŞ | A Strategy for American Innovation (2015) | 88 | 57 | 243 | 86 |
| | National Strategy for Advanced Manufacturing (2022) | 46 | 84 | 60 | 111 |
| | Innovation, Equity, and Resilience: Strengthening American Competitiveness in the 21st Century (US Department of Commerce, Strategic Plan 2022-2026) | 17 | 16 | 68 | 65 |
| | National Security Strategy (October 2022) | 5 | 2 | 17 | 41 |
| Yaponiya | Growth Strategy (2017) | 2 | 6 | 5 | 2 |
| | National Strategy on Science, Technology and Innovation (2021) | 310 | 162 | 224 | 320 |
| | Japan Vision 2050 (2005) | 137 | 38 | 4 | 100 |
| Cənubi Koreya | Korean New Deal. National Strategy for a Great Transformation (2020) | 2 | 25 | 26 | 47 |
| | STIP Compass Korea (2024) | 49 | 10 | 62 | 103 |
| | Future of Korea in 2045 Driven by Science and Technology (2022) | 110 | 25 | 236 | 213 |
| Hindistan | The Orissa Socio-Economic Development Program (2005) | 0 | 15 | 2 | 2 |
| | Draft 5th National Science, Technology and Innovation Policy (2020) | 260 | 75 | 166 | 233 |

mənbəyi kimi baxır, onu uzunmüddətli inkişaf siyasətinin mərkəzində yerləşdirir. Bununla belə, bu nəzəri nəticələr çox vaxt praktiki tətbiqdən, o cümlədən, uzunmüddətli inkişaf strategiyalarının formalaşdırılmasından geri qalır.

Çinin rəqabəti, yığılmış insan potensialının çatışmazlığı və bəzi sektorlarda texnoloji geriliklə üzləşən ABŞ texniki sahələrdə məzunların nisbətini artırmağı qarşısına məqsəd qoyaraq, STEM bacarıqları baxımından təhsil sistemini fəal şəkildə təkmilləşdirir. Qeyd edək ki, STEM məzunlarının təxminən 40%-i əcnəbilərdir. Elmi-tədqiqat fəaliyyətinin maliyyələşdirilməsində dünya liderləri olan Yaponiya və Cənubi Koreya qocalmış işçi qüvvəsindən əziyyət çəkir və buna görə də xarici mütəxəssislərin cəlb edilməsinə, robot texnikasına və rəqəmsal texnologiyaların cəmiyyətə inteqrasiyasına diqqət yetirir. Hindistan milli təhsilin keyfiyyətinin aşağı olduğunu və infrastruktur məhdudiyyətlərini əsas gətirərək, 2030-cu ilə qədər 500 milyon mütəxəssis hazırlamağı, texniki universitetlərin sayını və 2020-ci ildən etibarən elmi-tədqiqat və inkişaf büdcəsini 15% artırmağı planlaşdırır [8] (cədvəl 4).

Əsas strateji sənədlərin təhlili uzunmüddətli iqtisadi artıma can atan ölkələr üçün bir

**Cədvəl 4.**

Ölkələr üzrə insan potensialının təkrar istehsalı və reallaşdırılması göstəriciləri

| Ölkə | Tədqiqat və inkişafa xərclənən ÜDM-in %-i | Alimlərin sayı, minlərlə insan | İldə STEM məzunlarının təxmini sayı, minlərlə insan | Texnologiya ixracının payı, % | Sənaye robotlarının sayı, min ədəd |
|---|---|---|---|---|---|
| ABŞ | 3,46 | 4 700 | 800 | 15,8 | 35,6 |
| Yaponiya | 3,2 | 680 | 250 | 18,3 | 47,2 |
| Cənubi Koreya | 4,8 | 350 | 180 | 30,5 | 55,0 |
| Hindistan | 0,7 | 200 | 1500 | 5,2 | 5,0 |

sıra aktual problemləri üzə çıxarıb: insan potensialı innovasiya mənbəyi və iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi qəbul edilmir (diqqət çox vaxt texnologiya və innovasiyaya verilir); insan potensialının çoxalma prosesinin komponentlərinin, ilk növbədə təhsilli olanların inkişafını qiymətləndirmək üçün aydın meyarlar yoxdur; koordinasiya edilmiş uzunmüddətli iqtisadi inkişafın planlaşdırılmasını təmin edən idarələrarası əlaqələr yoxdur və ya inkişaf etməmişdir; elmi və texnoloji strategiyaların həyata keçirilməsi təhsil elementləri ilə əlaqələndirilmir və sənaye strategiyalarının elmi və texnoloji kimi oxşar hədəf göstəriciləri yoxdur. Başqa sözlə, strategiyalar çərçivəsində insan potensialının təkrar istehsalı və reallaşdırılması komponentləri arasında qarşılıqlı əlaqə yoxdur ki, bu da dövlət idarəçiliyinin effektivliyinin azalmasına gətirib çıxarır [9].

Texnologiya ixracı və sənaye robotlarının sayı üzrə lider olan Cənubi Koreya və Yaponiya yaxşı səbəbdən təhlilə daxil edilib: bu ölkələr elmi və texnoloji inkişafda insan potensialının təkrar istehsalına üstünlük verirlər ki, bu da həm dövlətin sosial xərclərinin səviyyəsində, həm də uzunmüddətli inkişaf strategiyalarında öz əksini tapır. Nəticədə bu ölkələrdə İnsan İnkişafı İndeksinin ən yüksək artım tempi qeyd olunur.

Beləliklə, Koreyada insan kapitalının inkişafı 1960-cı illərdə ölkənin sənaye inkişafına başladığı zaman prioritet məsələyə çevrildi. Əvvəllər müzakirə edilən təklifyönlü siyasət fəal şəkildə həyata keçirildi, ixrac mallarına və xidmətlərinə tələbat tərəfindən dəyişdirildi və inkişaf etməkdə olan sənayeyə cavab olaraq ixtisaslı işçi qüvvəsinin artmasına səbəb oldu. Buraya digər məsələlərlə yanaşı, universitetlərin inkişafı da daxil idi: üç universitet dünyanın ən yaxşı 200 universiteti, bir elm və texnologiya institutu kompüter elmləri sahəsində ən yaxşı 100 qurum, altı universitet və institut isə mühəndislik və texnologiya sahəsində ən yaxşı 125 universitet arasında yer aldı [10].

Ölkədə toplanmış insan potensialının kəmiyyət və keyfiyyəti uzunmüddətli iqtisadi artım və inkişafın aparıcı amilinə çevrilir. İnsan potensialının əsas keyfiyyət göstəricisi kimi təhsil daha yaxşı dövlət siyasətinin həyata keçirilməsi ilə sıx əlaqələndirilir. Ölkələrin hazırkı iqtisadi və texnoloji inkişaf strategiyalarında insan potensialının təkrar istehsalı və reallaşdırılması komponentləri arasında əlaqə yoxdur ki, bu da dövlət idarəçiliyinin effektivliyinin aşağı düşməsinə gətirib çıxarır. Texnoloji yarış və ölkələrin suverenlik istəyi kontekstində ölkə daxilində insan potensialının reallaşdırılmasını dəstəkləməyə yönəlmiş siyasətlərlə birlikdə STEM mütəxəssislərinin təchizatının genişləndirilməsinə yönəlmiş siyasət həyata keçirmək məqsədəuyğundur.

**Ədəbiyyat:**


1. Hanushek E.A., Woessmann L. (2015) The Knowledge Capital of Nations: Education and the Economics of Growth. Cambridge, MA: MIT Press.
2. Ufuk A., Stantcheva S. (2020) Taxation and Innovation: What Do We Know? NBER Working Paper No. 27109. URL: https://www.nber.org/papers/w27109
3. Romer P.M. (2001) Should the Government Subsidize Supply or Demand in the Market for Scientists and Engineers? In: Jaffe A., Lerner J., Stern S. (eds.) Innovation Policy and the Economy, vol. 1. Cambridge, MA: MIT Press. P. 221-252.
4. Castle S.D., Byrd W.C., Koester B.P. et al. (2024) Systemic Advantage Has a Meaningful Relationship with Grade Outcomes in Students' Early STEM Courses at Six Research Universities. International Journal of STEM Education. Vol. 11. DOI: 10.1186/s40594-024-00474-7
5. Guenther G. (2015) Research Tax Credit: Current Law and Policy Issues for the 114th Congress. Congressional Research Service. 2015. URL: https://nationalaglawcenter.org/wp-content/uploads/assets/crs/RL31181.pdf
6. Warwick K. (2013) Beyond Industrial Policy: Emerging Issues and New Trends. OECD Science, Technology and Industry Policy Papers. No. 2. URL: https://www.oecd.org/en/publications/beyond-industrial-policy 5k4869clw0xp-en.html
7. OECD Regulatory Policy Outlook 2025 // OECD. URL: https://www.oecd.org/en/publications/2025/04/ oecd-regulatory-policy-outlook-2025 a754bf4c.html
8. A New Production Revolution: Interim Report // NIST. URL: https://www.nist.gov/system/files/documents/2017/02/02/oecd_interim_project_report_the_next_production_revolution.pdf
9. National Education Policy 2020 // Ministry of Education. URL: https://www.education.gov.in/sites/upload_files/mhrd/files/NEP_Final_English_0.pdf
10. Santacreu A.M., Zhu H. (2018) How Did South Korea's Economy Develop So Quickly? St. Louis Fed on the Economy. URL: https://www.stlouisfed.org/on-the-economy/2018/march/how-south-korea-economy-develop-quickly


***Açar sözlər:*** *insan potensialı, insan potensialının təkrar istehsalı, insan inkişafı, təhsil, ölkələrarası təhlil, iqtisadi inkişaf, dövlət idarəçiliyi*

**Ulfat Mehdiyev**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. in Political Sciences*

## REPRODUCTION OF HUMAN POTENTIAL IN ECONOMIC DEVELOPMENT STRATEGIES: A COMPARATIVE ANALYSIS

### ABSTRACT

The fact that today there are groups of countries with similar high estimates of human potential and at the same time different indicators of economic development served as the main prerequisite for a deeper study of the already studied aspects of the concept of human potential. The study of conditions for the realization of human potential for economic growth is largely ignored in the

scientific literature. The purpose of the research is to identify the features of the construction of the public policy on the reproduction of human potential through the strategy of long-term development in countries leading in terms of technological and scientific progress. For this, it is necessary to give a general assessment of human potential, to study measures of state policy to stimulate R&D, to assess the relationship between long-term economic growth, the education of the population and the quality of public administration, to study the strategies of states for the purpose of building a reproduction system and realizing human potential in modern conditions. Human potential is often determined by the level of education of the population. In the conditions of development of an innovative economy, science becomes the most important stage in the realization of the potential of the educational component. It was shown that, as a result, the growth of the education of the population as a whole lead to the implementation of a higher quality and satisfactory state policy.

***Keywords:*** *human potential, reproduction of human potential, human development, education, cross-country analysis, economic development, public administration*

**Ульфат Мехтиев**
*Старший преподаватель кафедры Устойчивого развития*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

## ВОСПРОИЗВЕДЕНИЕ ЧЕЛОВЕЧЕСКОГО ПОТЕНЦИАЛА В СТРАТЕГИЯХ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

### РЕЗЮМЕ

Тот факт, что сегодня существуют группы стран со схожими высокими оценками человеческого потенциала и одновременно разными показателями экономического развития, послужил основной предпосылкой для более глубокого изучения уже изученных аспектов концепции человеческого потенциала. Изучение условий реализации человеческого потенциала для экономического роста в значительной степени игнорируется в научной литературе. Целью исследования является выявление особенностей построения государственной политики по воспроизводству человеческого потенциала через стратегию долгосрочного развития в странах-лидерах по уровню технологического и научного прогресса. Для этого необходимо дать общую оценку человеческого потенциала, изучить меры государственной политики по стимулированию НИОКР, оценить взаимосвязь между долгосрочным экономическим ростом, образованием населения и качеством государственного управления, изучить стратегии государств в целях построения системы воспроизводства и реализации человеческого потенциала в современных условиях. Человеческий потенциал часто определяется уровнем образования населения. В условиях развития инновационной экономики наука становится важнейшим этапом реализации потенциала образовательной составляющей. Показано, что в результате рост образованности населения в целом приводит к реализации более качественной и удовлетворительной государственной политики.

***Ключевые слова:*** *человеческий потенциал, воспроизводство человеческого потенциала, развитие человеческого потенциала, образование, межстрановой анализ, экономическое развитие, государственное управление*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.028

S İ Y A S İ N Ə Z Ə R İ Y Y Ə
P O L I T I C A L T H E O R Y

UOT 32:001.8; 32:303.8

**SEVİL MƏMMƏDOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının professoru, siyasi elmlər doktoru**
*e-mail:smammedova10@rambler.ru*

# SİYASƏTDƏ ŞƏBƏKƏ YANAŞMASI SİYASİ TƏDQİQATLARDA METODOLOGİYA KİMİ

## Giriş

Son onilliklər sosial münasibətlərin, siyasi reallığın sürətli mürəkkəbləşməsi ilə xarakterizə olunur. Siyasi proseslər artıq ciddi iyerarxik şəkildə baş vermir, hakimiyyət daha çox dövlət və qeyri-dövlət aktorları arasında çevik qarşılıqlı əlaqə strukturları formasında fəaliyyət göstərir. Bütün bunlar sosial-siyasi elmlərin yeni metodoloji yanaşmalar axtarışını şərtləndirmişdir. Belə metodoloji yanaşmalardan birini keçən əsrin 70-ci illərindən başlayaraq formalaşıb inkişaf edən şəbəkə yanaşması təşkil edir.

Tədqiqatçılar şəbəkələrin siyasətin öyrənilməsi üçün çox əhəmiyyətli olduğunu və mikro- və makro- səviyyələr arasındakı boşluğu aradan qaldıra biləcəyini iddia edirlər. Siyasətdə şəbəkə konsepsiyası klassik sistemli yanaşmanı xeyli tamamlayaraq, dövlət və qeyri-dövlət aktorları arasındakı qarşılıqlı münasibətlərin öyrənilməsi üçün yeni alətlər təqdim edir, siyasi proseslərin riyazi və kompüter modellərinin qurulmasında metodoloji əsaslardan birini təşkil edir. Bu baxımdan şəbəkə yanaşması (network approach) müasir siyasi elmin inkişafının əsas istiqamətlərindən birinə çevrilmişdir. Şəbəkə paradiqması siyasi münasibətlərin ayrı-ayrı obyektlərinin (fərdlər, institutlar, təşkilatlar) məcmusu kimi deyil, onların aralarındakı davamlı qarşılıqlı əlaqələrin strukturu kimi öyrənilməsinə imkan verir. Bu isə xüsusilə siyasi elitaların, səfərbərlik mexanizmlərinin, transmilli əlaqələrin, rəqəmsal siyasətin və qərar qəbuletmə proseslərinin təhlilində tələb olunur. Müasir siyasi transformasiyalar şəraitində şəbəkə metodologiyası sosial-siyasi proseslərin mürəkkəbliyini dövlət və cəmiyyət, eləcə də qarşılıqlı münasibətlərin yeni xarakterini əhatə etmək imkanına malikdir. Tədqiqatçılar şəbəkələrin siyasəti öyrənmək üçün çox vacib olduğunu və mikro- və makro- səviyyələr arasındakı boşluğu aradan qaldıra biləcəyini təsdiq edirlər. Qeyd edək ki, şəbəkə yanaşması bir sıra Azərbaycan tədqiqatçılarının əsərlərində də analiz predmetinə çevrilmişdir. Bu baxımdan şəbəkə yanaşmasının müxtəlif səviyyələrdə siyasətin, siyasi proseslərin araşdırılmasında, eləcə də müqayisəli politoloji tədqiqatlarda istifadə olunması xüsusi əhəmiyyət kəsb edir.

Bütün bunlar şəbəkə yanaşmasının nəzəri əsaslarının təhlil edilməsi, onun metodologiya kimi politoloji tədqiqatlarda tətbiqi imkanlarının, o cümlədən siyasi sistemlərin, dövlət idarəetməsinin və beynəlxalq qarşılıqlı əlaqələrin müqayisəli tədqiqatlarında potensialının açılıb göstərilməsini zəruri edir və təqdim olunan məqalənin aktual problemə həsr olunduğunu göstərir.

## Şəbəkə yanaşmasının mahiyyəti və yaranması mərhələləri

Şəbəkə yanaşması müasir cəmiyyətdə getdikcə daha da mürəkkəbləşən sosial münasibətlərin öyrənilməsinə tətbiq olunan yeni metodoloji yanaşmalardan birini təşkil edir. Fənlərarası elmi istiqamət olan bu yanaşmanın əsasında sosial subyektlərin (aktorların) və müəyyən sosial münasibətlər əsasında onlar arasında formalaşmış əlaqələrin məcmusu kimi izah edilən “sosial şəbəkə” anlayışı dayanır. Bu əlaqələr və münasibətlərin yaratdıqları şəbəkə strukturlarının aktorların davranışına təsirinin öyrənilməsi şəbəkə yanaşmasının mahiyyətini təşkil edir [9]. Şəbəkə yanaşması qarşılıqlı fəaliyyət göstərən dövlət institutları, siyasi partiyalar, QHT-lər, biznes strukturları, beynəlxalq təşkilatlar, ekspert və media birlikləri, fərdi siyasi liderlər kimi aktorların dinamik şəbəkəsi olaraq fəaliyyət göstərməsindən çıxış edir. Başlıcası odur ki, siyasi proseslərin əsasında aktorların fərdi xüsusiyyətləri deyil, onların qarşılıqlı əlaqələri dayanır.

Şəbəkə yanaşması sosiologiya, antropologiya, riyazi nəzəriyyə və siyasi elmin kəsişməsində yaranmışdır. Tarixən onun formalaşması yerli icmalardakı sosial münasibətləri təsvir etmək üçün ilk dəfə şəbəkə metaforasından istifadə edən C.Barnesin, C. Mitchellin, C.Boutmanın və b. əsərləri ilə əlaqələndirilir [12, 14].

İlk dəfə olaraq şəbəkə yanaşmasından əsasən antropoloqların tədqiqatlarında və iqtisadiyyatda istifadə olunmuşdur. Hələ 1940-cı ildə antropoloq A.Redkliff-Braun qeyd etmişdir ki, istənilən insan birliklərinin, icmalarının öyrənilməsi üçün onları təkcə iqtisadi sistem kimi deyil, onları həm də aktorlar və qruplar arasındakı qarşılıqlı münasibətlər məcmusu nöqteyi-nəzərindən də nəzərdən keçirmək zəruridir. Bununla da o, birliyin (icmanın) sosial strukturunu sosial münasibətlər şəbəkəsi ilə eyniləşdirmiş, cəmiyyəti ictimai münasibətlərin mürəkkəb şəbəkəsi kimi nəzərdən keçirməyi təklif etmişdir [8, s.50]. Antropologiyada şəbəkə yanaşmasının inkişafına töhfə verən digər tədqiqatçı Çeremi Buasveyn bu yanaşmanın aktuallığını on amil ilə əsaslandırmışdır: şəbəkə analizində xüsusi diqqət şəbəkə elementlərinin qarşılıqlı əlaqələrinə ayrılır; elementlərin münasibətlərinə fokuslanmada onların qarşılıqlı asılılığına diqqət verilir; əlaqələrin məzmunu statusa və resurslar miqdarına görə fərqli şəbəkə aktorlarının münasibətlərini nəzərdən keçirməyə imkan verir; şəbəkə analizi münasibətlər dinamikasını sosial assimmetriya çərçivəsində nəzərdən keçirir və s. [14].

Digər əlaqəli elm sahələrində də şəbəkə yanaşması metodologiyası maraq doğurmaqla, 1990-cı illərin əvvəlində aktuallığı artmışdır ki, bu da ümumdünya proseslərinin qloballaşması ilə və ilk növbədə şəbəkələşmə ilə əlaqələndirilirdi. Şəbəkə yanaşmasına əsas dönüş internet şəbəkəsi sayəsində baş vermiş, onun yayılması və inkişafı birliklərin (icmaların) sosial qarşılıqlı əlaqələri nümunələrini əyani şəkildə əks etdirmişdir. Məhz həmin dövrdə şəbəkə yanaşması humanitar yönümlü tədqiqatlar arsenalına daxil olmuş politologiyada bu yanaşma siyasi prosesləri qarşılıqlı əlaqələr: əvvəllər nəzərə alınmayan amilləri və xüsusiyyətlərindən istifadə etməklə araşdırılması və proqnozlaşdırılmasına imkan verdi.

Şəbəkə yanaşması ictimai elmlərdə qəbul olunan metodologiya kimi Harrison Uayt tərəfindən işlənilmişdir. Belə ki, şəbəkə analitik kateqoriya kimi H.Uaytın əsərləri və onun rəhbərliyi altında 1970-ci illərdə Harvard şəbəkə analizi məktəbinin (1960-1980-ci illər) yaranması ilə formalaşmışdır. H.Uayt tərəfindən sosial həyatın davamlı qarşılıqlı təsir nümunələri ilə formalaşan “mövqelər” (positions) sistemi kimi nəzərdən keçirilməsi təklif edilmiş, təhlilin mərkəzinə fərdlərin xüsusiyyətləri deyil, onların əlaqələrinin strukturları qoyulmuşdur. H.Uaytın irəli sürdüyü müddəalar tələbələri M.Qranovetter, R. Burt, B.Uellman və başqaları tərəfindən inkişaf etdirilmiş, onun rəhbərliyi ilə 1990-cı illərdən mərkəz kimi yaradılmış “Nyu-York Relational

sosiologiya məktəbi" hal-hazıradək fəaliyyət göstərərək yeni elmi tədqiqat dalğaları yaratmaqda davam edir [22].

Beləliklə, şəbəkə yanaşmasının inkişafında onun 1970-80-ci illərdə xüsusi istiqamət kimi sosiologiyada, tədricən isə politologiyada, əvvəl Böyük Britaniyada, sonra ABŞ və Almaniyada tətbiqi dövrünü birinci mərhələ kimi göstərmək olar. Bu dövrdə "sosial şəbəkə" anlayışına siyasi sistemin müxtəlif səviyyələrində baş verən siyasi münasibətlərin öyrənilməsi aləti kimi baxılmağa başladı, aparılan tədqiqatlar əsasında sosial təşkilin şəbəkə formasının üstünlüyü haqqında ideya dayanırdı. Daha çox diqqət kəmiyyət metodları əsasında siyasi aktorların arasındakı qarşılıqlı münasibətlər şəbəkəsinin öyrənilməsinə verilirdi. İkinci mərhələdə (1990-cu illər) sosiologiyada müasir icmanın əsas forması kimi "şəbəkə cəmiyyəti" konsepsiyası formalaşır, bu cəmiyyətdə sosial əlaqələr başlıcası olaraq kompüter informasiya şəbəkələrində kommunikasiya yolu ilə formalaşır və bu zaman lokallıq, birliyin (icmanın) formalaşması amili kimi öz əhəmiyyətini itirir. Politologiyada isə dövlət və ictimai siyasətin izlənilməsi prosesinə cəlb olunmuş maraq qruplarının qarşılıqlı əlaqələri forması kimi siyasi şəbəkə (policy network) anlayışı formalaşır. Bu dövlət və ictimai siyasətin işlənilməsi prosesinə cəlb olunmuş maraq qruplarının qarşılıqlı əlaqələri forması kimi mərhələdə siyasi şəbəkələr postmodern dövrünə səciyyəvi olan dövlət idarəçiliyinin yeni təşkili forması kimi xarakterizə olunurlar. Yeni idarəçilik strukturunun daha vacib tərəflərinə iyerarxiyalaşmadan imtina, üfuqi əlaqələrin inkişaf etdirilməsi, qarşılıqlı əlaqələrə əsaslanan əməkdaşlıq aid edilir. Şəbəkə yanaşmasının inkişafının üçüncü mərhələsində (2000-ci illər) şəbəkə "rəhbərliyi" konsepsiyası və yeni dövlət menecmenti nəzəriyyəsinin sintezi kimi formalaşmışdır və burada xüsusi diqqət ictimai (dövlət) qərarlarının qəbul edilməsində ictimai təsirlərə ayrılır. "Rəhbərlik", bir tərəfdən, siyasi qərarlar qəbul etmək üçün hökumət və qeyri-hökumət təşkilatları arasında münasibətlərin qurulması prosesidir. Digər tərəfdən isə, "rəhbərlik" elə bir konsepsiyadır ki, burada diqqət idarəçiliyi dövlətin icra funksiyasından daha çox maraq qrupları ilə birgə razılaşdırılmış siyasi qərarın işlənilməsi üzrə prosesdir. Rəhbərlik iyerarxik inzibatçılıqdan və dövlət idarəçiliyinin bazar modelindən də fərqlənir [9].

Şəbəkə yanaşmasının təkamülünü və inkişaf vektorlarını "şəbəkə" anlayışının konseptuallaşması və onun tətbiqinin metodoloji imkanları şərtləndirmişdir. Bu baxımdan "siyasi şəbəkələr" anlayışının nəzərdən keçirilməsi də aktualdır. Sosial elmlərdə "şəbəkə" anlayışı bir-biri ilə rabitə xətləri ilə bağlı olan qarşılıqlı əlaqəli obyektlər məcmusunu qeyd etmək üçün istifadə olunur [5, s. 46].

İ.V.Miroşniçenko siyasi şəbəkələrin bir sıra parametrlərini ayırır:

– siyasi şəbəkə aktorları (fərdi, kollektiv/təşkilati) subyektlərinin xassələri, tələbatları, qabiliyyətləri, maraqları və resursları ilə xarakterizə olunur ki, bu da şəbəkə qarşılıqlı əlaqəsi üçün əsası yaradır;
– siyasi şəbəkələrdə iştirak edən aktorların müəyyən funksiyaları həyata keçirilir (resurslar mübadiləsi; təmsilçilik kanallarına əlçatarlıq; hərəkətlərin müzakirəsi və əlaqələndirilməsi, qalan hallarda bir-birindən asılı olmayaraq; danışıqlar; hərəkətlərin, fəaliyyətin inkişafında, həyata keçirilməsində əməkdaşlıq);
– siyasi şəbəkələrdə strukturlar şəbəkə aktorları arasındakı münasibətlərdə aktorların sayı, münasibətlərin intensivliyi və qarşılıqlığı kimi struktur dəyişənlər əsasında müntəzəmlik sayəsində formalaşır; xarici aləmə münasibətdə yaxınlıq/açıqlıq; qarşılıqlı əlaqənin intensivliyi və möhkəmliyi; qarşılıqlı əlaqənin xarakteri (münaqişə, rəqabət, kooperativ və ya formal/qeyri-formal) və ya siyasi şəbəkələrin koordinasiyası (şaquli, üfüqi);
– siyasi şəbəkələr daxilində qarşılıqlı əlaqələri müəyyənləşdirən və ictimai və ya özəl maraqlara yönəlmiş mürəkkəb daxili mədəniyyətlər yaradan prosedur qaydaları;

– siyasi şəbəkələrdə hakimiyyət mövcud mənbələrdən, xidmətlərdən, koalisiyalardan imtina etmək və ya bağlamaq imkanlarından asılıdır;
– aktorlar siyasi şəbəkələrə münasibətdə və onların daxilində strategiyaları inkişaf etdirə bilərlər [6, s.71-72].

Siyasi şəbəkələrin başa düşülməsinə D.Marş və M.Smitt birgə məqalələrini həsr etmişlər. Həmin məqalədə müəlliflər siyasətin nəticələrinin izahında siyasi şəbəkələrin rolunun mövcud yanaşmaların tənqidi əsasında qurulmuş dialektik modelini təqdim etmiş, bu modelin şəbəkələr və siyasətin nəticələri arasındakı əlaqənin sadə, birölçülü olmadığını göstərdiyini, siyasi şəbəkələrin siyasətin nəticələrinə necə təsir edə bilməsini, eləcə də bunun necə baş verdiyini təsvir etdiyini göstərirlər [17]. Şəbəkə cəmiyyətinin aparıcı tədqiqatçısı Manuel Kastels isə, şəbəkə strukturunun bir-biri ilə əlaqəli qovşaqlar kompleksi olduğunu göstərir, bu zaman şəbəkə qovşağı faktiki olaraq iyerarxik sistemlərdə mərkəzə alternativdir, şəbəkələr isə, kommunikasiyaya qadir olan yeni qovşaqları özünə daxil etmək yolu ilə məhdudiyyətsiz genişlənə bilən açıq strukturlardır [4]. Yəni, bir tərəfdən, şəbəkənin hər hansı bir fraqmenti özünü təmin edir və digərlərindən asılı olmayaraq mövcud ola bilir, digər tərəfdən, müxtəlif konfiqurasiyalı mürəkkəb strukturlara inteqrasiya edir. Müvafiq olaraq, şəbəkə strukturlarının idarə edilməsi prinsipləri əhəmiyyətli dərəcədə dəyişir və burada vahid idarəetmə mərkəzini yüksək dərəcədə özünütəşkil ilə kommunikasiya sistemi əvəz edir.

Siyasi tədqiqatlarda şəbəkənin müxtəlif analitik məqsədlər üçün istifadə olunan konseptual ölçüləri aşağıdakı kimi müəyyən edilir: şəbəkə analitik çərçivə və empirik alət kimi; şəbəkə struktur kimi; şəbəkə idarəetmə forması kimi; şəbəkə siyasətin işlənilməsində dəyişən kimi.

Beləliklə, hazırda şəbəkə strukturları siyasi sahədə geniş yayılmışdır. Dövlət hakimiyyəti orqanları iyerarxik idarəetmə modellərinin aşağı səmərəliliyini dərk edərək, şəbəkə prinsipinə görə qurulurlar. Müasir dövlət idarəçiliyində şəbəkə modeli aktorların qarşılıqlı asılılığını və resurs mübadiləsini təhlil etmək üçün effektiv vasitə kimi çıxış edir. Dövlət və qeyri-dövlət aktorları arasındakı əlaqələr siyasətin formalaşmasına və icrasına birbaşa təsir göstərir. Vətəndaş cəmiyyəti ilə dövlət arasındakı qarşılıqlı əlaqələr də şəbəkə xarakteri alır ki, bu da vətəndaşların siyasi qərarların qəbul etmə prosesinə cəlb olunmasını təmin edir. Siyasi sahənin şəbəkələşməsi informasiya və kommunikasiya texnologiyalarının yayılmasına səbəb olur, bu isə, bir tərəfdən, əhalinin siyasi qərar qəbuletmə prosesinə cəlb etməyə, digər tərəfdən, dövlət orqanlarının öz hərəkətlərinin nəticələrinə görə məsuliyyətini artırmağa imkan verir. Siyasi şəbəkələrin yayılması dövlət və qeyri-dövlət siyasi aktorlarına səmərəli şəkildə resurs mübadiləsi etməyə imkan verir, hakimiyyətin açıqlığını artırır, cəmiyyətin demokratikləşməsinə kömək edir və qərar qəbuletmə prosesini optimallaşdırır [5, s.47].

Ümumiləşdirilmiş şəkildə, qeyd etmək olar ki, siyasi şəbəkələr dövlət orqanları ilə vətəndaş cəmiyyəti strukturları arasında mürəkkəb münasibətlər sistemi kimi başa düşülür. Bu cür şəbəkələr konkret problemlərin həlli üçün yaranır, mənbələr mübadiləsi və tərəflərin bir-birinə qarşılıqlı marağı əsasında qurulur və əhalinin geniş təbəqələrinin siyasi qərarların qəbulu prosesinə cəlb olunmasına kömək edir. Siyasi şəbəkələr həmçinin bərabərhüquqlu aktorlar arasında üfüqi əlaqələrin üstünlük təşkil etməsinə, onların yüksək müqavilə qabiliyyətinə və nəticəyə yönəlməsinə əsaslanan dövlət idarəçiliyinin təşkilinin müasir forması kimi nəzərdən keçirilir.

Şəbəkə nəzəriyyəsinin əsaslandığı müddəalar baxımından orta səviyyəli konsepsiyaya aid edilən bu nəzəriyyədə dövlət idarəçiliyi və müasir cəmiyyət arasındakı münasibətləri yenidən qurmaqla, cəmiyyət və dövlət arasında deyil, idarəçilik strukturları ilə ictimai strukturlar, eləcə də biznes-assosiasiyaları arasın-

dakı münasibətlər açıqlanır. Digər tərəfdən, yeni dövlət menecmenti siyasətə biganəliyini bəyan etsə də, siyasi şəbəkələr nəzəriyyəsi idarəetmə və siyasət arasındakı münasibətləri bərpa edir, dövlət idarəçiliyinə yanaşma mövqeləri baxımından siyasi sahəyə maraq təzahür olunur. Siyasi şəbəkələr konsepsiyası dövlətin siyasətin agenti kimi nəzərdən keçirilməsi istiqamətini dəyişir. Belə ki, birincisi, siyasətin işlənilməsində dövlətin üstün rolu ideyasının əksinə olaraq, şəbəkə yanaşmasında dövlət və onun institutları vacib olsalar da, siyasi qərarların istehsalında aktorlardan biri kimi çıxış edirlər; ikincisi, dövlətin siyasətdə nisbi müstəqilliyi ideyasının əksinə olaraq, siyasi şəbəkələr konsepsiyasında dövlət strukturları siyasətin digər agentləri isə "bağlı" şəkildə onlarla öz resursları ilə mübadilə etmək məcburiyyətində olduqları vəziyyətdə nəzərdən keçirilirlər; üçüncüsü, dövlət idarəçiliyinin iyerarxik təşkil olunmuş sistem olması ideyasına əks olaraq, şəbəkə yanaşması yeni idarəetmə tipini – "rəhbərliyi" (governance) təklif edir ki, onun da ümumi səciyyəsi öz ifadəsini "hökumətsiz idarəetmə" ("governing without government") (yaxud "rəhbərsiz idarəetmə") düsturunda tapır. Şəbəkə nəzəriyyəsində "institut" anlayışı əhəmiyyətli rol oynasa da, lakin onun nəzərdən keçirdiyi başlıca bəndi institutlar deyil, əlaqələr və münasibətlər təşkil edirlər [20].

Bütövlükdə, siyasi şəbəkələr nəzəriyyəsi aktorların siyasi əməkdaşlığının üfüqi təşkili prinsiplərinə əsaslanır. Siyasi şəbəkələr konsepsiyası hakimiyyət mərkəzli siyasəti qarşılıqlı asılılıq və öhdəliklər istiqamətində modifikasiya edir.

### Şəbəkə yanaşmasının metodoloji imkanları və siyasətdə praktik tətbiqi

Şəbəkə yanaşmasını siyasətin tədqiqində metodologiya kimi istifadə edən əsas məktəblər İngilis-sakson və Almaniya məktəbləridir. İngilis-sakson məktəbi şəbəkə yanaşmasının istifadəsini dövlət və maraq qruplarının qarşılıqlı əlaqələrinin öyrənilməsində səmərəli hesab edir. Burada siyasi şəbəkələr konsepsiyası maraqların vasitəçiliyini təsvir etmək üçün istifadə olunan plüralist və korporativ yanaşmalara qarşı qoyulur. Alman məktəbi isə siyasətdə şəbəkələrə iyerarxiya və bazardan fərqli olaraq müasir dövlət idarəçiliyi forması kimi diqqət yetirir. Bu baxımdan siyasi şəbəkələr konsepsiyası yeni dövlət menecmenti kimi eyni əsas ideyadan start götürmüşdür: müasir dövlət ictimai tələbatların ödənilməsini təmin edə bilmir, iyerarxik idarəetməni yeni idarəetmə formasına dəyişdirmək üçün təkidli tələbat var. Ancaq əgər dövlət menecmenti yeni yanaşmalar axtarışında bazar iqtisadiyyatına diqqət yetirirsə, siyasi şəbəkələr nəzəriyyəsi postsənaye cəmiyyətinin kommunikativ proseslərini və müasir dövlətlərin demokratik təcrübəsini nəzərə alaraq təşəkkül tapmağa çalışır [7, s.95]. T.Borzelin vurğuladığı kimi, ictimai nemətlərin istehsalı üçün dövlət getdikcə daha çox digər aktorlardan və altsistemlərdən asılı olur və bu vəziyyətdə nə iyerarxiya, nə də bazar ictimai və özəl aktorlar arasındakı qarşılıqlı asılılıq, siyasi qərarların istehsalı prosesinə daxil olan müxtəlif aktorların maraq və mənbələrini əlaqələndirmək üçün təsirli strukturlar deyildir; nəticədə siyasi şəbəkələr dominant idarəetmə modelinə çevrilir [15].

Şəbəkə yanaşması, bir metodologiya kimi, siyasi hakimiyyətin gizli strukturlarını aşkar etməyə; siyasi elitalar daxilində qeyri-formal əlaqələri təhlil etməyə; koalisiyalar, ittifaqlar və münaqişələrin konfiqurasiyalarını öyrənməyə; təsirin bölüsdürülməsini şəbəkədəki mövqelərin nəticəsi kimi izah etməyə imkan verir. Dövlət idarəçiliyində şəbəkə yanaşması şəbəkə sistemi şəraitində problemlərin həlli, dövlət siyasətinin hazırlanması və xidmət göstərilməsinin mürəkkəb proseslərini və qavrayışların, strateji qarşılıqlı əlaqələrin və qurumların oynadığı rolları təhlil etmək və qiymətləndirmək üçün nəzəri konsepsiyalar və normativ başlanğıc nöqtələrini təqdim edir [3, 134].

Siyasi şəbəkələr nəzəriyyəsi məzmunca şəbəkə yanaşmasının bir sıra müddəalarına əsaslanır [6, s.73-75]:

- qarşılıqlı asılı olan aktorlar özlərinin məqsədlərinə digər aktorların resurslarından istifadə etmədən nail ola bilmirlər;
- şəbəkələr daxilində siyasətlə digər həyat və fəaliyyət sahələri ilə bağlı olan müxtəlif qarşılıqlı əlaqələr mümkündür. Bu qarşılıqlı əlaqələr şəbəkə oyunları kimi izah edilir. Onların mahiyyəti ondan ibarətdir ki, şəbəkə aktorları şəxsi maraqlarına nail olmaq üçün strateji hərəkət edirlər. Siyasi proseslər şəbəkə aktorları arasında oyunlar kompleksi kimi nəzərdən keçirilir və oyun daxilində müxtəlif oyunçuların (aktorların) strategiyalarının qarşılıqlı əlaqələrinin nəticəsi bu oyunun yekununu müəyyən edir;
- şəbəkə oyunları kontekstində siyasi proseslər məqsəd və maraqların müxtəlifliyi səbəbindən gərginlik şəraitində keçir, baxmayaraq ki, bu gərginliyə müəyyən formada resursların, şəbəkədə bölüşdürülməsi qaydaları və mexanizmləri ilə nəzarət edilir;
- şəbəkə yanaşmasında siyasi prosesin uğuru və nəticəsizliyi əməkdaşlığın nə dərəcədə uğurlu olmasından asılıdır. Əməkdaşlıq üçün şəbəkədə yüksək etimad dərəcəsinə nail olunması, münaqişələrin həlli qaydalarının mövcud olması zəruridir; aktorlar arasındakı münasibətlər ətalətli olarsa, bloklanarsa, yaxud istənilməyən və gözlənilməyən nəticələrə gətirərsə, əməkdaşlıq mümkün olmur;
- ümumi məqsədlərə nail olunmasında aktorların razılaşdırılmış hərəkətləri və əməkdaşlığı şəbəkə idarəetməsi kimi idarəçilik mexanizmi ilə təmin edilir. Şəbəkə idarəetməsi həm dövlət, həm də qeyri-dövlət institutları tərəfindən iki növ strategiyalar – proseslərin idarə edilməsi və şəbəkənin idarə olunması ilə həyata keçirilə bilər;
- şəbəkə idarəetməsinin aktuallaşdırılması dövlətin xüsusi statusunu istisna etmir. Bu status, bir tərəfdən, onunla şərtlənir ki, dövlət hakimiyyəti orqanlarının əlində unikal resurslar cəmləşir, digər tərəfdən isə, dövlət statusunun unikallığı müəyyən məhdudiyyətlərlə şərtlənir: digər aktorlarla qarşılıqlı asılılıq; məqsədlərin seçilməsində və vəzifələrin danışıqlar vasitəsilə yerinə yetirmək imkanlarında məhdudiyyət; dövlətin fəaliyyəti təkcə səmərəli deyil, həm də legitim olmalıdır və s.

Metodoloji prinsip kimi şəbəkə yanaşması mürəkkəb təşkil olunmuş strukturların şəbəkə analizi əsasında tədqiq edilməsinə imkan verir. Şəbəkə analizi siyasi aktorların xüsusiyyətlərini deyil, onların aralarındakı əlaqələri müəyyənləşdirməyə yönəlmiş sosial-siyasi strukturun işləməsi spesifikasının izah edilməsi üçün istifadə olunan alət olmaqla, həmçinin analitik metod kimi bu və ya digər aktorun sistemdəki yerini və vəziyyətini dəqiq müəyyənləşdirməyə imkan verir [6, s. 69-70].

Təhlillər göstərir ki, şəbəkə yanaşmasının metodoloji əsasları baxımından şəbəkə analizi siyasi məkanın aşağıdakılar vasitəsilə təsvirini tələb edir:

- qovşaqlar (nodes). Aktorlar: dövlətlər, siyasətçilər, partiyalar, təşkilatlar, elitalar, vətəndaşlar - qruplar.
- əlaqələr (ties). Qarşılıqlı əlaqələr növləri: formal (institusional), qeyri-formal (şəxsi, müştərək), maddi (resurs), kommunikativ (informasiya) əlaqələr.
- "əlaqələrin strukturu" aktorlar arasındakı bütün davamlı münasibətlərin-təşkilati, kommunikativ, maliyyə, simvolik və s. münasibətlərin məcmusunu təşkil edir.

P.Bogason və T.Tunen şəbəkə analizinin tarixi inkişafını 1960-cı illərin sonu – 1970-ci illərin əvvəllərinə qədər geniş şəkildə izləyərək, onun inkişafına təsir edən amilləri, o cümlədən həm qloballaşmanın, həm də mərkəzsizləşdirmənin müasir dövlət idarəçiliyinə qoyduqları müasir tələblər kimi vacib amilləri müəyyən etmiş, bu təhlil çərçivəsində perspektivdə dövlət idarəçiliyinin əksər sahələrində iyerarxik nəzarətin maraqlı tərəflər arasında davamlı danışıqlar prosesləri ilə əvəz olunacağını göstərmişlər {13].

Politologiyada şəbəkə analizi aktorların təkcə formal səlahiyyətlərini deyil, həm də onların real təsirlərini ölçməyə imkan verir. Fənlərarası tətbiqi baxımından şəbəkə analizi riyazi modelləri (qraflar nəzəriyyəsi); sosioloji konsepsiyaları (əlaqəli sosiologiya); politoloji nəzəriyyələri (policy networks, advocacy coalitions); kommunikativ tədqiqatları (rəqəmsal şəbəkənin analizi); iqtisadiyyatı (əməliyyat xərcləri və resurs mübadiləsi nəzəriyyələri) birləşdirir. Bunun sayəsində şəbəkə yanaşması əsasında siyasi proseslərin həm mikro, həm də makro səviyyələrini öyrənmək olar. Siyasətdə praktik tətbiqi baxımından şəbəkə yanaşması siyasi elitaların və onların təsir kanallarının, siyasi səfərbərlik mexanizmlərinin, dövlət idarəçiliyində siyasi şəbəkələrin təhlilində, rəqəmsal siyasətin şəbəkə analizində, eləcə də regional siyasi proseslərin təhlilində istifadə olunur. Hal-hazırda şəbəkə analizindən müxtəlif siyasi, sosial və digər konstruksiyaların formalaşması və qarşılıqlı təsir proseslərini öyrənmək üçün istifadə olunur. Bu analiz tədqiqatın mərkəzini icmanın struktur elementlərinin keyfiyyətlərindən onların aralarındakı əlaqələrə və münasibətlərə keçirilməsinə imkan verir, başlıcasını isə aktorların xarakteristikası deyil, onların qarşılıqlı münasibətlər davranışını, məqsədləri və nəticələrini izah etmək vasitəsi kimi münasibətləri təşkil edir [6].

Bir metodologiya kimi şəbəkə yanaşmasının əsas üstünlüklərinə onun mürəkkəb və sosial-siyasi prosesləri əhatə etməsi, eləcə də həm icma daxilində, həm də müxtəlif icmalar arasında qarşılıqlı münasibətlərin xarakterini müəyyən etmək imkanlarına malik olması aid edilir. Digər tərəfdən, bu yanaşmanın bir vacib üstünlüyü də onun universallığı hesab olunur ki, bu da istənilən aktorun fənlərarası nöqteyi-nəzərindən öyrənilməsinə imkan verir [8, s.50-53].

Təhlillərdən göründüyü kimi, şəbəkə metodologiyası siyasi hakimiyyətin qeyri-rəsmi institutlarını müəyyən etməyə imkan verir; real siyasi qarşılıqlı əlaqələrin strukturunu müəyyən edir; gizli gərginlik nöqtələrini və potensial münaqişə xətlərini aşkar edir; şəbəkə dəyişikliklərinin, yeni ittifaqların yaranmasının, qruplar arasında aktorların hərəkətlərinin, xarici oyunçuların təsirinin modelləşdirilməsi vasitəsilə ilə proqnozlaşdırma imkanlarını təmin edir və s.

Beləliklə, siyasətə və dövlət idarəçiliyinə şəbəkə yanaşmasında tədqiqat strategiyası dövlət və cəmiyyət, ictimai həyat sahələri və fərdi sektor arasındakı qarşılıqlı münasibətlərin yeni xarakterindən çıxış edir.

## Müqayisəli politologiyada şəbəkə metodologiyasının tətbiqi

Müqayisəli politologiya ənənəvi olaraq siyasi sistemləri institusional fərqlər, rejim növləri, seçki mexanizmləri, sosial strukturlar, modernləşmə modelləri və vasitəsilə təhlil edir. Bununla belə, siyasi proseslərin sürətlə mürəkkəbləşməsi, aktorların qarşılıqlı asılılığının artması və beynəlxalq səviyyədə qarşılıqlı əlaqə formalarının meydana çıxması və genişlənməsi siyasi elmdə əsas analitik istiqamətlərdən birinə çevrilmiş şəbəkə yanaşmasının (network approach) siyasi sistemlərin öyrənilməsində tətbiqini zəruri etmişdir. R.Armandonun göstərdiyi kimi, müqayisəli politologiya müxtəlif relasiyon fenomenlərin vacibliyini çoxdan tanıyırdı, ancaq siyasi şəbəkələrə müasir dövrdə sistematik diqqət yetirməyə başlamışdı. Şəbəkə yanaşması xüsusilə siyasi sistemlərin mürəkkəbləşməsi, qeyri-rəsmi qurumların, transmilli aktorların və rəqəmsal kommunikasiyaların rolunun artması səbəbindən tələb olunur. Şəbəkə yanaşmasının tətbiqi müxtəlif ölkələrdə, bölgələrdə və institusional konfiqurasiyalarda siyasi proseslərin struktur fərqləri və oxşarlıqlarının müəyyənləşdirilməsi tələb olunduğu müqayisəli siyasi tədqiqatlar çərçivəsində daha çox əhəmiyyət kəsb edir [11]. Şəbəkə dinamikasını başa düşmək müqayisəli təhlilin açarıdır, çünki o, müxtəlif idarəetmə alqoritmləri arasında sabitlik və dəyişiklikdəki fərqləri aşkar edir

Müqayisəli siyasi tədqiqatlarda şəbəkə yanaşmasının tətbiqinin metodoloji əhəmiyyəti

ondan ibarətdir ki, müxtəlif ölkələrin institusional konteksti şəbəkələrin strukturunu və funksiyalarını müəyyən edir, bu isə müqayisəli politologiya üçün xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən, şəbəkə yanaşması ölkələr və sektorları müqayisə etməyə imkan verir ki, bununla da ümumi qanunauyğunluqlar və fərqlər, eləcə də müxtəlif ölkələrdə aktorlar arasında resurs mübadiləsi xarakterinin siyasətin səmərəliliyinə fərqli təsiri açılıb göstərilir [16, s.5-19].

Müqayisəli politologiyada siyasi şəbəkələrin təhlili həm də şəbəkə yanaşmasının müqayisəli siyasi tədqiqatlarda istifadəsi imkanlarının müəyyən edilməsi ilə də müşayiət olunmuşdur. Bütövlükdə isə, siyasi şəbəkələrin müqayisəli öyrənilməsi ilk növbədə, ictimai siyasətin müxtəlif istiqamətlərini, müvafiq olaraq siyasi qərarların istehsalında iştirak edən və bu prosesdə resurs mübadiləsi aparan dövlət və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrini əhatə edir. Təhlillərdən göründüyü kimi, siyasi şəbəkələr nəzəriyyəsi "maraqların vasitəçiliyi" nəzəriyyəsi kimi "ayrı-ayrı halların", məsələn, Böyük Britaniyada siyasi şəbəkələrin (M.Rhodes), ABŞ-da siyasi elitaların (C.Moor) analizində tətbiq edilir. Bundan başqa, müqayisəli politoloji tədqiqatlar çərçivəsində şəbəkə yanaşmasından Qərbi Avropada, ABŞ və Yaponiyada, Latın Amerikası ölkələrində, digər regionlarda "siyasət və idarəçilik struk-turlarının, eləcə də beynəlxalq münasibətlərin öyrənilməsində istifadə olunur.

Bu baxımdan P. Con və E. Koul tərəfindən Böyük Britaniya və Fransada yerli siyasət səviyyəsində şəbəkələrin müqayisəsi maraq doğurur [21]. Onlar bu iki ölkədə yerli siyasətin müqayisəli araşdırılmasında şəbəkə yanaşmasının tətbiqini klassik müqayisəli tədqiqat metodologiyası əsasında qurmuşlar. Bu zaman asılı dəyişən qismində siyasi şəbəkələrin şəbəkə üzvlüyü, strukturu, məhsuldarlığı, dəyişiklikləri kimi elementləri ayrılır. Şəbəkə üzvlüyünə adətən siyasətçilər, məmurlar, biznes nümayəndələri daxil edilir; şəbəkə strukturu açıq yaxud qapalı olmaqla, buraya az sayda siyasətin formalaşması prosesində üstünlük təşkil edən az sayda əsas fiqurlar yaxud daha geniş iştirakçılar daxil ola bilərlər; şəbəkə məhsuldarlığı onun iştirakçılarının ümumi məqsədə nail olmaq üçün qarşılıqlı əlaqələr qurmaq istəklərindən asılı olaraq yüksək və ya aşağı ola bilər; şəbəkə dəyişiklikləri isə, müqayisə olunan şəbəkələrdə idarəetmə münasibətlərinin xarakteri ilə müəyyən olunur. Müəlliflər tərəfindən asılı olmayan, sərbəst dəyişənlər kimi Britaniya və Fransada siyasətin işlənilməsində mərkəz yerli siyasətin işlənilməsində münasibətlər sistemi kimi institutlar, yerli iqtisadiyyat və orta təhsil sektorları və yerli ərazilər müəyyən edilmişdir. Aparılan müqayisəli tədqiqatlar göstərmişdir ki, siyasi şəbəkələri müəyyən etmiş institutlar, sektorlar və şəhərlər arasında qarşılıqlı asılılıq mövcuddur. Belə ki, məsələn, orta təhsil sahəsində siyasətin işlənilməsi və həyata keçirilməsi üçün milli ənənələr üstünlük təşkil edən amil kimi çıxış edir və bu ənənələr siyasi sektorun xüsusiyyətlərini və institusional fərqlərin dərəcəsini müəyyən edirlər [7, s.110-111].

Azərbaycanda şəbəkə yanaşmasının siyasətin, siyasi sistemin işləməsinin, dövlət idarəçiliyində innovativ texnologiyaların tətbiqinin, dövlət orqanları arasında üfüqi əlaqələrin, dövlət-vətəndaş cəmiyyəti münasibətlərinin, çoxpartiyalı sistemin uğurlu inkişafı və sağlam siyasi rəqabət şəraitində partiyalararası qarşılıqlı əlaqələrin digər ölkələrin təcrübəsi ilə müqayisəli şəkildə öyrənilməsində istifadə edilməsi faydalı olmaqla, praktik cəhətdən aktual və əhəmiyyətlıdır. Bu baxımdan akademik U.K.Ələkbərovun davamlı, inklüziv inkişafın idarə edilməsi, dövlət idarəçiliyində sinergetik, innovativ texnologiyaların tətbiqi sahəsində və digər istiqamətlərdə Azərbaycan Respublikasının böyük uğurla həyata keçirdiyi siyasətin şəbəkə yanaşması kontekstində apardığı geniş araşdırmaları xüsusi elmi maraq və əhəmiyyət kəsb edir [1, 2, 10].

S. Mütsel tərəfindən müqayisəli tədqiqatlar çərçivəsində iki müasir, ümumilikdə bir-birindən fərqlənən istiqamətlər – relasiyon sosiologiyasının və aktorlar şəbəkəsi nəzəriyyəsinin

müqayisəsi əsasında şəbəkələrin mədəniyyətin təsiri altında formalaşan proseslər kimi öyrənilməsi də maraq doğurur. Burada "mədəniyyət" və "struktur" ayrılıqda deyil, ikiliyin bir-biri ilə qarşılıqlı əlaqədə olan varlıqları kimi nəzərdən keçirilir, sosial şəbəkələrin analizində "mədəni dönüş" və şəbəkələri mədəniyyətin formalaşdırdığı proseslər kimi nəzərdən keçirən "aktor şəbəkələri nəzəriyyəsi" kimi iki fərqli ənənələr müqayisəli təhlil edilir. Bununla belə, bir-biri ilə məhsuldar qarşılıqlı əlaqə potensialına malik olan hər iki yanaşmanın həm də bir çox konseptual oxşarlıqları da vardır ki, onların da bəziləri məlumatların analizində bu yanaşmaların metodoloji yaxınlaşması nöqtələrinə çevrilmişlər [19].

Müqayisəli siyasi tədqiqatlarda şəbəkə analizi müxtəlif ölkələrdə və bölgələrdə siyasi sistemlərin işləməsinin ümumi qanunauyğunluqlarını müəyyənləşdirməyə, aktorların konfiqurasiyalarını müqayisə etməyə, institusional əlaqələri təhlil etməyə və siyasi davranışın xüsusiyyətlərini izah etməyə imkan verir. Həmçinin siyasi sistemlərin gizli elementlərinin müəyyənləşdirilməsi imkanları (bu elementlər tez-tez real siyasətləri müəyyənləşdirir, lakin institusional təhlil üçün görünməz qalır); siyasi proseslərin qarşılıqlı əlaqələr axını kimi təhlil edilməsinin mümkünlüyü və s. müqayisəli tədqiqatlarda şəbəkə yanaşmasının metodoloji üstünlüklərinə aid edilir.

Bununla belə, müqayisəli tədqiqatlarda şəbəkə yanaşmasının tətbiqi məhdudiyyətləri kimi qapalı və ya avtoritar sistemlərdə müqayisə edilə bilən məlumatların olmamasını; kontekstual asılılıq: nəticələrin spesifik kontekstdən, institusional xüsusiyyətlərdən və güc növündən asılı olmasını, fərqli rejimlər və ya sahələr arasında müqayisəli təhlili çətinləşdirməsini və s. qeyd etmək olar.

Müqayisəli politologiyanın inkişafı üçün şəbəkə yanaşmasının əhəmiyyəti ondan ibarətdir ki, şəbəkə analizi təsviri müqayisədən struktur izahına keçidi; siyasi transformasiyaların modelləşdirilməsi imkanını; rəqəmsal siyasi proseslərin araşdırılması alətlərini; kəmiyyət və keyfiyyət metodlarının inteqrasiyasını təmin edir. Bu gün şəbəkə yanaşması, siyasi prosesləri mürəkkəb, qeyri-xətti və bir-birindən asılı strukturlar kimi təhlil etməyə imkan verən müqayisəli siyasi elmin əsas metodoloji yeniliklərindən biridir.

**Nəticə**

Beləliklə, şəbəkə yanaşması siyasi tədqiqatlarda tətbiq olunan metodologiyalardan biri olmaqla, siyasi proseslərin araşdırılması üçün yeni imkanlar açır, siyasi elmin analitik potensialını genişləndirir və həm siyasi sistemlərin sabitliyini, həm də onların transformasiyasını daha dərindən dərk etməyə kömək edir. Şəbəkə analizi aktorların siyasi məkandakı real mövqeyini əks etdirən kəmiyyət və vizual modellər vasitəsilə resursların bölüşdürülməsini, səfərbərlik mexanizmlərini, qarşılıqlı fəaliyyət strategiyalarını və hakimiyyətin transformasiyasını araşdırmağa imkan verir.

Siyasi şəbəkələrin dövlət orqanları və vətəndaş cəmiyyətinin strukturları arasında qarşılıqlı əlaqələr sistemi kimi öyrənilməsi daha səmərəli olar, çünki məhz bu cür şəbəkələr cəmiyyətin demokratikləşməsinə və idarəetmə qərarlarının keyfiyyətinin artırılmasına müsbət təsir göstərir. Bu metodoloji yanaşmanın gələcək inkişaf perspektivləri kəmiyyət metodlarının təkmilləşdirilməsi, fənlərarası tədqiqatlar və müqayisəli politoloji araşdırmaların genişləndirilməsi ilə bağlıdır ki, bu da şəbəkə yanaşmasını müasir politologiyada ən perspektivli tədqiqat strategiyalarından birinə çevirir.

**Ədəbiyyat:**


1. Ələkbərov, U.K. Davamlı inkişaf və ekoloji sivilizasiyasının idarə edilməsinin əsasları / U. Ələkbərov. – Bakı: "Təhsil", 2017. 176 s.
2. Ələkbərov, U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. – Bakı: "Təhsil", 2018. 216 s.
3. Əliyev, E. S. Dövlət siyasətində və idarəçiliyində şəbəkə fenomeni. - Gənc Tədqiqatçı. 2023. №1, s.130-136.
4. Кастельс М. Становление общества сетевых структур. -Новая постиндустриальная волна на Западе: Антология / под ред. В.Л. Иноземцева. М.: Academia, 1999. С. 492-505.
5. Лысак И.В., Косенчук Л.Ф. Современное общество как общество сетевых структур // Информационное общество. 2015. № 2-3. С. 45-51.
6. Мирошниченко И.В. Сетевой подход в политических исследованиях: содержание и направления развития. - Человек. Сообщество. Управление. 2013. № 3. с.68-86
7. Сморгунов Л.В. Сравнительная политология: Учебник для вузов. – СПб.: Питер, 2018. – 417 с.
8. Степанова Е.А. Теория и методология сетевого подхода в исследованиях российских онлайн-сообществ. – Южно-российский журнал социальных наук. 2018. Т. 19. № 2. С. 50-66.
9. Янковский Ю.Ю. Сетевой подход как методология изучения политики // https://libeldoc.bsuir.by/bitstream/123456789/51153/1/Yankovskii_setevoi.pdf
10. Alakbarov U.K., Lawrence J.E.S.Towards ecological civilization: ideas from Azerbaijan. Journal of Human Resources and Sustainability Studies (U.S.A., ISSN 2328-4862), 2015, v.3, № 3, pp. 93-100.
11. Armando, Razo, Bringing Networks into Comparative Politics // Jennifer Nicoll Victor, Alexander H. Montgomery, and Mark Lubell (eds), The Oxford Handbook of Political Networks, Oxford Handbooks ( 2017). P. 789–816. https://doi.org/10.1093/oxfordhb/9780190228217.013.34
12. Barnes, J. (1983). Graph theory in Network Analysis. Social Networks, 5, pp. 235–244.
13. Bogason, P., & Toonen, T. (1998). Introduction: networks and public administration. Annual Editions: Public Administration, (2), pp.205-228. // https://forskning.ruc.dk/en/publications/networks-and-public-administration/
14. Boissevain, J. (1979). Network Analysis: A Reappraisal. Current Anthropology, 2 (20), pp.392–394.
15. Borzel, T.A. (1998) Organizing Babylon: On the Different Conceptions of Policy Networks // Public Administration, 76, 253-273. https://doi.org/10.1111/1467-9299.00100
16. Marsh D. (1998). Comparing Policy Networks. Buckingham: Open University Press,216 p.
17. Marsh D., Smith M. (2000). Understanding Political Networks: Towards a Dialectical approach.- Public Administration. Volume 76, Issue 2 pp. 205-227// https://journals.sagepub.com/doi/10.1111/1467-9248.00247
18. Metz F. (2017). A Network Approach to Policy Design. London: Routledge,. - 240 p.
19. Mutzel S. Networks as Culturally Constituted Processes: a Comparison of Relational Sociology and Actor-Network Theory / S. Mutzel. - Current Sociology. 2009. Vol. 57.№ 6. P. 871–887
20. Rhodes R. A. W. (1997) Understanding Governance: Policy Networks, Governance, Reflexivity and Accountability. Publisher: Open University Press. 239 p.
21. John P., Cole A. When Do Institutions, Policy Sectors, and Cities Matter? Comparing Networks of Local Policy Makers in Britain and France. - Comparative Political Studies. 2000. Vol. 33. № 2.
22. https://www.broadstreet.blog/p/the-endogeneity-of-historical-data

***Açar sözlər:*** *siyasi elm, siyasi tədqiqatlar, şəbəkə yanaşması, metodologiya, siyasi şəbəkələr, şəbəkə təhlili, müqayisəli politologiya, praktik tətbiq*

**Sevil Mammadova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Political Science and Political Management, Doctor of Political Sciences, Professor*

## NETWORK APPROACH AS METHODOLOGY IN POLITICAL SCIENCE RESEARCH

### ABSTRACT

The article is devoted to the study of network methodology in political research. The essential characteristics, stages of emergence and possibilities of practical application of the network approach as a methodology in political research are analyzed. The essence and parameters of political networks are revealed, as well as the main provisions of the theory of political networks, the use of a network approach, which has an interdisciplinary character in anthropology, sociology and political science is considered, the features and advantages of network analysis are analyzed. The methodological possibilities and features of the application of network methodology in comparative political science are considered, the experience of practical application of the network approach in politics and public administration is analyzed.

***Keywords:*** *political science, political research, network approach, methodology, political networks, network analysis, comparative political science, practical application*

**Севиль Мамедова**

*Профессор кафедры Политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук*

# СЕТЕВОЙ ПОДХОД КАК МЕТОДОЛОГИЯ В ПОЛИТИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

## РЕЗЮМЕ

Статья посвящена изучению сетевой методологии в политических исследованиях. Анализируются сущностные характеристики, этапы возникновения и возможности практического применения сетевого подхода как методологии в политических исследованиях. Раскрывается сущность и параметры политических сетей, а также основные положения теории политических сетей, рассматривается использование сетевого подхода, который имеет междисциплинарный характер, в антропологии, социологии и политической науке, анализируются особенности и преимущества сетевого анализа. Рассматриваются методологические возможности и особенности применения сетевой методологии в сравнительной политологии, анализируется опыт практического применения сетевого подхода в политике и государственном управлении.

***Ключевые слова:*** *политическая наука, политические исследования, сетевой подход, методология, политические сети, сетевой анализ, сравнительная политология, практическое применение*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.032

S İ Y A S İ  N Ə Z Ə R İ Y Y Ə
P O L I T I C A L  T H E O R Y

UOT 323

**ÜLVİYYƏ HAQVERDİ**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: ulviyyahaqverdi@gmail.com*

# DEMOQRAFİK SİYASƏT ANLAYIŞININ ETİMOLOGİYASI, İNKİŞAFI VƏ KONSEPTUAL TƏHLİLİ

## Giriş

Demoqrafik siyasət anlayışının aktuallığı onun həm dövlətlərin milli təhlükəsizlik sistemində, həm də qlobal idarəetmə proseslərində strateji həlqəyə çevrilməsindən irəli gəlir. Müasir dünyada demoqrafik meyillərin təkcə statistik dəyişiklik kimi deyil, iqtisadi, siyasi, sosial və ekoloji sahələrə birbaşa təsir göstərən struktur amil kimi dəyərləndirilməsi bu sahədə siyasətin nəzəri və praktiki əsaslarının formalaşdırılmasını zəruri edir. Əhalinin artım və azalma dinamikası, miqrasiya prosesləri, urbanizasiya, yaşlanma, doğum və ölüm səviyyələri yalnız cəmiyyətin sosial strukturunu deyil, həm də əmək bazarının, sosial təminat sistemlərinin, səhiyyə və təhsil sektorlarının dayanıqlığını müəyyən edir. Bu baxımdan, demoqrafik siyasətin düzgün qurulmaması sosial böhranların, resurs çatışmazlığının, regional balanssızlıqların və hətta beynəlxalq münaqişələrin dərinləşməsinə gətirib çıxara bilər. Digər tərəfdən, qloballaşma şəraitində dövlətlərin demoqrafik problemləri artıq daxili məsələ olaraq qalmır; onlar transsərhəd miqyasda təhlükəsizlik, əmək miqrasiyası, insan hüquqları və davamlı inkişaf gündəliyinə daxil olur. Xüsusilə də milli identiklik və mədəniyyətin qorunması, ailə institutunun möhkəmləndirilməsi, gender balansının təmin edilməsi və sosial inteqrasiya kimi məsələlər demoqrafik siyasətin yalnız idarəetmə texnologiyası deyil, həm də ideoloji və dəyər əsaslı komponentə malik olduğunu göstərir. Beləliklə, demoqrafik siyasətin öyrənilməsi müasir dövlətlərin uzunmüddətli inkişaf strategiyalarının, regional və qlobal təhlükəsizlik mexanizmlərinin başlıca elementlərindən biri kimi aktuallıq kəsb edir.

Bu baxımdan, tədqiqatın metodoloji bazası çoxşaxəli yanaşmaya əsaslanır və demoqrafik siyasət anlayışının etimologiyasını, tarixi inkişafını və müasir tətbiq sahələrini öyrənmək üçün müxtəlif elmi üsulların sintezindən istifadə olunur. İlk növbədə, müqayisəli-tarixi metod vasitəsilə demoqrafik siyasətin formalaşma mərhələləri, müxtəlif ölkələrdəki təcrübələr və onların nəzəri əsasları araşdırılır. Analitik və sintetik metodlar isə mövcud nəzəri yanaşmaların parçalanaraq ayrı-ayrı elementlər üzrə öyrənilməsinə, sonra isə ümumiləşdirilərək sistemli yanaşma kimi təqdim olunmasına imkan verir.

Demoqrafik siyasət anlayışının konseptual təhlili hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir, çünki sürətli qloballaşma, miqrasiya axınlarının artması, doğum səviyyəsinin azalması və əhalinin yaşlanması kimi demoqrafik proseslər dövlətlərin sosial-iqtisadi sabitliyi və milli təhlükəsizlik konsepsiyalarını birbaşa təsir altında saxlayır. Müasir dövrdə yalnız statistik rəqəmlərlə məhdudlaşmayan demoqrafik meyillər siyasi institutların sabitliyi, sosial rifah mexanizmlərinin davamlılığı və dövlətin legitimlik dayaqlarının möhkəmliyi üçün strateji əhəmiyyət kəsb edir. Bununla yanaşı, iqlim dəyişiklikləri, texnoloji transformasiyalar və qlobal əmək bazarındakı struktur dəyişikliklər demoqrafik siyasətin idarəetmə çərçivəsini daha da mürəkkəbləşdirir. Bu səbəbdən, demoqrafik siyasətin nəzəri əsaslarının işlənməsi və onun müxtəlif elmi sahələrlə kəsişən tərəflərinin araşdırılması müasir dövlətlərin uzunmüddətli inkişaf strategiyalarının formalaşdırılmasında mühüm rol oynayır.

Bu baxımdan, demoqrafik siyasətin siyasi elmlər üçün əhəmiyyəti ilk növbədə onun dövlətin güc resursları, idarəetmə institutlarının dayanıqlığı və siyasi legitimlik mexanizmlərinə bilavasitə təsir göstərməsindən irəli gəlir. Demoqrafik göstəricilər elektoral coğrafiyanın formalaşması, parlamentdə nümayəndəlik sistemlərinin qurulması, seçici davranışlarının öyrənilməsi və sosial siyasətin prioritetlərinin müəyyənləşdirilməsində açar dəyişənlərdir. Bundan əlavə, əhalinin yaş strukturu, miqrasiya axınları və urbanizasiya səviyyəsi dövlətin milli təhlükəsizlik strategiyalarını, xarici siyasət kursunu və sosial inteqrasiya siyasətlərini birbaşa şərtləndirir. Siyasi elmlər müstəvisində demoqrafik siyasət yalnız dövlətin idarəetmə texnologiyası deyil, həm də onun ideoloji xəttini və beynəlxalq münasibətlərdə mövqeyini müəyyənləşdirən fundamental kateqoriya kimi qəbul olunur. Nəticə etibarilə, siyasi nəzəriyyə və praktikada demoqrafik siyasətin öyrənilməsi dövlətin sabitliyi, sosial ədalət və qlobal təhlükəsizlik mexanizmlərinin izahı üçün mühüm elmi dəyərə malikdir.

## Demoqrafik siyasət anlayışının etimologiyası

Demoqrafiya sözünün etimologiyasına baxdıqda, Qədim yunan dilindəki dēmos (xalq, əhali) və graphein (yazmaq, təsvir etmək) sözlərindən yaranmışdır [5]. Termin müasir elmi istifadədə 1855-ci ildə fransız statistikçisi Axil Giyar (Achille Guillard) tərəfindən “démographie” kimi işlədilmiş və sonradan beynəlxalq ədəbiyyata keçmişdir [7]. Bu baxımdan, demoqrafiya əhalinin sayını, yaş-cins quruluşunu və məkan üzrə bölgüsünü, həmçinin bu göstəricilərin zamanla doğum, ölüm və miqrasiya prosesləri vasitəsilə necə dəyişdiyini öyrənən elmdir; siyahıyaalmalar, sorğular və inzibati qeydiyyatlar əsasında göstəricilər və modellər quraraq demoqrafik proseslərin səbəb və nəticələrini izah edir və əldə edilən bilikləri əmək bazarı, sosial təminat, səhiyyə, təhsil və məskunlaşma kimi siyasət sahələrində proqnozlaşdırma və qərarların əsaslandırılmasında tətbiq edir.

Çox mühüm bir sahə olan demoqrafiyanın müntəzəm öyrənilməsi dövlətə və cəmiyyətə əhalinin sayında, yaş-cins tərkibində və məkan üzrə bölgüsündə baş verən dəyişmələri əvvəlcədən görməyə, beləliklə əmək bazarı, pensiya və sosial təminat sistemləri, səhiyyə-təhsil tutumları, mənzil, nəqliyyat və kommunal infrastruktur üzrə uzunmüddətli planlamanı dəqiq qurmağa imkan verir. Davamlı monitorinq aşağı fertillik və qocalma, daxili və xarici miqrasiya, regionlararası disbalans, epidemiya və iqlimlə bağlı köç kimi riskləri vaxtında aşkarlayır və ssenari-əsaslı idarəetməni mümkün edir. Demoqrafik göstəricilər fiskal dayanıqlıq (vergi bazası, xərclər), insan kapitalının inkişafı və gender-uşaq sağlamlığı kimi hədəflərə çatmada ölçülə bilən baza yaradır. Seçki coğrafiyası, nümayəndəlik və ictimai xidmətlərin ədalətli bölgüsü üçün də demoqrafik məlumatlar zəruridir. Hətta mədəni və intellektual faktorların belə demoqrafik dinamikaya təsiri vardır [1, s. 111].

Demoqrafiya ictimai elmlərin nüvəsində yer alır: sosiologiya, siyasi elmlər və beynəlxalq münasibətlər əhali dinamikalarını cəmiyyət-dövlət münasibətlərinin quruluşunu izah edən əsas dəyişənlərdən biri kimi görür. Sosiologiyada doğum, ölüm, nikah-boşanma və miqrasiya fərdi davranış, ailə strukturları, gender rolları, stratifikasiya və urbanizasiya ilə əlaqələndirilir; nəticədə demoqrafik göstəricilər sosial bərabərsizlik, sosial kapital və sosial mobilliyin təhlilində açar rolunu oynayır. Siyasi elmlərdə demoqrafiya seçki coğrafiyası, nümayəndəlik normaları, seçici davranışı, regional institutlaşma, federal-unitar modellər və resurs bölgüsü üzərində birbaşa təsirə malikdir; əhalinin qocalması, etnik və dil müxtəlifliyi kimi xüsusiyyətlər təhlükəsizlik gündəliyindən tutmuş sosial siyasətin prioritetlərinə qədər strateji qərarları formalaşdırır. Beynəlxalq münasibətlər və təhlükəsizlik tədqiqatlarında isə sərhədyanı miqrasiya, diaspor siyasəti, demoqrafik təzyiq, əmək resurslarının dinamik hərəkəti, humanitar böhranlar və iqlim-miqrasiya kəsişmələri dövlətlərin güc balansını, xarici yardım arxitekturasını və regional sabitliyi müəyyən edən əsas parametrlər kimi dəyərləndirilir [4].

İqtisadiyyat və idarəetmə sahələrində demoqrafiya həm mikro, həm də makro səviyyədə qərarların bünövrəsini təşkil edir. Əmək iqtisadiyyatı yaş strukturu, iştirak nisbətləri, məhsuldarlıq, insan kapitalı və miqrant əmək axınlarının bazarlara təsirini ölçür; inkişaf iqtisadiyyatı demoqrafik keçidin mərhələlərini, demoqrafik dividendin pəncərəsini və aşağı fertillik-yüksək ömür uzunluğu kombinasiyasının fiskal dayanıqlığa təsirlərini modelləşdirir. Makroiqtisadiyyat və dövlət maliyyəsi pensiya, səhiyyə və sosial müdafiə sistemlərinin aktual parametrlərini demoqrafik proqnozlara bağlayır, borc davamlılığı və vergi bazasının perspektivini əhali dinamikası əsasında dəyərləndirir. Şəhərsalma, regional iqtisadiyyat və nəqliyyat planlaması əhalinin məkan paylanması, sıxlıq və məskunlaşma informasiyasına görə torpaq istifadəsi, infrastruktur tutumu və mənzil siyasətini tənzimləyir. Ətraf mühit tədqiqatlarında əhali dinamikası resurs istifadəsi, emissiyalar, iqlim adaptasiyası və ekosistem təzyiqlərinin modelləşdirilməsində əsas determinant kimi nəzərə alınır.

Tibb elmləri və metodologiya blokunda demoqrafiya, epidemiologiya, ictimai səhiyyə və biostatistika ilə sıx inteqrasiya olunub: fertillik, mortallıq, ömür uzunluğu, ana-uşaq sağlamlığı, yoluxucu və qeyri-yoluxucu xəstəliklər üzrə yaş-standartlaşdırma və tibbi kohort analizi vasitəsilə xəstəlik yükü və xidmət ehtiyacı hesablanır. Beləliklə, demoqrafiya fənlərarası bir sahə kimi həm nəzəri izah gücü, həm də tətbiqi siyasət üçün ölçülə bilən data formalaşdıraraq müxtəlif elmi sahələrin kəsişməsində öyrənilir və istifadə olunur.

## Demoqrafik siyasət anlayışının konseptual təhlili

Bizim əsas predmetimiz siyasi sahə olduğundan, demoqrafiyanı siyasi elmlər çərçivəsində, yəni siyasi demoqrafiya və demoqrafik siyasət kimi öyrənirik; belə ki, əhali dinamikasının dövlətin güc resurslarına, idarəetmə institutlarına, legitimliyə və siyasət çevrimlərinə təsirini araşdırırıq. Bu çərçivədə, daxili və xarici miqrasiya dövlət quruculuğu, vətəndaşlıq rejimi, sərhəd və diaspor siyasəti ilə kəsişir; regional məskunlaşma mərkəz-region münasibətlərini, federal-unitar dizaynı, inzibati-ərazi islahatlarını təşviq edir. Bu baxımdan demoqrafik göstəricilər siyasi gündəmin məzmununu (ailə, təhsil, sosial rifah, əmək bazarı) müəyyənləşdirən strateji dəyişənlərdir. Nəhayət, demoqrafik keçidin mərhələləri, insan kapitalı və əmək ehtiyatları ölkənin geosiyasi çəkisini, yumşaq və sərt güc imkanlarını, eləcə də milli təhlükəsizlik konsepsiyasını bilavasitə şərtləndirdiyi üçün siyasi elmlərdə demoqrafiyanı müntəzəm, ssenari əsaslı və göstəricilərə əsaslanaraq təhlil edirik.

Demoqrafiya ilə siyasi elmlərin kəsişən sahəsi ilk növbədə əhali ilə dövlət siyasəti

arasındakı qarşılıqlı təsirləri izah edən "siyasi demoqrafiya" kontekstində özünü göstərir. Bu ortaq sahədə əhalinin sayı, yaş strukturu, miqrasiya axınları, urbanizasiya prosesləri kimi dəyişənlər dövlətin idarəçilik mexanizmlərinə, sosial rifah modelinə və təhlükəsizlik strategiyalarına birbaşa təsir göstərir. Məsələn, yaşlanan cəmiyyətlərdə pensiya və səhiyyə sistemlərinin yükü siyasi qərarların prioritetlərini dəyişdirir. Bu baxımdan demoqrafiya yalnız statistik analizlərlə kifayətlənmir, siyasi nəzəriyyə və praktikada dövlətin sabitliyini, legitimliyini və idarəetmə imkanlarını müəyyən edən strateji amil kimi çıxış edir.

İkinci mühüm kəsişmə seçki siyasəti və siyasi iştirakla bağlıdır. Demoqrafik göstəricilər seçki coğrafiyasının qurulmasına, parlamentdə nümayəndəliyin bölgüsünə və ümumilikdə siyasi təmsilçilik normalarına təsir edir. Əhalinin bölgələr üzrə sayı və struktur fərqləri seçki dairələrinin müəyyən olunmasında, bərabər təmsil prinsiplərinin tətbiqində və seçici davranışlarının öyrənilməsində əsas parametrlərdən biridir. Bundan başqa, gənc və yaşlı nəsillər arasında siyasi prioritetlərin fərqliliyi, qadınların demoqrafik davranışlarının seçki iştirakına təsiri və miqrant icmaların siyasi inteqrasiyası siyasi elmlərin diqqət mərkəzinə düşür. Bu, demoqrafiyanın sırf əhali statistikası olmaqdan çıxaraq siyasi proseslərin strukturunu və dinamikasını izah edən fundamental kateqoriyaya çevrildiyini göstərir.

Üçüncü ortaq sahə milli təhlükəsizlik və beynəlxalq münasibətlər müstəvisində özünü göstərir. Demoqrafik balansların dəyişməsi dövlətlərin xarici siyasət kursunu və təhlükəsizlik strategiyalarını müəyyən edən əsas amillərdəndir. Siyasi elmlərdə bu məsələlər əhalinin hərbi potensiala təsiri, sosial gərginliklərin idarə olunması və regional güc balansı kontekstində təhlil edilir. Beləliklə, demoqrafik siyasət anlayışı siyasi elmlərin həm nəzəri aparatında, həm də praktik siyasi kursunda mərkəzi mövqeyə malikdir [3].

Bu baxımdan, demoqrafik siyasət dövlətin məqsədyönlü şəkildə ölkə əhalisinin demoqrafik proseslərinə təsir göstərməsi, yəni əhali artımı və tənəzzülü ilə bağlı prosesləri tənzimləməsidir. Daha dəqiq desək, demoqrafik siyasət əhalinin təkrar istehsalı proseslərinin (doğum, ölüm, miqrasiya və s.) dövlət tərəfindən nizama salınması sahəsində həyata keçirilən tədbirlər sistemidir [2]. Bu, doğum səviyyəsinə, ölüm hallarına, nikah və boşanma dinamikasına, əhalinin yaş strukturu və miqrasiya axınlarına təsir edən siyasət formasıdır. Bəzi tədqiqatçılar demoqrafik siyasəti çox geniş mənada, yəni əhalinin sayına, coğrafi yerləşməsinə və tərkibinə birbaşa və ya dolayısı ilə təsir göstərən istənilən hökumət tədbirləri kimi müəyyən edirlər. Lakin belə geniş tərif demək olar ki, dövlətin bütün fəaliyyətini əhatə edir və analitik baxımdan yetərincə dəqiq sayılmır. Daha dar və qəbul olunmuş yanaşmaya görə, demoqrafik siyasət dövlətin əhalinin miqdarı və tərkibi ilə bağlı konkret hədəfləri və bu hədəflərə çatmaq üçün tətbiq etdiyi alətlər toplusudur [6]. Məsələn, BMT mütəxəssisləri demoqrafik siyasəti "əhalinin artım sürəti, sayı, ölkədaxili və qlobal yerləşməsi, demoqrafik xüsusiyyətlərinə təsir göstərmək üçün hazırlanmış tədbir və proqramlar toplusu" kimi tərif edirlər [9]. Bu tərifdən göründüyü kimi, demoqrafik siyasət dövlətin əhalinin sayı, coğrafi bölgüsü və keyfiyyət göstəricilərinə müdaxilə edərək, müəyyən sosial, iqtisadi və siyasi məqsədlərə çatmağa yönəlmiş fəaliyyətidir.

Demoqrafik siyasət anlayışının tarixi XIX əsrin sonu – XX əsrin əvvəllərində müasir demoqrafiyanın elmi sahə kimi formalaşması ilə bağlıdır. Bu dövrdə Avropa ölkələri sürətli sənayeləşmə və urbanizasiya proseslərindən keçərək əhalinin sayı, strukturu və artım dinamikası ilə bağlı ciddi çağırışlarla üz-üzə qalırdılar. Əhali artımının dövlətin gücü ilə sıx bağlı olduğu fikri hələ XVII–XVIII əsrlərdə merkantilistlər tərəfindən müdafiə olunmuş, lakin bu, daha çox iqtisadi siyasət müstəvisində nəzərdən keçirilmişdi. XIX əsrin sonlarında isə demoqrafiya ayrıca elm sahəsi kimi təşəkkül tapanda əhali artımını dövlətin idarə

etməli olduğu ayrıca siyasət istiqaməti kimi qəbul etmək tendensiyası güclənməyə başladı.

XX əsrin əvvəllərində "demoqrafik siyasət" məfhumundan əsasən Avropa və Rusiyada istifadə olunmağa başlanmışdır. Birinci dünya müharibəsi dövlətlərin əhalinin sayına və mobilizasiyaya təsir edən amillərə xüsusi önəm verməsinə səbəb oldu. Bu dövrdə, xüsusilə Almaniya və Fransa kimi ölkələrdə doğum səviyyəsini artırmaq üçün müxtəlif dövlət siyasətləri gündəmə gətirildi [8]. Sovet İttifaqında isə 1920-30-cu illərdə ilk dəfə işlənməyə başlasa da, 1960-1970-ci illərdə "demoqrafik siyasət" ifadəsi daha geniş işlədilməyə başlandı və dövlətin ailə, nikah, abort, qadınların əmək fəaliyyəti kimi məsələlərə müdaxiləsi ideoloji əsaslarla qanunvericilikdə öz əksini tapdı. Bu məfhumun təkcə statistik analizlərdə deyil, həm də praktiki siyasətin nəzəri əsaslandırılmasında işlədilməsinin ilk nümunələrindən sayılır [10].

### Demoqrafik siyasət anlayışının tarixi inkişaf dinamikası

İkinci dünya müharibəsindən sonra demoqrafik siyasət anlayışı beynəlxalq səviyyədə geniş yayıldı. Müharibədən sonrakı "baby boom" dalğası inkişaf etmiş ölkələrdə əhali artımını müvəqqəti yüksəltsə də, 1960-cı illərdən etibarən Qərbi Avropada və Şimali Amerikada doğumun azalması ilə bağlı narahatlıqlar başladı [11]. Eyni zamanda, inkişaf etməkdə olan Asiya və Afrika ölkələrində sürətli əhali artımı müşahidə olunurdu. Bu ziddiyyətli proseslər fonunda BMT və digər beynəlxalq təşkilatlar "population policy" (əhalinin idarə olunması siyasəti) terminini rəsmi sənədlərə daxil etdilər. Beləliklə, "demoqrafik siyasət" anlayışı həm milli, həm də beynəlxalq müstəvidə dövlətlərin əhali ilə bağlı məqsədli tədbirlərini ifadə edən termin kimi möhkəmləndi. Bu sahədə qabaqcıl olan ölkələr Yaponiya və Hindistan olmuşdur. Yaponiyada İkinci Dünya Müharibəsindən sonra rəhbərlik 1948-ci ildə "eugenic protection" (eugenik müdafiə) adlı qanunu qəbul etmişdi ki, bu da doğum səviyyəsində keçidi sürətləndirməyə kömək etdi. Hindistan isə 1952-ci ildə milli əhali siyasətini rəsmi şəkildə qəbul edən ilk böyük ölkə oldu. Bu siyasətin elan olunmuş məqsədi ailə planlaşdırması xidmətlərinə çıxışı asanlaşdırmaqla doğum səviyyəsini azaltmaq idi [19, s. 444].

XX əsrin ikinci yarısından başlayaraq bu məfhum daha çox nəzəri və elmi müzakirələrin predmeti oldu. C.Koldvell, A.Koale, K.Deyvis kimi demoqraflar demoqrafik keçid nəzəriyyəsi çərçivəsində dövlətlərin əhali siyasətinə yanaşmalarını sistemləşdirdilər. Onların işlərində demoqrafik siyasət təkcə doğum və ölüm göstəricilərinə təsir vasitəsi deyil, həm də sosial-iqtisadi modernləşmə, gender bərabərliyi, təhsil və səhiyyə siyasəti ilə sıx bağlı olan bir kateqoriya kimi nəzərdən keçirildi. Bu mərhələdən etibarən demoqrafik siyasət anlayışı siyasi elmlərin də kateqoriyalarından birinə çevrilərək dövlətin legitimliyi, təhlükəsizliyi və davamlı inkişafı ilə bağlı nəzəri diskurslarda əsas mövzulardan biri oldu. Bu dövrdə demoqrafik siyasətin həyata keçirilməsinin, yəni dövlətin doğum proseslərinə təsir göstərməsinin zəruriliyi, demək olar ki, dünyanın bütün ölkələri tərəfindən qəbul edilmişdir. Bu, demoqrafik vəziyyətdən və əhali artımının sürətindən asılı olmayaraq belədir. Demoqrafik siyasətin məqsədi həmin dövr üçün mövcud demoqrafik meylləri dəyişmək və ya onları dəstəkləməkdir [12, s. 29].

Bu gün çatmış olduğu məqamda, demoqrafik siyasətin başlıca mahiyyəti ondan ibarətdir ki, əhalinin demoqrafik inkişafı ölkənin sosial-iqtisadi durumuna və milli təhlükəsizliyinə birbaşa təsir göstərir. Hökumətlərin bu sahəyə müdaxiləsi anlayışı ondan doğur ki, doğum, ölüm və miqrasiya sadəcə statistik rəqəmlər deyil, cəmiyyətin sosial, iqtisadi və siyasi simasını formalaşdıran mühüm amillərdir. Məsələn, əhalinin sayı və strukturu milli gücün əsas elementlərindən biri sayılır və demoqrafiya (o cümlədən miqrasiya) məsələləri milli təhlükəsizlik baxımından son

dərəcə vacib hesab olunur. İnsanlar, adətən, demoqrafik meylləri onların doğurduğu sosial-iqtisadi nəticələr kontekstində dəyərləndirirlər. Yəni əhali artımının "yaxşı" və ya "pis" olması barədə mühakimə artımın doğurduğu iqtisadi rifah və ya sosial problem prizmasından verilir. Bu səbəbdən dövlətlər demoqrafik prosesləri idarə etməklə dolayısı ilə öz ölkələrinin gələcək sosial-iqtisadi durumunu və təhlükəsizliyini formalaşdırmağa çalışırlar.

Tarixi kontekstdə də demoqrafik siyasətin əhəmiyyəti vardır. Uzun müddət boyunca hökmdarlar və dövlət xadimləri əhalinin sayını artırmağın yollarını axtarmış, böyük və artan əhalini dövlətin gücünün, kiçik və azalan əhalini isə zəifliyin əlaməti kimi görmüşlər. Müasir dövrdə, xüsusən II dünya müharibəsindən sonra baş vermiş demoqrafik böhran dünyanın diqqətini bu məsələyə yönəltmişdir. 1945-ci ildən sonra BMT Baş Assambleyasının sessiyalarında demoqrafik problemlər fəal müzakirə olunmuş və 1969-cu ildə BMT-nin Əhali Fondu (UNFPA) yaradılmışdır. XX əsrin ikinci yarısından etibarən "demoqrafik partlayış" (sürətli əhali artımı) və əksinə, bəzi ölkələrdə "demoqrafik böhran" (aşağı doğum səbəbindən əhalinin qocalması) demoqrafik siyasəti dövlət fəaliyyətinin ayrılmaz bir sahəsi halına gətirmişdir. Beləliklə, demoqrafik siyasət siyasi elmlərdə sosial siyasət, iqtisadi inkişaf strategiyaları və milli təhlükəsizlik konsepsiyaları ilə əlaqəli, lakin özünəməxsus predmetə malik ayrıca bir kateqoriya kimi formalaşmışdır. Onu sosial siyasətin bir alt sahəsi kimi görmək mümkün olsa da, demoqrafik siyasət fərqli məqsəd və vasitələrinə görə müstəqil nəzəri təhlil tələb edir.

## Demoqrafik siyasətin kateqoriyaları və növləri

Dövlətlərin demoqrafik siyasəti ölkənin konkret demoqrafik durumundan və milli prioritetlərindən asılı olaraq müxtəlif məqsədlərə xidmət edir. Ümumiyyətlə, hökumətlər iki əsas istiqamətdə demoqrafik siyasət həyata keçirirlər: pronatalist siyasət və antinatalist siyasət.

Pronatalist və antinatalist siyasətlər mahiyyətcə demoqrafik keçid məntiqinə bağlanan, lakin fərqli normativ hədəfləri və vasitələri olan iki konseptual istiqamətdir. Pronatalist yanaşma çox aşağı təbii artım, artan yaşlılıq əmsalı, ixtisaslı işçi çatışmazlığı, ərazi və sərhəd təhlükəsizliyi kimi strateji risklər fonunda doğumların sayını yüksəltməklə əhalinin təkrar istehsalını sabitləşdirməyi hədəfləyir; antinatalist yanaşma isə çox sürətli artımın sosial xərclər, infrastruktur sıxıntıları, torpaq-su-enerji təzyiqi və kütləvi işsizlik riskləri yaratdığı kontekstlərdə artım tempini yumşaltmağı və ailə ölçüsünü kiçiltməyi məqsəd qoyur. Hər iki siyasət növü sırf "say"a deyil, həm də yaş, gender, məkan və etnik-dil tərkibi kimi struktur göstəricilərə təsir etməyə çalışır; bu səbəbdən onlar təkcə sosial rifah blokunun deyil, fiskal siyasətin, əmək bazarının, regional inkişafın, miqrasiya rejiminin və hətta təhlükəsizlik konsepsiyasının ayrılmaz hissəsinə çevrilir. Nəzəri planda pronatalizm daha çox "istənilən uşaq sayı" ilə "reallaşmış uşaq sayı" arasındakı fərqi azaldan maneələrin (maliyyə, zaman, institusional) aradan qaldırılmasına, antinatalizm isə reproduktiv seçimlərin məlumatlı və könüllü şəkildə kiçik ailə norma və dəyərləri ilə uzlaşdırılmasına söykənir; hər iki istiqamətdə uğur davranış motivasiyalarına təsir edən iqtisadi stimulların, hüquqi-institusional çərçivənin və ideyaların (dəyərlər, gender rolları, ailə ideologiyası) birlikdə işləməsindən asılıdır.

Pronatalist siyasətin tətbiq olunma səbəbləri arasında aşağı təbii artım göstəricisi və nəticə etibarilə pensiya-səhiyyə sistemlərinin uzunmüddətli maliyyə dayanıqlığına təhlükə, innovasiya ekosistemlərində gənclərin payının azalması, regionlarda "boşalma" və kənd təsərrüfatında işçi qıtlığı xüsusi yer tutur. Gözlənilən nəticə yalnız dövri (period) təbii artımın qısa sıçrayışı deyil, daha çox xüsusi sosial qrupların təbii artımının, yəni qadınların tamamlanmış doğum sayının dayanıqlı artımı-

dır; əks halda siyasət doğumların re-tayminqini sürətləndirər, lakin uzunmüddətli effekt yaratmaz. Bu məqsədlə mexanizmlər bir-birini tamamlayan üç kanalda işləyir: maliyyə–iqtisadi stimullar (uşaqpulu, vergi kreditləri, güzəştli ipoteka, differensial transferlər), vaxt–institusional tənzimləmə (uzun və çevik ödənişli valideynlik məzuniyyəti, atalıq məzuniyyətinin verilməsi, iş-ailə uzlaşması üçün iş saatlarında çeviklik, uşaq baxımı xidmətlərinin universal əlçatanlığı) və normativ-mədəni müdaxilələr (ailə dostu əmək mühiti, gender bərabərliyini gücləndirən siyasət, media və təhsil vasitəsilə çoxuşaqlı ailə modelinin cazibəsinin artırılması) [13; 14; 15].

Tədqiqatlar göstərir ki, sırf birdəfəlik ödənişlər və ya vergi güzəştləri qadınların əmək bazarında iştirak səviyyəsi yüksək, uşaq baxımı xərcləri ağır olan iqtisadiyyatlarda məhdud təsir göstərir; dayanıqlı nəticə üçün keyfiyyətli və sərfəli uşaq baxımı infrastrukturunun genişləndirilməsi, iş yerlərində çeviklik, ata-ana rollarının simmetriyası və gənc ailələrin mənzilə çıxış imkanları həlledicidir. Eyni zamanda, pronatalist "paket" miqrasiya siyasəti ilə strateji koordinasiyada olmalıdır: qısamüddətli əmək qıtlığını kompensasiya edən immiqrasiya uzunmüddətli demoqrafik sabitlik üçün daxili doğum artımı ilə rəqabətdə deyil, tamamlayıcı olaraq dizayn edildikdə fiskal və sosial balans pozulmur; əks halda sosial gərginlik, regionlararası bərabərsizlik və identiklik siyasətlərində sərtləşmə riski artır.

Antinatalist siyasətin tətbiq olunma səbəbləri sürətli demoqrafik genişlənmənin insan kapitalına düşən ortalama sərmayəni seyrəltməsi, ictimai xidmətlərin (su, sanitariya, səhiyyə, təhsil) tutumlarını aşırı yükləməsi, gənclərin məşğulluq imkanlarını üstələməsi və kənd-sənaye transformasiyasında torpaq təzyiqinin kəskinləşməsidir. Gözlənilən nəticə qısamüddətdə doğumların təhlükəsiz və planlı şəkildə azalması, orta müddətdə ana–uşaq ölümünün enməsi və təhsil göstəricilərinin yüksəlməsi, uzun müddətdə isə demoqrafik dividendlə iqtisadi artım potensialının genişlənməsidir; lakin dividend avtomatik deyil, yalnız iş yerlərinin yaradılması, makroiqtisadi sabitlik, maliyyə sektorunda qənaət-investisiya kanallarının dərinləşdirilməsi və səmərəli idarəetmə ilə reallaşır. Antinatalist mexanizmlər hüquqların müdafiəsinə söykənən könüllü ailə planlaşdırması xidmətlərinin yayılması, kontraseptivlərin əlçatanlığının artırılması və "qarşılanmamış ehtiyac"ın azaldılması, qızların orta və ali təhsilə davamlı çıxışı, minimum nikah yaşının yüksəldilməsi və uşaq evliliyinə qarşı sanksiyalar, reproduktiv sağlamlıq xidmətlərinin gücləndirilməsi, habelə ÇXR-dəki kimi KİV və ictimai maarifləndirmə vasitəsilə kiçik ailə norması və uşaq intervalının uzadılması kimi davranış dəyişikliyi strategiyalarından ibarətdir [16].

Hüquqi rejimdə abortun kriminalizasiyası və ya məhdudlaşdırılması kimi sərt alətlərin antinatalist məqsədlərlə istifadəsi həm etik, həm də praktik baxımdan arzuolunmaz nəticələr doğura bilər; əvəzində keyfiyyətli və könüllü xidmətlər, qadınların əmək bazarında imkanlarının genişlənməsi, şəhərləşmə və sosial təminat şəbəkələrinin güclənməsi təbii artımın struktur səbəblərinə toxunaraq daha dayanıqlı eniş yaradır. Əlavə risklərə selektiv abortlar nəticəsində cins nisbətinin pozulması, regionlar üzrə demoqrafik heterogenliyin dərinləşməsi və çoxuşaqlı ənənələrin sosial cəzalara məruz qalması daxildir; buna görə antinatalist paket gender bərabərliyi, hüquqi müdafiə və mədəni həssaslıq prinsipləri ilə çərçivələnməlidir [17].

Hər iki istiqamət üçün nəzəri-konseptual çərçivənin mərkəzində uzunmüddətli geri dönüşlərin düzgün qiymətləndirilməsi dayanır. Pronatalist müdaxilələrdə "tempo-kvant" fərqini ölçmədən uğur elan etmək yanlışdır: doğumların sadəcə öndən alınması statistik yüksəliş yaratsa da, tamamlanmış təbii artımı dəyişmirsə, fiskal xərclər yüksək, nəticə isə dayanıqsız olar. Demoqrafik kontekstdə kvant effekti ömür boyu baş verən hadisələrin ümumi miqdarını və ya sayını (məsələn, tamam-

lanmış doğum sayı) ifadə edir, tempo effekti isə həmin hadisələrin nə vaxt və hansı sürətlə baş verməsi ilə bağlıdır (məsələn, uşağın hansı yaşda dünyaya gətirilməsi). Tempo effekti dövri göstəriciləri təhrif edir və onları kvant dəyişikliyi kimi göstərir, halbuki uzunmüddətli kvant sabit qalır, sadəcə hadisələrin vaxtı təxirə salınır və ya irəli çəkilir.

Antinatalist müdaxilələrdə isə qısa müddətdə bufer təsiri yaradan sürətli eniş gələcəkdə sürətli qocalma və asılılıq əmsalının yüksəlişi ilə cavab verə bilər; o səbəbdən ölüm səviyyələrinin azalması, miqrasiyanın idarə olunması və əmək məhsuldarlığının artırılması ilə bağlı paralel siyasət tələb olunur [18]. Hər iki siyasət ailə və reproduktiv hüquqların qorunması, gender bərabərliyi, uşağın ali mənafeyi və diskriminasiya qadağası kimi normativ dayaqlara söykənməli, həmçinin regional balansı, mənzil və nəqliyyat şəbəkələrini, uşaq baxımı, rəqəmsal xidmətlərin əlçatanlığını və əmək bazarının elastikliyini birgə optimallaşdırmalıdır.

## Nəticə

Demoqrafik siyasət anlayışının etimologiyası və inkişafı üzrə aparılan bu tədqiqat göstərdi ki, əhali dinamikası yalnız statistik göstəricilər müstəvisində deyil, dövlətin güc potensialı, idarəetmə institutlarının dayanıqlığı və beynəlxalq münasibətlər sisteminin sabitliyi baxımından strateji əhəmiyyət daşıyır. Müasir dövrdə demoqrafik proseslərin idarə olunması siyasi, sosial, iqtisadi və təhlükəsizlik ölçülərinin kəsişməsində formalaşır və dövlətlərin uzunmüddətli inkişaf konsepsiyalarının ayrılmaz tərkib hissəsinə çevrilir. Bu baxımdan, tədqiqat nəticəsində əldə olunan əsas məqamlar aşağıdakı kimi ümumiləşdirilə bilər:

– Demoqrafiya anlayışı qədim yunan dilində “dēmos” və “graphein” sözlərinin birləşməsindən yaranmış, XIX əsrdə elmi sahə kimi formalaşmış və müasir dövrdə siyasətin fundamental istiqamətlərindən biri kimi qəbul olunmuşdur.

– Demoqrafik siyasət dövlətin məqsədyönlü şəkildə əhali artımına, azalmasına və strukturuna təsir göstərmək üçün həyata keçirdiyi tədbirlər toplusudur və bu sahə doğum, ölüm, miqrasiya və ailə institutuna dair siyasətlərin sistemli idarəsini əhatə edir.

– Siyasi elmlər baxımından demoqrafik göstəricilər seçki coğrafiyası, nümayəndəlik, milli təhlükəsizlik, miqrasiya və dövlətin legitimlik mexanizmləri ilə sıx əlaqəlidir, bu da onun nəzəri və praktiki siyasi kursda mərkəzi yer tutduğunu göstərir.

– Demoqrafik siyasətin tarixi inkişafı Avropa və Rusiyada XX əsrin əvvəllərindən başlayaraq müxtəlif ideoloji, iqtisadi və hərbi məqsədlərə xidmət etmiş, xüsusilə müharibə, sənayeləşmə və urbanizasiya dövrlərində əhalinin dövlət gücü ilə birbaşa əlaqələndirilməsinə səbəb olmuşdur.

Tədqiqatımızın gələcək üçün əhəmiyyəti ondan ibarətdir ki, qloballaşan dünyada demoqrafik siyasət milli maraqların qorunması və beynəlxalq sabitliyin təmin olunması üçün mühüm strateji sahəyə çevrilməkdədir. Demoqrafik göstəricilərin idarə olunması sosial rifah, əmək bazarı, səhiyyə, təhsil, gender bərabərliyi və mədəni inteqrasiya kimi istiqamətlərdə dövlətlərin dayanıqlılığını müəyyən edir. Bu səbəbdən, demoqrafik siyasətin nəzəri əsaslarının dərinləşdirilməsi və praktiki tətbiqlərinin genişləndirilməsi gələcəkdə milli və qlobal idarəetmənin keyfiyyətini müəyyən edən həlledici amil olacaqdır.

Tədqiqatımızın nəticəsi olaraq deyə bilərik ki, bir ölkədə demoqrafik siyasətin effektiv olması üçün dövlətlər müxtəlif vasitə və tədbirlər kompleksindən istifadə edirlər. Ümumiyyətlə, demoqrafik siyasət iqtisadi, inzibati-hüquqi və sosial-təbliğati tədbirlərin vəhdətinə əsaslanır. Bu tədbirlər əhalinin demoqrafik davranışına həm birbaşa, həm də dolayı yollarla təsir etməyi hədəfləyir.

Məsələn, onlardan biri iqtisadi cəhətdən stimullaşdırıcı tədbirlərdir. İqtisadi stimullaşdırıcı tədbirlər nəzəri-konseptual baxımdan pronatalist siyasətin əsas sütunlarından biri hesab edilir, çünki doğum qərarları yalnız şəxsi və mədəni dəyərlərə deyil, həm də ailələrin maddi imkanlarına və iqtisadi mühitin verdiyi şərtlərə bağlıdır. Ailələr üçün uşaq dünyaya gətirmək ciddi maliyyə məsuliyyəti doğurduğundan dövlətin birdəfəlik müavinətlər, uşaqpulu, güzəştli ipoteka və vergi güzəştləri kimi alətlər vasitəsilə bu yükü azaltması reproduktiv davranışa təsir edən mühüm mexanizm sayılır. Lakin nəzəri planda bu tədbirlər "səthi stimullaşdırma" ilə "struktural dəstək" arasındakı fərqlə bağlıdır: sadəcə maliyyə transferləri qısamüddətli davranış dəyişiklikləri yarada bilər, ancaq uzunmüddətli təkrar istehsalı sabitləşdirmək üçün sosial institutların (iş-ailə balansı, uşaq baxımı infrastrukturu, gender rollarının transformasiyası) gücləndirilməsi zəruridir. Bu səbəbdən iqtisadi stimullar doğumu artırmaq üçün kifayət deyil, lakin siyasət paketində tamamlayıcı element kimi vacibdir.

**Ədəbiyyat:**


1. Alaca, D. T. Essays on the components of demographic change in Turkey: An application of decomposition methods. Doktora tezi. Ankara: Hacettepe Üniversitesi Nüfus Etütleri Enstitüsü, 2022. 256 s.
2. Azərbaycanın demoqrafik inkişafı sosial-iqtisadi yüksəlişin əsas göstəricisidir. URL: https://shorturl.at/B0FVg
3. Goerres, A., & Vanhuysse, P. (Eds.) Global Political Demography: The Politics of Population Change. Palgrave Macmillan, 2021, 459 p.
4. Goldstone, J. A., Kaufmann, E. P., & Toft, M. D. eds. Political Demography: How Population Changes Are Reshaping International Security and National Politics. Paradigm Publishers, 2011.
5. Origin and history of demographic. URL: https://www.etymonline.com/word/demographic
6. Population Policies Research Paper. URL: https://www.iresearchnet.com/research-paper-examples/political-science-research-paper/population-policies-research-paper/
7. Short, J.R. Demography and the Making of the Modern World: Public Policies and Demographic Forces. Newcastle: Agenda Publishing, 2024. 192 p.
8. Vandenbroucke, G. On a demographic consequence of the First World War. URL: https://cepr.org/voxeu/columns/demographic-consequence-first-world-war
9. World Population Prospects 2024. Methodology Report. Methodology of the United Nations population estimates and projections. United Nations. New York: 2024. URL: https://www.un.org/development/desa/pd/sites/www.un.org.development.desa.pd/files/files/documents/2024/Jul/undesa_pd_2024_wpp2024_methodology-report.pdf
10. Елизаров В.В. Теория и практика демографической политики в СССР. Статистика и экономика, 2017, (5), 71-84.
11. Sarygulov, A., & Arslanagic-Wakefield, P. Understanding the Baby Boom. URL: https://worksinprogress.co/issue/understanding-the-baby-boom/
12. Нуров, Н. Сущность демографической политики и её основные направления. Вестник Педагогического университета, 2014, (1-1 (56)), 27-31.
13. Chan, A., & Yeoh, B. S. A. Gender, Family and Fertility in Asia: An Introduction. Asia-Pacific Population Journal, Vol. 17, No. 2. pp. 5-10.

14. Bai, Z. Gender and Fertility Strategy in a Yi Community. Asia-Pacific Population Journal, Vol. 17, No. 2. pp. 39-60.
15. Graham, E., Teo, P., Yeoh, B., & Levy, S. Reproducing the Asian Family Across the Generations: "Tradition", Gender and Expectations in Singapore. Asia-Pacific Population Journal, Vol. 17, No. 2. pp. 61-86.
16. Strom, R.D., Strom, S.K. & Xie, Q. The small family in China. IJEC, 1995, 27, pp. 37-46.
17. Hall, B., Akwatu, C., & Danvers, A. A. Reproductive Justice as a Framework for Abortion Care. Clin Obstet Gynecol. 2023, Dec 1;66(4): 655-664.; Gianella-Malca, C., & Tønnessen, L. Health effects of criminalization of abortion. 2015. URL: https://shorturl.at/iAsqi
18. Hock, H., & Weil, D. N. On the dynamics of the age structure, dependency, and consumption. J Popul Econ. 2012 Jul 1;25(3):10.; King, E. M., Randolph, H. L., Floro, M. S., & Suh, J. Demographic, health, and economic transitions and the future care burden. World Dev. 2021 April, 140:105371.
19. May, J. F. The Role of Population Policies. Dans Études, 2012/11, Volume 417, pages 441-452.

***Açar sözlər:*** *demoqrafik siyasət, siyasi demoqrafiya, demoqrafik keçid, miqrasiya, milli təhlükəsizlik, pronatalizm, antinatalizm*

**Ulviyya Hagverdi**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Political Science and Political Management, Associate Professor, Ph.D. in Political Science*

# ETYMOLOGY, DEVELOPMENT, AND CONCEPTUAL ANALYSIS OF THE CONCEPT OF DEMOGRAPHIC POLICY

## ABSTRACT

The study systematically examines the etymology of the concept of demographic policy, its stages of development, and its intersections with political science. The terminological foundations are first outlined: the origin of demography is traced to the ancient Greek words dēmos and graphein, while in the 19th century it became institutionalized as a distinct scientific discipline. The article demonstrates that demographic indicators are not merely statistical measurements but also strategic factors shaping electoral geography, representation norms, the welfare model, national security, and legitimacy mechanisms. The article systematically examines the conceptual analysis of demographic policy, its historical dynamics of development, and its modern directions. The article further explains the main directions of demographic policy: pronatalist and antinatalist. Pronatalist policy aims to stimulate fertility in response to the risks of declining birth rates, while antinatalist policy seeks to alleviate the social and economic pressures caused by excessively rapid population growth. In both policy courses, the integration of economic incentives, legal-institutional frameworks, and cultural values is considered essential. Ultimately, the article concludes that the effectiveness of demographic policy is ensured not only by financial measures but also through the strengthening of social institutions, the preservation of work-family balance, and the optimization of regional development mechanisms.

***Keywords:*** *demographic policy, political demography, demographic transition, migration, national security, pronatalism, antinatalism*

**Ульвия Хагверди**

*Доцент кафедры Политологии и политического управления*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республик,*
*доктор философии по политическим наукам*

# ЭТИМОЛОГИЯ, РАЗВИТИЕ И КОНЦЕПТУАЛЬНЫЙ АНАЛИЗ ПОНЯТИЯ ДЕМОГРАФИЧЕСКОЙ ПОЛИТИКИ

## РЕЗЮМЕ

В статье системно анализируется этимология понятия демографической политики, этапы его формирования и точки пересечения с политическими науками. Сначала раскрываются терминологические основы: происхождение демографии связано с древнегреческими словами dēmos и graphein, а в XIX веке она институционализируется как отдельная научная дисциплина. Показывается, что демографические показатели являются не только статистическими измерениями, но и стратегическими факторами, формирующими избирательную географию, нормы представительства, модель социального благосостояния, национальную безопасность и механизмы легитимности. Далее исследуется концептуальный анализ понятия демографической политики, её историческая динамика развития и современные виды. Также отдельно раскрываются основные направления демографической политики, как про-наталистская и антинаталистская. Про-наталистская политика направлена на стимулирование рождаемости в ответ на риски низкого её уровня, тогда как антинаталистская политика предназначена для смягчения социальных и экономических последствий чрезмерно быстрого роста населения. В обоих курсах важным условием эффективности выступает сочетание экономических стимулов, правовых и институциональных рамок и культурных ценностей. В итоге делается вывод, что результативность демографической политики обеспечивается не только финансовыми мерами, но и укреплением социальных институтов, поддержанием баланса между работой и семьёй, а также оптимизацией механизмов регионального развития.

***Ключевые слова:*** *демографическая политика, политическая демография, демографический переход, миграция, национальная безопасность, пронатализм, антинатализм*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.038

**H Ü Q U Q**
**L A W**

UOT 342.9

**SEYFULLA ASLANOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru**

*e-mail: aslanovseyfulla@gmail.com*

# DÖVLƏT İDARƏÇİLİK ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

Azərbaycan Respublikasında dövlət idarəçilik orqanlarının fəaliyyətinin təşkili və sivil dünya tələblərinə uyğun sistemli surətdə innovativ metodlarla təkmilləşdirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət idarəetmə sistemində islahatların böyük əhəmiyyətini və miqyasını nəzərə alaraq, bu islahatların daha səmərəli surətdə həyata keçirilməsini təmin etmək məqsədilə Ulu Öndər hələ 29 dekabr 1998-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" fərmanla həmin komissiya rəhbərliyi şəxsən öz üzərinə götürmüşdür. Fərmanda göstərilirdi ki, cəmiyyətin demokratikləşdirilməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatlar aparılması prinsipial əhəmiyyət kəsb edir.

Bu sahədə islahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmalı, iqtisadiyyatın tarazlaşdırılmış tənzimlənməsi məqsədi ilə zəruri təsisatların formalaşdırılmasını, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiya olunmasını sürətləndirmək məqsədi ilə iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi baza yaradılmasını təmin etməlidir. Eyni zamanda, bu məqsədlər üçün dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizminin formalaşdırılması, audit və dövlət idarəetmə (o cümlədən dövlət qulluğu) sisteminin yenidən qurulması, iqtisadiyyatın idarə olunmasının təsisat sisteminin təkmilləşdirilməsi, hüquqi və məhkəmə islahatlarının aparılması sistemli yanaşma əsasında kompleks şəklində həyata keçirilməlidir [4].

Dövlət idarəçilik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində Ümummilli Lider Heydər Əliyevin gördüyü taleyüklü işlər Qalib Ordunun Ali Baş Komandanı, Möhtərəm Cənab Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Belə ki, iqtisadiyyatın və cəmiyyətin rəqəmsal inkişafı son illərdə Azərbaycan Respublikasının qarşısında duran prioritet məsələlərdən birinə çevrilmişdir. Müasir dövrdə telekommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaratmışdır. Qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal inkişaf, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur [20, s.137-142].

Ölkədə rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində yeni infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlər görülmüşdür [21, s. 243-256]. İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, "Hökumət buludu" (G-Cloud), "Böyükhəcmli məlumatlar" (Big Data), "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. Bu sahədə Azərbaycan Respublikasının Prezidentinin İlham Əliyev cənablarının "Rəqəmsal inkişaf sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 27 aprel 2021-ci il tarixli Fərmanı [9] və "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında 2025-ci il 16 yanvar tarixli Fərmanı [10] mühüm əhəmiyyət kəsb edir.

Dövlət idarəçilik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində aparılan islahatlar rəqəmsal iqtisadiyyatın inkişafına, texnologiya tətbiqlərinin genişləndirilməsinə, rəqəmsal məhsul və xidmətlərin əhatə dairəsinin genişləndirilməsinə, rəqəmsallaşdırma proseslərinin optimallaşdırılmasına, dövlət xidmətlərinin sadələşdirilməsinə, istifadəçiyönümlü rəqəmsal xidmətlərin təşkilinə, "bir pəncərə" prinsipi ilə vətəndaşlara təqdim olunan rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsinə, insan resurslarının inkişafına, dövlət-vətəndaş əlaqələrinin yaxşılaşdırılmasına, dövlət xidmətlərinin keyfiyyətindən məmnunluğun və dövlətə inamın artırılmasına səbəb olacaqdır [22, s. 257-274].

Rəqəmsal inkişaf çərçivəsində dövlət qurumlarının fəaliyyətində, müxtəlif sənaye və xidmət sahələrində rəqəmsal texnologiyaların tətbiqi normativ tənzimləmə sahəsində yeni tələblər irəli sürür. Baş verən texnoloji dəyişikliklərə vaxtında uyğunlaşmaq üçün müvafiq tənzimləmə daha çevik və adekvat olmalıdır. Rəqəmsal texnologiyalar tənzimləməyə yeni yanaşmalar tələb etməklə bərabər, normativ bazanın müasir tələblərə uyğunlaşdırılması üçün də yeni imkanlar yaradır. Dövlət idarəetməsində rəqəmsal inkişaf bir tərəfdən, qərarların qəbulunun sürətini artırır, digər tərəfdən, rəqəmsal inkişafın formalaşdırdığı yeni şəraitin və ya münasibətlərin normativ tənzimlənməsində keyfiyyətin artırılması üçün normayaratma prosesinə yeni baxışlar gətirə bilir .

Dövlət idarəçilik orqanlarının öz səlahiyyətləri çərçivəsində dövlətin vəzifə və funksiyalarını daha səmərəli surətdə həyata keçirməsində həmin orqanların inzibati fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Belə ki, dövlət idarəçilik orqanlarının inzibati fəaliyyəti – dövlət idarəçilik orqanlarının qanunvericiliklə müəyyənləşdirilmiş fəaliyyət istiqamətləri üzrə öz səlahiyyətləri çərçivəsində dövlətin vəzifə və funksiyalarının bilavasitə, gündəlik və praktiki olaraq həyata keçirilməsindən ibarət olan məqsədyönlü, təşkiledici, icraedici-sərəncamverici və təşkilati-hüquqi fəaliyyət formasıdır. Məsələn, miqrasiya orqanlarının inzibati fəaliyyət sahəsinə səlahiyyətlərinə Azərbaycan Respublikası vətəndaşlarının ölkədən getməsi, ölkəyə gəlməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi və Azərbaycan Respublikasından getməsi, Azərbaycan Respublikasında müvəqqəti olması, onlara müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, onların qeydiyyata alınması, miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri, əmək miqrasiyası, habelə miqrasiyaya dövlət nəzarəti və qanunsuz miqrasiyaya qarşı mübarizə məsələləri daxildir.

Başqa bir nümunə kimi Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin inzibati fəaliyyətini göstərmək olar. Bu idarəçilik orqanı rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrolo-

giya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət siyasətini və tənzimləməsini, habelə ölkədə dövlət əyar nəzarətini və qiymətli metalların, qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi, eləcə də emal edilməmiş almazların idxalı, ixracı, istifadəsi, dövriyyəsi, uçotu və saxlanılması, o cümlədən izlənməsi sahələrində dövlət nəzarətini həyata keçirir.

Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyəti dövlət hakimiyyətinin həyata keçirilməsinin və cəmiyyətin normal fəaliyyətinin təmin olunmasının mühüm aləti və ən etibarlı vasitələrindən biridir. Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyəti – ictimai həyatın müxtəlif sahələrində dövlətin funksiyalarının həyata keçirilməsinə yönəlmiş geniş fəaliyyət istiqamətləridir. Bu idarəçilik orqanlarının Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının, eləcə də digər normativ-hüquqi aktlarının icrasına yönəldilmiş idarəçilik xarakterli icra-sərəncam fəaliyyətidir.

Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyəti idarəetmə (məsələn, tikintiyə icazə verilməsi, müəyyən fəaliyyət sahələri ilə məşğul olunması üçün lisenziyanın verilməsi, lisenziyanın (icazənin) yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpa edilməsi, ləğvi və s.), icraya nəzarət (texniki təhlükəsizlik və əmək qanunvericiliyinin, yanğın təhlükəsizliyi, ekoloji və qida təhlükəsizliyi, sanitariya nəzarəti, dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən mallar üzərində sanitariya nəzarəti və s.), publik funksiyaların həyata keçirilməsi (əhaliyə təhsil, səhiyyə və sosial təminat və digər sahələrdə dövlət xidmətinin əlçatanlığının təmin edilməsi), qanunçuluğun təmini (inzibati fəaliyyət vətəndaşların hüquq və azadlıqlarının qorunması, ictimai asayişin müdafiəsi və hüquqpozmalarla mübarizənin səmərəli təşkilinə yönəlmişdir) və qanunların icrasını (dövlət idarəçilik orqanları qanunlara və digər normativ-hüquqi aktların tələblərini öz fəaliyyətlərində rəhbər tutmalı və vətəndaşların da onlara əməl etməsini təmin etməlidir) özündə birləşdirir.

Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin hüquqi bazasının formalaşmasında 21 oktyabr 2005-ci il tarixdə qəbul edilmiş "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi mühüm rol oynamışdır. Həmin normativ hüquqi aktlar ölkəmizin hüquq sistemində əhəmiyyətli yenilik yaratmış keyfiyyət dəyişikliyi kimi qiymətləndirilə bilər. Hər iki qanunvericilik aktı 01 yanvar 2011-ci il tarixdən qüvvəyə minmişdir. Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş İnzibati Xətalar Məcəlləsinin də bu sahədə əhəmiyyəti qeyd olunmalıdır. Lakin təəssüflə qeyd olunmalıdır ki, istər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, istərsə də "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda "inzibati fəaliyyət" anlayışından istifadə olunmamış, həmin anlayış qeyd olunan normativ hüquqi aktlarda işlədilməmişdir.

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində də "inzibati " anlayışından istifadə olunmasa da, yalnız bir yerdə "inzibati fəaliyyət qabiliyyəti" ifadəsi işlədilir. Belə ki, həmin Məcəllənin 26.1.2-ci maddəsinə əsasən, mülki hüquq normalarına əsasən məhdud fəaliyyət qabiliyyətli hesab edilən, lakin inzibati məhkəmə icraatının predmetinə münasibətdə ümumi hüquq normalarına uyğun olaraq inzibati fəaliyyət qabiliyyətli sayılan şəxslər inzibati məhkəmə icraatında prosessual hərəkətləri etmək hüququna malikdirlər.

Göründüyü kimi, İnzibati Prosessual Məcəllədə də qeyd olunan "inzibati fəaliyyət qabiliyyəti" ifadəsindən başqa, "inzibati fəaliyyət" anlayışında istifadə olunmaması, bu anlayışın hüquqi statusunun müəyyənləşdirilməsində və hüquqi tənzimlənməsində əhəmiyyətli problemlər yaradır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun qeyd olunan

hüquq sahəsinə aid qərarlarına da "inzibati fəaliyyət" anlayışında istifadə olunmamışdır. Eyni ifadəni Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun müvafiq qərarları haqqında da demək olar. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" 10 aprel 2015-ci il tarixli 4 nömrəli, "İnzibati məhkəmə icraatında iddianın mümkünlüyünə dair" 10 aprel 2015-ci il tarixli 5 nömrəli, "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qərarlarının icrasının təmin edilməsi haqqında" 2021-ci il 19 noyabr tarixli 10 nömrəli və "İnzibati mübahisələrə dair işlər üzrə məhkəmə qaydasında tətbiq edilən müvəqqəti xarakterli müdafiə tədbirləri haqqında" 2023-cü il 4 oktyabr tarixli 14 nömrə qərarlarında da "inzibati fəaliyyət" anlayışı işlədilməmişdir.

Yuxarıda qeyd olunanlar hüquq elminə və bu sahədə elmi tədqiqatlara da təsirsiz ötüşməmiş, dövlət idarəçilik orqanlarının inzibati fəaliyyəti, demək olar ki, diqqətdən kənarda qalmış, fundamental elmi-tədqiqatlar predmetinə çevrilməmişdir. Göstərilən səbəblər bu sahədə elmi-tədqiqatların zəruriliyinin və aktuallığının göstəricisidir.

"İnzibati fəaliyyət" anlayışına xüsusi diqqət yetirilməsi onun inzibati hüquq elminin öyrənilməsində, tədqiqində və hüquq nəzəriyyəsinin zənginləşdirilməsində mühüm əhəmiyyətə malik olması ilə əlaqədardır. Belə ki, elmi tədqiqatların, xüsusilə inzibati-hüquq sahəsində aparılan tədqiqatların səmərəliliyinin artırılması yalnız tətbiqi mövzuların deyil, eyni zamanda elmin ümumi nəzəri əsaslarının – anlayışlar (predmet və hadisələrin ümumi, mühüm əlamətlərini əks etdirən fikirdir, təfəkkür forması) və kateqoriyalar (maddi aləmin, varlığın ən ümumi və mühüm xassə və münasibətlərini əks etdirən məfhum) daxil olmaqla – işlənməsini tələb edir.

İnzibati hüquqi anlayışlar və kateqoriyalar hüquqi hadisələrə dair biliklərin ümumiləşdirilmiş formasını təmsil etdiklərinə görə elmin inkişafında müəyyən bir mərhələ, bir pillə, bir dəstək nöqtəsi kimi xarekterizə olunur və "hərəkətverici qüvvə" rolunu oynayır. Eləcə də, inzibati hüquqdakı anlayışlar sovet dövründə mahiyyətindən uzaqlaşdırılaraq bolşevik-totalitar rejimin tələblərinə yuğunlaşdırıldığından, onun "sovet donunu" çıxardaraq, sivil dünya standartlarına uyğunlaşdırmaq əlavə problemlər yaraqdır. Bütün bunlara baxmayaraq, anlayışlar və kateqoriyalar inzibati-hüquqi nəzəriyyədə dəqiq mülahizələrin və nəticələrin formalaşdırılması üçün başlanğıc nöqtəsi, həmçinin inzibati qanunvericiliyin formalaşması və inkişaf qanunauyğunluqlarının dərk olunması vasitəsidir.

İnzibati fəaliyyətin tədqiqi "inzibati fəaliyyət" anlayışının genezisini – yəni yaranması və inkişaf prosesini – öyrənməni zəruri edir. Bu, birinci olaraq anlayışın tarixi inkişafının izlənilməsini, ikinci olaraq anlayışın digər oxşar anlayışlarla müqayisəsini və üçüncü olaraq bu anlayışın milli və xarici qanunvericiliklərdə təsbit olunmasına elmi baxışı əhatə edir. Bu sahədə Rusiya Federasiyasının hüquqşünas alimi S.S.Kuprevin əsərləri [27, c. 16-29] xüsusi diqqət tələb edir və böyük əhəmiyyət kəsb edir [28, c. 10-12]. Müəllif keçmiş SSRİ məkanında formalaşmış dövlətlərdən inzibati hüquq anlayışlarına ən çox tədqiqat obyektinə çevirən və yeni dövrün tələblərini nəzərə almaqla qabaqcıl dünya ölkələrinin müsbət təcrübəsindən bəhrələnən azsaylı alimlərdən biridir [29, c. 16-24].

Hüquq ədəbiyyatında göstərilir ki, "inzibati fəaliyyət" anlayışının hüquq elminə daxil olması 19-cu əsrin sonlarına təsadüf edir. Belə ki, Almaniyanın görkəmli hüquqşünas alimi, professor Otto Mayer (1846-1924) bu anlayışı geniş şəkildə dövriyyəyə buraxaraq inzibati fəaliyyəti qanunverici və məhkəmə fəaliyyətindən fərqli olan dövlət fəaliyyəti kimi izah etmişdir [26, c. 409]. Bu yanaşma Rusiya hüquqşünaslarının – A.İ. Yelistratov, V.V. İvanovski, N.İ. Lazarevski, V.M. Hessen, M.V. Zdaneviç və başqalarının – əsərlərində daha da inkişaf etdirilmişdir[30, c. 32-36]. Həmin dövrdə inzibati hüquq elminin əsas nailiyyəti inzibati fəaliyyətin dövlət fəaliyyə-

tinin ayrıca bir növü kimi müəyyənləşdirilməsi olmuşdur. Bu fəaliyyətin həm məzmununa, həm də forma baxımından qanunverici və məhkəmə fəaliyyətindən fərqləndiyi qeyd olunmuşdur.

Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin mahiyyəti – onun vasitəsi ilə həmin orqanların qarşısında duran vəzifə və funksiyaların qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilməsinin təmin edilməsindən ibarətdir. Digər tərəfdən isə dövlət idarəçiliyi sahəsində idarəçilik orqanlarının qarşısında duran vəzifələrin həcmindən və onların məzmunca müxtəlifliyindən, yəni onların vəzifələrinin xüsusiyyətlərindən asılı olaraq həmin orqanların vəzifə və funksiyaları müxtəlif xarakterli və böyük həcmlidir. Bu mürəkkəb funksiyalar inzibati fəaliyyət forması vasitəsi ilə həyata keçirildiyi üçün praktiki cəhətdən həmin fəaliyyət mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunan səciyyəvi cəhətlərinə və xarakterik keyfiyyət xüsusiyyətlərinə görə inzibati fəaliyyət cinayət təqibi, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat və digər fəaliyyət formalarından fərqləndirilir. Odur ki, dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin predmetini – həmin idarəçilik orqanlarının icraedici-sərəncamverici fəaliyyəti sahəsində yaranan ictimai münasibətlər, eləcə də dövlət idarəçilik orqanlarının strukrur qrumlarının və tabe xidmət sahələrinin təşkili və fəaliyyətlərini tənzimləyən inzibati-hüquqi normaların məcmusu təşkil edir.

Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin xarakterik əlamətləri aşağıdakılardır: dövlət-hakimiyyət xarakterli olması, təşkilati xarakterli olması, inzibati fəaliyyətin həyata keçirilməsi prosesi idarədaxili və idarədənkənar nəzarətin altında olması, mərkəzləşdirilmiş rəhbərlik elementlərinin operativ (bilavasitə) idarəetmə ilə əlaqələndirilməsi, qanunqüvvəli və profilaktika istiqamətli xarakterliliyi. Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin dövlət hakimiyyət xarakterliyi – bu orqanlar tərəfindən onların üzərinə qoyulmuş inzibati-hüquqi səlahiyyətlərin qanunla ciddi müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlətin adından həyata keçirilməsində öz əksini tapır. Belə ki, dövlət idarəçilik orqanlarının əməkdaşları inzibati funksiyaları yerinə yetirərkən icrası məcburi olan göstərişlər vermək, zəruri hallarda məcburetmə təsir tədbirlərini tətbiq etmək hüququna malik olan idarəetmə subyekti kimi (hakimiyyət nümayəndəsi kimi) çıxış edirlər.

Buna görə də idarəetmə obyektləri ilə münasibətdə dövlət idarəçilik orqanlarının icraedici fəaliyyətləri eyni zamanda sərəncamverici fəaliyyətdən də ibarət olur. Dövlət idarəçilik orqanlarının məhz bu sərəncamverici səlahiyyətlərində inzibati fəaliyyətin dövlət-hakimiyyət xarakterliyinə malik olması öz ifadəsini tapır. Məsələn, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi xüsusi təhlükəli heyvan xəstəlikləri baş verdikdə qoruyucu karantin, xüsusi baytarlıq tədbirlərinin və digər tədbirlərin həyata keçirilməsi qaydalarını müəyyənləşdirmək, baş vermiş xəstəliyin yayılma təhlükəsi olan zonalarda qanunla müəyyən edilmiş hallarda və qaydada karantin və ya məhdudiyyət tədbirləri tətbiq etmək, heyvanların kəsilməsi və ya məhv edilməsi, heyvan mənşəli xammalın, baytarlıq preparatlarının, yem məhsullarının və yem əlavələrinin zərərsizləşdirilməsi və ya utilizasiya edilməsi haqqında icrası məcburi olan göstərişlər vermək səlahiyyətini malikdir.

Göstərilənlərdən əlavə, qida təhlükəsizliyi orqanları qanunla müəyyən edilmiş hallarda və qaydada müvafiq sahədə yoxlamalar aparmaq və digər dövlət nəzarəti tədbirlərini həyata keçirmək, bu sahədə aşkar olunmuş qanun pozuntularının aradan qaldırılması və (və ya) məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərarlar qəbul edə və göstərişlər verə bilər.

"Polis haqqında" Azərbaycan Respublikası qanununun "Polisin qanuni tələblərinin icrasının məcburiliyi" adlanan 7-ci maddəsinə əsasən, polis əməkdaşı qanunla müəyyənləşdirilmiş səlahiyyətləri yerinə yetirərkən dövlət hakimiyyətinin nümayəndəsi kimi çıxış edir. Azərbaycan Respublikasının ərazisində olan

bütün hüquqi və fiziki şəxslər polis əməkdaşının qanuni tələblərini icra etməlidirlər. Polis əməkdaşının qanuni tələblərinə tabe olmamaq, ona müqavimət göstərmək və zor işlətmək və ya onu təhqir etmək Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Bəzi hallarda, dövlət idarəçilik orqanları müəyyən inzibati funksiyaları yerinə yetirərkən digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Məsələn, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları gömrük orqanları ilə birlikdə dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində baytarlıq, fitosanitar və qida təhlükəsizliyi nəzarəti ilə bağlı tədbirləri həyata keçirirlər.

Müəyyən hallarda, müvafiq dövlət idarəçilik orqanlarının əməkdaşları hakimiyyət nümayəndəsi kimi qanunla üzərlərinə qoyulmuş vəzifələrin icrası məqsədilə digər dövlət orqanlarının da fəaliyyətini əlaqələndirmək vəzifələrini icra edirlər. Belə ki, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün qanunla müəyyənləşdirilmiş tələblərə riayət olunmasına nəzarət etmək, müvafiq sahədə vahid tənzimləməni həyata keçirmək, habelə öhdəlik daşıyan şəxslərin, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək, şəffaflığı və səmərəliliyi təmin etmək səlahiyyətlərinə malikdir.

Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin əlamətlərindən ikincisi, bu fəaliyyətin təşkilati xarakterli olmasıdır. Belə ki, dövlət idarəçilik orqanlarının inzibati fəaliyyəti, özü-özlüyündə – bilavasitə təşkiledici fəaliyyət kimi özünü göstərir. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"nin 7.2-ci bəndinə əsasən, bu Nazirlik mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması sahələrində, eləcə də fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə vahid dövlət sistemi çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir.

Bunlardan əlavə, "Polis haqqında" Azərbaycan Respublikası qanununun 10-cu maddəsinə əsasən, yaşayış yeri üzrə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı yaranan sosial problemlərin birgə həlli üçün ayrı-ayrı şəxslər könüllülük əsasında polis orqanları tərəfindən ictimai asayişin və təhlükəsizliyin təmin olunması işinə cəlb edilə bilərlər. İctimai asayişin və təhlükəsizliyin təmin olunmasında könüllü olaraq iştirak edən şəxslərin fəaliyyətinin əlaqələndirilməsi üçün yerli polis orqanlarının yanında ictimai şuralar yaradıla bilər.

İctimai asayişin və təhlükəsizliyin təmin olunması üzrə könüllü ictimai fəaliyyət aşağıdakı istiqamətlərdə həyata keçirilir:

1) hüquqazidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısının alınması məqsədilə maarifləndirmə və təbliğat işinin aparılması;
2) narkomaniyanın və alkoqolizmin, həmçinin yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası;
3) cinayətlərin və digər hüquqpozmaların qarşısının alınmasını və araşdırılmasını təmin etmək məqsədilə zəruri məlumatların polis orqanlarına verilməsi.

İnzibati fəaliyyətin təşkiletmə mahiyyəti öz ifadəsini daxili işlər orqanlarının təkcə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki vəzifələrin həll edilməsi ilə əlaqədar olmayıb, eyni zamanda, daxili işlər sahəsində ictimai münasibətlərin iştirakçılarının fəaliyyətləri əlaqələndirilir, bu

sahədə birgə görülən işlər təşkil edilir, onun yerinə yetirilməsi üzrə digər tədbirlər həyata keçirilir.

Dövlət orqanlarının inzibati fəaliyyətinin innovativ formada əlaqələndirilməsi dövlətin mühüm funksiyalarının daha səmərəli və yüksək keyfiyyətlə həyata keçirilməsinin təminatçısı kimi çıxış edir. Belə ki, korrupsiya ilə effektiv mübarizədə inzibati və iqtisadi metodların vəhdəti zəruridir. Buna görə də, ölkəmizdə dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır [5].

Bu dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyət istiqamətləri [6] aşağıdakılardır: mərkəzlərin vahid şəkildə idarə edilməsini, həmin mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edir; mərkəzlərdə göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə nəzarət edir; mərkəzlərdə həyata keçirilən hər bir xidmətin qanuna uyğun həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığa dair qiymətləndirmələrin aparılmasını təmin edir; mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşlarının etik davranış qaydalarına əməl edilməsinə nəzarət edir; mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları üçün etik kursların təşkilini, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin keçirilməsini təmin edir; "ASAN xidmət indeksi"ni təşkil edən parametrləri rəhbər tutmaqla, dövlət xidmətlərinin qiymətləndirilməsini həyata keçirir, habelə dövlət qurumları tərəfindən xidmətlərin həyata keçirilməsində sosial innovasiyaların tətbiqi ilə bağlı araşdırmalar aparır (Əsasnamənin 2.1-ci bəndi).

"ASAN xidmət" mərkəzlərində dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilir, dövlət orqanları tərəfindən vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notariat fəaliyyəti, şəxsiyyət vəsiqələrinin və ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq barədə, yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında, torpaq kadastrı məlumatları barədə və arxiv arayışların verilməsi həyata keçirilir.

Bunlardan əlavə, "ASAN xidmət" mərkəzlərində gömrük işi, miqrasiya, konsulluq, təhsil, hərbi qeydiyyat, qida təhlükəsizliyi, energetika, kənd təsərrüfatı, fövqəladə hallar və ətraf mühitin mühafizəsi sahəsində xidmətlərin göstərilməsi təmin edilir. Eləcə də, daşınmaz əmlakla bağlı əməliyyatlar və onların qeydiyyatı, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, əmək pensiyalarının təyin edilməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan (dövlət təhlükəsizliyindən irəli gələn

hallar istisna olmaqla) lisenziyanın verilməsi və xaricdə istifadə üçün nəzərdə tutulan sənədlərə dair Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən apostil verilməsi üçün sənədlərin qəbulu həyata keçirilir.

"ASAN xidmət" mərkəzlərinin yuxarıda ümumi şəkildə sadalanan fəaliyyət istiqamətlərinin hər biri özündə çoxsaylı xidmətləri birləşdirir. Məsələn, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı olaraq, bunlar doğumun və ölümün qeydə alınması, nikahın, nikahın pozulmasının və övladlığa götürmənin qeydə alınması, atalığın müəyyən edilməsinin qeydə alınması, adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrin (təkrar şəhadətnamələrin) və ya arayışların verilməsi, vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik edilməsi, onların bərpası və ləğvi ilə əlaqədar xidmətləri əhatə edir. Miqrasiya sahəsində xidmətlərin göstərilməsi isə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmələri üçün iş icazələrinin verilməsi, şəxsin Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı sorğuların qəbulu və cavablandırılması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınması, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması, Azərbaycan Respublikasında yaşayan şəxslərdən Azərbaycan Respublikası vətəndaşlığına qəbul, bərpa və Azərbaycan Respublikası vətəndaşlığından çıxma məsələlərinə dair vəsatətlərin qəbul edilməsi, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vahid Miqrasiya Məlumat Sistemindən həmin Xidmətin fəaliyyət istiqamətləri üzrə arayışların verilməsini ehtiva edir.

Daşınmaz əmlakla bağlı əməliyyatlar və onların qeydiyyatı sahəsində "ASAN xidmət" mərkəzləri daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, torpaq sahəsinin planının və ölçüsünün verilməsi, daşınmaz əmlakın real bazar dəyərinin qiymətləndirilməsinə dair arayışın verilməsi, daşınmaz əmlakın dövlət reyestrindən əmlakın təsviri və ünvanı barədə məlumatların verilməsi, daşınmaz əmlak obyektinin (torpaq sahəsinin) sxematik bölgüsünün aparılması və bölgü planının verilməsi, torpaq sahəsinin döngə nöqtələrinin koordinatlarının yerdə (naturada) müəyyən edilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı arxiv arayışlarının, hüquqi və texniki sənədlərin (planların) təsdiq edilmiş surətlərinin verilməsi, yerquruluşu planının verilməsi, daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi, ünvan reyestri məlumat bazasından arayışların verilməsi, ünvan xəritələrindən çıxarışların verilməsi, daşınmaz əmlaka dair texniki sənədlərin dublikatının verilməsi, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış hüquqların qeydiyyatının ləğv edilməsi və s. xidmətləri əhatə edir.

Yuxarıda göstərilən xidmətlərlə əlaqədar "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, o cümlədən həmin nazirliyin nəzdində Dövlət Vergi Xidməti, Xarici İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Qida Təhlükəsizliyi Agentliyi və Milli Arxiv İdarəsi onlar üçün müəyyən etdiyi yerləri zəruri işçi qüvvəsi, texniki kommunikasiya və informasiya resursları ilə təmin etməlidirlər.

Dövlət orqanlarının göstərdikləri xidmətlərin "ASAN xidmət" mərkəzlərinə verilməsi

və sonuncunun fəaliyyət dairəsinin genişləndirilməsi sistemli surətdə innovativ metodlarla daim davam edir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət proqramı"nın 6.1.2.2.3-cü bəndində Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə narkotik istifadəçisi kimi qeydiyyatda olub-olmaması barədə arayışların verilməsi prosesinin sadələşdirilməsi məqsədilə bu xidmətin "ASAN xidmət" mərkəzləri tərəfindən həyata keçirilməsinin təmin edilməsi üçün normativ hüquqi aktlarda dəyişiklik edilməsi nəzərdə tutulmuşdur [11].

"ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır. Bu qurumlar vətəndaş – məmur təmasını aradan qaldırmaqla korrupsiyaya qarşı mübarizə sahəsində dünyada anoloqu olmayan yeni metodun əsasını qoymuşdur.

Hazırda "ASAN xidmət" mərkəzlərinin qabaqcıl təcrübəsindən dünyanın 30-dan çox dövlətində istifadə edilməsi diqqət tələb edən məsələdir. 25–29 may 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndə heyəti BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin təşkillatçılığı və BMT-nin Latın Amerikası və Karib hövzəsi üzrə İqtisadi Komissiyasının tərəfdaşlığı ilə keçirilən "Dövlət sektorunda idarəetmənin gələcəyi: innovasiya və dövlət sektorunun transformasiyası üçün düşüncə tərzinin dəyişdirilməsi" mövzusundakı tədbirdə iştirak etmiş, Karib Hövzəsi ölkələri dövlət xidmətləri göstərilməsinin təkmilləşdirilməsi və "ASAN xidmət" təcrübəsinin tətbiqi ilə əlaqədar sazişlərin imzalanması təşəbbüsü ilə çıxış etmişlər [19]. Dövlət Agentliyinin və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı, eləcə də Afrika İttifaqı və Efiopiya Federativ Respublikası Hökumətinin tərəfdaşlığı ilə 21-23 iyun 2025-ci il tarixində Əddis-Əbəbə şəhərində yerləşən Afrika İttifaqının mənzil qərargahında "İdarəetmə innovasiyası: hər kəs üçün çevik, inklüziv və insanyönümlü xidmətlərin təkmilləşdirilməsi" adlı regional forumda Esvatini, Qana, Qambiya, Maldivin müvafiq sahə üzrə fəaliyyət göstərən dövlət qurumlarının rəhbərləri və yüksək vəzifəli rəsmiləri ilə "ASAN xidmət" təcrübəsinin tətbiqi barədə ilkin razılığa gəlinmişdir [17]. 10 sentyabr 2025-ci il tarixində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Pakistan İslam Respublikasında "ASAN xidmət" təcrübəsinin tətbiqi istiqamətində əməkdaşlığa dair Saziş" imzalanmışdır [18].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları bu barədə deyirdi: "ASAN xidmət" Azərbaycan brendidir. Şadam ki, mənim təşəbbüsümlə yaradılmış bu xidmət bu gün nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. "ASAN xidmət"də bizim siyasətimiz öz əksini tapır. Elektron hökumət prinsiplərinə keçməyimiz korrupsiyaya qarşı mübarizədə çox təsirli amil olacaqdır. Bütövlükdə çalışmalıyıq ki, nə qədər mümkündür, məmur-vətəndaş təmaslarını aradan qaldıraq."

Sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, korrupsiyaya qarşı mübarizə və vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə yaradılan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsidir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 229 nömrəli 9 avqust 2018-ci il tarixli Fərmanı ilə yaradılmışdır. Agentliyin Nizamnaməsi və

Strukturu Azərbaycan Respublikası Prezidentinin 387 nömrəli 10 dekabr 2018-ci il tarixli Fərmanına əsasən təsdiq olunmuşdur. 9 may 2019-cu ildə ilk "DOST" mərkəzinin açılışı baş tutmuşdur.

"Bir pəncərə" sistemi üzrə vətəndaşlara tam şəffaf, vətəndaş – məmur təmasını aradan qaldıran, məmur sui-istifadəsinə, özbaşınalığına və korrupsiyaya meydan verməyən, sadə və əlçatan prosedurlar təklif etməyə imkan verən "DOST" mərkəzləri bu sahədə ölkəmizin yeni brendini formalaşdırır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları bununla əlaqədar deyirdi: "Həm DOST, həm də "ASAN xidmət" mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi "ASAN xidmət" öz intellektual məhsulunu ixrac edir."

Azərbaycan Respublikasında "ASAN xidmət" və "DOST" mərkəzləri ilə yanaşı, korrupsiyaya qarşı mübarizənin sistemli, kompleks və innovativ xarakterinə xidmət edən nümunəvi dövlət xidmətlərindən biri də, KOBİA-dır. Bu xidmət, yəni Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı [7] ilə yaradılmış, Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentliyin nizamnaməsi və strukturu təsdiq edilmişdir [8]. Agentlik ölkədə kiçik və orta biznesin inkişafını dəstəkləyən, KOB subyektlərinə bir sıra xidmətlər göstərən, dövlət orqanlarının bu sahədə xidmətlərinin əlaqələndirilməsini və tənzimlənməsini həyata keçirən publik hüquqi şəxsdir və İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

Aşağı səviyyədə onlar simulyasiya modelləri və hərbi test məlumatları ilə işləyirlər, bu da fiziki və texniki xüsusiyyətlərdən taktiki xüsusiyyətlərə keçidi mümkün edir (əməliyyat səviyyəli modellər). Bu modellər ön-taktiki modellərin (bölmədən döyüş qrupları) və aşağı səviyyəli taktiki modellərin (bölük və tabor taktiki qrupları, sərhəd münaqişə qrupları) qurulmasının əsasını təşkil edir. Bu modellər, xüsusən də ehtimal konflikt funksiyalarından istifadə etməklə qurula bilər. S. Skaperdasın konflikt funksiyası əvəzinə onun genişləndirilməsindən istifadə etmək təklif olunur ki, bu da döyüş (münaqişə) iştirakçılarının mənəvi xüsusiyyətlərini və döyüş sabitliyini nəzərə almağa imkan verməməkdir.

Taktiki və əməliyyat-taktiki səviyyədə, adətən dinamik ortalamalar metodu modellərindən (Osipov-Lançester modelləri və onların modifikasiyaları) istifadə olunur. Döyüşçülərin mənəvi və iradi keyfiyyətləri (davamlı itkilərin faizi) nəzərə alınmaqla Osipov-Lançester modelinin genişləndirilməsi nəzərdən keçirilir.

Dövlət və cəmiyyət səviyyəsində ictimai-siyasi, sosial-iqtisadi və refleksiv modellər tətbiq edilir, hərbi potensialı, milli, ictimai və dövlət təhlükəsizliyi səviyyələrini qiymətləndirmək üçün sosial və informasiya təsir modelləri işlənilir.

**Ədəbiyyat:**


1. Алексеев О.Г., Анисимов В.Г., Анисимов Е.Г. Марковские модели боя: Учебное пособие. – М.: Министерство обороны СССР, 1985. – 85 с.
2. Вентцель Е.С. Исследование операций. – М.: Советское радио, 1972. – 552 с.
3. Война и мир в терминах и определениях: военно-политический словарь / Под общ. ред. Д. Рогозина. – М.: ПоРог, 2004. – 334 с.
4. Головин Н.Н. Исследование боя. Исследование деятельности и свойств человека как бойца. Кн. 2. Статьи и письма. – М.: ВАГШ, 1995. – 303 с.
5. Ивлев А.А. Основы теории Бойда. Направления развития, применения и реализации: Монография. – М.: 2008. В рукописи. – 64 с.
6. Кузнецов Д.В. Использование военной силы во внешней политике США: Учебное пособие. – Благовещенск: Изд-во БГПУ, 2010. – 430 с.
7. Новиков Д.А. Иерархические модели военных действий // Управление большими системами. – 2012. – Вып. 37. – С. 25–62.
8. Применение теории игр в военном деле / Сборник переводов. – М.: Советское радио, 1961. – 360 с.
9. Шумов В.В. Анализ социально-информационного влияния на примере войн США в Корее, Вьетнаме и Ираке // Компьютерные исследования и моделирование. – 2014. – Т. 6, №1. – С. 167–184.


***Açar sözlər:*** *riyazi modelləşdirmə, Osipov-Lançester modelləri, modellərin iyerarxiyası, mənəvi amil*

**Atiq Aliyev**

*The Academy of State Administration under the President of the Republic of Azerbaijan, Department of Information Technologies in the State Administration, Senior Lecturer*

**Hasan Nasirli**

*The Academy of State Administration under the President of the Republic of Azerbaijan, Department of Information Technologies in the State Administration, Lecturer*

## HIERARCHY OF BATTLE AND BORDER TREATY MODELS

### ABSTRACT

In the state, the substantive aspects of wars and battles, as well as military and border conflicts, and attitudes toward them, are discussed from the perspective of military experts. Three levels of such models have been identified. At the lower level, to simulate the combat of units, a probabilistic conflict function based on the definition of battle is used, taking into account the number of combat units of the parties and the parameters of combat superiority (a set of strikes, fire, and maneuvers of forces coordinated in terms of objective, location, and time). Its statistical estimation is obtained using the maximum likelihood method. The state's combat superiority includes moral superiority (calculated by the percentage of bloody losses inflicted on the opposing side) and technological superiority (advantage in organizing interaction, maneuver, reconnaissance, and fire capabilities). The problem of allocating resources among the state's defense facilities is solved through game theory. The results of scientific calculations do not contradict the provisions regarding the combat capability of the troops. Higher-level models make it possible to explain the course and outcome of wars through social costs, for example: internal office-related confrontations within Azerbaijan and the human losses suffered during the First Karabakh War.

***Keywords:*** *mathematical modeling, Osipov-Lanchester model, hierarchy of models, moral factor*

**Атик Алиев**

*Старший преподаватель кафедры Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

**Гасан Насирли**

*Преподаватель кафедры Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ИЕРАРХИЯ МОДЕЛЕЙ БОЕВЫХ ДЕЙСТВИЙ И ПОГРАНИЧНЫХ СОГЛАШЕНИЙ

### РЕЗЮМЕ

В государстве содержание войн и боевых действий, а также военных и пограничных конфликтов и отношение к ним обсуждаются с точки зрения военных экспертов. Были определены три уровня подобных моделей. На нижнем уровне для моделирования боя подразделений используется вероятностная функция конфликта, основанная на определении боя и учитывающая численность боевых единиц сторон и параметры боевого превосходства (совокупность ударов, огня и манёвров войск, согласованных по цели, месту и времени). Её статистическая оценка находится методом максимального правдоподобия. Боевой перевес государства включает моральное превосходство (рассчитывается по проценту нанесённых противнику кровавых потерь) и технологическое превосходство (преимущество в организации взаимодействия, манёвра, разведки и огневых возможностей). Проблема распределения ресурсов между объектами обороны государства решается с помощью теории игр. Результаты научных расчётов не противоречат положениям о боеспособности войск. Модели самого высокого уровня позволяют объяснить ход и исход войн через социальные издержки, например: внутригосударственные должностные противостояния и человеческие потери Азербайджана в Первой Карабахской войне.

***Ключевые слова:*** *математическое моделирование, модели Осипова-Ланчестера, иерархия моделей, моральный фактор*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.051

İ Q T İ S A D İ Y Y A T
E C O N O M Y

UOT 33 (094)

**ELŞAN ƏHMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru**
*e-mail: elshan.ahmadov@dia.edu.az*

# SU RESURSLARININ İDARƏ EDİLMƏSİNİN HÜQUQİ-İQTİSADİ MEXANİZMLƏRİ

## Giriş

Su resurslarının idarə edilməsi müasir dövrdə dövlətin iqtisadi, ekoloji və sosial siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Qlobal iqlim dəyişiklikləri, su çatışmazlığı və ekosistemlərin deqradasiyası şəraitində su resurslarının səmərəli idarə olunması təkcə iqtisadi məsələ deyil, həm də konstitusion məsuliyyət kimi çıxış edir. Azərbaycan Respublikasının Konstitusiyası (1995) təbii sərvətlərin dövlət mülkiyyətində olduğunu, onların xalqın rifahı naminə qorunmalı və səmərəli istifadə edilməli olduğunu təsbit edir. Bu, dövlətin su resurslarının idarə edilməsində hüquqi tənzimləmə və iqtisadi alətlər vasitəsilə balanslaşdırılmış siyasət yürütməsini zəruri edir.

Su resurslarının idarə edilməsində hüquqi mexanizmlər (qanunvericilik, normativ aktlar, mülkiyyət hüququ, ekoloji standartlar) və iqtisadi mexanizmlər (su haqqı, subsidiyalar, investisiya təşviqləri, bazar alətləri) bir-birini tamamlamalıdır. Bu inteqrasiya dayanıqlı inkişaf məqsədlərinə çatmağın əsas şərtidir. Məqalənin məqsədi Azərbaycan Respublikasının Konstitusiyası və müvafiq qanunvericilik əsasında su resurslarının idarə edilməsinin hüquqi-iqtisadi mexanizmlərini təhlil etmək, beynəlxalq təcrübəni nəzərdən keçirmək və təkmilləşdirmə istiqamətlərini müəyyənləşdirməkdir.

## Konstitusiya prinsipləri və su resurslarının hüquqi statusu

Azərbaycan Respublikasının Konstitusiyası su resurslarının hüquqi statusunun və idarə edilməsinin əsas normativ çərçivəsini müəyyənləşdirir. Konstitusiyanın 11-ci, 14-cü və 39-cu maddələrinə əsasən, təbiət sərvətləri, o cümlədən su resursları, dövlətin mülkiyyətindədir və onların qorunması, səmərəli istifadəsi dövlətin əsas vəzifələrindən biridir [1].

Bu müddəalar, bir tərəfdən, dövlətin su resursları üzərində suveren hüququnu, digər tərəfdən isə cəmiyyət qarşısında məsuliyyətini müəyyən edir. Hüquqi baxımdan su resursları dövlət mülkiyyəti hesab olunur, iqtisadi baxımdan isə bu resursların idarə olunması - ictimai rifahın və ekoloji təhlükəsizliyin təmin olunması üçün iqtisadi mexanizmlərin tətbiqini zəruri edir [6].

**Konstitusiya prinsiplərinin tətbiqi aspektləri.** Aşağıdakı əsas prinsiplər su resurslarının idarə edilməsində hüquqi və iqtisadi əsas kimi çıxış edir.

Bu prinsiplər həm hüquqi tənzimləmənin təməlini təşkil edir, həm də iqtisadi qərarların

**Cədvəl 1.**

Su resurslarının idarə edilməsində hüquqi və iqtisadi prinsiplər

| Prinsip | Hüquqi mənbə | İqtisadi əhəmiyyəti |
|---|---|---|
| Dövlət mülkiyyəti | Konstitusiya, maddə 14 | Su resurslarının strateji nəzarəti və milli təhlükəsizlik |
| Ekoloji tarazlıq | Maddə 39, 78 | Davamlı inkişaf və təbii resurslardan qənaətli istifadə |
| Ədalətlilik və bərabərlik | Maddə 25, 56 | Suya bərabər çıxış, regionlararası balans |
| Məsuliyyət və şəffaflıq | Maddə 12, 68 | Dövlət idarəetməsində hesabatlılıq və vətəndaş nəzarəti |

təməlini. Eyni zamanda su tariflərinin formalaşdırılması, subsidiyaların verilməsi və ekoloji layihələrin maliyyələşdirilməsi istiqamətini müəyyənləşdirir.

**Su resurslarının hüquqi statusu və idarəetmə səviyyələri**. Azərbaycan Respublikasının "Su Məcəlləsi" (1997) su resurslarını vahid dövlət fondu kimi müəyyən edir. Bu fonda daxildir:

- səth suları (çaylar, göllər, su anbarları),
- yeraltı sular,
- transsərhəd su obyektləri.

Bu struktur hüquqi baxımdan dövlət mülkiyyəti, iqtisadi baxımdan isə ictimai aktiv kimi dəyərləndirilir. Dövlət bu resursların istifadəsini lisenziyalaşdırır, kvotalar və normativlər tətbiq edir.

Bu model BMT-nin "Su və sanitariya hüququ" (UN, 2010) prinsipinə uyğun olaraq "suyun insan hüququ kimi tanınması" ideyasını dəstəkləyir.

Su resurslarının idarə edilməsi səviyyədə göstərmək olar:

1. Konstitusiya prinsipləri (mülkiyyət, ekoloji məsuliyyət, ədalətlilik);
2. Hüquqi mexanizmlər ("Su Məcəlləsi", "Ətraf mühitin mühafizəsi haqqında" qanunlar, normativ aktlar);

**Şəkil 1.** Suyun idarə edilməsinin hüquqi-iqtisadi struktur modeli




Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

**Cədvəl 2.**

Su resurslarının idarə edilmə sistemində maraqlı tərəflər və məsuliyyət bölgüsü

| Tərəf | Hüquqi səlahiyyət | İqtisadi rolu |
|---|---|---|
| Dövlət (Nazirliklər) | Qanunvericilik, nəzarət | İnvestisiya, subsidiyalar |
| Bələdiyyələr | Yerli idarəetmə | Su xidmətlərinin təşkili |
| Sahibkarlar və fermerlər | İstifadəçi hüquqları | Səmərəli istifadə, ödənişlər |
| Vətəndaşlar və QHT-lər | İctimai nəzarət | Maarifləndirmə və sosial nəzarət |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

3. İqtisadi mexanizmlər (su tarifləri, investisiya təşviqləri, dövlət subsidiyaları).

Bu səviyyələr arasında qarşılıqlı əlaqə şəkil 1-də göstərilmişdir. Konstitusiya prinsipləri hüquqi mexanizmləri formalaşdırır, hüquqi mexanizmlər isə iqtisadi tənzimləməyə əsas yaradır. Hüquqi Mexanizmlər dedikdə əsas olaraq "Su məcəlləsi", "Ətraf mühitin mühafizəsi" haqqında qanunlar nəzərdə tutulur. İqtisadi mexanizmlər dedikdə isə əsas olaraq su tarifləri, investisiya təşviqləri, dövlətin su tədarükü istiqamətində subsidiyalarını qeyd etmək olardı.

Yuxarıda cədvəl 2-də hüquqi səlahiyyət və iqtisadi məsuliyyətin birləşdiyi inteqrasiyalı idarəetmə sistemi göstərilir. Burada Dövlət qurumları (Nazirliklər), bələdiyyələr, sahibkarlar, fermerlər, vətəndaşlar və QHT-rı əsas tərəf kimi göstərilir. Onlar qanunvericilik, nəzarət, yerli idarəetmə qayda və qanunları, istifadəçi hüquqları, ictimai nəzarət kimi hüquqi səlahiyyət çərçivəsində fəaliyyət göstərillər. Burada su resurslarnın dayanıqlı idarə edilməsinin iqtisadi rolu kimi investisiya, subsidiyalar, su xidmətlərinin təşkili, sudan səmərəli istifadə, ödənişlər, marifləndirmə və social nəzarət mexanizmi ortaya çıxır.

**Milli Strategiya - Su Resurslarının Səmərəli İstifadəsinə dair (2024-2040)**

“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya” nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. 2024-cü il 10 oktyabr tarixində Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndləri rəhbər tutularaq, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam verilmişdir.

**Cədvəl 3.**

Su strategiyasının əsas istiqamətləri

| | |
|---|---|
| 1. | Bütün su hövzələri idarəetmə sisteminin “bölgələr üzrə inteqrasiyalı” vahid idarəetmə modelinə keçidinin təmini |
| 2. | Su təchizatının, su itkisi və sızmaların azaldılması, rəqəmsal texnologiyaların tətbiqi. |
| 3. | İqlim dəyişikliyi, çirkli su axınlarının idarə edilməsi, alternativ su mənbələrinin istifadəsi. |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Milli Su Strategiyanın əsas istiqamətləri 2024-cü ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiqlənmişdir. Bu strategiya su resurslarının səmərəli istifadəsinə, bütövlükdə idarə edilməsinə və davamlı inkişafına yönəlmişdir. Strateqiyada aşağıdakı əsas istiqamətlər müəyyən edilmişdir:

**Su resurslarının idarəçiliyində hüquqi-konstitusiya əsaslı strategiya**

Konstitusiya prinsipləri əsasında formalaşmış institusional struktur su idarəçiliyində dövlət məsuliyyətini təmin edir. Burada əsas icraedici orqanlar:

- Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) - dövlət su siyasətinin həyata keçirilməsi və idarəetmə infrastrukturunun koordinasiyası;
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi - su keyfiyyətinə və ətraf mühitə nəzarət;
- Kənd Təsərrüfatı Nazirliyi və Meliorasiya xidməti - suvarma sistemlərinin idarə edilməsi;
- Nazirlər Kabineti və Milli Su Şurası - strategiyanın hazırlanması və dövlət proqramlarının icrası.

Bu qurumların fəaliyyət prinsipləri Konstitusiyanın 77-ci maddəsində təsbit edilmiş dövlət orqanlarının məsuliyyət prinsipi ilə uzlaşır: dövlətin fəaliyyəti şəffaf, hüquqa əsaslanan və vətəndaş maraqlarına yönəlmiş olmalıdır. Bu strategiyanın hüquqi-konstitusiya baxımdan təhlilində önəmli məqamlar vardır. Onların sırasında:

**Dövlət mülkiyyəti və su resursları:** Azərbaycan Respublikasının Konstitusiyası su resurslarının, təbii sərvətlərin dövlət mülkiyyətində olduğunu təsbit edir. Bu, suyun istifadəsi və idarə edilməsində dövlətin normativ-qanuni çərçivədə rolunu möhkəmləndirir. Bu kontekstdə, strategiya su resurslarının milli maraq kimi idarə edilməsini prioritet olaraq müəyyən edir.

**Dayanıqlı inkişaf və ekoloji məsuliyyət:** Konstitusiyada yerləşən ekoloji təhlükəsizlik prinsipləri və təbii sərvətlərin qorunması öhdəlikləri su strategiyasına əsas münasibət formalaşdırır. Strategiya isə bu prinsipləri su idarəçiliyində konkret tədbirlərlə bağlayır, məsələn, itkilərin azaldılması, alternativ mənbələrin istifadəsi və iqlim faktorlarının nəzərə alınması.

**İdarəetmənin şəffaflığı və hesabatlılıq:** Strategiyada tədbirlərin icrası üzrə məsuliyyətlərin müəyyənləşdirilməsi, hesabatların hazırlanması, real-vaxt monitorinq sistemi, su istifadəçilərinin və mənbələrin izlənməsi kimi mexanizmlər nəzərdə tutulmuşdur. Bu isə Konstitusiyada nəzərdə tutulmuş dövlət idarəçiliyi prinsipləri ilə uyğunluq təşkil edir.

**Regional – beynəlxalq əməkdaşlıq:** Su resurslarının xüsusilə sərhədyanı çaylar, hövzələr üzrə idarə edilməsi məsələsində beynəlxalq hüquq və əməkdaşlıq prinsipləri rol oynayır. Strategiyada bu aspektlərə də yer verilir, bu isə konstitusional prinsiplərin xarici-daxili kontekstdə tətbiqini göstərir.

**Strategiya və hüquqi-iqtisadi mexanizmlər arasındakı əlaqə:** Strategiyanın həyata keçirilməsi üçün hüquqi mexanizmlər (qanunvericilik, normativ aktlar, lisenziyalaşma və icazə sistemləri) və iqtisadi mexanizmlər (su istifadə haqları, tariflər, investisiya təşviqləri, sanksiyalar) birləşdirilmiş şəkildə nəzərdə tutulmuşdur. Bu, konstitusional prinsiplərin praktikada tətbiqini təmin edir.

Misal üçün:

- Su təchizatında itkilərin azaldılması amaçlı rəqəmsal-monitorinq sistemlərinin tətbiqi, iqtisadi səmərəliliyin artırılması məqsədi daşıyır;
- Vahid hövzə əsaslı idarəetmə modeli yerli və mərkəzi hakimiyyət arasında hüquqi olaraq qarşılıqlı məsuliyyətin bölüşdürülməsi aspektini əhatə edir;
- Alternativ su mənbələrinin (məsələn, duzlu suyun təmizlənməsi) istifadəsi strategiyada müəyyənləşmişdir və bu yol iqtisadi baxımdan da dövlət-xüsusi sektor əməkdaşlığını tələb edir.

Yuxarıda göstərilən şəkillərdə su strategiyasının konstitusional-hüquqi əsasları, idarə-

**Şəkil 2.** Su strategiyanın hüquqi-konstitusiya çərçivəsinin inteqrasiyası




Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

etmə mexanizmləri və iqtisadi alətlər arasındakı əlaqə vizual şəkildə nümayiş olunur. Bu əlaqələrin daha dərin inteqrasiyası labüddür. Beləliklə, Milli Strategiya - Su Resurslarının Səmərəli İstifadəsinə dair (2024-2040) konstitusiyanın dövlət mülkiyyəti, ekoloji məsuliyyət, şəffaf dövlət idarəçiliyi və regional əməkdaşlıq prinsiplərini su resurslarının idarə edilməsinə konkret tədbirlərlə birləşdirən bir sənəddir. Onun uğurlu icrası üçün hüquqi baza gücləndirilməli, iqtisadi mexanizmlər çevik tətbiq edilməli və idarəetmə institutu səmərəli olmalıdır.

## Milli Su Strategiyasının (2024–2040) icra vəziyyəti, hüquqi və institusional çağırışla

Milli strategiyanın icra mərhələləri və hazırkı vəziyyəti Azərbaycan Respublikasının Prezidentinin 2024-cü ildə təsdiq etdiyi "Su resurslarından səmərəli istifadəyə dair 2024-2040-cı illər üçün Milli Strategiya" ölkənin su təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Strategiyanın həyata keçirilməsi üç əsas mərhələ nəzərdə tutulmuşdur:

**Şəkil 3.** Su strategiyasının inteqrasiya prosesləri




Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

**Şəkil 4.** ADSEA Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin ölkə bazında strukturu

Agentliyin yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti

**Agentliyin tabeliyində olan qurumlar**

Regional Su Meliorasiya Xidməti

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti

Tikilməkdə Olan byektrlərin Müdiriyyəti

Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu

Su və Meliorasiya Komplekslərinin Layihələndirilməsi İnstitutu

Mənbə: ADSEA-nin rəsmi səhifəsi. https://adsea.gov.az/agentlik/struktur

Hazırda (2025-ci ilə qədər) birinci mərhələnin icrası üzrə fəaliyyətlər əsasən normativ və texnoloji istiqamətlərdə cəmlənib. Məsələn, "Su Məcəlləsinə dəyişikliklər paketi", "Su resurslarının rəqəmsal idarəetmə sistemi haqqında" qərar layihəsi, həmçinin "Ağıllı su şəbəkələri" üzrə pilot proqramlar artıq Nazirlər Kabineti və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə nəzarətindədir.

## Hüquqi və institusional çağırışlar, hüquqi çərçivə və normativ boşluqlar

Su idarəçiliyinin yeni mərhələsində əsas çətinliklərdən biri hüquqi tənzimləmənin köhnə modellərə əsaslanmasıdır. Məsələn:

- "Su Məcəlləsi" nin bir sıra müddəaları (1997) müasir rəqəmsal nəzarət və iqtisadi stimullar mexanizmini tam əhatə etmir.

**Cədvəl 4.**

Su strategiyasının həyata keçirilməsi mərhələləri

| | |
|---|---|
| 1. | Birinci mərhələ (2024–2028) – normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsal idarəetmə sistemlərinin yaradılması və pilot regionlarda su balansı monitorinqinin tətbiqi. |
| 2. | İkinci mərhələ (2028–2035) – iqtisadi alətlərin (su tarifləri, stimullar, dövlət–özəl əməkdaşlığı) tam tətbiqi və su təchizatı sistemlərində itkilərin 30%-dən az səviyyəyə endirilməsi. |
| 3. | Üçüncü mərhələ (2035–2040) – regional inteqrasiya və beynəlxalq əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, iqlim risklərinə qarşı adaptasiya planlarının həyata keçirilməsi. |

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

- Ekoloji öhdəlik və sanksiyalar mexanizmləri su resurslarının ekosistem dəyərini nəzərə almır.
- Su balansının idarə edilməsində bələdiyyələrin və özəl sektorun hüquqi statusu kifayət qədər müəyyən edilməyib.

Bu, Konstitusiyanın 39-cu maddəsindəki (sağlam ətraf mühitdə yaşamaq hüququ) və 11-ci maddəsindəki (təbii sərvətlərin dövlət mülkiyyəti olması) prinsiplərin praktiki reallaşmasında müəyyən ziddiyyətlər yaradır.

İdarəetmə institutları, səlahiyyət bölgüsü, iqtisadi və maliyyə mexanizmlərinin tətbiqi vəziyyəti

İcra prosesində əsas iştirakçılar ADSEA - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə hallar nazirliyi, arasında səlahiyyət bölgüsü aparılır. Bu isə strategiyanın 2028-ci ilə qədər nəzərdə tutulan "vahid idarəetmə mərkəzi" prinsipinin tətbiqini asanlaşdırır. Hal hazırki mövcud vəziyyətdə su istifadəsi tarifləri əhalinin sosial müdafiəsi nəzərə alınaraq aşağı səviyyədə saxlanılır, bu isə investisiya cəlbediciliyini məhdudlaşdırır. 2024–2025-ci illərdə pilot olaraq "Suya görə ödəniş, ekoloji məsuliyyət modeli tətbiq edilən bölgələrdə (Göygöl, Şəki, Lənkəran) ilkin nəticələr göstərir ki:

- Suyun israf səviyyəsi 17%-dən 11%-ə enmişdir;
- Yerli sahibkarlıq subyektləri arasında su qənaəti texnologiyalarına maraq artmışdır;
- Dövlət subsidiyalarının payı 10% azalmışdır.

Bu nəticələr göstərir ki, iqtisadi mexanizmlərin tətbiqi konstitusional prinsiplərlə (dövlət nəzarəti, sosial rifah və məsuliyyət) ziddiyyət yaratmadan həyata keçirilə bilər

### Su strategiyasının icra mərhələləri və hüquqi əlaqə

Aşağıdakı sxem strategiyanın həyata keçirilməsinin dörd mərhələsini və onların hüquqi əsaslarını göstərir.

Milli Su Strategiyasının icra vəziyyəti göstərir ki:

- hüquqi baza və idarəetmə institutlarının sinxronlaşdırılması vacibdir;
- su resurslarının iqtisadi dəyəri hüquqi sistemdə tanınmalıdır;
- dövlət nəzarəti ilə özəl sektorun əməkdaşlığı konstitusional prinsiplərlə uyğun şəkildə tənzimlənməlidir;
- rəqəmsal su idarəetməsi hüquqi şəffaflıq və hesabatlılıq mexanizmlərini gücləndirir.

**Şəkil 5.** Su strategiyasının icra mərhələləri




Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Bu baxımdan strategiyanın uğurlu icrası üçün əsas istiqamət hüquqi-iqtisadi inteqrasiya modelinin tətbiqidir, yəni dövlət, bələdiyyə və özəl sektorun su idarəçiliyində balanslaşdırılmış məsuliyyət bölgüsünün səmərəli aparılması.

Hüquqi iqtisadi inteqrasiya modeli və su idarəçiliyində konstitusional islahat təklifləri

Hüquqi iqtisadi inteqrasiya modeli Azərbaycan Respublikasının su resurslarının idarə edilməsində həm hüquqi prinsiplərin, həm də iqtisadi alətlərin inteqrasiya olunması vacib edir. Bu yanaşma Konstitusiyanın aşağıdakı əsas prinsiplərinə söykənir:

- 11-ci maddə: təbii sərvətlərin dövlət mülkiyyəti olması;
- 39-cu maddə: sağlam ətraf mühitdə yaşamaq hüququ;
- 43-cü maddə: ekoloji təhlükəsizlik və təbii sərvətlərin qorunması dövlətin vəzifəsidir;
- 94-cü maddə: iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi dövlətin əsas funksiyalarındandır.

Bu prinsiplər əsasında yaradılacaq "Hüquqi-iqtisadi inteqrasiya modeli" su resurslarının idarə edilməsini daha şəffaf, səmərəli və hesabatlı etmək məqsədi daşıyır.

Aşağıda şəkil 6-da verilən sxem təklif olunan inteqrasiya modelinin mərhələlərini və qarşılıqlı əlaqəsini göstərir.

Bu strukturda hüquqi baza (qanunvericilik və normativ aktlar) iqtisadi mexanizmlərlə və idarəetmə institutları ilə qarşılıqlı şəkildə işləyir. Burada bəzi hüquqi islahat təklifləri vermək yerinə düşərdi. Onlar sırasında Su Məcəlləsinin yenilənməsi, Dövlət Su Ehtiyatları Agentliyi haqqında" və Su Diplomatiyası və Transsərhəd Su Resursları haqqında" yeni Qanunların işlənməsi labüddür. Belə ki, 1997-ci il "Su Məcəlləsi" nin yeni reallıqlara uyğunlaşdırılması vacibdir. Burada rəqəmsal nəzarət, suya görə ödəniş mexanizmləri, ekoloji məsuliyyət və iqlim risklərinin daxil edilməsi. Qanuna "vahid su idarəetmə orqanı" anlayışının əlavə olunması. Su resurslarının iqtisadi dəyərinin hüquqi kateqoriya kimi tanınması. Agentliyin statusu Konstitusiyanın 109-cu və 114-cü maddələrinə əsaslanaraq

**Şəkil 6.** Konstitusiya Prinsipləri əsasında su idarəçiliyinin hüquqi iqtisadi inteqrasiya modeli




Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

müəyyən edilməli, səlahiyyət bölgüsü açıq şəkildə tənzimlənməlidir. Agentlik su hövzələrinin monitorinqi, lisenziyalaşdırma, ekoservis bazarlarının təşviqi və su diplomatiyası funksiyalarını icra etməlidir. Azərbaycanın Gürcüstan, Ermənistan, Türkiyə, İran və Rusiya ilə su münasibətlərində beynəlxalq hüquq prinsiplərinə uyğun, şəffaf və qarşılıqlı məsuliyyət əsaslı model yaradılmalıdır. Bu, həm də BMT-nin Davamlı İnkişaf Məqsədləri 6 və 13 (su və iqlim) prinsiplərinə uyğun gəlir.

Digər tərəfdən İqtisadi islahat təklifləri kimi su qiymətləndirilməsi və tarif sistemində tariflər sosial ədalət prinsipinə əsaslanmalıdır. Əhalinin sosial qrupları üçün subsidiyalar saxlanıla bilər. Sənaye və kənd təsərrüfatında suyun real dəyəri iqtisadi məsuliyyət yaratmalıdır. Tarif gəlirlərinin bir hissəsi ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna yönəldilə bilər.

### Dövlət-özəl tərəfdaşlığı

Dövlət özəl tərəfdaşlığı haqqında Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 12-ci və 13-cü bəndlərinə uyğun olaraq, dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyətin həyata keçirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Su infrastrukturunun yenilənməsi üçün dövlət özəl sektor əməkdaşlığı mexanizmləri [9] tətbiq edilə bilər. Özəl sektorun iştirakı ilə "Su Texnologiyaları Mərkəzi" və "Ağıllı Su İdarəetməsi Platforması" yaradılması məqsədəuyğun olardı. Əlbətdə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) tabeliyində olan Su və Meliorasiya Elmi Tədqiqat İnstitutunun nəzdində Təlim və İnnovasiyalar Mərkəzi yaradılmışdır. Heç şübhəsiz həmin mərkəzin fəaliyyəti ölkədə su ehtiyatlarının davamlı və səmərəli idarə olunması sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayacaqdır. Eyni zamanda ekoloji ödəniş və stimullaşdırma sisteminin səmərəli həyata keçirilməsi vacib amilləərdən biridir. Ekoloji məsuliyyət ödəmələri (polluter-pays prinsipi) qanunla müəyyən edilməlidir və xülasə suyun qənaətli istifadəsini təmin edən texnologiyalara vergi güzəştləri tətbiq olunmalıdır. Bu məsələlərin konstitusional baxımdan əsaslandırılması da xüsusi önəmə malikdir. Təklifləri birbaşa olaraq Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanaraq aşağıdakı kimi sıralamaq olardı:

- 11-ci maddə: təbii sərvətlər üzərində dövlət mülkiyyəti prinsipi. Burada su resurslarının strateji əhəmiyyəti təmin edilir;
- 39-cu maddə: sağlam ətraf mühitdə yaşamaq hüququ. Burada su keyfiyyətinin qorunması hüquqi öhdəlik kimi formalaşır;
- 94-cü maddə: iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi. Burada dövlətin su idarəetməsində həm hüquqi, həm iqtisadi alətlərdən istifadə hüququnu tanıyır.

### Nəticə

Hüquqi-iqtisadi inteqrasiya modeli Azərbaycan üçün su resurslarının idarə edilməsində yeni mərhələ açır. Bu model konstitusiya prinsiplərinə tam uyğun gəlir. Habelə hüquq və iqtisadiyyat arasında balans yaradır. Su İdarəçiliyinin səmərəliliyini və şəffaflığını təmin edir. Ekoloji məsuliyyət və sosial rifah dəyərlərini qoruyur. Bu yanaşma su idarəçiliyinin yalnız texniki deyil, həm də dövlət idarəçiliyi və iqtisadi təhlükəsizlik məsələsi olduğunu vurğulayır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995).
2. Azərbaycan Respublikasının "Su Məcəlləsi" (26 dekabr 1997).
3. "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 10 oktyabr 2024-cü il. № 320
4. Əhmədov E. Azərbaycanın müasir inklüziv inkişafında su layihələrinin davamlı idarə edilməsi. // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi kimi" mövzusunda doktorantların və gənc tədqiqatçıların Respublika elmi-praktik konfrans. 2025-ci il. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.
5. Əhmədov, E. Su – hər damlası həyat cövhəri olan misilsiz nemət // Xalq qəzeti 4 may 2025-i il, N-90 (30784); https://www.xalqqazeti.az/az/iqtisadiyyat/224377-her-damlasi-heyat-covheri-olan
6. Əliyev, V. (2020). Ekoloji idarəetmənin iqtisadi əsasları. Bakı: UNEC Nəşriyyatı.
7. Məmmədov, A. (2023). Təbii sərvətlərin hüquqi tənzimlənməsi problemləri. Bakı: Hüquq və İnkişaf Mərkəzi.
8. Elshan Ahmadov, ES Döngül, S Ul-Durar 2025. Digital Water Economy Formation in the Context of Sustainable Development Management. Springer Nature. Global Pathways for Efficient Waste Management and Inclusive Economic Development. https://link.springer.com/chapter/10.1007/978-981-96-5569-4_10
9. OECD (2021). Water Governance in OECD Countries: A Multi-level Approach.
10. United Nations (2010). Resolution 64/292: The Human Right to Water and Sanitation.


***Açar sözlər:*** *Konstitusiya prinsipləri, su resursları, hüquqi mexanizmlər, iqtisadi tənzimləmə, dayanıqlı inkişaf, ekoloji təhlükəsizlik*

**Elshan Ahmadov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of State Regulation of the Economy PhD in Economics, Associate Professor*

# LEGAL AND ECONOMIC MECHANISMS OF WATER RESOURCES MANAGEMENT

## ABSTRACT

This article examines the legal and economic mechanisms of water resources management in the context of the principles of environmental safety, natural resource protection, and sustainable development enshrined in the Constitution of the Republic of Azerbaijan. The study analyzes the status of water resources as state property, the legal framework ensuring their efficient use, and the interaction of economic instruments. The article substantiates the fact that constitutional principles namely, fairness, responsibility, transparency, and protection of the ecological balance are the main guiding values in water resources management. Attention is also paid to issues of water evaluation, the economic value of ecosystem services, and the application of market mechanisms. The results of the study demonstrate that the integration of legal and economic mechanisms in water resources management plays a crucial role in ensuring sustainable development. The article puts forward proposals for institutional reforms, updating the legal framework, and expanding economic incentives to improve this integration.

***Keywords:*** *water resources, legal mechanisms, economic regulation, sustainable development, environmental safety quality*

**Эльшан Ахмадов**

*Доцент кафедры Государственного регулирования экономики*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по экономике*

# ПРАВОВЫЕ И ЭКОНОМИЧЕСКИЕ МЕХАНИЗМЫ УПРАВЛЕНИЯ ВОДНЫМИ РЕСУРСАМИ

## РЕЗЮМЕ

В статье рассматриваются правовые и экономические механизмы управления водными ресурсами в контексте принципов экологической безопасности, охраны природных ресурсов и устойчивого развития, закрепленных в Конституции Азербайджанской Республики. В исследовании анализируются статус водных ресурсов как государственной собственности, нормативно-правовая база, обеспечивающая их эффективное использование, и взаимодействие экономических инструментов. Обосновывается тот факт, что конституционные принципы, а именно справедливость, ответственность, прозрачность и защита экологического равновесия, являются основными руководящими ценностями в управлении водными ресурсами. Также уделяется внимание вопросам оценки вод, экономической ценности экосистемных услуг и применения рыночных механизмов. Результаты исследования показывают, что интеграция правовых и экономических механизмов в управлении водными ресурсами играет решающую роль в обеспечении устойчивого развития. Выдвигаются предложения по институциональным реформам, обновлению нормативно-правовой базы и расширению экономических стимулов для улучшения этой интеграции.

***Ключевые слова:*** *водные ресурсы, правовые механизмы, экономическое регулирование, устойчивое развитие, экологическая безопасность*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.056

# TƏDRİSİN İNNOVATİV METODLARI
# INNOVATIVE TEACHING METHODS

UOT 37:001.12/.18

**ANAR ŞÜKÜROV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Məzunlarla iş sektorunun müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: anar-shukurov2015@list.ru*

**AYXAN XUBANOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin mütəxəssisi, iqtisad üzrə fəlsəfə doktoru**

*e-mail: aikhan_khv@yahoo.com*

## MÜASİR TƏHSİL PROSESİNDƏ İNNOVATİV YANAŞMALAR

*Təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartları ilə uyğunlaşsın.*

***Heydər Əliyev***

### Giriş

Ölkələr dünyada baş verən qlobal inkişaf və rəqabətlə ayaqlaşa, həmçinin dəyişikliklərə uyğunlaşa bilmələri üçün mütləq ixtisaslı işçi qüvvəsinə malik olmalıdırlar. Buna nail olmaq üçün də ən vacib istiqamət təhsildir. Bir dövlətin inkişaf səviyyəsi onun iqtisadi, sosial, mədəni, hərbi və s. sahələr üzrə dəyişikliklərdəki uğurları, bu dəyişikliklərə cavab vermək bacarığı və mövcud təhsil sistemindən irəli gələn innovativ təcrübələr və gözləntilərlə müəyyən edilir. Qloballaşan dünyada rəqəmsal texnologiyaların sürətli inkişafı müasir təhsilin mahiyyətinə də köklü şəkildə təsir göstərir. Artıq ənənəvi təhsil modelləri tələbələrin ehtiyaclarını tam şəkildə qarşılaya bilmir. Buna görə də təhsil müəssisələri və pedaqoqlar sosial həyata birbaşa təsir edən daha çevik, interaktiv və texnologiyaya əsaslanan innovativ yanaşmalar və elmi inkişaflar qarşısında səssiz qalmamalı və inkişaf edən dünyaya uyğunlaşmalıdırlar.

### Ənənəvi və müasir təhsil yanaşmaları

Tədris yanaşmaları əsrlər boyunca dəyişmiş və bu dəyişiklik dövrün tələblərinə uyğunlaşdırılmış müxtəlif tədris metodikalarının meydana çıxmasına səbəb olmuşdur [6]. Təhsil bəşəriyyətin ən dərin köklü proseslə-

**Cədvəl 1.**

Müasir təhsil metodlarının ümumi sxemi

| Metod | Xüsusiyyətləri | Nümunə |
|---|---|---|
| Konstruktivist yanaşma | Şagird mərkəzli, biliklərin kəşf yolu ilə mənimsənilməsi | Problem əsaslı öyrənmə |
| Layihə əsaslı öyrənmə | Real problemlər, tədqiqat və əməkdaşlıq | Komanda formasında layihə təqdimatı |
| Rəqəmsal öyrənmə | İKT alətləri və platformalarla öyrənmə | Zoom, Google Classroom |
| Fəal öyrənmə | Diskussiya, debat, rol oynama | Seminarlar, beyin həmləsi |
| Qarışıq öyrənmə (Blended Learning) | Ənənəvi və onlayn öyrənmənin sintezi | Hissəvi dərslər onlayn keçirilir |

rindən biri olsa da, inkişaf edən texnologiya və dəyişən sosial ehtiyaclar nəticəsində çevik və dinamik bir quruluş kimi formalaşmışdır.

Məlumatlar, bilik, bacarıq, və təcrübələr zamanla gənc nəsillərə təhsil vasitəsilə ötürülərək bəşəriyyətin varlığının davamlılığını təmin edən bir proses halına gəlmişdir. Bu baxımdan təhsil sistemi çox zəngin bir tarixi keçmişə malikdir. Bu mənada iki əsas təhsil yanaşmasından danışmaq olar:

1. Ənənəvi təhsil yanaşması;
2. Müasir təhsil yanaşması.

Ənənəvi təhsil sistemi daha çox klassik məktəblər tərəfindən qəbul edilmiş və həyata keçirilmişdir. Ənənəvi təhsil sistemində dərslər, proqramlar, ev tapşırıqları, dərs saatları və bu kimi elementlər uşağın maraq və ehtiyacları nəzərə alınmadan təşkil edilir [7]. Ənənəvi təhsil sabit struktur, güclü bilik təməli və sosial münasibət fəaliyyətlərinə əsaslanan modellər təklif edir. Lakin müasir dünyada tənqidi düşüncə, yaradıcılıq və texnologiyaya uyğunluq kimi bacarıqlara ehtiyac çoxdur. Ona görə də balanslı və hibrid tədris modelləri hər iki yanaşmanın üstünlüklərini birləşdirə və təhsilin effektivliyini artıra bilər.

Texnologiyanın, yaradıcı təlim metodlarının və fərdi yanaşmanın birləşməsi müasir təhsil metodlarının əsas xüsusiyyətlərini təşkil edir. Bu metodlar şagirdin aktivliyini, tənqidi düşüncəsini və həyat bacarıqlarını inkişaf etdirməyə yönəlib. Burada təlim prosesi şagirdin maraqlarına, bilik səviyyəsinə və öyrənmə tərzinə uyğunlaşdırılır, həmçinin müəllim yönəldici və dəstəkləyici rol oynayır. Tələbələr dərsdə aktiv iştirak edir: müzakirələr, debatlar, layihələr, rollu oyunlar və problem əsaslı öyrənmə istifadə olunur. Müasir təhsil metodlarında rəqəmsal platformalar, onlayn resurslar və təhsil proqramları geniş istifadə olunur, distant və hibrid təhsil modelləri tətbiq olunur. Bu sistemdə fərdi və diferensiallaşdırılmış tədris həyata keçirilir. Həmçinin qrup işləri, layihələr və ümumi tapşırıqlar vasitəsilə şagirdlər sosial bacarıqlar və əməkdaşlıq vərdişləri qazanır.

Aşağıdakı sxemlərdə hər bir təhsil metodunun əsas xarakterik xüsusiyyətləri verilmişdir.

Ənənəvi metodlarda standart işlərin olması şagirdlərin motivasiyasının azalmasına səbəb olur. Müasir metodlar isə interaktiv və maraqlı olduğu üçün öyrənməyə marağı və həvəsi artırır. Digər tərəfdən, müasir metodların uğurlu tətbiqi üçün texnoloji imkanların və müəllimlərin hazırlıq səviyyəsinin yüksək olması vacibdir.

Müasir tədris prosesində birgə təlim, layihə əsaslı metodologiya, yeni informasiya texno-

**Sxem 1.** Konstruktivist təhsil metodu sxemi [8]




**Sxem 2.** Layihə əsaslı öyrənmə sxemi [10]




**Sxem 3.** Qarışıq (Blended) təhsil modeli sxemi [9]




logiyalarından, həmçinin internet resurslarından istifadə kimi müasir pedaqoji texnologiyalar şagirdyönümlü yanaşmanın həyata keçirilməsinə kömək edir, təlimin fərdiləşdirilməsini və diferensiallaşdırılmasını təmin edir [4]. Müasir dövrümüzdə təhsil müəssisələrinin qarşısında duran əsas məsələlərdən biri dərs prosesi zamanı hər bir tələbə

**Cədvəl 2.** Ənənəvi və müasir təhsil metodları arasındakı əsas fərqlər

| Meyarlar | Ənənəvi təhsil metodları | Müasir təhsil metodları |
|---|---|---|
| Tədris yanaşması | Müəllimmərkəzli (müəllim əsas fiqurdur) | Tələbəmərkəzli (tələbə və onun ehtiyacları ön planda) |
| Təlim üsulları | Mühazirə, əzbərlətmə, yazılı imtahanlar | İnteraktiv, layihə işi, praktiki tapşırıqlar, interaktiv üsullar |
| Texnologiyanın rolu | Minimum və ya heç istifadə edilmir | Rəqəmsal texnologiyalar, onlayn platformalar, virtual və artırılmış reallıq |
| Tədrisin məqsədi | Teorik biliklərin ötürülməsi | Bilik, bacarıq və kompetensiyaların inkişafı, yaradıcılıq və tənqidi düşüncənin formalaşdırılması |
| Tədris mühiti | Ənənəvi sinif otağı, lövhə və kitab əsaslı | Distant, onlayn siniflər, interaktiv platformalar, açıq və çevik mühitlər |
| Tələbənin rolu | Passiv dinləyici və icraçı | Fəal iştirakçı, tədqiqatçı və qərar verən tərəf |
| Qiymətləndirmə üsulu | Yazılı və test əsaslı imtahanlar | Layihələr, təqdimatlar, davamlı prosesin qiymətləndirilməsi, praktiki tapşırıqlar |
| Əməkdaşlıq və qrup işi | Çox nadir hallarda tətbiq olunur | Əməkdaşlığa əsaslanan, qrup və komandalarla tapşırıqlar geniş yayılıb |
| Yanaşmanın çevikliyi | Çətin adaptasiya olunur, standartlaşdırılmışdır | Fərdiləşdirilmiş və çevikdir, tələbəyə uyğunlaşdırılır |
| Motivasiya və maraq | Əksər hallarda aşağı motivasiya | İnteraktivlik və praktiklik motivasiyanı artırır |

üzrə onun fəal mövqeyinin formalaşması üçün zəruri şəraitin yaradılmasıdır [2, s.106].

Təqdim edilmiş şəkildə (şəkil 1) bir öyrənmə piramidi modelini görə bilərik. Müxtəlif tədris metodları bu təsvirdə öz orta yadda qalma faizinə görə sıralanıb. Bununla yanaşı, metodlar ənənəvi və komanda şəklində qruplar üzrə bölünüb. Beləliklə, burada ənənəvi qrupdan olan mühazirə, oxuma, audio-vizual və təqdim etmə formaları müvafiq olaraq 5, 10, 20 və 30 faiz yadda qalma nisbətinə malikdirlər. Komandaya aid olan müzakirə qrupu, praktiki öyrənmə, başqalarını öyrət/dərhal istifadə etmə yanaşmaları isə müvafiq olaraq 50, 75 və 90 faiz orta yadda saxlama payı alıblar. Beləliklə fərdi və kollektiv, ənənəvi və qeyri-ənənəvi metodlar arasında səmərə baxımından ciddi fərqi müşahidə edə bilərik [12]. Daha əvvəl də qeyd edildiyi kimi, effektiv dərs sadəcə mühazirə deyil. Effektiv dərs interaktiv təlim metodlarını əhatə edir. İnteraktiv təlim metodlarından istifadə etmək üçün effektiv dərsin elementlərini və interaktiv strategiyalardan istifadə edən dərs planına nələrin daxil edilməli olduğunu nəzərə almaq lazımdır.

Buradan aydın görünür ki, rəqəmsal və bu istiqamətli tətbiqlər tələbələrin təhsillərinin keyfiyyətinə və şəxsi bacarıqlarını inkişaf etdirməyə həmçinin onların karyera hazırlığını artırmağa kömək edir. Əlavə olaraq qeyd edək ki, texnoloji vasitələrin həm təhsil-təlim həm də qiymətləndirmə proseslərinə effektiv şəkildə inteqrasiyası bu istiqamətdə məqsədə çatmağa səbəb olan amillərdəndir. Bu səbəblərə görə belə qənaətə gəlmək olar ki, ənənəvi təhsil yanaşması getdikcə real həyatdan uzaqlaşmaqdadır. Süni intellektin qalıcı olduğu bir mühitdə təhsilin davamlılığını və texnologiya ilə uzlaşmasını təmin etmək

**Şəkil 1.** Öyrənmə piramidi modeli




Mənbə: [12]

hazırda ən kritik məsələlərdən biridir. Müəllimlərin rolu da bu tendensiyalara əsasən davamlı olaraq dəyişir. Ali təhsil müəssisələrində tələbələrə texnologiyanın sürətlə dəyişdiyini öyrətmək onların gələcəyi üçün mühüm əhəmiyyətə malikdir. Bu kontekstdə Dünya İqtisadi Forumu Üçüncü və Dördüncü Sənaye İnqilablarının nəticəsi olaraq aşağıdakı elementlərdən ibarət "Təhsil 4.0 Çərçivə" sənədini təklif etmişdir [13, s.7].

- ❑ **İnnovasiya və yaradıcılıq bacarıqları:** Kompleks problem həll etmə, analitik düşünmə, yaradıcılıq və sistem təhlili bacarıqları;
- ❑ **Texnologiya bacarıqları:** Proqramlaşdırma, rəqəmsal bacarıqlar və texnologiyadan istifadəni əhatə edən rəqəmsal bacarıqlar;
- ❑ **Şəxslərarası ünsiyyət bacarıqları:** Empatiya, əməkdaşlıq, danışıqlar, liderlik və sosial şüurluluğu əhatə edən şəxslərlərarası emosional zəka bacarıqları;
- ❑ **Fərdiləşdirilmiş öyrənmə:** Standart öyrənmə əvəzinə, öyrənənlərin fərdi ehtiyaclarına və tempinə əsaslanan çevik sistem;
- ❑ **Əlçatan təhsil və inklüziv öyrənmə:** Hər kəsin formal təhsil əvəzinə öyrənmə əldə edə biləcəyi inklüziv sistem;
- ❑ **Problem əsaslı və birgə öyrənmə:** Proses əsaslı təcrübədən həmyaşıdların əməkdaşlığını tələb edən layihələr və problemlərə əsaslanan məzmunun təqdimatı;
- ❑ **Ömür boyu və tələbə mərkəzli öyrənmə:** Zamanla azalan bilik və bacarıqların əldə edilməsi əvəzinə, mövcud bacarıqların davamlı olaraq inkişaf etdirildiyi və fərdi ehtiyaclara uyğun olaraq fərqləndirildiyi sistem.

### Təhsildə texnologiyadan istifadə

Texnologiyanın təhsildə təklif etdiyi üstünlüklər müəllimlərin təlimatlarından tutmuş tələbələrin motivasiyasına qədər bir çox sahədə özünü göstərir. Təhsildə texnologiyalardan istifadə tələbələrə lazım olan məlumatları daha tez və effektiv şəkildə öyrənməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Həmçinin müəllimlərə lazımi məlumatları qısa zamanda tələbələrlə bölüşməyə şərait yaradır. Texnologiyaların təhsildə effektiv şəkildə istifadəsi özü ilə birlikdə zamanın tələblərinə uyğun müasir təhsil sistemini də gətirir.

Texnologiyanın təhsilə müsbət təsirləri aşağıdakılardır:

- Təhsildə texnologiyadan istifadə dərsi daha sürətli və səmərəli edir.
- Bu, tələbələrin daha effektiv təhsil prosesinə sahib olmasına töhfə verir.
- Təhsildə texnologiyanın istifadəsi müxtəlif təlim üslublarının birlikdə istifadəsinə imkan verir.
- Bu, müəllimə mövzunu daha effektiv izah etməyə kömək edir.
- Birbaşa mühazirə üsulu ilə izahı mümkün olmayan fənlərin daha asan öyrədilməsinə şərait yaradır.
- Tələbənin analitik təfəkkür bacarıqlarını təkmilləşdirir.
- Fərqli öyrənmə tərzi olan tələbələrin diqqətdən kənarda qalmamasını təmin edir.
- Təhsildə texnologiyadan istifadə məlumatın daha davamlı öyrənilməsinə kömək edə bilər.
- Bu proses tələbələrin texnoloji inkişafdan uzaq qalmamasına kömək edir.

Texnologiya sayəsində məlumat əldə etmək asanlaşır. Texnoloji inkişaflar da ömür boyu təhsil konsepsiyasının inkişafına dəstək verir. Bir sözlə, texnologiyanın təhsilə müsbət təsirləri çoxdur və texnologiyanın təhsildə istifadəsi öyrənmə prosesini asanlaşdırdığı üçün geniş yayılmaqda davam edir. Tədris prosesində təhsil alanın hərtərəfli şəxsiyyət kimi formalaşması üçün yeni pedaqoji texnologiyalardan məqsədəuyğun və kompleks şəkildə istifadə edilməsi daha yüksək nailiyyətlər əldə etməyə imkan verir. Burada məqsədə və təlimin məzmununa uyğun texnologiyalar seçilməsi və onların ardıcıl, qabaqcadan müəyyənləşdirilmiş vaxtda yerinə yetirmək məqsədəmüvafiqdir [5, s.53].

Təhsildə süni intellekt alətlərinin istifadəsi təkcə tələbələr üçün fərdiləşdirilmiş öyrənmə təcrübəsini təmin etmir, həm də müəllimlərə yeni və effektiv tədris strategiyaları hazırlamağa imkan verir. Həmçinin təhsil forma və metodları üzrə müəllimlər üçün praktiki məsləhətlər verir, müxtəlif tədris mühitlərinə necə inteqrasiya oluna biləcək məsələlərə diqqət yetirir. Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı qəbul edilmişdir [1]. Təhsil və təlim prosesində süni intellekt texnologiyalarının səmərəli şəkildə yoxlanılması və istifadəsi ölkəmizin süni intellekt savadlılığına öz töhfəsini verəcəkdir.

Müasir dövrümüzdə dünya reytinqli ali təhsil müəssisələri tələbələrin fərdi inkişafını və öyrənmə üslublarını nəzərə alaraq tələbə mərkəzli yanaşma ortaya qoymaqdadırlar. Həmin ali təhsil müəssisələri tələbələrin ehtiyac və gözləntilərinə uyğun olaraq effektiv və diferensiallaşdırılmış təhsil proqramları həyata keçirirlər. Həmçinin müxtəlif interaktiv öyrətmə vasitələrindən istifadə edirlər. Onlara misal olaraq aşağıdakıları göstərə bilərik:

1. Kahoot
2. Mentimetr
3. Canva
4. AhaSlides
5. Slido
6. Poll Everywhere
7. Vevox
8. Quizizz
9. ClassMarker
10. Quizlet
11. ClassPoint
12. Crowdpurr
13. Wooclap və s.

Kahoot servisi Norveçdə hazırlanmış onlayn öyrənmə platformasıdır. Kahoot platformasında istifadəçilər tərəfindən yaradılan müxtəlif öyrənmə oyunları vardır. Bu oyunlar "kahoots" adlanır və veb brauzer və ya Kahoot tətbiqi vasitəsilə əldə edilə bilər. Kahoot öyrənmə prosesini əyləncəli və maraqlı hala gətirmək üçün oyunlaşdırmadan istifadə edir.

Kahoots adətən çoxseçimli suallardan ibarət olur və oyunçular öz cihazları ilə cavab verirlər. Kahoots canlı olaraq qrup şəraitində oynanılır, burada suallar böyük bir ekranda nümayiş olunur və oyunçular öz cihazlarından cavab verirlər. Kahoot platformasında istifadəçilər özləri öyrənmə oyunları yarada bilərlər. Kahoot tədris prosesinin daha interaktiv, əyləncəli və effektiv olmasına kömək edir [11]. İnteraktiv dərslərin, testlərin, sorğuların yaradılması üçün geniş imkanlar vardır. Kahoot müəllimlərə tələbələrin cavablarını dərhal təhlil etməyə imkan verir. Müəllimlər hansı sualların çətin olduğunu və hansı mövzularda tələbələrin zəif olduğunu asanlıqla görə bilərlər. Hər tələbənin inkişaf etdiyini izləmək mümkündür, bu da müəllimlərə dərs planını daha effektiv hazırlamağa kömək edir. Kahoot auditoriyalarda tələbələrin smartfonları ilə bu proqramdan istifadə etməyə, həm də tələbələri dərsə daha yaxşı motivasiya olmağa kömək edir. Sadə istifadə qaydaları vardır. Kahoot həm təhsil müəssisələrində, həm də şirkətlərdə öyrənmə və təlim məqsədləri üçün istifadə edilə bilər.

Mentimeter istifadəçilərə dərslərdə, konfranslarda və digər qrup fəaliyyətlərində təqdimatlar hazırlamaq və real vaxt rejimində rəy almağa imkan verən proqramdır. Mentimeter ödənişsiz versiyası limitsiz sayda təqdimat yaratmağa və istənilən qədər istifadəçi dəvət etməyə imkan verir. İstifadəçilər sorğular, testlər, söz buludları, sual-cavablar və təqdimata daxil olan digər interaktiv funksiyalar vasitəsilə rəy ala bilərlər. Mentimeter hər kəsə suallar verməyə, mövzuları daha aydın başa düşməyə imkan verir ki, bu da daha dolğun öyrənmə təcrübəsi ilə nəticələnir. Paylaşılan təqdimatın redaktəsi ilə komanda əməkdaşlığını asanlaşdırmaq olur. Mentimeter bizə yüksək keyfiyyətli məlumat nöqtələrini də toplamağa imkanı verir. Mentimeter vasitəsi ilə həm pedaqoqlar həm də biznes mütəxəssisləri real vaxt rejimində iştirak edə və anında rəy ala bilərlər.

Canva proqramı 2012-ci ildə Avstraliyada qrafik dizayn üçün hazırlanmış onlayn platformadır. Həm peşəkar dizaynerlər, həm də təcrübəsiz istifadəçilər üçün əlverişlidir. Canva vasitəsilə ödənişsiz formada müəllimlər və tələbələr müxtəlif dizayn layihələri yarada bilərlər. Buraya təqdimatlar, sosial media postları, afişalar, dəvətnamələr, vizit kartları, video montajlar və s. aiddir. İstifadəsi asan və intuitivdir, heç bir dizayn proqramı biliyi tələb etmir, platformada milyonlarla şəkil, ikon, video vardır. Komanda işi və paylaşım üçün əlverişlidir, daim yenilənir və süni intellekt texnologiyaları ilə gücləndirilir [14].

Bu proqramlarla yanaşı biz müəllim olaraq tələbələri auditoriyada qruplara bölə bilərik. Bu qruplar kiçik və ya böyük qruplar ola bilər. Hər qrupa öz rollarını vermək lazımdır. Yəni hər kəsin iştirakını və bərabər töhfə verməsini təmin etmək üçün hər bir qrup üzvünə xüsusi rollar təyin etmək lazımdır. Müəllim qarşılıqlı əlaqəni asanlaşdırmaq üçün qrup üzvləri arasında açıq ünsiyyəti və fikir mübadiləsini təşviq etməli, onları birlikdə səmərəli işləməyə yönəltməlidir. Həmçinin müəllim tələbələrin qarşılaşdıqları hər hansı problemi həll etmələri və rəy bildirmələri üçün şərait yaratmalı, mütəmadi olaraq yoxlamalı və onların əməkdaşlıq etmələrini nəzarətdə saxlamalıdır. Belə olan təqdirdə müəllim tələbələrə hər hansı bir ekosistem modeli qurduğu qrup layihəsi təyin etmiş olur. Həmçinin burada hər bir qrup üzvünün material toplamaq, modeli qurmaq və ya ekosistemin müxtəlif hissələrini izah etmək kimi xüsusi rolları vardır. Bu sistem tələbələrdə həmçinin komanda işi və ünsiyyət bacarıqlarını da inkişaf etdirir.

Ənənəvi təhsil metodlarının və müasir yanaşmaların arasında balans tapmaq təhsil sistemində ən böyük çətinliklərdən biridir. Bu balans tələbələrin həm bilik əldə etmələrini, həm də yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirmələrini təmin etməlidir. Təhsil mütəxəssisləri ənənəvi və müasir metodları birləşdirən hibrid yanaşmaların tətbiqinin təhsil sisteminin bütün gücünü ortaya çıxara biləcəyini qəbul edirlər.

Müasir zamanda demək olar ki, bütün universitetlərdə təhsilin informatlaşması prosesinə

daha çox ehtiyac var. Çünki ali təhsil müəssisələrinin informasiya tutumu və müvafiq olaraq İKT-dən istifadəyə ehtiyacı daha çoxdur. Müasir tələblərə cavab verən mütəxəssis hazırlığı, tədrisin keyfiyyətinin yüksəldilməsi və korrupsiyanın qarşısının alınması, universitetlərdə aparılan elmi tədqiqatların və elmi innovasiyaların səviyyəsinin yüksəldilməsi, müasir tələblər səviyyəsində universitetin idarə edilməsi (universitetdə idarəetmənin avtomatlaşdırılması), beynəlxalq əlaqələrin qurulması, xüsusən Avropa təhsil məkanına inteqrasiya məsələləri və s. baxımından bu proses zəruridir [3, s.9].

**Nəticə**

Müasir təhsil sistemi tələbələrin fərdi inkişafını və öyrənmə üslublarını nəzərə alan tələbə mərkəzli yanaşmanı əhatə edir. Universitetlər fərdi ehtiyac və gözləntilərə uyğunlaşdırılmış çevik, dinamik və fərqli təhsil proqramları həyata keçirir həmçinin müasir təhsilin əsas elementi olan texnologiyanı tədris proseslərinə inteqrasiya edirlər. Universitet daxilində tədris prosesini dəstəkləmək üçün elektron tədris platformaları, virtual laboratoriyalar və smart sinif otaqları kimi texnoloji vasitələrdən də istifadə olunur.

Müasir dövrümüzdə tələbələrə analitik təfəkkür, tədqiqat metodlarını və problem həll etmə bacarıqlarını inkişaf etdirmək üçün real həyat problemlərinə əsaslanan çoxsahəli, həll yönümlü layihələr, ömür boyu öyrənmə və beynəlmiləşmə elementlərini özündə birləşdirən təhsil proqramları və sistemləri təşviq olunur. Bu proses tələbələrin fərdi inkişafına dəstək verməklə ixtisaslı məzunlar yetişdirmək məqsədi daşıyır.

Nəticə etibarilə, müasir dövrdə təhsil sahəsində innovativ yanaşmaların tətbiqi yalnız texnoloji tərəqqi ilə izah olunmur. Burada təfəkkürün, metodikanın və münasibətin dəyişməsi prosesləri baş verir. Belə yanaşmalar təhsili daha səmərəli, əlçatan və aktual edir. Bu dəyişikliklərə uyğunlaşan təhsil sistemi isə cəmiyyətin davamlı inkişafına və müasir çağırışlara cavab verə bilən vətəndaşların formalaşmasına imkan yaradır.

Hal-hazırda təhsildə ənənəvi və müasir metodların vəhdət təşkil etməsi məqsədəuyğundur. Yalnız bu halda təhsil sistemi cəmiyyətin və əmək bazarının tələblərinə cavab verə bilər. Müasir təhsil prosesi - Azərbaycan Respublikasının təhsil sisteminə də getdikcə daha sistemli şəkildə inteqrasiya olunur. Bu yanaşmalar Azərbaycanın təhsil səviyyəsini beynəlxalq standartlara daha da yaxınlaşdırır.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. - Bakı, 19 mart 2025-ci il.
2. Əliyeva, F., Məmmədova, Ü. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. - Bakı: MBM, - 2014. – 195 s.
3. Əhmədov, İ., Təhsilin informatlaşması pedaqoji elmin yeni sahəsidir // Azərbaycan müəllimi. – 2013. – 15 mart. – s.9. / https://www.anl.az/down/meqale/az_muellimi/2013/mart/299822.htm
4. Kərimova, A., Cəlil, F., Müasir tədrisdə yeni innovativ texnologiyalardan istifadə üsulları // Beynəlxalq elmi jurnal. – 2025. – Cild: 7. – Sayı: 2 / 7-10
5. Nəzərov, A. Müasir təlim texnologiyaları (Mühazirə xülasələri). Dərs vəsaiti. – Bakı: ADPU-nəşriyyatı, 2012. -103 s.
6. Çoban, E., Uzun, H., Endüstri 4.0'ın Eğitim Alanına Etkileri. // Fırat Üniversitesi, Uluslararası İktisadi ve İdari Bilimler Dergisi. - 2022. - 6(1). - s.97-122.
7. Kafadar O, Türk Eğitim Düşüncesinde Batılılaşma. - İstanbul: Feryal Matb, - 1997.
8. Constructivist teaching methods /http://ccti.colfinder.org/sites/default/files/constructivist_teaching_methods.pdf
9. Georgsena, M., Lovstada, C., (2014). Use

of blended learning in workplace learning // Procedia-Social and Behavioral Sciences, 142. - p.774-780
10. PBL Handbooks: Creating Projects to Ignite Learning for Every Student. Buck Institute of Education's comprehensive overview of PBL / http://www.bie.org/about/what_is_pbl
11. Best Kahoot Alternatives in 2025 (Free & Paid Options) / https://ahaslides.com/blog/similar-alternatives-to-kahoot [07.08.2025].
12. Teaching methodologies. Practical law for Law Students. Community Legal Education Course Manual https://www.babseacle.org/wp-content/uploads/2010/05/BABSEA_CLE_Teaching_Methods_Manual-7-Sep-2010.pdf
13. World Economic Forum, Schools of the Future, Defining New Models of Education for the Fourth Industrial Revolution. - Geneva: World Economic Forum, - 2020. - s.7.
14. https://www.canva.com/

***Açar sözlər:*** *müasir təhsil metodları, ənənəvi təhsil metodları, innovasiya, interaktiv öyrənmə metodları, texnologiya, süni intellekt*

**Anar Shukurov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Alumni Affairs Sector, Ph.D. in Political Sciences*

**Aykhan Khubanov**

*Specialist in the Department of Quality Monitoring of Education and Alumni Affairs at the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. in Economics*

# INNOVATIVE APPROACHES IN THE MODERN EDUCATIONAL PROCESS

## ABSTRACT

In order for countries to adapt to global development and competition in the world and adapt to changes, they must have qualified workforce. The most important direction to achieve this aim is high-quality education. The level of development of a state is determined by its success in economic, social, cultural, military, etc. fields, its ability to respond to these changes, and also the innovative knowledge provided by a developed education system. The rapid development of digital technologies in a globalizing world is also having a profound impact on the modern education. Traditional education models can no longer fully meet the needs of modern learners. In such conditions, educational institutions and pedagogues must apply flexible, interactive, and technology-based innovative approaches and scientific developments that directly impact formation of actual and quality education and social life facilitating adaptation to the requirements of developing society.

Therefore, this article examines innovative methods of modern education that contribute to the training of specialists in demand in the current labor market. It also proposes comprehensive approaches to integrating interactive methods into the learning process, such as Kahoot, Mentimeter, Canva, and others. This article is based on the practical work of the "Education Quality Monitoring and Alumni Affairs" department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan.

***Keywords:*** *modern educational methods, traditional educational methods, innovation, interactive learning methods, technology, artificial intelligence*

**Анар Шюкюров**

*Заведующий сектором работы с выпускниками*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

**Айхан Хубанов**

*Специалист отдела Мониторинга качества обучения и*
*работы с выпускниками Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики, доктор философии по экономике*

# ИННОВАЦИОННЫЕ ПОДХОДЫ В СОВРЕМЕННОМ ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ

## РЕЗЮМЕ

Чтобы идти в ногу с глобальным развитием и конкуренцией, а также адаптироваться к изменениям, странам необходима квалифицированная рабочая сила. Важнейшим направлением для достижения этой цели является качественное образование. Уровень развития государства определяется его успехами в экономических, социальных, культурных, военных и других областях, его способностью реагировать на эти изменения, а также инновационными знаниями, обеспечиваемыми развитой системой образования. Стремительное развитие цифровых технологий в глобализирующемся мире также фундаментально влияет на развитие современного образования. Традиционные образовательные модели больше не могут в полной мере удовлетворить потребности современных учащихся. В этих условиях образовательные учреждения и преподаватели должны применять гибкие, интерактивные и технологически обоснованные инновационные подходы и научные разработки, которые напрямую влияют на формирование актуального и качественного образования и общественной жизни, способствующих адаптации к требованиям развивающегося общества. Как следствие, в данной статье предлагается комплексный подход, включающий в себя инновационный метод современного образования, позволяющий подготовить востребованных на современном рынке труда специалистов. Рассматриваются инновационные методы современного образования, способствующие подготовке специалистов, востребованных на существующем рынке труда. Также предложены комплексные подходы к внедрению в процесс обучения интерактивных методов, таких как Kahoot, Mentimeter, Canva и др.

Статья подготовлена на основании практических работ отдела Мониторинга качества обучения и работа с выпускниками Академии Государственного Управления при Президенте Азербайджанской Республики.

***Ключевые слова:*** *современные методы обучения, традиционные методы обучения, инновации, интерактивные методы обучения, технологии, искусственный интеллект*

DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.058

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

HÜQUQ
LAW

UOT 342

**NƏZRİN NAĞIYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müəllimi**
*e-mail: nazrin.elcingizi@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA DÜZƏLİŞLƏR EDİLMƏSİ QAYDASININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Antik dövrdə ortaya çıxmasından bu günə qədər “demokratiya” anlayışı siyasi və hüquqi müzakirələrin mərkəzində olmuş, cəmiyyət proseslərində baş verən dəyişikliklərlə birlikdə mövcud şəraitə uyğunlaşaraq özünü yenidən qurmaq xüsusiyyətinə sahib olmuşdur. Demokratiyanın ilkin və ya orijinal mənası, cəmiyyətlərin quruluşu və şərtlərinin daim dəyişməsi nəticəsində zamanla ilkin mənasından uzaqlaşmış və tarix boyu müxtəlif şəkildə şərh olunduğu üçün mənası aşınmaya uğramışdır.

Demokratiya anlayışı antik Yunan dilində “demos” (xalq) və “kratos” (hakimiyyət) sözlərinin birləşməsindən yaranmış, daha sonra “democratia” formasını almış və dilimizə də Fransız dilindəki “démocratie” sözündən keçmişdir. Demokratiyanın etimoloji kökündə yer alan “demos”, antik Yunan dövründə müəyyən bir polisdə (şəhər-dövlətdə) yaşayan vətəndaşlar mənasına gəldiyi kimi, eyni zamanda sıravi insanlar, alt təbəqə və alt təbəqədəki din adamları üçün də istifadə olunmuşdur. “Kratos” isə güc və ya hakimiyyət mənası daşımaqla yanaşı, iqtidar anlamında da işlədilmişdir. Sözün hərfi mənası olaraq “xalqın hakimiyyəti” kimi izah olunan demokratiya, tarixdə ilk dəfə Antik Yunan şəhər-dövlətlərində meydana çıxmasına baxmayaraq, geniş yayılmış və qlobal mənasını modern dövlətlər dövründə qazanmışdır [16].

Tarixi proses baxımından antik Yunan demokratiyasında “xalq” anlayışı deyərkən bütün yaşayan əhalinin nəzərdə tutulmadığı xüsusilə vurğulanmalıdır. Bu dövrdə xalq dedikdə, böyük kölə kütləsinin istisna edildiyi kiçik bir azlıq, yəni elit kişi vətəndaşlar nəzərdə tutulurdu. Demokratiyanın tətbiq olunduğu Afina şəhərində ümumi əhali təxminən 350 min nəfər idi, lakin vətəndaş statusuna malik kişilərin sayı cəmi 40-45 min arasında dəyişirdi. Vətəndaş anlayışı bu qədər məhdud olduğu üçün həmin dövrün demokratiya anlayışı üz-üzə ünsiyyətə əsaslanan icma demokratiyası kimi xarakterizə edilə bilər. Həmçinin bu dövrdə indiki mənada fərd anlayışından danışmaq da mümkün deyildi.

Afina demokratiyasında idarəetmə xalqın nümayəndə göndərməsi yolu ilə deyil, xalqın birbaşa iştirakı ilə həyata keçirilirdi. Birbaşa iştirakın mümkün olmasının və nümayəndə vasitəsilə idarəetmənin qəbul edilməməsinin əsas səbəbi, xalqın ictimai məsələlərə yüksək

həssaslıq göstərməli olduğuna dair inam idi. Bu baxımdan Afina demokratiyasının əsas xüsusiyyəti ictimai məsələlərin şəxsi həyatdan üstün tutulmasını ifadə edən vətəndaşlıq mərifətinə sahib olmasıdır.

Demokratiyanın meydana gəldiyi antik Yunan dövründən günümüzə qədər demokratiya praktikalarında bir sıra çətinliklər yaşanmışdır. Bunun əsas səbəbi, ortaya çıxdığı dövrdən etibarən bir çox alim tərəfindən demokratiyanın kişi üstünlüyünə əsaslanan və mülkiyyətsiz, kasıb təbəqələr üçün uyğun görülməyən bir idarəetmə forması kimi qiymətləndirilməsi olmuşdur. Məsələn, Aristotel demokratiya ilə oliqarxiya arasındakı fərqi sərvət üzərindən izah edir. Onun fikrincə, oliqarxiya ilə demokratiyanı bir-birindən ayıran əsas nüans sərvətin olub-olmamasıdır. Siyasi hakimiyyətin iqtisadi gücə bağlı olduğu yerdə, hakimiyyətin az və ya çox sayda adama məxsus olmasından asılı olmayaraq bu oliqarxiyadır; mülkiyyətsiz kütlənin hakimiyyət sahibi olduğu vəziyyət isə demokratiya hesab olunur [15].

Aristotel oliqarxiya-demokratiya fərqini açıqladıqdan sonra demokratiyanın təbiətində müəyyən risklərin hər zaman mövcud olduğunu bildirir. Onun düşüncəsinə görə, yoxsulların hakimiyyəti, onların maraqlarını müdafiə edən və nəticədə idarəetməni pozan bir formaya çevrildikdə, yəni idarəetməyə xüsusi təhsil almamış, keçmişi problemli, nizamsız şəxslərin gəlmə ehtimalı olduqda demokratiyaya ehtiyatla yanaşmaq lazımdır.

Platon da bənzər mövqe sərgiləyərək demokratiyanı müəyyən qaydası olmayan azadlıqlar və sərbəstliklər sistemi kimi dəyərləndirir və demokratiyaya mənfi məna yükləyir. Platonun fikrincə, demokratiya hədsiz sərvət istəyi və doymayan maddi ehtirasın nəticəsidir. Qısacası, Antik Yunan dövründəki demokratiya anlayışı, bu gün anladığımız və tətbiq etdiyimiz demokratiya modellərindən xeyli dərəcədə fərqlənirdi [17].

Demokratiya, ən ümumi mənada, xalqın idarəetmədə iştirakıdır. Başqa sözlə, xalq suverenliyinin siyasi və inzibati baxımdan özünü göstərməsidir. Bu nöqtədə xalqın idarəetmədə və ya qərarvermə proseslərində iştirakında, yəni demokratiyanın tətbiqində istifadə olunan üç sistem mövcuddur. Bunlar: birbaşa demokratiya, nümayəndəli demokratiya və yarı birbaşa demokratiyadır. Birbaşa demokratiya xalqın idarəetmə və qərarvermə proseslərində bilavasitə iştirakını ifadə edir. Nümayəndəli demokratiya isə xalqın suverenliyini nümayəndələrə həvalə etdiyi bir sistemdir. Yarı birbaşa demokratiya isə xalq suverenliyinin nümayəndələr və xalq arasında bölüşdürülməsidir.

Müasir dövrdə birbaşa demokratiyanın tətbiqinin çətinliyi səbəbilə müasir dövlətlərin demokratiyası birbaşa deyil, dolayıdır. Buna görə də birbaşa demokratiyanın tətbiqindəki çətinlik və mümkünsüzlük nəticəsində müasir dövrdə nümayəndəli demokratiya sistemi qəbul olunmuşdur. Daha sonra nümayəndəli demokratiyanın nöqsanlarını və səhvlərini aradan qaldırmaq və onu birbaşa demokratiyaya yaxınlaşdırmaq məqsədi ilə yarı birbaşa demokratiya sistemi meydana çıxmışdır.

Yarı birbaşa demokratiya əsas etibarilə nümayəndəli demokratiyadır. Lakin bəzi hallarda xalqın qərarvermə prosesində birbaşa iştirak etməsi onun nümayəndəli demokratiyadan fərqlənən tərəfini təşkil edir. Xalq suverenliyini ifadə edərkən istifadə etdiyi bəzi alətlər mövcuddur. Bu alətlər: xalq vetosu, xalq təşəbbüsü və referendumdur. Xalq vetosu parlament tərəfindən qəbul edilən bir qanunun qüvvəyə minməsindən əvvəl müəyyən sayda vətəndaşın həmin qanun barədə referendum keçirilməsini tələb etməsidir. Xalqın istədiyi bir qanunun müəyyən sayda vətəndaşın müraciəti ilə məclis tərəfindən qəbul edilməyə məcbur edilməsi isə xalq təşəbbüsüdür [18].

Referendum, "geri almaq" və ya "gətirmək" mənasını verən Latın dilindəki "referre" sözündən yaranmışdır. Dilimizə Fransız dilindəki "référendum" sözündən keçmişdir. Sözün lüğəvi mənası isə "xalq səsverməsi"dir. Referendum, parlament tərəfindən qəbul edilən və ya ediləcək olan bir qanun mətninin xalqın təsdiqinə təqdim edilməsi kimi izah olunur. Bu qanun mətninin hüquqi baxımdan qüvvəyə

minməsi seçicilərin çoxluğu tərəfindən qəbul edilməsinə bağlıdır. Seçicilər səsverməyə qatıldıqları zaman “bəli” və “xeyr” seçimlərindən birini işarələyərək mətnin qəbulunu və ya rəddini təmin edirlər.

Referendumun nəzəri əsası Jan Jak Russonun “İctimai Müqavilə” əsərinə dayanır. Russonun fikrinə görə, suverenlik başqasına verilə bilməz və təmsil edilə bilməz. Yəni bir qanunun qəbul edilməsi üçün təkcə millət vəkillərinin təsdiqi kifayət etmir; qanun xalqın da təsdiqindən keçməlidir. Müasir dövrdə isə bunu təmin etməyin yolu referendumdur. Bu nöqtədə xalqın səsləri vasitəsi ilə müəyyən mətnlərin legitimliyinin təmin olunması böyük əhəmiyyət daşıyır [18].

Referendumun həyata keçirilməsi hər zaman legitim bir qərarın ortaya çıxacağı demək deyil. Bəzi hallarda xalq səsverməsi, müəyyən üsullar vasitəsilə xalqın manipulyasiya olunması, məcbur buraxılması və ya aldadılması yolu ilə sui-istifadə edilə bilər. Buna görə də referendumun sui-istifadə edilməsi mənasını daşıyan plebisit ilə referendum arasında fərqin qoyulması vacibdir. Bu iki anlayış arasında fərq qoyulmasının əhəmiyyəti, zaman-zaman plebisit və referendum sözlərinin sinonim kimi işlənməsidir.

Referendum, qanunverici orqan tərəfindən qəbul olunan bir qanun mətninin xalq səsverməsinə çıxarılmasıdır. Plebisit isə mahiyyət etibarilə xalq səsverməsi olsa da, onu referendumdan ayıran müəyyən xüsusiyyətlərə malikdir. İlk fərq ondan ibarətdir ki, referendumda bir mətnin təsdiqindən bəhds edildiyi halda, plebisitdə bir şəxsin səsverməsi əsasdır. Digər fərq isə referendumun keçirilməsini istəyən orqanın xalqın seçdiyi nümayəndələr – yəni qanunverici orqan – olmasıdır və referendumda bu orqan tərəfindən hazırlanan mətn xalqın qarşısına çıxarılır. Plebisitdə isə səsvermə tələbi hakimiyyəti əlində saxlayanlar tərəfindən edilir və xalqın iştirakı olmadan hazırlanan mətnlər səsverməyə çıxarılır. Yəni plebisit antidemokratik rəhbər və hakimiyyətlərin özlərini legitim göstərməsinə xidmət edən bir xalq səsverməsidir.[16]

Bundan başqa, xalq səsverməsinə hüquqa uyğun şəkildə gedilirsə referendumdan söz açmaq olar, lakin müvəqqəti bir tənzimləmə ilə aparılırsa, bu, plebisit sayılır. Eyni şəkildə, əgər təbliğatlar həm mətnə dəstək verənlər, həm də qarşı çıxanlar tərəfindən azad şəkildə edilə bilirsə, bu referendumdur. Əgər hakimiyyətə qarşı təbliğat qadağan olunursa, bu, plebisit hesab edilir. Son olaraq, xalq səsverməsindən çıxan nəticəyə əməl edilirsə bu referendumdur; əksinə nəticə mənfi olsa belə səsverməni istəyənlərin vəzifədə qalması – bəzi istisnalar olmaqla – plebisitdir.

Qısaca, plebisit referendumun sui-istifadə olunması və ya demokratik diktaturanın bir vasitəsi kimi xarakterizə oluna bilər.

Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyası referendum yolu ilə qəbul olunmuş və bu sənəddə xalqın yeganə hakimiyyət mənbəyi olduğu açıq şəkildə qeyd edilmişdir. Konstitusiyada həmçinin referendumun xalqın suveren hüququnu birbaşa həyata keçirməsinin əsas yollarından biri kimi göstərilməsi də mühüm əhəmiyyət kəsb edir.

Konstitusiyaya dəyişikliklər edilməsi zamanı xalqın fikrinin birbaşa öyrənilməsi imkanının – yəni birbaşa demokratiya alətinin – tətbiqi müsbət hal kimi qiymətləndirilə bilər. Bununla yanaşı, referendum yolu ilə Konstitusiyaya edilən düzəlişlər insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına, hüquqi dövlət quruculuğuna və idarəetmə sisteminin təkmilləşdirilməsinə şərait yaratmışdır.

Baxmayaraq ki, Azərbaycanda konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi, referendum mexanizmi və bu sahədə mövcud prosedurlar ümumilikdə müsbət cəhətlərlə seçilir, qanunvericilikdə hələ də bəzi qeyri-müəyyən və dəqiq olmayan məqamlar mövcuddur.

Bu məsələlərdən biri də “konstitusiyaya dəyişikliklər” və “konstitusiyaya əlavələr” ifadələrinin terminoloji baxımdan hansı mənaları verdiyi ilə bağlıdır. Bir çox ölkələrin konstitusiyalarında bu proses ümumiyyətlə “konstitusiyaya baxışın yenilənməsi”, “konstitusiyanın

dəyişdirilməsi" və ya "düzəlişlər" kimi ifadələrlə izah olunur və istər dəyişikliklər, istərsə də əlavələr eyni hüquqi prosedurla tənzimlənir.

Bəzi ölkələrdə isə bu terminlər ayrıca istifadə edilsə də, hər iki hal eyni hüquqi çərçivəyə – yəni konstitusiyaya düzəliş kimi qiymətləndirilir və eyni tələblər tətbiq olunur. Məsələn, Qırğızıstan Respublikasının Konstitusiyasında bu yanaşmanı açıq şəkildə görmək mümkündür. Həmin ölkənin Konstitusiyasının 96-cı maddəsində deyilir ki, "bu Konstitusiyaya düzəlişlər və əlavələr referendum vasitəsilə qəbul edilir" [13, s.7]. Bu maddədə hər iki anlayış – dəyişiklik və əlavə – işlədilsə də, onların hüquqi tətbiqi eyni şəkildə həyata keçirilir.

S.Allahverdiyev hesab edir ki, konstitusiyaya dəyişikliklər dedikdə, mövcud mətnə düzəlişlər edilməsi başa düşülür. Bu zaman yeni norma qoyulmur, sadəcə olan normanın məzmunu yenilənir. Konstitusiyaya əlavələr isə yeni normaların əlavə olunmasıdır və bu baxımdan dəyişikliklərdən fərqlənir [10, s.112].

Z.Əsgərov isə konstitusiyaya əlavələr və dəyişikliklər arasında fərq görür. Onun fikrincə, əlavələr mövcud normativ bazanı saxlayaraq, onun konstitusiya səviyyəsində dəqiqləşdirilməsi və genişləndirilməsi deməkdir. Məsələn, Konstitusiyanın 3-cü maddəsində referendumla həll olunan məsələlərin sırasına yeni, əlavə bir məsələ əlavə edilərsə, bu, əlavə sayılır. Dəyişikliklər isə mövcud normanın tamamilə yenilənməsi, dəyişdirilməsidir. Yəni, həmin maddədəki bütün məsələlər çıxarılıb yerinə tamamilə başqa, yeni məsələlər gətirilərsə, bu, dəyişiklik hesab olunur [11, s. 544].

Ancaq Konstitusiyanın digər maddələrini ümumi şəkildə nəzərdən keçirərək və bəzi əsas arqumentləri əsas tutaraq belə düşünürük ki, Azərbaycanda Konstitusiyaya əlavələr dedikdə, yeni maddələrin və ya normaların Konstitusiyanın mətninə daxil edilməsi başa düşülməməlidir. Belə hallar Konstitusiyaya dəyişiklik sayılır. Konstitusiyaya əlavə deyildikdə isə Konstitusiyanın mətnində yer almayan, lakin "Konstitusiyadan kənarda" və "Konstitusiya ilə birlikdə" mövcud olan normativ aktlar nəzərdə tutulur.

Əvvəlcə qeyd etmək lazımdır ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa görə, qanunvericilik aktları dedikdə – Azərbaycan Respublikasının qanunvericilik sistemini təşkil edən normativ hüquqi aktlar nəzərdə tutulur və Konstitusiya bunların ən başında dayanır. Bu Qanunun 1.0.23-cü maddəsinə əsasən, normativ hüquqi aktda dəyişikliklər edilməsi dedikdə – aktın müddəalarının mətnində dəyişiklik və ya əlavə normaların daxil edilməsi başa düşülür [3, m.1]. Hərçənd ki, bu Qanun Konstitusiyadan aşağı hüquqi qüvvəyə malikdir və onun normativ aktlara dəyişiklik prosedurları Konstitusiyaya birbaşa tətbiq edilmir, amma bu əsas anlayışları izah etməklə dolayısı ilə Konstitusiyaya da aid edilə bilər.

Digər tərəfdən, əgər biz Konstitusiyanın əsas mətninə yeni norma, müddəa və maddələrin əlavə edilməsini "dəyişiklik" yox, "əlavə" kimi qəbul ediriksə, bu zaman bir sıra suallar ortaya çıxır. Doğrudanmı, yalnız referendum yolu ilə edilən dəyişikliklər əlavələrdən daha önəmlidir? Hər dəyişikliyin referenduma çıxarılması zərurəti ilə, əlavələrin isə referendumsuz qəbul edilə bilməsi arasında balans varmı? Hesab edirik ki, konstitusiyaya əlavə edilən yeni normalar da mövcud maddələrdə edilən düzəlişlər qədər əhəmiyyətlidir. Bu halda belə bir məntiq yaranır: Əgər Konstitusiyanın 3-cü maddəsinin ikinci hissəsindən bir məsələ çıxarılırsa və bu dəyişiklik kimi referendumda təsdiqlənməlidirsə, o zaman həmin məsələlər sırasına yeni bir hal əlavə olunarsa, bu əlavə sayılır və referendum tələb olunmur. Amma bu əlavə də əhəmiyyətcə dəyişiklikdən geri qalmır. Bu məsələdə "Konstitusiya qəbul edildiyi yolla dəyişdirilməlidir" prinsipi əsas götürülə bilər. Lakin başqa bir məsələ də diqqətə layiqdir: Əgər Konstitusiyaya əlavə edilmiş yeni maddə Konstitusiya Qanunu vasitəsilə qəbul edilirsə və gələcəkdə həmin maddədə dəyişiklik etmək lazım gəlsə, bu zaman həmin dəyişiklik mütləq referendumda təsdiqlənməlidir. Yəni, referendumla qəbul edilməyən əlavə, gələcəkdə referendum yolu ilə dəyişdirilməlidir. Bu isə göstərir ki, Kons-

titusiyaya yeni norma və müddəaların daxil edilməsi faktiki olaraq konstitusiyanın dəyişdirilməsi deməkdir və belə əlavələr də əslində dəyişiklik sayılır.

Əlavə olaraq, Azərbaycan Respublikasının Konstitusiyasının 155-ci maddəsində göstərilir ki, Konstitusiyanın 1, 2, 6, 7, 8 və 21-ci maddələrinə dəyişikliklər və ya onların ləğvi, eləcə də insan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı təkliflər referendumda müzakirə edilə bilməz. [1] Eyni zamanda, beynəlxalq müqavilələrdə nəzərdə tutulandan artıq məhdudiyyətlər tətbiq etmək də qadağandır. Amma Konstitusiyaya yeni norma və müddəaların əlavə edilməsini dəyişiklik yox, "əlavə" kimi qəbul etsək, burada bir sual yaranır: İnsan və vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılması yeni maddə və ya normaların əlavə olunması ilə həyata keçirilə bilərmi? Təbii ki, bu mümkündür. Bu səbəbdən, əgər biz bu halı dəyişiklik yox, əlavə kimi qiymətləndiririksə, onda belə nəticəyə gəlmək olar ki, insan və vətəndaş hüquq və azadlıqlarının beynəlxalq müqavilələrdə göstəriləndən daha çox məhdudlaşdırılması Konstitusiyaya əlavələr vasitəsilə həyata keçirilə bilər. Bu isə mövcud məhdudiyyətlərə ziddir.

Azərbaycanda Konstitusiyaya indiyə qədər edilmiş dəyişikliklərlə bağlı qəbul olunmuş sənədlərdə "əlavə" və "dəyişiklik" terminləri bəzən qarışdırılsa da, həmin aktlara baxdıqda, "dəyişiklik" anlayışının nələri əhatə etdiyi aydın olur. Məsələn, 2002-ci il və 2016-cı il tarixli Prezident fərman və sərəncamlarının adlarından göründüyü kimi, onlar məhz Konstitusiyada dəyişikliklərin edilməsi ilə bağlıdır. 2016-cı il sərəncamına əlavə olunan Referendum Aktının 22-ci bəndində belə bir maddənin əlavə edilməsi nəzərdə tutulmuşdur: "Maddə 103-1. Azərbaycan Respublikasının vitse-prezidentləri..." Bu kimi nümunələr çoxdur. Göründüyü kimi, referendum vasitəsilə qəbul edilmiş aktlar adətən "Konstitusiyada dəyişiklik" adlandırılsa da, həmin aktlarda yeni maddələrin və ya mövcud maddələrə yeni bəndlərin əlavə olunması halları da olur. Bu isə göstərir ki, belə əlavələr faktiki olaraq dəyişikliklərin tərkib hissəsi kimi qəbul edilir. Digər tərəfdən, 2008-ci ildə Milli Məclis tərəfindən qəbul olunmuş qərarda isə "əlavələr və dəyişikliklər" terminləri birlikdə istifadə olunub. Bizcə, burada "əlavə" sözü Konstitusiyanın mətninə daxil edilən yeni normaları ifadə edir və bu terminoloji baxımdan doğru istifadə olunmayıb, çünki belə əlavələr də dəyişiklik kimi qəbul edilməlidir.

Üstəlik, Azərbaycan Konstitusiya Məhkəməsi də 153-cü maddəyə əsasən, yuxarıda qeyd olunan referendum aktlarının layihələrinə rəy verib. Konstitusiyada isə rəy vermək hüququ yalnız dəyişikliklərə aiddir, əlavələrə deyil. Bu da göstərir ki, Konstitusiya Məhkəməsi faktiki olaraq Konstitusiyanın mətninə əlavə edilən yeni norma və maddələri dəyişiklik kimi qəbul edir. Başqa sözlə desək, hüquqi təcrübədə və rəsmi sənədlərdə "əlavə" və "dəyişiklik" terminləri bəzən qarışdırılır, amma məzmun etibarilə yeni norma və maddələrin əlavə olunması da dəyişiklik kimi qiymətləndirilir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Konstitusiyasının 152-ci maddəsində göstərilir ki, Konstitusiyanın mətnində dəyişikliklər yalnız referendum yolu ilə qəbul edilə bilər. Digər tərəfdən, 156-cı maddəyə görə, Konstitusiyaya əlavələr isə Milli Məclisdə 95 səs çoxluğu ilə qəbul olunan Konstitusiya qanunları ilə həyata keçirilir. Buradan belə nəticə çıxır ki, dəyişikliklər dedikdə, Konstitusiyanın mətnində edilən hər cür düzəlişlər başa düşülür, əlavələr isə Konstitusiyanın mətninə daxil olmayan, yəni onun xaricində mövcud olan normalardır.

Son olaraq, əgər yeni normativlərin Konstitusiyaya əlavə olunması dəyişiklik kimi deyil, əlavə kimi qəbul olunursa və belə əlavələrin Konstitusiya qanunları ilə də qəbul edilə bilməsi mümkündürsə, o zaman referendumla qəbul edilən dəyişikliklərlə, Konstitusiya qanunu ilə qəbul edilən əlavələr hüquqi baxımdan bərabər gücə malik olmalıdır. Halbuki, referendum yolu ilə qəbul edilən aktlar qanunlardan üstün hüquqi qüvvəyə malikdir.

Bu məsələnin hüquqi təhlilinə ayrıca yer verilməlidir.

Qeyd edilənləri ümumiləşdirdikdə belə nəticəyə gəlmək olar ki, Konstitusiyada hər hansı yeni norma müəyyənləşdirilməsi özü dəyişiklikdir. Dəyişikliklər isə Konstitusiyanın maddələrinin mətnində dəyişiklik etmək və ya yeni normalar əlavə etmək deməkdir. Əgər belə olmasaydı, referendum keçirilmədən istənilən sayda yeni norma Konstitusiyaya əlavə edilə bilərdi. Bu isə mövcud maddələrin dəyişdirilməsi ilə yeni maddələrin əlavə edilməsinin tamamilə fərqli prosedurlarla həyata keçirilməsinə və referendum institutunun mahiyyətinin zədələnməsinə gətirib çıxarardı.

Normativ-hüquqi aktlarda "dəyişiklik" və "əlavə" terminlərinin qarışıq istifadə olunduğu hallar mövcuddur. Buna görə də, "Konstitusiyada dəyişiklik" və "Konstitusiyaya əlavə" anlayışlarının qanunvericilik səviyyəsində dəqiqləşdirilməsi və bu terminlərin fərqlərinin müəyyən edilməsi məqsədəuyğundur. Konstitusiyaya əlavələr Konstitusiya qanunu şəklində qəbul edilir və Konstitusiyanın əsas mətninə daxil edilməyən, ondan kənarda mövcud olan normalardır. Burada diqqət yetirilməli məqamlardan biri isə bütün Konstitusiya qanunlarının avtomatik olaraq Konstitusiyaya əlavə sayılıb-sayılmamasıdır. Konstitusiyaya nəzər saldıqda, Konstitusiya qanunları ilə tənzimlənən münasibətlər aşağıdakı şəkildə qruplaşdırıla bilər:

İlk növbədə, konkret münasibətlərin Konstitusiya qanunu vasitəsilə tənzimlənməli olmasının birbaşa Konstitusiyada öz əksini tapdığı hallar. Bunlara aşağıdakılar aiddir:

- ✔ Konstitusiyanın 23-cü maddəsinin III bəndi - Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.
- ✔ Konstitusiyanın 108-ci maddəsinin II bəndi - Əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya qanunu ilə müəyyən edilir.
- ✔ Konstitusiyanın 134-cü maddəsinin VI bəndi - Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya qanunu ilə təsdiq edilir.
- ✔ Konstitusiyanın 149-cu maddəsinin VIII bəndi - Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir [1].

İkincisi, hansı münasibətlərin tənzimlənməsi üçün qəbul ediləcəyi dəqiq göstərilməyən Konstitusiyaya əlavələr mövcuddur. Əvvəlki fəsildə də vurğulandığı kimi, Konstitusiyanın 156-cı maddəsinə əsasən, Azərbaycanda Konstitusiyaya əlavələr Milli Məclisdə 95 səs çoxluğu ilə, Konstitusiya qanunları şəklində qəbul edilir. Bu qanunlar iki dəfə — birinci səsvermədən 6 ay sonra — səsə qoyulur və ikinci səsvermədən sonra Prezident tərəfindən təsdiqlənərək qüvvəyə minir. Maddədə "Konstitusiyaya əlavələr haqqında Konstitusiya qanunları" ifadəsinin işlədilməsi, ilkin təəssürata görə, "Konstitusiyaya əlavə hesab edilməyən Konstitusiya qanunlarının" da ola biləcəyini və yalnız əlavələrə aid qanunların bu prosedura tabe olduğunu düşünmək mümkündür. Lakin praktikada yuxarıda qeyd edilən birinci kateqoriyaya aid olan Konstitusiya qanunları da eyni prosedurla — 6 aylıq fasilə ilə iki dəfə səsə qoyularaq qəbul edilir. [9] Məsələn, 12.06.2012 tarixli Milli Məclis stenoqramında keçmiş Prezident və ailə üzvlərinin təminatına dair Konstitusiya Qanununun ikinci səsverməyə 6 ay sonra çıxarıldığı görülür.

Bu faktlar göstərir ki, Konstitusiya qanunlarının tənzimlədiyi məsələnin birbaşa Konstitusiyada göstərilməsi vacib deyil; bütün Konstitusiya qanunları Konstitusiyaya əlavə kimi qəbul edilir. Başqa sözlə, Konstitusiyaya əlavə sayılmayan Konstitusiya qanunu yoxdur. Bu qənaət, Konstitusiyanın 93-cü maddəsinin II hissəsinə uyğun gəlir, hansı ki, Milli Məclisin Konstitusiya qanunları, qanunlar və qərarları bu Konstitusiyada müəyyən edilmiş qaydada qəbul etməsini təsbit edir. Üstəlik, Konstitusiya qanunlarının qəbul proseduru,

tələb olunan səs çoxluğu və digər şərtlər yalnız 156-cı maddə ilə tənzimlənir və bu maddə məhz Konstitusiyaya əlavələrə aiddir.

Digər vacib məsələ Konstitusiyaya əlavələr – yəni Konstitusiya qanunlarının hüquqi qüvvəsidir. Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsinin V hissəsində göstərilir ki, Konstitusiya qanunları Konstitusiyanın ayrılmaz hissəsidir və onun əsas mətninə zidd olmamalıdır. Bu, bir sıra suallar doğurur: Konstitusiya qanunlarının "ayrılmaz hissə" olması onların Konstitusiya ilə eyni hüquqi qüvvəyə malik olması deməkdirmi? Bu qanunların normativ-hüquqi aktlar iyerarxiyasında yeri necədir? Onların əsas mətndəki ziddiyyətinin müəyyən edilməsi necə həyata keçirilir?

Qeyd edilməlidir ki, həm Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsində, həm də "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 2-ci maddəsində Konstitusiya qanunlarının hüquqi qüvvəsi barədə konkret norma yoxdur. Konstitusiya qanunları mahiyyət etibarilə qanunun xüsusi növü sayılır və qəbul proseduru birbaşa Konstitusiyada müəyyən edilib. Buna əsaslanaraq, hesab edirik ki, Konstitusiya qanunları Konstitusiya ilə eyni hüquqi qüvvəyə malik ola bilməz.

Rusiya Federasiyasında da bu məsələ hüquqşünaslar arasında mübahisəlidir. Rusiya Konstitusiyasının 136-cı maddəsinə görə, Konstitusiyanın 3-8-ci fəsillərinə edilən düzəlişlər federal konstitusiya qanunları vasitəsilə qəbul edilir və subyektlərin üçdə ikisinin təsdiqindən sonra qüvvəyə minir. Bəzi alimlər konstitusiya qanunlarını iyerarxiyada Konstitusiyadan sonra ikinci yerə qoysa da, digər bir qrup onları Əsas Qanunla eyni hüquqi qüvvəyə malik hesab edir [12, m.136].

Əgər Konstitusiya qanunlarının Konstitusiyanın ayrılmaz hissəsi olaraq onunla bərabər hüquqi qüvvəyə malik olduğunu qəbul etsək, bu, həmin qanunların referendumla qəbul edilmiş aktlardan daha üstün hüquqi qüvvəyə sahib olduğu mənasına gəlir. Halbuki, Konstitusiyanın 148-ci maddəsinə əsasən, referendumla qəbul edilmiş aktlar iyerarxiyada Konstitusiyadan sonra ikinci yerdə dayanır [1]. Əgər Milli Məclis referendumdan üstün hüquqi qüvvəyə malik normativ akt qəbul edə bilirsə, onda nəyə görə Konstitusiyaya dəyişiklik yalnız xalqın birbaşa iradəsi olan referendum vasitəsilə həyata keçirilir? Referendum aktlarının iyerarxiyada ikinci sırada olması xalq iradəsinin digər orqanların qəbul etdiyi aktlardan üstün olduğunu göstərir. Konstitusiya qanunları da bu qaydadan istisna olmamalı, referendum aktlarından üstün hüquqi qüvvəyə malik sayılmamalıdır. Digər tərəfdən, Konstitusiyada qeyd olunur ki, Konstitusiya qanunları Konstitusiyanın əsas mətninə zidd olmamalıdır. Bu ifadə isə dolayı yolla göstərir ki, Konstitusiya qanunları Konstitusiyadan aşağı hüquqi qüvvəyə malikdir. Lakin Konstitusiyaya əlavələrə dair Konstitusiya Məhkəməsinin öncədən rəy verməsi ilə bağlı norma həm Konstitusiyada, həm də digər qanunvericilik aktlarında nəzərdə tutulmayıb. Nəticədə, Konstitusiya Məhkəməsi Konstitusiya qanunlarının Konstitusiyanın əsas mətninə zidd olub-olmadığını əvvəlcədən müəyyən edə bilmir və bu sahədə "ön nəzarət" funksiyasını həyata keçirmək mümkün deyil.

Hüquq kolliziyalarının həllində əsas prinsiplər iyerarxiya (Lex superior derogat legi inferiori), zaman (Lex posterior derogat legi priori) və məzmun (Lex specialis derogat legi generali) prinsipləridir. Fərqli hüquqi qüvvəyə malik aktlar arasındakı kolliziyalar iyerarxiya ilə, eyni hüquqi qüvvəyə malik normativ aktlar arasındakı kolliziyalar isə zaman və məzmun prinsipləri ilə aradan qaldırılır [6]. Əgər Konstitusiya qanunları Konstitusiya ilə eyni hüquqi qüvvəyə malik olsaydı, aralarındakı ziddiyyət Konstitusiya qanunlarının üstünlüyü ilə həll olunmalı idi. Lakin Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malik olub, qanunvericilik sisteminin əsasını təşkil edir.

Rusiya Federasiyasının Konstitusiyasında Konstitusiya qanunlarının normativ-hüquqi aktlar sistemində yeri və rolu aydın şəkildə müəyyənləşdirilib. Belə ki, Rusiya Konstitu-

siyasının 76-cı maddəsinin III hissəsində federal qanunların federal konstitusiya qanunları ilə ziddiyyət təşkil edə bilməyəcəyi təsbit olunub və federal konstitusiya qanunlarının adi qanunlardan üstün hüquqi qüvvəyə malik olduğu qeyd edilir [12, m.76].

Yuxarıda göstərilənlərdən çıxış edərək hesab edirik ki, Konstitusiyanın "ayrılmaz hissəsi" olan Konstitusiya qanunlarının qanunvericilik sistemində yeri dəqiqləşdirilməli, həm Konstitusiyanın 149-cu maddəsində, həm də "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun müvafiq maddələrində bu qanunların hüquqi qüvvəsi barədə konkret müddəalar müəyyən edilməlidir. Bu, gələcəkdə digər normativ-hüquqi aktlarla Konstitusiya qanunları arasında yarana biləcək ziddiyyətlərin aradan qaldırılmasında mühüm rol oynayacaq.

Konstitusiyanın 158-ci maddəsinə görə, bu Konstitusiyanın birinci bölməsində əks olunan müddəalarla bağlı Azərbaycan Respublikası Konstitusiyasına əlavələr təklif edilə bilməz. Yəni, birinci bölmədəki müddəalar istisna olmaqla, istənilən məsələlər üzrə Konstitusiya qanunları qəbul edilə bilər. Digər ölkələrin təcrübəsinə nəzər yetirdikdə isə fərqli yanaşmalar müşahidə olunur. Məsələn, Rusiya Federasiyası Konstitusiyasının 108-ci maddəsinin birinci hissəsinə əsasən, federal konstitusiya qanunları yalnız Konstitusiyada nəzərdə tutulan məsələlərlə əlaqədar qəbul edilir [12]. Qazaxıstan Respublikası Konstitusiyasının 62-ci maddəsinin 4-cü hissəsinə görə də konstitusiya qanunları məhz konstitusiyada göstərilən məsələlər üzrə qəbul edilir [15].

Azərbaycan Respublikasının Konstitusiyasında isə əlavələrin dairəsi kifayət qədər geniş təyin olunub. Bu səbəbdən, Konstitusiyada birbaşa nəzərdə tutulmayan mövzularda da Konstitusiya qanunları qəbul edilib. Məsələn, insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi, beynəlxalq cinayətlərə görə məsuliyyətin geriyə şamil olunması kimi sahələrdə qəbul edilmiş Konstitusiya qanunları mövcuddur. Lakin sual yaranır: hansı meyarlara əsasən müəyyən edilir ki, müəyyən qanun məhz Konstitusiyaya əlavədir və Konstitusiya qanunu kimi qəbul edilməlidir? Ümumiyyətlə, bu qanunların adi qanunlardan fərqli olaraq, Konstitusiya qanunları şəklində qəbul edilməsinin səbəbi nədir? Təəssüf ki, hazırkı qanunvericilikdə bu suallara aydın cavab yoxdur.

Bir tərəfdən Konstitusiyaya əlavələrin mövzusu və məqsədi barədə aydın göstərişlərin olmaması, digər tərəfdən isə Konstitusiya qanunlarının Konstitusiyanın "ayrılmaz hissəsi" kimi qəbul edilməsi geniş təfsir imkanlarına şərait yaradır. Buna görə də hesab edirik ki, Konstitusiya qanunlarının iyerarxiyası və Konstitusiyaya əlavələrin məqsəd və funksiyaları qanunvericilik səviyyəsində dəqiq müəyyən edilməlidir. Bu yanaşma həm hüquqi dəqiqlik yaradacaq, həm də qanunvericilikdə ziddiyyətlərin yaranmasının qarşısını alacaqdır.

Konstitusiyaya əlavələrlə bağlı nəzərə çarpan məsələlərdən biri də Konstitusiyanın 94-cü maddəsinin III hissəsi və 95-ci maddəsinin IV hissəsində yer alan "Bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər" bəndidir. 94-cü maddə "Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar", 95-ci maddə isə "Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər" adlanır və hər iki maddə Konstitusiyanın III bölməsində, V fəsildə yerləşir. Konstitusiyanın 158-ci maddəsinə görə, yalnız birinci bölmədə yer alan müddəalarla bağlı əlavələrə qadağa qoyulmuş, digər bölmələrdə isə əlavələrə icazə verilmişdir. Bəs onda birinci bölmədən başqa digər bölmələrdəki müddəaların 94 və 95-ci maddələrdə təkrarlanmasının səbəbi nədir? Bizim fikrimizcə, bu, 2002-ci ildə Konstitusiyaya edilən dəyişikliklər zamanı həmin maddələrin unudulması ilə əlaqədardır.

Konstitusiyanın 1995-ci ildə qəbul edilən ilkin variantında 158-ci maddə belə idi: Azərbaycan Respublikasının Prezidenti və ya Milli Məclisin deputatları 5-ci və 6-cı fəsillərdə yer alan müddəalarla bağlı Konstitusiyaya əlavələr təklif edə bilməzlər. 94 və 95-ci maddələr həmin V fəsildə yerləşdiyindən

və bu fəsilə əlavələrin təklifinə məhdudiyyət qoyulduğundan, həmin maddələrdə bu qaydadan istisna olmaq üçün “Bu maddənin I hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər” bəndi əlavə edilmişdir. Lakin 2002-ci ildə Konstitusiyaya edilmiş dəyişikliklərlə 158-ci maddənin mətninə yenidən baxıldı və indi yalnız birinci bölmədəki müddəalara əlavələrin qadağan olduğu göstərildi. Beləliklə, artıq 5-ci və 6-cı fəsillərə əlavə edilməyə qadağa qoyulmasa da, 94 və 95-ci maddələrin müvafiq bəndləri “qalıq” kimi qalmaqdadır. Hesab edirik ki, gələcəkdə Konstitusiyaya ediləcək düzəlişlərdən biri də bu təkrarlamaların aradan qaldırılması olmalıdır.

Başqa bir önəmli məsələ referendum təşəbbüsü hüququna malik subyektlərin müəyyən edilməsidir. Hazırda Azərbaycan Respublikasının Prezidenti və Milli Məclisi Konstitusiyaya dəyişiklik təklif etmək hüququna malikdirlər. Eyni zamanda, Seçki Məcəlləsinin 122.2-ci maddəsinə əsasən, ən azı 300 min aktiv seçki hüququ olan Azərbaycan vətəndaşı Prezidentə və ya Milli Məclisə referendum keçirilməsi üçün müraciət edə bilər və bu yolla təşəbbüs hüququ əldə edir. Təbii ki, bu təşəbbüs Konstitusiyaya dəyişikliklərlə bağlı referendumlar üçün də tətbiq oluna bilər. Digər ölkələr, o cümlədən İtaliya kimi dövlətlərdə, bu hüquqa malik subyektlər konkret Konstitusiyada göstərilmişdir.

Lakin Seçki Məcəlləsi statusuna görə adi qanun olduğundan, onun məzmununda dəyişiklik edilməsi ilə vətəndaşların referendum təşəbbüsü hüququnun məhdudlaşdırılması və ya əlindən alınması riski mövcuddur. Bu səbəbdən, 300 min seçici sayına malik Azərbaycan vətəndaşlarının referendum təşəbbüsü hüququnun xalqın ali suverenliyinin təzahürü olaraq birbaşa və daha sabit hüquqi akt olan Konstitusiyada öz əksini tapması daha məqsədəuyğundur.

Azərbaycan Respublikasında Konstitusiyaya düzəlişlər və əlavələr institutu həm nəzəri, həm də praktiki baxımdan xüsusi əhəmiyyət kəsb edən konstitusion məsələlərdəndir. Təhlil göstərir ki, demokratiyanın tarixi inkişafı, xalq suverenliyinin həyata keçirilmə formaları və referendum institutunun mahiyyəti Konstitusiyaya dəyişikliklər prosedurunun düzgün və hüquqa uyğun qurulmasının vacibliyini bir daha təsdiqləyir.

Aparılan araşdırmadan belə nəticəyə gəlmək olar ki, referendum xalq iradəsinin bilavasitə ifadəsi olmaqla, Konstitusiyanın mətnində dəyişikliklərin aparılması üçün yeganə legitim vasitədir. Buna qarşılıq Konstitusiyaya əlavələr Konstitusiya qanunları şəklində qəbul edilir və hüquqi baxımdan Konstitusiyanın əsas mətnindən aşağı səviyyədə dayanır. Mövcud qanunvericilikdə “əlavə” və “dəyişiklik” terminlərinin bəzən qarışıq işlədilməsi, eyni zamanda Konstitusiya qanunlarının hüquqi qüvvəsinin aydın müəyyən edilməməsi hüquqi təcrübədə ziddiyyətlərə səbəb olur. Bu isə Konstitusiyanın sabitliyi, hüquqi müəyyənlik və normativ iyerarxiyanın qorunması baxımından problemlər yaradır.

Təhlil göstərir ki, Konstitusiyanın mətninə daxil edilən yeni norma və maddələrin mahiyyət etibarilə “əlavə” deyil, “dəyişiklik” hesab edilməsi daha doğru yanaşmadır. Çünki Konstitusiyanın məzmununun genişləndirilməsi və ya yenilənməsi xalq iradəsinin bilavasitə ifadəsi olan referendumdan kənar həyata keçirilə bilməz. Əksinə halda, referendum institutunun mahiyyəti zəifləyər, konstitusion sabitlik və legitimlik prinsipləri pozular.

During the Safavid period, heavy firearms, especially cannons, played a significant role in altering the course of battles and held strategic importance. Cannons, which were the most advanced weapons of their time, were used both for defensive and offensive operations. The use of cannons in Safavid military tactics played a crucial role in strengthening the military power of the state.

The introduction of cannons into the Safavid army began primarily after the Safavids recognized their effectiveness in wars against the Ottoman Empire and other neighboring states. According to historical sources, the Safavid army started using cannons by initially adopting this technology from the Ottomans and other Turkic states, and then integrating these weapons into their military structure. Particularly during the reign of Shah Ismail I, the use of cannons became more widespread, marking an integral part of the army's modernization process.

Cannons in the Safavid army were used both for the defense of fortresses and fortifications, as well as on the battlefield. The key characteristics of cannons were their high firepower and ability to strike enemies at long distances. Cannons were generally employed to deliver heavy blows to the opponent, and their power often became a decisive factor in battles. A prominent example of this is the Battle of Chaldiran (1514), where cannons played a significant role in the confrontation with the Ottoman Empire. Furthermore, the production and use of cannons in the Safavid army serve as evidence of the technological progress of that time. The materials used in cannon manufacturing, along with advanced production methods, enabled the creation of more powerful and efficient weapons. Artillery played a crucial role in ensuring tactical superiority on the battlefield for the Safavids.

***Keywords:*** *Safavid state, Battle of Chaldiran, Ottoman Empire, cannons*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *"Andraqogika: böyüklər üçün effektiv tədris yanaşmaları" mövzusunda təlim*

04 iyul 2025-ci il tarixində Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunları ilə iş şöbəsi tərəfindən müəllimlər üçün "Andraqogika: böyüklər üçün effektiv tədris yanaşmaları" mövzusunda xüsusi təlim təşkil edilmişdir. Təlim zamanı rektor akademik Urxan Ələkbərov qeyd edib ki, təhsil sahəsində müasir yanaşmalar və prinsiplər son dərəcə vacib məsələlərdir. Hər bir müəllim tədris prosesində bu yanaşmalardan istifadə edərək təhsilin keyfiyyətini artırmaq və tələbələrin daha effektiv





öyrənməsini təmin etməlidir. Bu, təhsilin inkişafı və müasir tələblərə cavab verməsi baxımından mühüm addımdır.

Təlimdə təhsildə effektiv yanaşmalar, müasir tədris metodları, təlim prosesində motivasiya və interaktiv metodlardan istifadə kimi mühüm mövzular üzrə bilik və təcrübələr müzakirə edilmişdir. Təlim zamanı kafedralarının əməkdaşları praktiki məşğələlər və müzakirələrdə çox fəal iştirak etmişlər.

### *Dövlət İdarəçilik Akademiyasının tələbələrinin Məzun günü*

İyulun 7-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Dövlət İdarəçilik Akademiyasının tələbələrinin Məzun günü keçirilmişdir.

Azərbaycanın Dövlət Himni səsləndirilmişdir. Tədbirdə çıxış edən DİA-nın rektoru akademik Urxan Ələkbərov müasir müstəqil dövlətimizin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin təhsilin inkişafına daim böyük önəm verdiyini, Ümummilli Liderin bu siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Rektor əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu təhsil ocağında dövlət idarəçiliyi sahəsində ixtisaslaşan kadrların perspektiv imkanlarını təhlil edib, Prezident İlham Əliyevin biliyə, təhsilin inkişafına göstərdiyi diqqətdən danışıb. Müasir dövrdə dövlətin gücü və qüdrətinin təkcə onun təbii sərvətləri ilə deyil, həm də elmi-intellektual potensialı ilə müəyyən edildiyini deyən Urxan Ələkbərov bildirib ki, məqsədimiz DİA-nın hazırladığı kadrların müasir tələblərə cavab verməyi bacarmaları, yeni nəslin formalaşmasında, insan potensialının inkişafı və davamlılığının təminində Azərbaycan dövlətinin həyata keçirdiyi prosesə töhfə vermək, dünya təhsil sisteminə inteqrasiyanı sürətləndirməkdən ibarətdir. Urxan Ələkbərov 2025-ci ildə Akademiyanı bitirən məzunların bundan əvvəlki illərdə də olduğu kimi dünyanın ən qabaqcıl universitetlərində təhsillərini davam etdirəcəklərini qeyd edib. O bildirib ki, dövlət qulluğuna qəbul üzrə Akademiyanın məzunları ön sıralarda yer alırlar və müxtəlif dövlət qurumlarında uğurla fəaliyyət göstərirlər.

Daha sonra Milli Məclisin deputatı, İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının



müdiri, dosent Azər Əmiraslanov, Milli Məclisin deputatı, Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, professor Hikmət Babaoğlu, Milli Məclisin deputatı, Beynəlxalq əlaqələr kafedrasının professoru Elman Nəsirov, Siyasi İdarəetmə fakültəsinin dekanı dosent Murtəza Həsənov, İnzibati idarəetmə fakültəsinin dekanı dosent Elnur Əliyev çıxış ediblər. Çıxışçılar son illər Azərbaycanda təhsilin inkişafı istiqamətində görülmüş işlərdən danışıb, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının uğurlarını qeyd ediblər. DİA-nın bu gün müstəqil Azərbaycanda dövlət quruculuğunun möhkəmləndirilməsi, milli dövlətçilik ideologiyasının təbliği sahəsində uğurlu fəaliyyət göstərən ali təhsil müəssisələri sırasında mühüm yer tutduğunu bildiriblər.

"Məzun günü" tədbiri bədii hissə ilə davam edib.

### *"Qərbi Azərbaycana qayıdış tarixi və beynəlxalq hüquqi kontekstdə" mövzusunda elmi-praktik dəyirmi masa*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) yeni təsis edilmiş "Qərbi Azərbaycan Araşdırmaları" Mərkəzinin təşkilatçılığı ilə 2025-ci il iyulun 9-da "Qərbi Azərbaycana qayıdış tarixi və beynəlxalq hüquqi kontekstdə" mövzusunda elmi-praktik dəyirmi masa keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov ölkə rəhbərliyinin Qərbi Azərbaycana qayıdışla bağlı həyata keçirdiyi məqsədyönlü dövlət siyasətindən bəhs etmiş, bu istiqamətdə ictimai-siyasi, hüquqi və humanitar aspektləri özündə birləşdirən kompleks tədbirlərin vacibliyini qeyd etmişdir. Akademik U.Ələkbərov, həmçinin, DİA nəzdində "Qərbi Azərbaycan Araşdırmaları" Mərkəzinin yaradılmasının elmi əsaslarını və fəaliyyət istiqamətlərini iştirakçıların diqqətinə çatdıraraq, Mərkəzin milli yaddaşın dirçəldilməsi, tarixi ədalətin bərpası və beynəlxalq hüquqa əsaslanan elmi-nəzəri diskursun formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulamışdır.

Dəyirmi masa çərçivəsində Mərkəzin rəhbəri, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Firdovsiyyə Əhmədova, Milli Məclisin deputatları – hüquq elmləri doktoru, professor Nizami Səfərov və siyasi elmlər doktoru Rizvan Nəbiyev Qərbi Azərbaycana qayıdışın





tarixi, siyasi və beynəlxalq hüquqi əsaslarına dair məzmunlu məruzələrlə çıxış etmişlər. Məruzələrdə konkret təhlillər əsasında qayıdışın tarixi, hüquqi və siyasi tərəfləri geniş şəkildə izah edilmişdir. Onların təqdimatlarında Qərbi Azərbaycana qayıdış hüququnun elmi-nəzəri əsaslandırılması, bu hüququn formalaşmasına səbəb olan tarixi-siyasi proseslər və beynəlxalq hüququn norma və prinsipləri müfəssəl şəkildə təhlil edilmişdir.

Məruzələrdə xüsusi olaraq vurğulanmışdır ki, Qərbi Azərbaycan problemi yalnız bir xalqın deyil, bütövlükdə regionun sülh, ədalət və insan hüquqları müstəvisində sabitliyini təmin etmək üçün həll olunmalı olan qlobal məsələdir. Qayıdış hüququnun beynəlxalq ictimaiyyətə



təqdimatında elmi əsaslandırma ilə yanaşı, diplomatik, maarifləndirici və hüquqi resurslardan da sistemli şəkildə istifadə edilməsinin zəruriliyi qeyd edilmişdir.

Mövzu ətrafında aparılan müzakirələrdə DİA-nın əməkdaşları – dosent Fuad Süleymanov və professor Elçin Əhmədov çıxış edərək, məsələnin elmi cəhətdən daha da dərindən öyrənilməsinin, xüsusilə beynəlxalq elmi dairələrlə əməkdaşlıq kontekstində tədqiqatların genişləndirilməsinin zəruriliyini qeyd etmişlər. Diskussiya zamanı iştirakçıların sualları məruzəçilər tərəfindən əhatəli və dolğun şəkildə cavablandırılmışdır.

Tədbirin sonunda rektor, akademik Urxan Ələkbərov dəyirmi masa çərçivəsində aparılan elmi müzakirələri ümumiləşdirərək, "Qərbi Azərbaycan Araşdırmaları" Mərkəzinin dövlətimizin strateji hədəflərinə uyğun şəkildə elmi-tədqiqat və maarifyönlü fəaliyyət göstərməsinin vacibliyini vurğulamış, Mərkəzin fəaliyyətinin milli maraqlara xidmət edəcəyinə və elmi cəmiyyətin bu istiqamətdə səfərbər olunacağına inamını ifadə etmişdir.

### *DİA-nın prorektoru Türk Dövlətləri Təşkilatına üzv ölkələrin insan resurslarının inkişafına həsr olunmuş növbəti görüşündə iştirak etmişdir*

18 iyul 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyov Qırğızıstan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Xidmətləri və yerli İdarəetmə Agentliyi və Jusup Abdrahmanov adına Qırğızıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə Issık-Kul vilayətində keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin insan resurslarının inkişafına məsul olan təşkilatların rəhbərlərinin IV görüşündə iştirak etmişdir.

TDT-nin Baş katibi, onun müavinləri, Türkiyə Respublikası Prezidentinin Administrasiyasının İdarəetmə İşləri İdarəsinin Kadrlar və Prinsiplər üzrə Baş direktoru, TDT-yə üzv ölkələrinin Dövlət Qulluğu Məsələləri üzrə Agentliklərinin sədrləri, eləcə də bu ölkələrdə fəaliyyət göstərən Dövlət İdarəçilik Akademiyalarının rəhbər şəxsləri və nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Türk Dünyası İnsan Resurslarının İnkişafı İnstitutunun yaradılmasına dair Anlaşma Memorandumunun əsas müddəaları, TDT-yə üzv ölkələrdə insan resurslarının idarə edilməsi sahəsində Dövlətlərarası Şuranın yaradılması



konsepsiyası, İnsan resurslarının inkişafı kapitalının yaradılmasına dair konseptual yanaşmalar, Tədqiqat Mərkəzi və TDT-nin "İnsan kapitalının inkişafına töhfəyə görə (qeyri-dövlət qulluqçusu)" mükafatın təsis olunması ilə bağlı əsasnamənin müddəaları və gələcək əməkdaşlıq istiqamətləri haqqında müzakirələr aparılmışdır.

Qırğızıstan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Xidmətləri və yerli İdarəetmə Agentliyinin sədrinin moderatorluğu ilə keçirilən görüşdə Elvin Əzizbəyov "Türk Dövlətləri Təşkilatında insan kapitalının inkişafı: ortaq məqsədlər və strateji yanaşmalar" mövzusunda məruzə ilə çıxış etmişdir.

### *Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" adlı təlim*

2025-ci il iyulun 25-də Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının artırılması İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasında "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunmuş təlim keçirilmişdir. Tədbirin əsas məqsədi Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması prosesində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərini iştirakçıların diqqətinə çatdırmaq, bu mühüm hüquqi sənədin dövlət quruculuğundakı əhəmiyyətini izah etmək və dövlət qulluqçularında konstitusiya hüququ sahəsində bilik və yanaşmaları dərinləşdirmək olmuşdur.

Təlimdə Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev mühazirə ilə çıxış etmişdir. O, Ulu Öndər Heydər Əliyevin 1995-ci ildə Konstitusiya Komissiyasına rəhbərlik etməsini, Konstitusiyanın hazırlanmasında birbaşa iştirakını və bu prosesi ictimai müzakirələr əsasında şəffaf şəkildə həyata keçirməsini xüsusi vurğulamışdır. Təlim çərçivəsində həmçinin Konstitusiyanın qəbulundan əvvəl və sonrakı dövrdə həyata keçirilmiş hüquqi islahatlar, Konstitusiya Məhkəməsinin yaradılması, qanunvericilik təşəbbüsü hüququnun tənzimlənməsi və hüquqi dövlət quruculuğunda Konstitusiyanın rolu geniş şəkildə təhlil olunmuşdur.

Təlim çərçivəsində həmçinin hüquqi dövlət quruculuğu istiqamətində görülən işlər, Konstitusiya Məhkəməsinin fəaliyyəti və hüquqi nəzarət mexanizmləri, eləcə də son illərdə aparılmış konstitusiya islahatları barədə iştirakçılara ətraflı məlumat verilmişdir. Bu kontekstdə 2025-ci ilin ölkədə "Konstitusiya və Suverenlik İli" elan olunmasının mahiyyəti və hüquqi maarifləndirmə tədbirlərinin əhəmiyyəti də xüsusi qeyd edilmişdir.

Təlim interaktiv şəkildə təşkil olunmuş, iştirakçılar arasında sual-cavab sessiyaları keçirilmiş və real hüquqi vəziyyətlər üzərində praktiki müzakirələr aparılmışdır. İştirakçılar Ümummilli Lider Heydər Əliyevin siyasi və hüquqi irsinin müasir Azərbaycan cəmiyyətində, xüsusilə də hüquqi düşüncə və dövlət idarəçiliyi sahəsindəki əhəmiyyətini bir daha dərk etmişlər.

Tədbirin sonunda professor İsaxan Vəliyev Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin hüquqi əsaslarının formalaşdırılmasındakı əvəzolunmaz rolunu bir daha vurğulamış, iştirakçılara bu dəyərli irsi dərindən öyrənməyin və onu gələcək nəsillərə ötürməyin vacibliyini qeyd etmişdir.

***Dövlət İdarəçilik Akademiyasında Bilik Günü və yeni tədris ilinin başlanması münasibətilə tədbir***

Sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Bilik Günü və yeni tədris ilinin başlanması münasibətilə tədbir keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra DİA-nın rektoru, akademik Urxan Ələkbərov tələbələri və müəllimləri yeni dərs ili və Bilik Günü münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb. O, qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin elmə və təhsilə göstərdiyi diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Akademiyanın ənənələrinə sadiq qalaraq bundan sonra da tələbələrin bilik və bacarıqları ilə ölkəmizin idarəçilik sisteminin inkişafına töhfə verəcəklərinə inamını ifadə edib. Rektor əlavə edib ki, bu gün ölkənin gücü həm də insan potensialı ilə müəyyən olunur. Rektor çıxışında idarəçilik sahəsində peşəkar kadrların hazırlanmasında Akademiyanın rolundan söz açıb.










Daha sonra Siyasi idarəetmə fakültəsinin dekanı, dosent Murtuza Həsənov çıxış edərək tələbələri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib. O, bildirib ki, müasir dünyada dövlət idarəçiliyinin səmərəliliyi bilikli və peşəkar kadrların hazırlığından asılıdır. Murtuza Həsənov tələbələrə nəzəri biliklərlə yanaşı, praktiki vərdişlərə yiyələnməyin vacibliyini vurğulayaraq onların hər birinin ölkəmizin inkişafı üçün gələcəkdə mühüm vəzifələr daşıyacaqlarına inandığını qeyd edib.

İnzibati idarəetmə fakültəsinin dekanı, dosent Elnur Əliyev də çıxış edərək yeni tədris ilində tələbələrə uğurlar arzulayıb. O, dövlət

qulluğu sisteminin təkmilləşdirilməsi və innovativ idarəçilik modellərinin tətbiqində gənc mütəxəssislərin rolunun artdığını vurğulayıb. Elnur Əliyev tələbələrə məsuliyyətli, intizamlı və yaradıcı yanaşma nümayiş etdirməyi tövsiyə edib, Akademiyada yaradılmış müasir imkanların gənclərə geniş perspektivlər açdığını diqqətə çatdırıb.

Tədbirin sonunda yüksək bal toplayan tələbələrə və onların valideynlərinə söz verilib. Professor Habil Qurbanov bir baba kimi nəvəsinin Dövlət İdarəçilik Akademiyasına qəbul olunmasının onun üçün böyük qürur və sevinc mənbəyi olduğunu bildirib. 692,5 balla respublika üzrə Azərbaycan bölməsi üzrə ən yüksək nəticə göstərmiş Gülay Mürvətli və İqtisadiyyat ixtisası üzrə təhsil alacaq Ramal Məmmədov Dövlət İdarəçilik Akademiyasında təhsil almanın onların arzusu olduğunu qeyd edərək bütün yeni tələbələri təbrik ediblər.

Rəsmi hissədən sonra birinci kurs tələbələri Akademiyanın rektoru, akademik Urxan Ələkbərovun "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: suverenliyə aparan yol" adlı mühazirəsini dinləyiblər.

Qeyd edək ki, 2025-2026-cı tədris ilində Dövlət İdarəçilik Akademiyasına qəbul olunanların əksəriyyəti yüksək bal toplayıb. Ümumilikdə 395 bakalavr və 165 magistr tələbə bu il təhsil alacaq ki, bu da qəbul planının tam dolduğunu göstərir.

### *Dövlət İdarəçilik Akademiyasında Dövlət Suverenliyi Gününə həsr olunmuş tədbir*

18 sentyabr 2025-ci il tarixində Dövlət İdarəçilik Akademiyasının (DİA) "Heydər Əliyev Mərkəzi"ndə Dövlət Suverenliyi Gününə həsr olunmuş tədbir keçirildi.

Tədbiri giriş nitqi ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycanın son 30 ildə keçdiyi inkişaf yoluna nəzər salaraq qeyd etdi ki, bu dövr ərzində ölkəmiz mühüm siyasi, iqtisadi və hərbi uğurlar əldə edib. Rektor bildirdi ki, müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla, Ermənistanın hərbi təcavüzü və xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə



üzləşmişdi. Xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın parçalanmaq təhlükəsindən xilas olmasına səbəb oldu.

Urxan Ələkbərov çıxışında həmçinin 2020-ci ilin 44 günlük Vətən müharibəsinin, eləcə də 2023-cü ilin sentyabrında keçirilmiş lokal antiterror tədbirlərinin əhəmiyyətindən danışdı. O bildirdi ki, bu tarixi Qələbələr ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və uzaqgörən dövlət idarəetməsi strategiyasının məntiqi nəticəsidir. Rektor qeyd etdi ki, bu strategiyanın əsasını güclü ordu quruculuğu, milli həmrəyliyin möhkəmləndirilməsi və beynəlxalq müstəvidə prinsipial mövqe təşkil edib.

Akademik vurğuladı ki, məhz bu uğurların nəticəsi olaraq, Prezident İlham Əliyev 2024-cü il 19 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Bu sərəncama əsasən, hər il 20 sentyabr ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

Tədbirdə daha sonra çıxış edən Milli Məclisin deputatı, professor Elman Nəsirov, DİA-nın Tarix kafedrasının professoru Havva Məmmədova, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professoru və "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri Elçin Əhmədov 44 günlük Vətən müharibəsinə aparan tarixi-siyasi prosesləri, 2023-cü ilin sentyabrında keçirilmiş lokal antiterror tədbirlərinin hüquqi əsaslarını və beynəlxalq kontekstdə yaratdığı reallıqları ətraflı təhlil etdilər.

Professor Elman Nəsirov bildirdi ki, Azərbaycan 1990-cı illərin əvvəllərində zəif və zəbt olunmuş bir dövlət statusundan bu gün regionun əsas siyasi və hərbi güc mərkəzinə çevrilib. O, ölkənin siyasi liderliyinin qətiyyətli addımlar ataraq suverenlik və ərazi bütövlüyü prinsipini dəqiq və ardıcıl şəkildə həyata keçirdiyini qeyd etdi.

Professor Havva Məmmədova isə Azərbaycanın dövlətçilik tarixində müstəqilliyin bərpasının və qorunmasının ciddi sınaqlardan keçdiyini vurğuladı. O, 2020-ci ildəki Zəfərimizə qədər olan dövrü təhlil edərək, bu uğurların yalnız hərbi sahədə deyil, həm də diplomatik və ideoloji sahədə də aparılmış uzunmüddətli mübarizənin nəticəsi olduğunu diqqətə çatdırdı.

Professor Elçin Əhmədov isə 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal antiterror tədbirlərinin beynəlxalq hüquqa tam uyğun şəkildə həyata keçirildiyini vurğuladı. O bildirdi ki, bu tədbirlər nəticəsində qondarma rejim özünü buraxdı, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan bütün əraziləri üzərində suverenlik tam təmin olundu və dövlətin nəzarət funksiyası tam bərpa edildi.

Tədbir iştirakçıları yekdilliklə vurğuladılar ki, 20 sentyabrın Dövlət Suverenliyi Günü kimi qeyd olunması təkcə tarixi qələbəmizin rəsmiləşdirilməsi deyil, həm də gələcək nəsillərə milli ruhun, dövlətçilik ənənələrinin aşılanması baxımından böyük əhəmiyyət daşıyır.

### *Dövlət İdarəçilik Akademiyasında icra hakimiyyəti orqanlarının "Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması" və "İctimai-siyasi və humanitar məsələlər" şöbələrinin rəhbərləri üçün nəzərdə tutulmuş təlim proqramının açılışı*

23 sentyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında icra hakimiyyəti orqanlarının "Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması" və "İctimai-siyasi və humanitar məsələlər" şöbələrinin rəhbərləri üçün nəzərdə tutulmuş təlim proqramının açılışı baş tutmuşdur.

Təlim, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 dekabr 2014-cü il tarixli 387 nömrəli Fərmanı və həmin sənədə edilmiş 15 may 2025-ci il tarixli 394 nömrəli Fərmanla təsdiq olunmuş dəyişikliklərə əsasən təşkil edilmişdir. Proqram "Dövlət idarəçiliyində inkişaf göstəriciləri və onların ölçülməsi" mövzusuna həsr edilmişdir.



Təlimin ilk günündə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış edərək dövlət idarəçiliyində nəticəyönümlü fəaliyyətin təşviq olunmasının, strateji planlaşdırma və idarəetmə indikatorlarının tətbiqinin əhəmiyyətini vurğulamışdır. Akademik Urxan Ələkbərov həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən idarəçilik islahatları, şəffaflıq və səmərəliliyə əsaslanan yeni idarəetmə modelinin mahiyyəti barədə iştirakçılara geniş məlumat vermişdir.

Dörd moduldan ibarət olan bu təlim proqramı iqtisadi, humanitar, sosial və korporativ idarəetmə sahələrini əhatə edir. Təlimin keçirilməsində əsas məqsəd yerli icra hakimiyyəti orqanlarında rəhbər vəzifə tutan kadrların müasir dövlət idarəçiliyi sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən inkişaf göstəricilərinin formalaşdırılması və onların effektiv ölçülməsi sahəsində praktiki vərdişlərin aşılanmasıdır.

Ümumilikdə həftədə iki dəfə keçirilən 48 saatlıq təlim proqramının 2025-ci il sentyabrın 23-dən dekabrın 11-dək hibrid formada – həm əyani, həm də onlayn rejimdə keçirilməsi nəzərdə tutulmuşdur.

### *Dövlət İdarəçilik Akademiyası və Pamukkale Universiteti arasında əməkdaşlıq memorandumu imzalanmışdır*

25 sentyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) ilə Türkiyə Respublikasının Pamukkale Universiteti arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Sənəd iki ali təhsil müəssisəsi arasında qarşılıqlı əməkdaşlığın qurulmasını, tədris və elmi-tədqiqat sahəsində birgə fəaliyyətlərin həyata keçirilməsini nəzərdə tutur. Razılaşmaya əsasən, tərəflər birgə beynəlxalq elmi layihələr həyata keçirəcək, müxtəlif mövzularda konfrans və forumlar təşkil edəcək, tələbə və müəllim mübadiləsi aparacaq, həmçinin hər iki universitetin elmi kitabxana resurslarından ortaq istifadə imkanları əldə edəcəklər.



Memorandumu DİA-nın rektoru, akademik Urxan Ələkbərov və Pamukkale Universitetinin rektoru professor Mahmud Güngör imzalayıblar.

Çıxışı zamanı akademik Urxan Ələkbərov son onilliklərdəki qardaş Türkiyə Respublikasının hərtərəfli inkişafını xüsusi vurğulayaraq, Azərbaycan və Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə nümunəvi əməkdaşlıq formalaşdırdığını qeyd edib. O, bu əməkdaşlığın elm və təhsil sahəsində də dərinləşdirilməsinin strateji zərurət olduğunu bildirərək, imzalanmış memorandumun iki ölkənin ali təhsil müəssisələri arasında əlaqələrin daha da genişlənməsinə mühüm töhfə verəcəyinə əmin olduğunu bildirib.



Tədbirdə çıxış edən Pamukkale Universitetinin nümayəndələri isə DİA ilə əməkdaşlığı yüksək dəyərləndirərək, imzalanan memorandumun iki qardaş ölkənin təhsil və elm sahəsində əlaqələrinin inkişafına mühüm töhfə verəcəyini bildiriblər.

***Dövlət İdarəçilik Akademiyasında 27 sentyabr – Anım Günü ilə əlaqədar təsdiq olunmuş iş planına uyğun olaraq silsilə tədbirlər təşkil olunmuşdur***

24 sentyabr tarixində böyük akt zalında Anım Gününə həsr olunmuş elmi-praktiki konfrans keçirilib. Konfrans dövlət himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tədbiri giriş sözü ilə açaraq iştirakçıları salamlayıb. O, 27 sentyabrın Azərbaycan tarixində xüsusi əhəmiyyət daşıdığını, bu günün xalqımızın







milli qürur və həmrəylik günü kimi yaddaşlara həkk olunduğunu vurğulayıb. Akademik qeyd edib ki, Vətən müharibəsində şəhid olan qəhrəmanların xatirəsi daim qəlblərdə yaşayacaq və onların göstərdiyi şücaət gələcək nəsillər üçün örnək olacaq. Urxan Ələkbərov bildirib ki, bu böyük tarixi Qələbə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə inkişaf etdirilən daxili və xarici siyasətin məntiqi nəticəsidir. Rektor Azərbaycanın son illərdə əldə etdiyi iqtisadi, siyasi və hərbi nailiyyətlərdən bəhs edərək, Ulu Öndərin müəyyən etdiyi və Prezident İlham Əliyevin müasir tələblərə uyğun zənginləşdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının bu uğurlarda həlledici rol oynadığını qeyd edib. Onun sözlərinə görə, məhz bu inkişaf xətti 44 günlük Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbəni təmin edən əsas amillərdən biri olub.

Milli Məclisin deputatı Aydın Mirzəzadə çıxışında Vətən müharibəsinin tarixi əhəmiyyətindən danışıb. O qeyd edib ki, 44 günlük müharibə Azərbaycan xalqının birliyi, dövlətimizin siyasi və hərbi gücünün təntənəsi oldu. Millət vəkili şəhidlərin qəhrəmanlığının dövlətçilik ənənələrimizin qorunmasında və milli həmrəyliyin möhkəmlənməsində misilsiz rol oynadığını vurğulayıb.

Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova isə çıxışında 27 Sentyabrın təkcə bir anım günü deyil, həm də Azərbaycan tarixində dönüş nöqtəsi olduğunu diqqətə çatdırıb. O bildirib ki, 2020-ci ildə başlanan Vətən müharibəsi ölkəmizin ərazi bütövlüyünü bərpa etməklə yanaşı, xalqımızın mənəvi-psixoloji qələbəsinə çevrildi. F.Əhmədova şəhidlərin həyat yolunun, onların göstərdikləri qəhrəmanlığın gənc nəslə daha dərindən təbliğ edilməsinin vacibliyini qeyd edib.

Bundan başqa, Anım günü ilə əlaqədar Dövlət İdarəçilik Akademiyasında kitab sərgisi baş tutmuşdur. Akademiyanın kitabxanasında təşkil olunmuş kitab sərgisində Vətən müharibəsinə, şəhidlərin qəhrəmanlıq yoluna və Azərbaycanın tarixi qələbəsinə həsr olunmuş nəşrlər nümayiş etdirilib. Sərgidə həm yerli, həm də xarici müəlliflərin əsərləri iştirakçılara təqdim olunub.

Tədbirlər silsiləsinin davamı olaraq Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə gənclər arasında konfrans da keçirilib. Gənc tədqiqatçılar öz məruzələrində Vətən müharibəsinin siyasi, hüquqi, sosial və hərbi aspektlərinə toxunaraq, şəhidlərin şərəfli həyat yolunun gənc nəslin milli kimlik və vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını xüsusi vurğulayıblar.

### *DİA-nın professoru Türk Dünyası Beynəlxalq Elmlər Akademiyasının təltifinə layiq görülüb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru professor İsaxan Vəliyev Türk Dünyası Beynəlxalq Elmlər Akademiyasının Ümumi yığıncağının qərarı ilə qurumun həqiqi üzvü – akademiki seçilib. O, eyni zamanda, türk dünyasında hüquq elmi və təhsilinə göstərdiyi xidmətlərinə görə “Qızıl Ulduz” medalı ilə təltif edilib.

### *“Dövlət qulluğuna dair qanunvericilik və onun tətbiqi” mövzusunda təlim*

Dövlət İdarəçilik Akademiyasında “ASAN xidmət” mərkəzlərinin əməkdaşları üçün “Dövlət qulluğuna dair qanunvericilik və onun tətbiqi” mövzusunda təlim keçirilib.

Təlimdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim Nağıyev Fəxrəddin Tağı oğlu mühazirə ilə çıxış edərək dövlət qulluğunun qanunvericilik bazası, tətbiq sahələri və dövlət idarəçiliyində onun rolu barədə geniş məlumat verib.

Tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan edilməsi ilə bağlı keçirilən tədbirlər çərçivəsində təşkil olunub. Təlim zamanı dövlət idarəçiliyində şəffaflıq, səmərəlilik və vətəndaş məmnunluğuna əsaslanan innovativ yanaşmalar vurğulanıb, qanunvericiliyin tətbiqi ilə bağlı təcrübə və perspektivlər müzakirə edilib.

Təlim iştirakçıları Azərbaycan dövlət idarəçiliyi sistemində aparılan islahatların və qanunvericilik yeniliklərinin tətbiqinin vacibliyini yüksək qiymətləndirib və bu sahədə biliklərin artırılmasının əhəmiyyətini qeyd ediblər.

Azərbaycan Respublikasının dövlət qulluğuna dair qanunvericiliyin inkişafı və onun effektiv tətbiqi məqsədilə keçirilən belə təlimlər dövlət idarəçiliyinin təkmilləşdirilməsi və vətəndaşlarla münasibətlərin daha da gücləndirilməsinə töhfə verir.

### *İnteraktiv tədris metodlarının inkişafına dair keçirilmiş təlimlərdə əldə olunmuş biliklərin möhkəmləndirilməsi məqsədilə təlim sessiyası*

Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrası Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi ilə birgə müəllimlər üçün interaktiv tədris metodlarının inkişafına dair keçirilmiş təlimlərdə əldə olunmuş biliklərin möhkəmləndirilməsi məqsədilə təlim sessiyası təşkil etmişdir.

Sessiyanın əsas məqsədi Dillər kafedrasının müəllimlərinin Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin təşkil etdiyi təlimlərdə qazandıqları bilik və təcrübəni bölüşmək, həmin metodların bütün müəllimlər arasında tətbiqini təşviq etmək olmuşdur. Bu birgə təşəbbüs interaktiv yanaşmaların tədris prosesinə daha geniş şəkildə inteqrasiyasına xidmət edir.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**............7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................17

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**........................................23

Ağdam və Xankəndiyə səfər .......................................................................................23

Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfər .............................................................33

Füzuli, Şuşa, Ağdam və Xocalıya səfər ...................................................................34

Amerika Birləşmiş Ştatlarına işgüzar səfər...............................................................56

Gəncə, Kəlbəcər və Ağdərəyə səfər .........................................................................67

Türkmənistana işgüzar səfər .......................................................................................80

Çin Xalq Respublikasına işgüzar səfər ....................................................................86

Xocalı, Xocavənd və Xankəndiyə səfər ...................................................................90

Amerika Birləşmiş Ştatlarına işgüzar səfər.............................................................100

Yevlax və Gəncəyə səfər..........................................................................................105

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**..........................................................................................109

BMT Baş Assambleyasının 80-ci sessiyasında İlham Əliyevin çıxışı ....................109

"Əl-Ərəbiyyə" telekanalına müsahibə......................................................................111

Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə ..............................120

## SİYASƏT

**Лу Мэй.** Пятилетняя программа — ключ к успеху «китайского управления» ...................125
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.003

## DAVAMLI İNKİŞAF SİYASƏTİ

**Elman Nəsirov.** Azərbaycanın “yaşıl enerji” siyasətində COP29 mərhələsi ............................131
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.007

**Məzahir Əfəndiyev.** Süni intellekt və dayanıqlı inkişaf məqsədləri: qlobal perspektivlər və Azərbaycan təcrübəsi .......................................................................................................141
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.013

**Nuridə Mustafayeva.** Azərbaycan Respublikasında insan potensialının inkişafında peşə təhsilinin rolu .......................................................................................................149
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.018

**Ülfət Mehdiyev.** İqtisadi inkişaf strategiyalarında insan potensialının təkrar istehsalı: müqayisəli təhlil .......................................................................................................161
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.024

## SİYASİ NƏZƏRİYYƏ

**Sevil Məmmədova.** Siyasətdə şəbəkə yanaşması siyasi tədqiqatlarda metodologiya kimi .......169
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.028

**Ülviyyə Haqverdi.** Demoqrafik siyasət anlayışının etimologiyası, inkişafı və konseptual təhlili .......................................................................................................181
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.032

## HÜQUQ

**Seyfulla Aslanov.** Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin hüquqi tənzimlənməsi ..193
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.038

## TARİX

**Тофик Наджафли.** Сефевидско-османско-московское соперничество за Кавказ (последняя четверть XVI - начало XVII века) .........................................................207
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.042

## RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR

**Atiq Əliyev, Həsən Nəsirli.** Döyüş və sərhəd müqaviləsi modellərinin iyerarxiyası ...............227
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.047

## İQTİSADİYYAT

**Elşan Əhmədov.** Su resurslarının idarə edilməsinin hüquqi-iqtisadi mexanizmləri .................237
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.051

## TƏDRİSİN İNNOVATİV METODLARI

**Anar Şükürov, Ayxan Xubanov.** Müasir təhsil prosesində innovativ yanaşmalar ..................249
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.056

# G Ə N C T Ə D Q İ Q A T Ç I L A R

## HÜQUQ

**Nəzrin Nağıyeva.** Azərbaycan Respublikasının Konstitusiyasına düzəlişlər edilməsi qaydasının xarakterik xüsusiyyətləri..............................................................................................259
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.058

## TARİX

**Эркин Садыхзаде.** Огнестрельное оружие в армии Азербайджанского государства Сефевидов: пушки ..............................................................................................................271
DOI: https://doi.org/10.30546/2309-1347.91.2025.068

**Dövlət İdarəçilik Akademiyasında** ...........................................................................283

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,0 (bir) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,0 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal’s editorial board after the opinion of peer reviewers.

## Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (одинарный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

// Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2025, №3(91)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*siyasi elmlər üzrə fəlsəfə doktoru Ü.Mustafayev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi " İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur
Sifariş 1. Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2025, №3(91)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*U.Mustafayev, Ph.D. in political sciences*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*( The Academy of Public Administration under the President of the Republic of Azerbaijan)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD»**
Order 1. Number of copies printed modern stage are considered.